AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

FƏXRƏDDİN YUSİFOV

# ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI

Azərbaycan Respublikası Təhsil Nazirinin 23.05.2012-ci il 922 saylı əmri ilə dərslik kimi təsdiq edilmişdir.

Bakı – 2017

Elmi redaktoru: professor Zahid Xəlil

Rəyçilər: dos. Yusif Aslanov
dos. Tariyel Məmmədov
dos. Pəri Paşayeva
dos. Roza Ağayeva

dos. Fəxrəddin Allahverdi oğlu Yusifov,
Ədəbiyyatın tədrisi metodikası, ali məktəblərin filologiya fakültəsi bakalavriat təhsil səviyyəsi tələbələri üçün dərslik, Bakı 2017, 304 səh.

Dərslik bakalavriat təhsil səviyyəsi üzrə ədəbiyyat tədrisi metodikası proqramı əsasında hazırlanmışdır. Burada ədəbiyyat tədrisi metodikası fənninin mühüm bölmələri əhatə olunmuş, fəal(interaktiv) təlimin ədəbiyyat dərslərinə tətbiqi imkanlarına geniş yer ayrılmış, milli və fənn kurikulumlarına dair ədəbiyyat müəllimlərinə gərəkli olan biləcək məlumatlar verilmişdir.

Hazırkı dərslik ixtisas fakültəsinin tələbələri, magistrlər, tədqiqatçılar və orta ümumtəhsil məktəblərinin dil-ədəbiyyat müəllimləri üçün nəzərdə tutulmuşdur.

Öz rəy və təkliflərini bildirəcək həmkarlarımıza bəri başdan təşəkkürümüzü bildiririk.

- *Müəllim elə bir şəxsiyyətdir ki, o hansı şəraitdə olur-olsun, birinci növbədə, şərəfli müəllim adını yüksək saxlamalıdır...*
- *Bizim həyatımızda müəllimlik ən hörmətli peşədir. Müəllim cəmiyyətimizdə görkəmli yer tutur. Müəllimə hamı hörmət edir və hörmət etməlidir. Çünki sizi də və keçmişdə bizi də həyata hazırlayan, böyüdən və bu günlərə çıxaran müəllimlər olubdur. Mən öz müəllimlərimə daim minnətdar olmuşam, bu gün də minnətdaram...*
- *Azərbaycan müəlliminin bir məqsədi, bir amalı olmalıdır: Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək...*
- *Orta məktəbdə, ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır.*

***Heydər ƏLİYEV***



***Vətənimizin Mübariz İbrahimov kimi şəhidlərinin əziz xatirəsinə ehtiramla***







Atama və anama məktub.

Canım atam və anam məndən sarı darıxmayın inşallah. Cənnətdə görüşərəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim səriniq tapır. İnşallah şəhid olana kimi bu şərəfsizlərin ~~üstünə~~ gedəcəm. Şəhid olsam ağlamayın əksinə sevinin ki o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Gizli sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdü, Vətən sağ olsun. Oğlunuz Mübariz.

Haqqınızı halal edin. İbrahimov Mübariz



# GİRİŞ

Ədəbiyyatın tədrisi metodikası fənni pedaqoji universitetin filologiya fakültəsi tələbələrinin peşə hazırlığı işində – ilkin müəllim hazırlığında müstəsna rolu olan fənlər sırasındadır. Təsadüfi deyildir ki, bakalavr tədris planında ona xeyli vaxt ayrılmışdır. Boloniya prosesinə qoşulma, kredit sisteminin tətbiqi, Avropa təhsil məkanına inteqrasiya bu fənnin mövqeyini daha da artırmışdır. Həm müstəqil kurs, həm də onun ayrı-ayrı problemlərinin seçmə fənn qismində tədris olunması dediklərimizə əyani sübutdur.

Məlum həqiqətdir ki, ali məktəblərimizdə bu fənnin öyrədilməsi sahəsində bu günə qədər bir sıra mühüm işlər görülmüşdür. Vaxtilə – ötən əsrin 60-cı illərində işıq üzü görən Ə. Qarabağlının "Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (Bakı 1968) və "Orta məktəbdə ədəbiyyat tədrisi"(I və II hissə, ADETPEİ-nin kollektiv nəşri, Bakı 1968, 1976-cı illər) bu sahədəki boşluğu doldurmağa layiqincə kömək etmişdir. Elə həmin dövrdən başlayaraq metodika sahəsində sanballı araşdırmalar meydana çıxmış və bu sahədə xeyli tədqiqatlar aparılmışdır. Bu işdə zəhməti olan, qələm çalan görkəmli metodist alimlərimizdən C. Əhmədov, Ş. Mikayılov, B. Muradov, D. Məmmədov, M. Aslanov, T. Rzayev, A. Babayev və b. adlarını xüsusilə qeyd etmək istərdik.

Metodika sahəsində axtarışlarımız nə qədər zəngin olsa da, o, sovet dövrünün ideoloji çərçivələrindən yaxa qurtara bilməmişdir. Biz bunu təbii bir hal kimi də qəbul edirik. Amma zaman dəyişmiş, Azərbaycan öz müstəqilliyini bəyan etmiş və artıq istiqlaliyyət yolunda inamla irəliləməkdədir. Yeni yaranan gənc respublikanın öz müstəqil təhsil siyasətini yeritməsi, bu sahədə müəyyən islahatlar aparması artıq bir faktdır. Bu günlərdə Təhsil haqqında Azərbaycan Respublikasının Qanununun, Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası(Milli kurikulumu)(AR Nazirlər Kabinetinin 30

oktyabr 2006-cı il tarixli, 233 nömrəli qərarı ilə təsdiq edilmişdir), " Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası" (AR Nazirlər Kabinetinin 102 nömrəli qərarı, 25 iyun 2007-ci il) və "Ümumi təhsilin dövlət standartı və proqramları (kurikulumları)"(Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı) sənədlərinin qəbulu dediklərimizə bir sübut kimi qəbul oluna bilər. Belə bir şərait ədəbiyyatın tədrisi metodikası sahəsində də müəyyən addımların atılması zəruri edir. Pedaqoji mətbuatda gedən yazılar, son illərdə çap olunan vəsaitlər dediklərimizə əyani sübutdur. Hazırkı dərslik də həmin təşəbbüslərdən biridir.

Dərsliyin əvvəlində təlim prosesinin əsas elementlərinə münasibət bildirilmişdir. Burada təlimin məqsədi, bilik, bacarıq və vərdişlər anlayışlarının açıqlanması, öyrənmə prosesinin komponentləri, təlimin məzmununa dair sənədlər və onların tərtibinə verilən tələblər, eləcə də ədəbiyyat tədrisinin qarşısına qoyulan vəzifələrə diqqət yetirilmişdir.

Təlim prosesinin məğzində dayanan belə anlayışlara aydınlıq gətirilməsi, təhsil islahatın məğzində dayanan əsas prinsiplərlə tələbələrimizin tanış edilməsi də zəruri hesab edilmişdir. Nəzərdə tutulmuşdur ki, bu işlər tamamlandıqdan sonra ƏTM kursuna, onun bölmələrində əks olunan məlumatlara daxil olunsa, daha yaxşı olar.

ƏTM fənni orta məktəbdə ədəbiyyatın öyrədilməsi sirləri ilə tələbələri tanış etdiyindən burada bir sıra vacib bölmələr əhatə olunur. Əvvəlcə, ƏTM-in predmeti və nəzəri əsaslarına münasibət bildirilir, sonra isə onun keçdiyi yola(ədəbiyyatın öyrənilməsi yoluna) nəzər salınır. Təbiidir ki, müxtəlif dövrlərdə ədəbiyyatın öyrənilməsi vəziyyətinə və tarixi təcrübəyə dərindən bələd olmadan, ədəbiyyatın öyrənilməsi işində heç bir uğur qazanmaq olmaz. Məlumdur ki, tarix, keçilən yol bir aynadır. Biz ona baxmasaq, qazancımızı və itkilərimizi, nailiyyətləri və buraxılan qüsurlarımızı düzgün təhlil edə bilmərik.



Dərsliyin digər bölmələri məktəbdə ədəbiyyat tədrisinin nəzəri və praktik məsələlərinin açıqlanmasına həsr olunmuşdur. Burada fəal(interaktiv) təlim texnologiyasına da mühüm yer ayrılmışdır. İnanırıq ki, vəsaitdə əksini tapan məsələlər müəllimlərimizi düşündürən bir çox suallara cavab olacaqdır.

# ӘTM-İN PREDMETİ VӘ NӘZӘRİ ӘSASLARI

Әdәbiyyatın tәdrisi metodikası orta mәktәbdә әdәbiyyat fәnninin tәdrisi xüsusiyyәtlәrindәn bәhs edir, onun öyrәdilmәsinin sәmәrәli yollarını araşdırır, qabaqcıl tәcrübәni öyrәnir, ümumilәşdirir, elmi-metodik nailiyyәtlәrlә müәllimlәri silahlandırır vә tәlәbәlәrin peşә ustalığına yiyәlәnmәsi işinә yaxından kömәklik göstәrir. ӘTM-i öyrәnmәdәn

- Әdәbiyyat tәdrisinin mәqsәd vә vәzifәlәrini, tәdrisi tarixini;
- Әdәbiyyat fәnninin mәzmununu vә strukturunu;
- Orta mәktәbin әdәbiyyatdan proqram materiallarının (әdәbi әsәrlәrin, әdәbiyyat nәzәriyyәsinin, icmal materiallarının, sәnәtkarların hәyatı vә yaradıcılığına dair mәlumatların, nitq inkişafı işlәrinin) tәlim-tәrbiyәvi әhәmiyyәtini vә tәdrisi yollarını;
- Әdәbiyyatdan sinifdәnxaric vә mәktәbdәnkәnar işlәrin mәzmunu vә tәşkili yollarını;
- Әyani vә texniki vasitәlәrin, internet resurslarının dәrslәrә gәtirilmә qaydalarını;
- Әdәbiyyat üzrә fәndaxili vә fәnlәrarası inteqrasiya mәsәlәlәrinә necә nail olmağı vә s. mәsәlәlәri

bilmәk mümkün deyildir.

Әdәbiyyatın mәktәblәrdә öyrәdilmәsi ilә bağlı nә kimi mәsәlәlәr varsa, onların hamısı **ӘTM-in predmetini** yaradır. Әdәbiyyatdan proqram, dәrsliklәr, tәdris prosesinin sәmәrәli tәşkili, müasir tәlim texnologiyalarının, internet resurslarının tәdris prosesinә gәtirilmәsi imkanları, әdәbiyyat müәlliminin ünsiyyәt, idarәetmә vә tәşkilatçılıq bacarıqları, tәdris prosesindә "yaddaş" texnologiyasından "düşüncә" texnologiyasına keçid imkanları, müәllimin "bilik ötürәn" funksiyasından imtina etmәsi, dәstәkverici, istiqamәtverici (fasilitasiya) bacarığına yiyәlәnmәsi, tәdris prosesindә şagirdin bilik vә bacarıqlara yiyәlәnmәk işindә düşüncәsinin işә salınması, onun mәntiqi,



tәnqidi vә yaradıcı tәfәkkürünün inkişaf etdirilmәsi, müәllimin tәlim prosesindә demokratik rolu, nüfuzu, sәmimiyyәti, uşaqlara qayğısı vә tәlәbkarlığı, qabaqcıl iş tәcrübәsinә yiyәlәnmәsi vә s. mәsәlәlәr dә bu fәnnin әn ümdә problemlәrindәn biri kimi tәdqiq olunur.

Bu kursun başlıca amallarından biri dә tәlәbә şәxsiyyәtindәn müәllim şәxsiyyәtinә keçidi uğurla hәyata keçirmәkdir. Hәr bir gәnc әdәbiyyat müәllimi zәngin müәllim şәxsiyyәtinin, düşüncәsinin, mәsuliyyәtinin, sәbrinin, mәnәvi alәminin, әxlaq vә davranışının nәdәn ibarәt olduğunu bu kursun sayәsindә öyrәnib müәyyәn bilik vә bacarıqlara sahib olurlar.

Göründüyü kimi, ӘTM öz üzәrinә ciddi vә mәsuliyyәtli bir yükü götürmüş olur. Hәmin işlәrin uğurlu hәlli isә tәkcә onun sırf özünә qapanması şәraitindә mümkün ola bilmәz. ӘTM bunun üçün digәr elm sahәlәrinin nailiyyәtlәrinә söykәnir, onlardan istifadә etmәklә özünün tәdqiqat obyektini, tәdqiqat üsullarını yaradır, fәnnin şöbәlәrini müәyyәn edir, onların mәzmunu vә strukturunu dәqiqlәşdirir. Demәli, ӘTM digәr fәnlәrlә - elm sahәlәri ilә sıx әlaqә nәticәsindә özünün elmi-nәzәri vә tәdris-metodik bazasını yaradır vә qarşısında duran vәzifәlәri uğurla hәyata keçirir.

ӘTM-in әmәkdaşlıq etdiyi hәmin **elm sahәlәri** aşağıdakılardır:

- Әdәbiyyatşünaslıq;
- Pedaqogika;
- Psixologiya;
- Fәlsәfә;
- Azәrbaycan dili;
- Nitq mәdәniyyәti
- İnformatika vә s.

Bu fәnlәrin hәr biri ӘTM-in bir elm kimi formalaşmasında yaxından iştirak edir. Gәlin onların ӘTM-ә nәlәri verdiyinә diqqәt yetirәk.

*Ədəbiyyatşünaslıq* elmi ədəbiyyatın bütün tərəflərini – ədəbiyyat tarixini, ədəbiyyat nəzəriyyəsi və ədəbi tənqidi əhatə edir. Onun bu sahələrdə əldə etdiyi nailiyyətlər məktəbə, ədəbiyyat proqramına gətirilir. Əgər bu sahələrlə bağlı metodistdə müəyyən təsəvvürlər olmazsa, onun tədrisinin səmərəli təşkili yollarından danışmağına da dəymir.

Məlum məsələdir ki, orta məktəbdə bütün sənətkarlarımızın həyat və yaradıcılığı , bədii irsi əhatə olunmur. Buna həm imkan yoxdur, həm də bu irs bizim üçün nə qədər qiymətli olsa və onların hamısını öyrətmək istəsək də, şagirdlərin yaş xüsusiyyətlərini, qavrama imkanlarını əldə rəhbər tutmalıyıq. Təbiidir ki, birbaşa onların təlim-tərbiyəsinə xidmət göstərən, forma, məzmun və sənətkarlıq baxımından lazımi tələbləri ödəyən əsərlər proqrama gətirilməlidir. Deməli, ədəbiyyat proqramı tərtib olunarkən metodistlər tərəfindən ədəbiyyatşünaslıq nailiyyətləri nəzərdən keçirilir və digər elmi-pedaqoji tələblər gözlənilməklə proqram materialları tərtib olunur.

*Pedaqogikanın* təlim və tərbiyə nəzəriyyəsi də ƏTM-in bir elm kimi formalaşmasında, nəzəri bazasının yaradılmasında mühüm rol oynayır. Pedaqogikanın "Didaktika" bölməsi təlim prosesinin ən vacib cəhətlərini araşdırır, onun təşkili forması və yollarına, təlim metodlarına, təlim prinsiplərinə və s. dair elmi-pedaqoji nailiyyətləri əks etdirir. O, metodikanın özünəməxsus təlim üsullarının yaranmasına, ədəbiyyat dərslərinin təşkil olunmasına və onun öz təlim prinsiplərinin formalaşmasına yaxından kömək edir. Metodika ümumpedaqoji nəzəri və praktik məsələləri bilməklə, o nailiyyətləri izləməklə ədəbiyyat müəllimlərində təlim-tərbiyə prosesinin səmərəli qurulmasına dair mükəmməl elmi-metodik baza yaradır. Pedaqoji nailiyyətləri diqqətlə izləyən metodika alınan qənaətlərini ümumiləşdirir və fənn müəllimlərinin ixtiyarına verir. Pedaqoji prosesin təşkili və idarə olunması barədə pedaqogikanın irəli sürdüyü müddəalar metodikaya imkan verir ki, bu ondan



yaradıcı surətdə bəhrələnsin və ədəbiyyat tədrisinin özəl xüsusiyyətini nəzərə almaqla öz konsepsiyasını irəli sürsün.

Məlumdur ki, *fəlsəfə* təbiət, cəmiyyət və insan təfəkkürünün ən ümumi qanunlarını araşdırır. Ədəbiyyat təlimi bu müddəalarsız öz işini qura bilməz. Əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar, kəmiyyət dəyişmələrinin keyfiyyətə və əksinə keyfiyyətin kəmiyyətə keçməsi qanunları ədəbi nailiyyətlərin izah olunmasında geniş imkanlar açır. Fəlsəfənin idrak nəzəriyyəsi dərketmənin məzmunu və mahiyyəti barədə ciddi açıqlamalar, qanunauyğunluqlar verir. Dünyanın necə dərk olunması prinsipi, dərketmə və təfəkkür prosesinin mərhələləri ƏTM üçün olduqca gərəklidir. Fəlsəfənin bu sahədəki məlum müddəası – canlı seyrdən mücərrəd təfəkkürə, oradan da praktikaya biliklərin necə qavranılması mexanizmini aydın şəkildə ifadə edir. Hadisələrin baş verməsi səbəbləri və onun nəticələri mahiyyətə enməyə imkan yaratdığından bu sahədə irəli sürülən müddəalar ədəbiyyat tədrisində tez-tez müraciət olunan məsələlərdən biridir.

*Psixologiya* fənninin nailiyyətləri də ƏTM-in bir elm kimi formalaşmasında yaxından iştirak edir. Deməli, ƏTM-in bir istiqaməti şagirdlə – insanla bağlı olan məsələlərdir. Psixologiyanın xarakter, temperament, iradə, fərd və şəxsiyyət kimi anlayışları, şəxsiyyətin formalaşmasında müxtəlif amillərin rolu, hafizə, diqqət, qavrayış, təfəkkür, bilik, bacarıq və vərdişlər və s. barəsində irəli sürdüyü müddəalar ədəbiyyat müəllimləri üçün qiymətli məlumatlardır. İnsanın psixi keyfiyyətləri və yaş dövrünün psixoloji xüsusiyyətləri müəllim üçün aydın olduqdan sonra təlim materiallarının onlara necə çatdırılması, sinfin necə idarə olunması, şagirdlərdə təlim prosesinə marağın oyadılması və s. yolundakı bir sıra əngəllər aradan qalxmış olur. Onların dünyagörüşünün, əxlaqi və mənəvi tərbiyəsinin formalaşması qanunauyğunluqları öz yerini tutur.

Ana dilinin zənginliklərinə bələd olmaq, ondan məharətlə istifadə etmək, bu dil vasitəsi ilə yüksək təlim-tərbiyə göstəriciləri əldə etmək hər bir müəllimin arzusudur.

Müəllimin *nitq mədəniyyəti*, natiqlik keyfiyyəti, sözdən məqamında istifadə etmək bacarığı ədəbiyyat müəllimləri üçün olduqca vacib məsələlərdəndir. Ona görə ƏTM həm də nitq mədəniyyəti fənni ilə sıx əlaqə saxlayır.

İnformatika fənni də ƏTM-in yeni təlim texnologiyalarından, internet resurslarından istifadə bacarıqlarını ortaya qoyur. Bu günün ədəbiyyat müəllimini kompüterdən istifadə bacarıqlarına sahib olmalı, fərdi proqramlar yaratmaq istəyəndə, internet resursları yaradanda, təqdimatlar və tədqiqatlar aparanda bu fənnə dair biliklər onun köməyinə gəlir.

Öyrəndiyi sahələrə uyğun olaraq **ƏTM-in** bir sıra **şöbələri** vardır. Onlara

- ⇨ Ədəbiyyat tədrisinin tarixi
- ⇨ Ədəbiyyat fənninin məzmunu və strukturu
- ⇨ Ədəbiyyat dərslərinin planlaşdırılması və təşkili
- ⇨ Ədəbiyyat təliminin üsulları
- ⇨ Ədəbiyyatdan sinifdənxaric və məktəbdənkənar işlər
- ⇨ Ədəbiyyat dərslərində nitq inkişafı işləri
- ⇨ Ədəbiyyat dərslərində qiymətləndirmə

daxildir.

Bu şöbələr adlarına uyğun olan işin təşkili yollarını açır və onun necə həyata keçirilməsi barəsində müəllimləri silahlandırır. Məsələn, *ədəbiyyat tədrisinin tarixi şöbəsi* keçilən yolu araşdırır, bu barədə müəllimlərə müəyyən biliklər verir. Müxtəlif tarixi dövrlərdə ədəbiyyatın öyrədilməsi vəziyyəti, təşkili qaydası bu günün müəllimlərinə olduqca gərəklidir. Keçilən yola dərindən bələd olmadan gələcəyi qurmaq olmaz. ƏTM-in tədrisi tarixi də məhz belə bir məqsədlə müəllimlərə canlı tarix barədə məlumat verir və müxtəlif zamanlarda onun necə olmasına dair indiki oxucuda müəyyən təsəvvür yaradır.



*Ədəbiyyat fənninin məzmunu və strukturu* bölməsi fənnini məzmunu və proqram və dərsliklərdə necə yerləşdirilməsi barədə təsəvvür yaradır. Bu bölmə ədəbi təhsilin sistemi barədə məlumat verir. Müəllim öyrənir ki, ədəbiyyat iki pillədə öyrədilir: V-IX və X-XI siniflərdə. Birinci pillənin özü də iki yerə bölünür: V-VII və VIII-IX siniflərdə ədəbiyyatın öyrədilməsi. Həmin siniflərdə ədəbi təhsilin qarşısında duran vəzifələr nələrdən ibarətdir, bu təhsil necə həyata keçirilməlidir və b. məsələlər bu şöbədə geniş surətdə araşdırılır və müəllim üçün gərəkli məlumatlar verilir. Bunu nəzərdən keçirən müəllim ədəbiyyatın öyrədilməsi sistemi barədə tam təsəvvürə malik olur.

ƏTM-in digər şöbələri də adlarına uğun olaraq görüləcək işlər barədə müəllimlərə biliklər verir və adları çəkilən mövzularla bağlı işin necə təşkil olunması yollarına toxunur.

**Ədəbiyyat tədrisinin prinsipləri** və **tədqiqat üsulları** bu fənnin orta məktəbdə tədrisinin daha səmərəli qurulmasına imkan verir. Prinsiplər dedikdə qaydaları başa düşmək lazımdır. Əgər bu qaydalardan biri pozularsa, onda ədəbiyyat tədrisinin səmərəli qurulmasından söhbət gedə bilməz. Ədəbiyyat tədrisinin prinsiplərindən söhbət açanda müasir təlimin aşağıdakı prinsiplərinə bələd olmaq lazımdır:

1. *Şagirdə yönəlmiş təlim prinsipi*: şagird təlim prosesinin mərkəzi obyekti kimi çıxış etməlidir; təlim uşaqların imkan və qabiliyyətlərinə, onun biliyinə, maraq və tələbatlarına yönəlməlidir.
2. *Fəal təlim prinsipi*: tədris prosesi elə təşkil olunmalıdır ki, idrak fəallığını, təbii öyrənmə fəaliyyətini doğursun, şagirdə " ilk kəşf" sevinci keçirməyə imkan versin, onda yeni biliklərə yiyələnmək həvəsi yaratsın.
3. *İnkişafetdirici təlim prinsipi*: təlim inkişafı qabaqlamalı(L.S.Vıqotski), uşağın " qarşıdakı(yaxın) inkişaf zonasına" yönəlməlidir. Yəni təlim uşağın

özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində aşkarlanan bilik və bacarıqları əldə etmək potensial imkanlarına tuşlanmalıdır.

4. *" Qabaqlayıcı təlim" prinsipi*: təlim cəmiyyətin inkişaf təmayüllərini əks etdirməli və yeni nəsilləri yaxın gələcəkdə təşəkkül tapacaq dünyada fəaliyyətə hazırlamalıdır.
5. *Təlim-tərbiyə sisteminin çevikliyi prinsipi*: ictimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, təlim proqramlarının məzmununun, tədris planlarının qurulmasının, təlim-tərbiyə prosesinin təşkilinin, pedaqoji texnologiyaların seçilməsinin sistematik təzələnməsi baş verməlidir.
6. *Əməkdaşlıq prinsipi*: "müəllim-şagird-valideyn" qarşılıqlı münasibətləri sistemində onların hər biri təlim prosesi gedişində tərəf-müqabil kimi iştirak etməlidirlər.
7. *Dialoji təlim prinsipi*: məsələnin birgə həlli gedişində özünün və qrup üzvlərinin fikirlərini, imkanlarını və təcrübələrini müəyyən edə bilməsi və faydalanması məqsədi ilə hər bir şagirdin müzakirələrdə və qrupun işində iştirakı təmin edilməlidir.

Bu prinsiplərin yerinə yetirilməsi həyata fəal şəkildə qoşulmaq, dəyişən şəraitə uyğunlaşmağa qadir ola bilmək üçün şagirdlərdə zəruri bacarıqların formalaşdırılmasına şərait yaradır. Müəllim eyni zamanda tədris prosesinin təşkili prinsiplərini də bilməli və onun şərtlərinə əməl etməlidir. Bu prinsiplər əldə rəhbər tutulanda, onlar həyata keçəndə şagirdlərdə belə bir bacarıqlar formalaşmağa başlayır:

- ⇨ Biliklərə müstəqil yiyələnmək, yenilərini əldə edə bilmək
- ⇨ Bu bilikləri yaradıcı olaraq işləmək
- ⇨ Onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək



- ⇨ Öz yoldaşları ilə problemlərin həllində əməkdaşlıq etmək
- ⇨ Öz qabiliyyətlərinin gerçəkləşdirilməsi üçün yollar axtarmaq və s.[1]

ƏTM-in elm kimi sözü o zaman keçərli ola bilər ki, keçilmiş yolu, yerli və beynəlxalq təcrübəni, elmi-metodik nailiyyətləri diqqətlə araşdırsın, əldə olunmuş uğurları ümumiləşdirsin və müəllimlərə bu işdə həqiqi yardımçı olsun. Onları çətinlikləri aradan qaldırmaq üçün metodik biliklərlə silahlandırsın. Buradan da **ƏTM-in tədqiqat üsulları** adlı yeni bir məsələ meydana çıxır. Həmin üsullar qarşıda duran problemlərin səmərəli həlli yollarını araşdırır, bu barədə müəllimləri və maraqlı tərəfləri məlumatlandırır, nəzəriyyələr yaradır, onu sınaqdan çıxarır, eksperimentlər yolu ilə təsdiq edərək fənn müəllimlərinin ixtiyarına verir. Həmin tədqiqat aparılmasa, elm irəliləyə bilməz və belə elmin aqibəti puç olar.

Ədəbiyyat tədrisi metodikası elminin **tədqiqat üsulları:**

1. Elmi-metodik ədəbiyyatın öyrənilməsi. Hər bir elmi araşdırmalar problemin müəyyənləşdirilməsindən başlayır. Problem mövzu formasında özünü göstərir. Həmin problemin araşdırılmasında ilk olaraq əldə olan metodik mənbələr diqqətlə nəzərdən keçirilir. Problemin tədqiqi tarixinə nəzər salınır, elmi-metodik ədəbiyyat, dövrü mətbuat, arxiv materiallar və b. mənbələr diqqətlə nəzərdən keçirilir. Bundan sonra problemin necə işlənilməsi və onun hansı cəhətlərinin araşdırılması barədə tədqiqatçıda aydın təsəvvür yaranır. O, araşdıracağı problemin uğurlu alınması üçün *elmi fərziyyəni* irəli sürür. Buna *hipotez* deyilir. Tədqiqatçı burada elmi cəhətdən əsaslandırılmış elə fərziyyəsini irəli sürür ki, apardığı araşdırmalarla onun doğruluğunu isbat edə bilsin.

[1] Bax: Veysova Z., Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu, Təlimçilər üçün metodik vəsait, Bakı 2004, səh. 36-37

2. Tədris prosesinin müşahidəsi. Tədqiqatçı mövzunun tədqiqi tarixinə, hansı səviyyədə işlənilməsi məsələlərinə aydınlıq gətirdikdən sonra məktəb təcrübəsinə üz tutur. Elmi fərziyyəsinin məqsədinə uyğun olaraq tədris prosesini müşahidə etməyə başlayır. Bu müşahidələr problemin hazırkı vəziyyəti barədə ilkin dəqiqləşdirmələr aparmağa imkan yaradır. Tədqiqatçı nəyi və necə müşahidə edəcəyini dəqiq planlaşdırır. Bu zaman real vəziyyəti olduğu kimi qeyd etməyə çalışır. Müşahidədən alınan qənaətlərin dəqiq uçotu aparılır.

3. Qabaqcıl təcrübənin öyrənilməsi. Müşahidə mərhələsindən sonra qabaqcıl təcrübənin öyrənilməsi gəlir. Tədqiqatçı problemin işlənilməsində nə kimi uğurların olması və onun səbəblərinin araşdırılmasını da diqqətdə saxlayır. Ona görə də həm birbaşa, həm də mətbuatda gedən yazılarda əksini tapan qabaqcıl iş nümunələrini tədqiqatçı diqqətlə nəzərdən keçirir və təhlil etməklə obyektiv nəticələrə gəlir. Bu fakt da imkan verir ki, problemin necə həll ediləcəyi ilə bağlı müəyyən və düzgün istiqamət götürülmüş olsun.

4. Fərdi söhbətlər. Tədqiq olunan problem dairəsində bütün iştirakçıların fikir və düşüncələrinin öyrənilməsi kollektiv və fərdi halda həyata keçirilə bilər. Fərdi söhbətlər şifahi formada həyata keçirilir və alınan qənaətlərin uçotu aparılır. Kimlərin fərdi söhbətlərə cəlb edilməsi tədqiqatçının güddüyü məqsəddən asılıdır.

5. Anket sorğusu. Məzmununa görə müxtəlif, əhatə dairəsinə görə kütləvi xarakter daşıyır. Onun üstünlüyü də burasındadır. Tədqiqatçı əvvəlcədən sorğunun məqsədini dəqiqləşdirir, sonra burada əhatə ediləcək məsələlərə bir aydınlıq gətirir. Anket sorğusunda qoyulan məsələlər real mənzərənin aydınlaşdırılmasında mühüm rol oynayır. Tədqiqatçı alınan nəticələri təhlil edir və ümumiləşdirir.

6. Eksperimentlər(müəyyənedici, öyrədici və yoxlayıcı). Problemin araşdırılması yekunları öz təsdiqini eksperimentlərdə tapır. Tədqiqatçı eksperiment zamanı irəli sürdüyü müddəaların



nə dərəcədə doğru olduğunu real sinif-dərs şəraitində sınaqdan çıxarır. Eksperimentin nəticələrini diqqətlə təhlil edir. Lazım gələrsə, təkrar(yoxlayıcı) eksperimentlər aparır və iş qaydalarında müvafiq təshihlər edir. Eksperimentin nəticələri ciddi şəkildə qeydə alınır.

7. Statistik metod. Sorğularda, söhbətlərdə, eksperimentlərdə nəticələrin hesablanması statistik metodla aparılır. Onun vasitəsi ilə tədris prosesinin əvvəlki və son mənzərəsi faktiki rəqəmlərlə, cədvəl formasında əks olunur. Onun əsas vəzifəsi tədqiqatın gəldiyi qənaətlərin doğru olduğu isbat etməkdir. Bu nəticələrlə tanış olan hər hansı bir mütəxəssisdə belə bir qənaət yaranır ki, tədqiqatın irəli sürdüyü yolla gedilsə, məhz bu cür uğurlu nəticələr əldə etmək olar.

**?!**

1. **ƏTM nəyi öyrənir və nəyi öyrədir?**
2. **ƏTM hansı elm sahələri ilə əlaqədardır? Onlardan nələri götürür?**
3. **ƏTM-in hansı şöbələri vardır?**
4. **Ədəbiyyat tədrisinin prinsipləri(qaydaları) hansılardır?**
5. **ƏTM-in tədqiqat üsullarına nələr daxildir?**

## ƏDƏBİYYATIN TƏDRİSİ TARİXİ

Hər bir fənnin özünə məxsus keçdiyi həyat yolu vardır. Elə elmlər vardır ki, onların tarixi min illərlə, elələri də vardır ki, on illiklərlə ölçülür. Haqqında söhbət açacağımız ədəbiyyatın tədrisi metodikası fənni də sonuncuların sırasına daxil ola bilər. Amma bu o demək deyildir ki, bizim ədəbiyyatın öyrədilməsi tarixi də sonralara aiddir. Məlum məsələdir ki, xalq ədəbiyyatımızın kökü çox-çox uzaqlara gedir. Yazılı ədəbiyyat isə tarixi inkişafın müəyyən mərhələsində meydana gəlmişdir. Ədəbiyyatımızın keçdiyi yola diqqətlə nəzər salsaq, onun inkişaf meyllərini izləsək aydınlaşacaq ki, Azərbaycan ədəbiyyatı öz məzmun və forma əlvanlığına görə dünya ədəbiyyatının ən zəngin qolunu təşkil edir və bu ədəbiyyat içərisində öz layiqli yerini tutur. Ədəbiyyatımızın qaldırdığı bəşəri ideyalar, insana, onun duyğular aləminə həssas münasibəti heç bir xalqın ədəbiyyatı ilə müqayisəyə gəlməyəcək dərəcədə mənalı və zəngin olmuşdur. Bunu dünən Avropa, bir qədər əvvəllər isə Yaxın və Uzaq Şərq də etiraf etmişdi. Mədinədə yaşayıb yaradan və "Əl-Azərbaycani" nisbəsi ilə tanınan şairlərin yaradıcılığında, Nizami, Nəsimi, Füzuli, Vaqif ədəbi məktəblərinin timsalında, Qazi Bürhanəddin, Həbibi, Kişvəri, Ş. İ. Xətayi, M. V. Vidadi, M. Ş. Vazeh yaradıcılığı nümunəsində bunu daha aydın görmək olar.

Xalq ürəyinin yağı, qəlbinin hərarəti ilə yaratmış olduğu böyük ədəbiyyatı, məhz bu cür ürək genişliyi ilə də sevə-sevə, göz bəbəyi kimi qorumuş, bu irsə böyük ehtiramla yanaşmış, onu həm öyrənmiş, həm də gənclərə öyrətmişdir. Təbii ki, bu öyrənmə-öyrətmə mərhələsi bəzən uzun, bəzən də qısa müddətli olmuşdur. Onun formasında da müəyyən fərqlər var idi. Ədəbi irsin öyrənilməsində fərdi məktəblər, şəxsi təhsil, saray ədəbi məktəbləri, mollaxana və mədrəsələrdə görülən işlər, rus-tatar və "üsuli-cədid" məktəbləri, seminariya və gimnaziyalarda alınan biliklər həmin forma əlvanlığından xəbər verirdi. Tarix



dəyişdikcə, zaman yeniləşdikcə bu öyrənmə formalarının da məzmununda ciddi dəyişikliklər baş verirdi. Məktəblərlə, mollaxanalarla yanaşı bu ədəbiyyat yaradıcılarının özləri də əllərinə qələm, tabaşir götürərək onun təbliğatçılarına çevrilir, müəllimlik edərək bu zəngin sərvətin bir kəlməsini də gənclərin və yeniyetmələrin nəzərindən yayındırmaq istəmirdilər. Deməli, yaradıcıların özləri də, qol çırmayaraq bu böyük və möhtəşəm ədəbiyyatın təfərrüatını dövrünə və gələcək sahiblərinə çatdırmağa çalışırdılar. Təbii ki, biz bu vəziyyəti müsbət qiymətləndirməli və ədəbiyyatımızın öyrədilməsində əməyi, xidməti olan hər bir kəsi minnətdarlıq hissi ilə xatırlamalıyıq.

Müşahidələrdən belə məlum olur ki, ədəbiyyatın öyrənilməsi birbaşa və dolayı yolla həyata keçirilmişdir. Dolayı deyəndə şəxsi təhsili, birbaşa dedikdə isə ədəbiyyatın konkret bir fənn kimi öyrədilməsi prosesini nəzərdə tuturuq. Deməli, ədəbiyyatın öyrədilməsi yolundan danışanda mütləq tarixə, keçilən yola nəzər salmalı və onun hər bir keçidlərinə yaxından bələd olmalıyıq.

Ədəbiyyatın öyrənilməsini şərti olaraq bir neçə mərhələyə bölmək mümkündür:

1. Qədim dövrlərdə ədəbiyyatın öyrənilməsi (XI əsrə qədərki mərhələ);
2. XII – XIX əsrin birinci rübünə qədərki dövrdə ədəbiyyatın öyrənilməsi;
3. 1828 – 1920-ci illərdə ədəbiyyat öyrənilməsi;
4. 1920 – 1993-cü illərdə ədəbiyyatın öyrənilməsi;
5. 1993-cü ildən bu günümüzə qədər ədəbiyyatın öyrənilməsi.

Birinci mərhələni (XI əsrə qədərki mərhələ) əslində "xalq tədrisi" mərhələsi də adlandırmaq mümkündür. Ədəbiyyat tariximizin inkişafının izlənilməsi, həmçinin ədəbi təcrübənin öyrənilməsi bizi belə qənaətə gətirir ki, bu dövrü məhz belə səciyyələndirmək daha doğru olar. Çünki xalq yaratmış olduğu şifahi bədii nümunələri məktəb və dərslik olmayan zamanlarda

şifahi formada gənc nəslə öyrətmişdir. Bu zaman, təbii ki, bir neçə məqsəd güdülmüşdü. Tutaq ki, körpələrin nitqini inkişaf etdirmək zərurəti var idi. Onu həll etmək üçün yanıltmaclar meydana gəlmiş, böyüklər həmin yanıltmacları balacalara söylətməklə həm onların nitqlərini inkişaf etdirmiş, həm bir balaca əylənmiş, həm kiçik bir nümunə ilə bu ədəbiyyatın zənginliyini uşaqlara çatdırmış, həm də onun yayılması və təbliği ilə məşğul olmuşlar. Nağıllarımız, atalar sözləri və məsəllərimiz, lətifələrimiz, bayatılarımız və b. xalq ədəbiyyatı nümunələrimiz də bu baxımdan fərqlənmir. O nümunələri dinləyənlər həm əylənmiş, həm öyrənmiş, həm də onları nəsillərə ötürməklə məşğul olmuşlar. Xalq ədəbiyyatı nümunələrini dinləyən balalarımız ən gözəl insani keyfiyyətlərə yiyələnmiş, eyni zamanda bu dilin zənginliyinin göstəricisi olan ədəbiyyatımızı öyrənmişlər. Bu prosesi bir neçə əsrin çərçivəsinə sığmamış və bu günümüzə qədər də davam etmişdir. Biz bunu nəzərə alaraq şərti olaraq XI əsrə qədər götürmüşük. Halbuki yazının olmadığı zamanlardan bəriyə xalq bədii nümunələri yaratdıqca onun təbliği ilə məşğul olmuş, yaradan da, öyrədən də, öyrənən də onun özü olmuşdur.

İkinci mərhələ (XII – XIX əsrin birinci rübünə qədər) ədəbiyyatın saray, mollaxana və məktəb mühitində öyrənilməsi kimi səciyyələnə bilər. Həmin dövrlərdə də " xalq tədrisi" ilə yanaşı, adları çəkilən yerlərdə ədəbiyyatın öyrənilməsi olmuşdur. Saraylar böyük ədəbiyyatın yaranmasında xüsusi xidmətlər göstərmiş, qüdrətli şairləri himayə etmiş və onların istedadlarının parlamasına müəyyən imkanlar yaratmışdır. Məlumdur ki, saray ədəbi məclisləri ədəbiyyatın öyrənilməsi və təbliği sahəsində xeyli işlər görmüş, onun məzmun və formaca zənginləşməsində xüsusi rol oynamışdır. Bu mühit həmçinin ədəbi təcrübələr meydanına çevrilmiş, ədəbiyyatın öyrənilməsi və təbliği işinə kifayət qədər sanballı töhfələr vermişdir. Mollaxana və mədrəsə təhsili mərhələsində ədəbiyyatın birbaşa öyrənilməsi ilə bağlı müəyyən faktlar olmasa da, bir məsələ



aydın idi ki, bu dövrün ədəbi təhsilində aparıcı yeri şəxsi mütaliə, fərdi təhsil prosesi tutmuşdur. Görkəmli sənətkarların bədii irsinin təhlili göstərir ki, onlar güclü mütaliə sayəsində dövrün ədəbi təcrübələrinə səylə yiyələnmişlər. Müşahidələr göstərir ki, həmin dövrdə bədii ədəbiyyat öyrənmək insanların, yaradıcı ziyalıların ən mühüm atributlarından biri olmuşdur. Onu sinif-dərs şəraitində ayrıca öyrətməyə ehtiyac olmamışdır. Nizami, Nəsimi, Qazi Bürhanəddin, Ş.İ.Xətayi, Qurbani, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Vidadi və Vaqif kimi sənətkarların bədii irsi ilə tanışlıq bunu deməyə əsas verir. Bu şəxslər özlərinə qapanıb qalmamış, bütün Şərq aləminin ədəbi yeniliklərini dərindən mənimsəmişlər. Təbii ki, onlar şəxsi mütaliələrinin hesabına belə keyfiyyətlərə nail olmuşdular. Amma müəyyən tarixi dövrlərdə həmin təhsil sistemində ayrı-ayrı bədii və publisistik əsərlərdən oxu materialı kimi istifadə olunması faktına da rast gəlirik. Nizami, Füzuli, Sədi və başqalarının əsərlərinin mollaxana və mədrəsələrdə tədrisə cəlb olunması ədəbi-tarixi bir faktdır.

Üçüncü mərhələ (1828 – 1920-ci illər) Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra ədəbiyyatın öyrənilməsi sahəsində görülən işləri əhatə edir.

Bu dövrdə ədəbiyyatın öyrənilməsində tamamilə yeni amillər meydana çıxır; yeni üsulda məktəblər açılmağa başlayır, həmin məktəblərdə rus dilinin öyrədilməsi aparıcı məqsəd olur. Bu məktəblərdə oxu materialları kimi ədəbi nümunələr də tədrisə cəlb olunur. Bir sözlə, ədəbiyyat sinif-dərs şəraitinə gətirilir.

Bu zaman fərdi təşəbbüskarlıq əsas rol oynayır. A. Bakıxanov, M.Ş.Vazeh, S. Ə .Şirvani, M. M. Nəvvab, N. Nərimanov, F. Köçərli, R. Əfəndiyev, M.Mahmudbəyov, F. Ağazadə, A. Şaiq və b. qiraət və oxu materialları, dərsliklər yaratmaq təşəbbüsündə olur və məktəblərin ehtiyacını ödəyəcək vəsaitlər hazırlayırlar. Məsələn, A. Bakıxanov "Kitabi-nəsihət" və "Təhzibül-əxlaq" əsərlərini məhz gənclərimiz üçün qələmə almış,

onlar üçün bir oxu materialı kimi təqdim etmişdi. S. Ə. Şirvaninin "Rəbiül-ətfal"(1969) dərsliyini C. Əhmədov ilk mükəmməl ədəbiyyat dərsliyi kimi təqdim edir.[2]

Bu dövrdə – 1876-cı ildə Qori müəllimlər seminariyasının açılması, 1879-cu ildə isə onun Azərbaycan şöbəsinin fəaliyyət başlaması ədəbiyyatın məktəblərə gətirilməsi işini xeyli sürətləndirdi. Bu iş əslində bədii mətnlərin məktəbə gətirilməsi kimi də səciyyələnə bilər. R. Əfəndiyevin "Bəsirətül-ətfal", F. Ağazadənin "Ədəbiyyat məcmuəsi" dərslikləri - qiraət və oxu materialları ədəbiyyat tədrisi tarixində ilk mükəmməl metodik hadisə kimi dəyərləndirilmişdir. A. Şaiq, F. Köçərli, N. Nərimanov elmi-pedaqoji fəaliyyəti, yaratdıqları dərsliklər öz məzmunu və orijinallığı ilə seçilirdi.[3]

Ədəbiyyatın öyrənilməsində <u>dördüncü mərhələ</u> (1920 – 1993-cü illər) onun proqram və dərslik çərçivəsində orta məktəbə gətirilməsidir. Bu yolun da özəllikləri vardır. 1920-30-cu illər dövrü ədəbiyyat tədrisi sahəsində gərgin mübarizələr və axtarışlar dövrü olmuşdur. Amma 1932-ci ildən sonra ədəbiyyat bir fənn kimi orta məktəbin tədris planına daxil edilmiş və bu günə qədər də bu vəziyyət davam etməkdədir. Həmin dövr ədəbiyyatın orta məktəbdə sistemli bir formada öyrənilməsi(həm də öyrədilməsi) dövrü kimi səciyyələnə bilər. Bəzi siyasiləşmə meyllərini nəzərə almasaq, bu dövrdə ədəbiyyatın öyrənilməsində bir sistemin olmasını, dövrün ideoloji tələblərinə cavab verən elmi-tədqiqat işlərinin aparılmasını, tədris sahəsində xeyli nailiyyətlərin əldə olunmasını söyləyə bilərik. Təbii ki ədəbiyyatın siyasiləşdirilməsi, sinfi mübarizə alətinə çevrilməsi onun lazımi səviyyədə öyrənilməsi işinə əngəllər törətməmiş deyildi. Əsl ədəbiyyatın öyrənilməsinə onun vurduğu zərəri də

---

[2] Əhmədov C., Ədəbiyyat tədrisi metodikası, B. 1991, səh. 113

[3] Bax: Əhmədov C., Ədəbiyyat tədrisi metodikası, B. 1991, səh. 59-164 və Qarabağlı Ə., Azərbaycan ədəbiyyatının tədrisi metodikası, Bakı 1968, səh. 19-45



xatırlamaq yerinə düşərdi. Amma bunlara baxmayaraq etiraf olunmalıdır ki, bu dövrdə müəyyən nailiyyətlər də əldə olunmuş, ədəbiyyatımız məzmun, forma və sənətkarlıq baxımından xeyli uğurlar qazanmışdır. Orta məktəbin ədəbiyyat proqramına ən yaxşı nümunələrin daxil olunması (dövrün tələbini də unutmaq olmaz – F.Y.) daim diqqət mərkəzində olmuşdu.

Ədəbiyyatın öyrənilməsi işində <u>yeni mərhələ</u> (1993-cü ildən bu günümüzə qədər) Azərbaycanın müstəqillik qazanması dövrünə aiddir. Bu dövrdə xeyli işlər görülə bilərdi. Sovet hakimiyyətinin ilk illərində klassik irsə birtərəfli, bolşevikvari yanaşma metodundan – belə bir zərərli üsuldan can qurtara bilməyən 1994-cü ilin proqram tərtibçiləri ədəbi nailiyyətlərimizi, klassik və çağdaş ədəbiyyatımızın ən dəyərli nümunələrini orta məktəb proqramına gətirə bilərdilər. Amma bu belə olmadı. Proqram tərtibçilərinin səriştəsizliyi, təcrübəli yoldaşların bu işdən kənarlaşdırılması, ənənələrə əsaslanılmaması, 70 illik təcrübənin "zərərli" bir hal kimi çıxdaş edilməsi – bolşevikcəsinə ədəbi irsə yanaşılma meylləri, bu işin yarıtmaz səviyyədə icrasına aparıb çıxartdı. Bunun nəticəsində "eksperimentlər", elmi-metodiki əsası olmayan "sınaqlar" orta məktəbin ədəbiyyat proqramına ayaq açdı və ədəbiyyat tədrisi sahəsində görünməmiş "yeniliklər" ortaya çıxdı: son 15 ildə 3 dəfə proqram dəyişilməsi baş verdi. Belə bir xoşagəlməz mənzərə ədəbiyyatın 70 illik tədrisi tarixində heç bir vaxt müşahidə olunmamışdı. Bunun əsas səbəbi proqramın tərtibində geniş ictimai rəyə məhəl qoyulmaması oldu. Amma onu da qeyd etməyi lazım bilirik ki, son dövrlərdə bu sahədə müəyyən uğurlu addımlar atılmaqdadır. Artıq bütün fənlər üzrə fənn kurikulumları hazırlanır. Müşahidələr onu göstərir ki, olduqca ciddi və əhəmiyyətli işlər görülmək üzrədir.

Ədəbiyyatın tədrisi tarixi belə bir sualın açılmasına çalışmalıdır ki, ayrı-ayrı tarixi dövrlərdə onun öyrənilməsinə necə yanaşılmış, necə tədris olunmuş, uğurlara və geriləmələrə səbəb nə olmuşdur. Bizi belə bir sual düşündürür ki, bu gün

ədəbiyyatın tədrisi səviyyəsi lazımi tələbələri ödəyirmi? Əgər cavab müsbət və ya mənfidirsə, ənənə ona necə təsir göstərə bilir? Bu irəliləməni və geriləməni törədən səbəblər hansılardır? Tədris tarixi belə bir vacib suala cavab verə bilirmi? Cavab verə bilirsə, o, hansı səviyyədə özünü doğruldur? Əlbəttə, bu kimi problemlər ayrıca bir tədqiqatın mövzusudur. Siz gələcəkdə magistratura təhsili zamanı hamin sualların bir qisminə cavab alacaqsınız.

Məşhur bir məsəli xatırlamaq yerinə düşər: *Keçmişə güllə atsaq, gələcək bizi topa tutacaq.* Ona görə də tarixi nailiyyətlərə keçilən yola heç bir biganəlilik ola bilməz. Biz keçilən yolu təhlil etmədən uğurlu gələcəyi təmin edə bilmərik.

**?!**

1. **Ədəbiyyatın tədrisi tarixi barəsində Sizdə nə kimi təəssürat yarandı?**
2. **Onu neçə mərhələyə bölmək olar?**
3. **Həmin bölgüyə necə münasibət bəsləyirsiniz?**
4. **Onları fərqləndirən cəhətlər hansılardır?**
5. **Ədəbiyyatın tədrisi tarixini bilmək bizə nə üçün lazımdır?**



## "ÜMUMİ TƏHSİL PİLLƏSİNİN DÖVLƏT STANDARTI VƏ PROQRAMLARI (KURİKULUMLARI)"

Sabahın ədəbiyyat müəlliminin öz üzərinə düşən məsuliyyəti, görəcəyi işlərin məzmununu aydın şəkildə dərk etməsi üçün ilkin olaraq təhsil sahəsində qəbul olunmuş qanunun, qərar və sərəncamların məzmunu ilə yaxından tanış olmalıdır. Bu rəsmi sənədlərlə tanışlıq onun bir müəllim kimi nə iş görəcəyini təsəvvür etməyə imkan yaradır. Müəllim həmin sənədlərdə əks olunan məzmunu bilmədən öz fəaliyyətini qura bilməz.

Müəllim ən azından "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"nu, xüsusən ümumi təhsilin məqsəd vəzifələrinə dair müddəaları bilməlidir. Çünki bizim hər birimiz dövlətin bizdən nə istədiyinə bələd olmalıyıq. Əgər bilməsək, onda nə üçün çalışdığımız bizə aydın olmaz.

Başqa bir rəsmi sənədimiz "Ümum təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" sənədidir. Beş ildir ki, bu sənəd qüvvədədir. Tezliklə onun da məzmunu yeniləşəcəkdir(Artıq onun layihə variantı işıq üzü görmüşdür). Orada nələrin əks olduğunu bilməyimiz vacibdir. Biz aşağıda hələlik qüvvədə olan həmin sənəd barəsində sizləri ətraflı tanış edəcəyik.

Gəlin əvvəlcə təhsil sahəsində islahatların nə üçün aparılması məsələsini aydınlaşdıraq.

Bu gün ictimai həyatda, elm və texnika sahəsində sürəkli dəyişmələr baş verir. İnformasiya bolluğu, qloballaşma, internet, vahid təhsil məkanının formalaşdırılması, Avropa təhsil məkanına inteqrasiya, yeni təlim texnologiyaları və s. məsələlər təhsilin məzmununda da, öyrədilməsi metodları və qiymətləndirilməsində də bu yeniliklərin diqqətdə saxlanılmasını tələb edir. Məhz buna görə də optimal variant kimi təhsil sənədlərinin yenilənəsi üçün 5 illik vaxt müddəti

qoyulur. Hər beş ildən bir bu dəyişmələrin aparılması bir zərurət kimi ortaya çıxır.

Təhsil sahəsində islahatların aparılması tarixi-ictimai zərurətdən irəli gəlir. Aşağıda qeyd olunan məsələlər məcbur edir ki, bu proses fəaliyyətə başlasın:

- Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması;
- Planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid;
- Dünya təhsil sisteminə inteqrasiya;
- İnformasiya əsrinin tələbləri;
- Təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması;
- Mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi.[4]

Məhz bu obyektiv şəraitə uyğunlaşmaq, həyatın tələblərindən geri qalmamaq üçün 1998-ci ildən respublikamızda ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə təhsil sahəsində islahatların həyata keçirilməsi üçün dövlət komissiyası yaradıldı. Həmin komissiya az bir zamanda islahat proqramını(1999-cu il) qəbul etdi. Beləliklə, "Yeniləşən Azərbaycanımıza yeni təhsil konsepsiyası"na start verildi. Ulu öndərimiz təkcə müasir Azərbaycanımızın deyil, həm də müstəqil təhsil siyasətimizin banisi və memarı oldu. Məhz H. Əliyevin ciddi səyi nəticəsində bu islahata dönməz xarakter verildi. Ulu öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabı təhsilin yenilənməsi, bu işi uğurla davam etdirilməsi üçün normativ-hüquqi bazanın və maddi-texniki dəstəyin yaradılmasında olduqca mühüm, tarixi dəyərə malik olan

[4] "2009-2010-cu tədris ilində respublikanın ümumtəhsil məktəblərinin I siniflərində dərs deyəcək müəllimlər üçün təlim kursunun materialları" (slaydlar, Aydın Əhmədov, Təhsil Nazirliyinin şöbə müdiri, "Kurikulum islahatının davam etdirilməsi və kurikulum islahatına dəstək" alt-komponentinin koordinatoru, 1-ci slayd)



addımlar atdı. Təkcə son 15 ildə müasir tələbələrə cavab verən 2500-dən artıq məktəbin tikilib istifadəyə(keçmiş SSRİ və Avropada analoqu olmayan tikinti!) verilməsi dediklərimizə əyani sübutdur.

Belə bir şəraitdə yaranan *"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)"* sənədini onun dəyərini və tarixi əhəmiyyətini xüsusi olaraq qeyd etmək istərdik (2010-cu ildə qəbul olunmuşdur).

Gəlin həmin sənədin məzmunu ilə bir qədər yaxından tanış olaq.

Təhsil Qanununun müddəalarını əldə rəhbər tutan bu sənəd 14 bölmədən ibarətdir. Bu bölmələrdə aşağıdakı məsələlər əhatə olunmuşdur:

*1. Ümumi müddəalar.*
*2. Ümumi təhsilin məzmunu.*
*3. Ümumi təhsilin idarə olunması.*
*4. Ümumi təhsilin infrastrukturu.*
*5. Ümumi təhsilin maddi-texniki və tədris bazası.*
*6. Ümumi təhsil pilləsində təhsilverənlərin keyfiyyət göstəriciləri.*
*7. Ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi.*
*8. Təhsil proqramı (kurikulum).*
*9. Ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri:*
*9.1. İbtidai təhsil üzrə ümumi təlim nəticələri;*
*9.2. Ümumi orta təhsil üzrə ümumi təlim nəticələri;*
*9.3. Tam orta təhsil üzrə ümumi təlim nəticələri.*
*10. Ümumi təhsilin səviyyələri üzrə məzmun standartları:*
*10.1. İbtidai təhsil səviyyəsində məzmun standartları;*
*10.2. Ümumi orta təhsil səviyyəsində məzmun standartları;*
*10.3. Tam orta təhsil səviyyəsində məzmun standartları.*
*11. Ümumi təhsil pilləsində tədris edilən fənlər.*

*12. Ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının maksimum miqdarı.*

*13. Ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri.*

*14.Təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi.*

Bu sənədi məzmun etibarı ilə iki hissəyə bölünür. Birinci hissə *dövlət standartı(1-7-ci bölmələr)* adlanır və buraya ümumi təhsilin məzmunu, idarə olunması, maddi-texniki və tədris bazası, infrastrukturu, təhsil verənlərin keyfiyyət göstəriciləri, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi kimi bölmələr daxildir. Ikinci hissə isə şərti olaraq *təhsil proqramı(kurikulum)*(8-14-cü bölmələri əhatə edir) adlanır və buraya ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri və məzmun standartları, hər bir səviyyədə tədris olunan fənlər, hər bir səviyyə üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarı, ümumi təhsil sistemində pedaqoji prosesin təşkili prinsipləri, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi kimi bölmələr – 7 bölmə daxil edilmişdir.

Sənəddə vurğulanır ki, bu cür təhsil proqramları 5 il müddətində qüvvədə olur və baza tədris planları və proqramları Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilir.

Hər bir gənc ədəbiyyat müəllimi adı çəkilən sənədin müddəaları ilə yaxından tanış olmalıdır. Çünki ədəbiyyat üzrə təhsil proqramı(fənn kurikulum) hazırlananda *"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)"* sənədinin müddəaları əldə rəhbər tutulur. Deyilənləri nəzərə alaraq bu sənəddən bəzi məqamları diqqətinizə çatdırmaq istəyirik.

*Ümumi təhsilin məzmunu* bölməsində bu məzmunun nəyin əsasında müəyyən edildiyi sualına bir aydınlıq gətirilir. Sonrakı abzasda bu məzmunun təhsilalana nə kimi keyfiyyətlər



verəcəyi xatırladılır və sonda təhsilin məzmununa qoyulan ümumi tələbələr göstərilir. Bu tələblərdən aydın olur ki,

- *təhsilin məzmunu təhsilalanın, cəmiyyətin tələbatı və dövlət siyasətinə uyğunlaşmalı,*
- *nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsiplərinə söykənməli,*
- *təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onlara davamlı inkişaflarını təmin edən, müstəqil həyata lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etməli,*
- *bu məzmunda şagirdin ümumi inkişafına xidmət etməyən, tətbiqi xarakterdə olmayan, məzmunu ağırlaşdıran məlumat yönümlü məsələlərin daxil edilməsinə yol verməməlidir.*

*Ümumi təhsil idarə olunması* bölməsində bu prosesin təşkil olunması üçün əldə rəhbər tutulan prinsiplər sadalanır və onlara *hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi* aid edilir. *Hesabatlılıq* deyəndə kollektivin hər bir üzvünün tapşırılmış iş sahəsində cavabdehliyinin təmin olunması, *məsuliyyətin bölüşdürülməsi* dedikdə ümumi təhsilin idarə olunmasında demokratiklik, sistemlilik və şəffaflıq prinsipləri əsasında ümumi fəaliyyətin səmərəli planlaşdırılması və nəzərdə tutulan tədbirlərin icrasına çevik nəzarət mexanizminin müəyyənləşdirilməsi, *inkişafın monitorinqi* dedikdə isə mövcud idarəetmə sisteminin məqsədyönlülük səviyyəsini aşkara çıxarmaq və irəliləyişin dinamikasını müəyyən etməklə planlaşdırma və icra sistemində zəruri dəyişikliklər aparılmasının təmin olunmasını nəzərdə tutur.

*Ümumi təhsilin infrastrukturu* bölməsində təhlükəsiz təhsil şəraiti, kadr təminatı, zəruri imkanlara malik olan binalar, yardımçı bina və qurğular, idman meydançası və qurğuları, tibb

və iaşə obyektləri, kitabxana, rabitə, su, istilik, elektrik sistemləri, internet xidmətlərinin olması vacibliyi göstərilir.

*Ümumi təhsilin maddi-texniki və tədris bazası* bölməsində təchiz olunmuş tədris laboratoriyaları, emalatxanalar, idman və akt zalları, təhsilalan və təhsilverənlər üçün mebel avadanlığı, informasiya-kommunikasiya texnologiyaları, audio-vizual avadanlıqlar, tədris-əyani vəsaitləri, təlimin texniki vəsaitləri, dərslik və elmi-bədii ədəbiyyat fondunun mövcudluğu bir tələb kimi qoyulur.

*Ümumi təhsil pilləsində təhsil verənlərin keyfiyyət göstəriciləri* bölməsində diqqəti çəkən məsələlərdən biri də təhsilverənlər üçün əsas keyfiyyət göstəricilərinin qeyd olunmasıdır. Biz istərdik ki, Siz buradakı məlumatlarla ədəbiyyat müəllimlərinin bilik və bacarıqlarını tutuşdurasınız. Bu günün müəllimi aşağıdakı bilik və bacarıqlara sahib olmalıdır. Bunlar çox önəmlidir və bu tələbləri unutmamaq gərəkdir:

- *dövrün tələbatına uyğun gələn elmi-nəzəri bilik;*
- *uşaqlarla ünsiyyət qurma və iş bacarığı;*
- *əxlaqi-mənəvi keyfiyyət, pedaqoji etika və mədəniyyət;*
- *əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqları;*
- *layihə, müsabiqələrdə, innovativ proqramlarda iştirak etmək qabiliyyəti;*
- *öz fəaliyyətini təqdim etmək, qabaqcıl təcrübədən bəhrələnmək bacarığı;*
- *ədalətlilik, məsuliyyətlilik, cavabdehlik keyfiyyəti;*
- *məktəb və ictimaiyyət arasında nüfuzu.*

Sənədin 7-ci bölməsi *ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi* məsələsinə həsr olunmuşdur. Təhsilalanın səviyyəsini fənlər üzrə müəyyən edilmiş təlim nəticələri və məzmun standartları



ifadə edir. Bu bölmədə qeyd olunur ki, adı çəkilən səviyyənin müəyyən olunması üçün hər bir təhsil səviyyəsi üzrə(I-IV, V-IX, X-XI siniflər üzrə, yəni ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri) təsdiq olunmuş *təlim nəticələri* və *fənlər üzrə məzmun standartları* yaradılır və təsdiq olunur. Həmin təlim nəticələri və məzmun standartları aşağıdakı tələbləri özündə əks etdirir:

- *fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;*
- *təhsilin nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;*
- *təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;*
- *keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;*
- *təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin olunması;*
- *şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müvafiq standartların müəyyən edilməsi üçün etibarlı əsas yaradılması;*
- *təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması.*

Sənədin 8-ci bölməsində *təhsil proqramının(kurikulum)* əhatə etdiyi məsələlər barəsində məlumat verilir. Bu bölmə çərçivə xarakteri daşıyır. Burada ümumi təhsilin səviyyələri üzrə təlim nəticələri [5] və məzmun standartları[6], hər bir səviyyə üzrə

---

[5] Təlim nəticəsi –müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

[6] Məzmun standartı – təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyulmuş dövlət tələbidir.

tədris olunan fənlər, həftəlik dərs və dərsdənkənar məşğələlərin miqdarı, pedaqoji sistemin təşkili prinsipləri, təlim nəticələrinin qiymətləndirilməsi və monitorinqi kimi məsələlər əhatə olunur. Sonrakı bölmələr həmin cəhətlərin məzmununu açır.

9-cu bölmə ibtidai, ümumi orta və tam orta *təhsil səviyyələri üzrə ümumi təlim nəticələrini* əhatə edir. Təlim nəticələrində hər bir təhsil səviyyəsi üzrə təhsilini başa vurmuş şagirdin nəyi bacaracağı barədə ümumi tələblər verilir. Bunlar rəsmi tələblərdir. Hər bir müəllim bilməlidir ki, ümumi orta və tam orta təhsilini başa vurmuş şagird sonda nələri bilməli və bacarmalıdır. Yəni biz sonda hansı bacarıqlara, keyfiyyətlərə malik olan insanı yetişdirməliyik. Bu bölmədə nəzərdə tutulan bilik və bacarıqlar bütün fənlər üçün nəzərdə tutulan göstəricilərdir. Məhz təlim nəticəsi anlayışı da bizə bu fikri təlqin edir.

Təlim nəticələrinin məzmununa səviyyələr üzrə fikir verək.

**Ümumi orta təhsili(IX sinfi)** başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:

- *dinlədiyi və oxuduğu müxtəlif üslubda və janrda olan mətnləri təhlil etməyi, onların məzmununu yığcam, həm də qismən geniş formada başqasına çatdırmağı;*
- *nitqin monoloq və dialoq formalarından istifadə etməyi;*
- *plan, tezis, icmal tərtib etməyi, layihə, rəy hazırlamağı;*
- *nümunələr və dəlillər vasitəsilə fikirlərini məntiqi cəhətdən əsaslandırmağı, müxtəlif fikirlərdə ifadə olunan başlıca məqamları ümumiləşdirməyi;*
- *hesablamalar və proqnozlaşdırma aparmağı, riyazi dildən istifadə etməyi, alqoritmlər qurmağı, ehtimallar irəli sürməyi;*



- *ətraf aləmi dərk etmək üçün müşahidə, ölçmə, hesablama, təcrübə, qiymətləndirmə üsul və vasitələrindən istifadə etməyi;*
- *təbiətdəki əsas qanunauyğunluqların mahiyyətini və onların qarşılıqlı əlaqəsini izah etməyi;*
- *müxtəlif fakt, mülahizə və dəlilləri müqayisə, təsnif və təqdim etməyi;*
- *təlim prosesində yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi;*
- *təlim tapşırıqlarını yerinə yetirmək üçün müxtəlif informasiya mənbələrindən (lüğətlər, ensiklopediyalar, kompüter, internet, dövri mətbuat və s.) istifadə etməyi;*
- *öz imkanlarını, meyl və marağını şüurlu olaraq müəyyən etməyi, iradi və qeyri-iradi keyfiyyətlərini nümayiş etdirməyi;*
- *gördüyü işlərin nəticəsini qiymətləndirməyi, qarşılaşdığı problemlərin optimal həllini tapmağı;*
- *sadə formada icraçılıq, təşkilatçılıq və idarəetmə bacarıqlarını nümayiş etdirməyi;*
- *ictimai davranış, habelə müvafiq təhlükəsizlik və tibbi-gigiyena qaydalarına, sağlam həyat tərzi normalarına əməl etməyi;*
- *milli, əxlaqi-mənəvi, hüquqi, etik, estetik dəyərlərə, vətəndaşlıq mövqeyinə, liderlik keyfiyyətlərinə malik olduğunu nümayiş etdirməyi;*
- *problemlərin həllində birgə fəaliyyət göstərməyi, kollektiv iş prosesində özünün və başqalarının fəaliyyətini qiymətləndirməyi;*
- *xarici dildə ünsiyyət qurmağı;*
- *ana dilində yazılı və şifahi ünsiyyət bacarıqlarına yiyələndiyini, ölkəsinin ədəbiyyatı, tarixi, mədəniyyəti, incəsənəti, görkəmli şəxsiyyətləri*

*barədə, habelə vətəninə qarşı əks-mövqedə dayanan qüvvələr haqqında müvafiq məlumatlara malik olduğunu nümayiş etdirməyi.*[7]

**Tam orta təhsili(XI sinfi)** başa vurmuş şagird aşağıdakıları bacarmalıdır(yəni bu siniflərdə tədris olunan fənlər şagirdlərə sonda aşağıda əks olunan bilik və bacarıqları verməlidir):

- *dinlədiklərinə və oxuduqlarına tənqidi və yaradıcı münasibət bildirməyi, maraq dairəsinə görə onları yeni məlumatlarla zənginləşdirməyi;*
- *nitqin müxtəlif formalarından məqamına görə istifadə etməyi;*
- *fikirlərini yazılı formada ifadə etməyi, yaradıcı yazılar (esse, müşahidə və təəssürat xarakterli yazılar və s.) yazmağı;*
- *ictimai həyatda baş verən hadisələrə və sosial-mədəni sahələrdəki yeniliklərə yaş səviyyəsinə uyğun olaraq münasibət bildirməyi;*
- *maraq dairəsinə görə müstəqil məlumatlar toplamağı, onları sistemləşdirməyi, təhlil və tətbiq etməyi;*
- *informasiya-kommunikasiya texnologiyalarından həyat fəaliyyətinin təşkili istiqamətində istifadə etməyi;*
- *qarşılaşdığı həyati problemləri qiymətləndirməyi və onların həlli istiqamətində optimal qərarlar qəbul etməyi;*
- *potensial imkanları daxilində mövcud bilik və bacarıqlarını təkmilləşdirməyi, mədəni və intellektual səviyyəsini yüksəltməyi;*

[7] Bax: «Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)» Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 3 iyun 2010-cu il tarixli 103 №-li qərarı , Bakı şəhəri, 3 iyun 2010-cu il



- *insan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi, milli əxlaqi-mənəvi dəyərlərə, habelə ümumbəşəri dəyərlərə həssas və tolerant münasibət bəsləməyi;*
- *xarici dildə (dillərdə) ünsiyyət saxlamağı;*
- *icraçılıq, təşkilatçılıq və idarəetmə ilə bağlı funksiyaları yerinə yetirməyi və bu proseslərdə liderlik xüsusiyyətlərini nümayiş etdirməyi;*
- *ana dilində yazılı və şifahi nitq mədəniyyətinə yiyələndiyini, ölkəsinin ədəbiyyatı, tarixi, coğrafiyası, görkəmli şəxsiyyətləri, habelə Vətənin mənafeyinə qarşı olan əks-qüvvələr haqqında ətraflı məlumatlara malik olduğunu nümayiş etdirməyi.*

Sənədin 10-cu bölməsi 9-cu bölmədəki müddəaları (ümumi təlim nəticələrini) əldə rəhbər tutmaqla ümumi təhsilin səviyyələri üzrə **məzmun standartlarını** təqdim edir. Yəni ümumi təlim nəticələrindən çıxış etməklə hər bir fənn öz üzərinə düşən bilik və bacarıqları seçib götürür və bu da fənlərin məzmun standartları formasında ifadə olunur.

Beləliklə, 10-cu bölmə tədris nəzərdə tutulan fənlər üzrə (I-IV, V-IX və X-XI siniflər) məzmun standartları(bu məzmun standartlarına paralel olaraq fənn üzrə ümumi təlim nəticəsi də demək olar) verilir, şagirdin nəyi bilib-bacaracaqları ümumi şəkildə ifadə olunur. Bu anda bizim üçün ən önəmlisi fənnimizlə bağlı olan məzmun standartıdır.

Ədəbiyyat fənni üzrə məzmun standartından aydın olur ki, ümumi orta və tam orta təhsil səviyyələrində şagirdlərdə son olaraq orada qeyd olunmuş bilik və bacarıqlar formalaşdırılmalıdır. Bu, məzmun standartı sayılmaqla yanaşı həm də həmin fənn üzrə ümumi təlim nəticəsidir. Şagirdlər IX və ya XI sinfi bitirəndə ədəbiyyatdan məhz bu təlim nəticələrində əhatə olunmuş bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirməlidirlər.

Ədəbiyyat fənn kurikulumu yaradılanda bu məzmun standartının tələblərini əldə rəhbər tutur və onu siniflər üzrə paylayır. Bu zaman sadədən mürəkkəbə, asandan çətinə doğru prinsipi əldə rəhbər tutulur. Buna siniflər üzrə təlim nəticələri deyilir.

Biz hazırda bu rəsmi sənəddəki ədəbiyyat fənni üzrə məzmun standartını (ümumi təlim nəticələrini) nəzərdən keçirməliyik:

**Ümumi orta təhsil səviyyəsində (yəni IX sinfi bitirən şagird) "Ədəbiyyat" fənni üzrə şagird:**

- *ədəbi-bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuyur, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah edir;*
- *yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya və orfoepiya qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqli ifadə edir, ümumiləşdirmələr aparır;*
- *ədəbi nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə etməklə şərh edir;*
- *müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;*
- *şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah edir, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırır;*
- *ədəbi əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;*



- *ədəbi əsərlərin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqlarını nümayiş etdirir.*

**Tam orta təhsil səviyyəsində (yəni XI sinfi bitirən şagird) "Ədəbiyyat" fənni üzrə şagird:**

- *oxuduğu ədəbi nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;*
- *ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;*
- *mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;*
- *ədəbi nümunələri mövzu, janr, problem baxımından müqayisə edir, əsaslandırılmış rəy bildirir;*
- *ədəbi əsərin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;*
- *ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;*
- *mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır.*

Unutmayaq: Ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) hazırlananda həm ümumi təlim nəticələrinin, həm də məzmun standartlarının tələbləri əldə rəhbər tutulur.

Sənədin 11-ci bölməsi *Ümumi təhsil pilləsində tədris edilən fənlərin* adlarını təqdim edir. 12-ci bölmədə isə *Ümumi təhsilin səviyyələri üzrə həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının maksimum miqdarı* verilir.

Ən ümdə məsələlərdən biri də ümumi təhsil sistemində pedaqoji prosesin təşkili zamanı hansı *prinsiplərə* istinad edilməsidir. Sənədin 13-cü bölməsində bu barədə danışılır və

təhsil sistemində əldə rəhbər tutulacaq prinsiplər belə qeyd olunur:

Pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin *əlaqələndirici, istiqamətverici, məsləhətçi*, şagirdlərin isə *tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər* kimi *qarşılıqlı əməkdaşlıq fəaliyyətləri* əsasında aşağıdakı **prinsiplər** nəzərə alınmaqla qurulur:

- *pedaqoji prosesin tamlığı* — pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;
- *təlimdə bərabər imkanların yaradılması* — bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;
- *şagirdyönümlülük* — şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- *inkişafyönümlülük* — şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- *fəaliyyətin stimullaşdırılması* — pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;
- *dəstəkləyici mühitin yaradılması* — pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi



keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Sənədin sonuncu bölməsi qiymətləndirmə ilə bağlı məsələləri əhatə edir. Burada *təlim nailiyyətlərinin (nəticələrinin) qiymətləndirilməsi və monitorinqi* barədə ətraflı məlumat verilir. Qiymətləndirmənin *növləri*(milli, beynəlxalq və məktəbdaxili), onların məzmunu barəsində söhbət açılır. Fənn kurikulumu qiymətləndirmə formalarını yaradanda buradakı müddəaları əldə rəhbər tutur. Onları nəzərdən keçirək. Təlim nailiyyətlərinin qiymətləndirməsi

1. *Təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi ardıcıl və sistemli xarakter daşıyır, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və yüksəldilməsinə xidmət edir, təhsilin keyfiyyəti və inkişafı haqqında müvafiq məlumatların (şagirdlərin təlimə münasibətləri və onların nailiyyətləri, müəllimlərin hazırlıq səviyyəsi, kurikulumların məqsədəmüvafiqliyi, təlim resursları ilə təminatı və idarəetmə üsulları) toplanması və onların təhlili ilə müşayiət olunur;*
2. *Məqsədəmüvafiqlik, qarşılıqlı dəyərləndirmə və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır;*
3. *Test tapşırıqlarının verilməsi və yoxlanması, sinifdə müşahidələrin aparılması, fənn kurikulumlarının icra vəziyyətinin, şagird və müəllimlərin fəaliyyətinin müşahidə olunması, qiymət cədvəllərinin və digər məktəb sənədlərinin təhlili və digər üsullarla həyata keçirilir;*
4. *Məktəbdaxili, milli və beynəlxalq istiqamətlərdə aparılır.*

*Məktəbdaxili qiymətləndirmə* 3 komponent üzrə həyata keçirilir:

– *şagird irəliləyişinin monitorinqi* — məktəb səviyyəsində müəllim və məktəb rəhbərləri tərəfindən həyata keçirilir, bu mərhələdə şagirdlərin nailiyyətləri *formativ* (müntəzəm, davamlı), *mikrosummativ* (bəhs və bölmələr üzrə) və *makrosummativ* (yarımilliklər üzrə) formalarda yazılı və şifahi aparılır;
– *kurikulum üzrə qiymətləndirmə* — şagirdlərin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə aparılır;
– *təhsil səviyyələri (ümumi orta və tam orta) üzrə yekun qiymətləndirmə* — mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədinin verilməsi ilə başa çatır. Tam orta təhsil pilləsində şagirdlərin müvafiq təmayüllər üzrə təhsil almaları ümumi orta təhsil səviyyəsində keçirilmiş yekun qiymətləndirmənin nəticələrinə görə müəyyən olunur.

*Milli qiymətləndirmə,* bir qayda olaraq, 4-5 ildən bir həyata keçirilir. Təhsil prosesinin təşkili, planlaşdırılması və aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumların keyfiyyətini və ümumi təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədi ilə aparılır;

*Beynəlxalq qiymətləndirmə* aşağıdakı məqsədlərlə aparılır:

- bir qayda olaraq, hər üç ildən bir seçmə yolla şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək;
- müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq və onların həlli yollarını müəyyənləşdirmək;



- mövcud vəziyyəti digər ölkələrlə müqayisə etmək və perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq.

Toplanmış məlumatların təhlili aparılır, nəticədə ölkədə təhsil sisteminin qurulması və gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi məqsədi ilə istifadə edilir.

---

**?!**

1. **Təhsil sahəsində islahatların aparılması hansı zərurətdən irəli gəlir?**
2. **"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" sənədində nələr əhatə olunur?**
3. **Həmin sənəd hansı əhəmiyyət kəsb edir?**
4. **Təhsil islahatının əsas prinsiplərini bilməyin faydası nədən ibarətdir?**
5. **Təhsil islahatının əsas prinsiplərinin məzmunu və xüsusiyyətlərinə fikir verin, onları yadda saxlamağa çalışın.**
6. **Qiymətləndirmə ilə bağlı nə kimi məlumatlar əldə etdiniz?**

## ƏDƏBİYYAT KURSUNUN MƏZMUNU VƏ MƏKTƏBDƏ ÖYRƏDİLMƏSİ SİSTEMİ

Ədəbiyyat kursunun məzmununun müəyyənləşdirilməsində "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu"nun, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)", "Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu)"(V-XI siniflər) sənədlərinin müddəaları əsas rol oynayır. Hazırda I-X siniflərdə bu sənədlərin tələbi əsasında fənn kurikulumu öz işini yerinə yetirməkdədir.

Ənənəvi kursda isə (XI sinif) "Təhsil haqqında" Qanunun, tədris planı və fənn proqramının tələbləri əldə rəhbər tutulur. Yaxın ildə ümumtəhsil məktəbləri tamamən yeni təhsil proqramının(kurikulumun) tələbləri əsasında, həmçinin təmayüllər üzrə işləyəcəkdir.

Deməli, fənnin məzmunundan söhbət açılanda iki yanaşma tərzi ortaya çıxır: ənənəvi və yeni - kurikulum əsasında.

Ənənəvi kursda ədəbiyyat fənnin məzmunundan danışanda yada ilk olaraq proqram materialları düşür. Bu ənənəvi yanaşmadır. Proqram materialları isə bədii əsərlərdən, qısa ədəbi-nəzəri məlumatlardan, icmallardan, sənətkarların həyat və yaradıcılığına dair məlumatlardan ibarətdir.

Yeni kursda məzmun dedikdə isə *təlim nəticələri və siniflər üzrə məzmun standartları* ( *məzmun xətləri*, *əsas və alt-standartlar)* nəzərdə tutulur.

Fənn kurikulumu ümumi təlim nəticələrini siniflər üzrə bölür. Sonra da siniflər üzrə həmin təlim nəticələrini əldə etmək üçün məzmun xətlərini və bu xətlərin tərkibindəki əsas və alt-standartları təqdim edir. Və bildirir ki, alt-standartlarda nəzərdə tutulan işlər tədris prosesində il boyu işləsə siniflər üzrə təlim nəticələrinə gəlib çıxmaq olar.



Siz fərqli məzmunları gördünüz. Adətən *məzmunu* zaman, dövr, cəmiyyətin ehtiyacları diktə edir. Dövlət bu ehtiyacları rəsmi sənədlər vasitəsi ilə ifadə edir.

Deməli, biz yeni kursa görə proqram materiallarını fənnin məzmun kimi qəbul edə bilmərik. Hazırda bu materiallar nəzərdə tutulan məzmunu (fənnin məzmununu – bilik və bacarıqları) reallaşdırmaq işində bir vasitə rolunda çıxış edir.

Biz burada ədəbiyyat kursunun yeni məzmunundan söz açdığımıza görə həm ümumi təlim nəticələrinə(məzmun standartına), həm də onun siniflər üzrə səpələnməsinə - siniflər üzrə təlim nəticələrinə bölünməsinə, bu bölünmə zamanı görünən məzmun fərqlərinə diqqətinizi cəlb etmək istəyirik.

**Ümumi orta təhsil səviyyəsində "Ədəbiyyat" fənni üzrə şagird:**

– *ədəbi-bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuyur, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah edir;*
– *yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya və orfoepiya qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqli ifadə edir, ümumiləşdirmələr aparır;*
– *ədəbi nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə etməklə şərh edir;*
– *müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;*
– *şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah edir, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırır;*

– *ədəbi əsərləri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;*
– *ədəbi əsərlərin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqlarını nümayiş etdirir.*

İndi isə həmin məzmun standartından çıxış edilməklə təlim nəticələrinin siniflər üzrə bölgüsünə fikir verək:

**Siniflər üzrə təlim nəticələri və məzmun standartları**[8]

V sinfin sonunda şagird:

– bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir;
– şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirir, bədii təsvir vasitələrini müəyyənləşdirir;
– bədii nümunələrin mövzusunu, ideyasını aydınlaşdırır, baş qəhrəmanları səciyyələndirir;
– öyrəndiyi yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirlərini şərh edir, müzakirələrdə dinlədiklərinə münasibətini bildirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl şərh edir.

VI sinfin sonunda şagird:

[8] Siniflər üzrə məzmun standartlarını(məzmun xətləri üzrə əsas və alt-standartları) ədəbiyyat təhsil proqramında ayrıca nəzərdən keçirəcəyik. Burada ancaq təlim nəticəsini qeyd edirik.



– bədii əsərləri obrazların xarakterinə, hadisələrin məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii əsərlərin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir;
– bədii əsərlərə janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir;
– bədii əsərlərin mövzu və ideyasını aydınlaşdırır, obrazları davranış və əməllərinə görə səciyyələndirir;
– öyrəndiyi yeni söz, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə ədəbi nümunələrlə bağlı fikrini aydın ifadə edir,
– müzakirələrdə ümumi rəyə gəlmək bacarığı nümayiş etdirir;
– müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini faktlarla əsaslandırır.

VII sinfin sonunda şagird:

– bədii nümunələri ideya - məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
– bədii nümunələrin məzmununu müxtəlif formalarda - yığcam, geniş, yaradıcı nağıl edir, əsas hadisələrə ilkin münasibət bildirir;
– bədii nümunələrə növ və janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir, obrazlılığa təsirini aydınlaşdırır;
– bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, digər obrazlarla qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə əsaslanmaqla surətləri səciyyələndirir;

- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə fikrini əhatəli, ardıcıl ifadə edir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, əsərdəki mühüm problemə əsaslandırılmış münasibət bildirir.

VIII sinfin sonunda şagird:

- bədii nümunələri emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, baş qəhrəmanlara ilkin münasibət bildirir;
- ədəbi növ və janr xüsusiyyətlərinə, təsvir və ifadə vasitələrinə əsaslanmaqla bədii nümunələrin ideya-məzmununa münasibət bildirir;
- bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, məişət təsvirlərindən, nitqlərindən çıxış etməklə obrazlara münasibət bildirir;
- şifahi təqdimatlarda, nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə əsaslandırılmış tənqidi münasibət bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə şəxsi təcrübəsinə və təəssüratlarına əsaslanmaqla münasibət bildirir.

IX sinfin sonunda şagird:

- müxtəlif ədəbi vəzndə olan bədii nümunələri ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, obrazlara ilkin münasibət bildirir;
- növünə və janrına, təsvir və ifadə vasitələrinə əsaslanmaqla ədəbi əsərləri bədii xüsusiyyətlərinə görə təhlil edir;



- bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, yazıçı mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları səciyyələndirir;
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktə fərqli mənbələrdən topladığı məlumatlara əsaslanmaqla münasibət bildirir.

**Tam orta təhsil səviyyəsində "Ədəbiyyat" fənni üzrə şagird:**

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;
- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə edir, əsaslandırılmış rəy bildirir;
- bədii nümunələrin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;
- ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;
- mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır

## Siniflər üzrə təlim nəticələri və məzmun standartları[9]

X sinfin sonunda şagird:

- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;
- müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu qavrayır, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini, obrazların səciyyəsini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə ona qiymət verir;
- çoxsüjetli epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
- şifahi məlumatlarda, bədii əsərlə bağlı müzakirələrdə mövzu, problemin mahiyyəti barədə dinləyicilərdə aydın təsəvvür yaratmaq üçün müxtəlif mənbələrdən sitatlar seçir, bədii nümunələrdən bəhrələnir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərə əsaslanmaqla ifadə edir.

XI sinfin sonunda şagird:

- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir;
- müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavrayır,

[9] Siniflər üzrə məzmun standartlarını(məzmun xətləri üzrə əsas və alt-standartları) ədəbiyyat təhsil proqramında ayrıca nəzərdən keçirəcəyik. Burada ancaq təlim nəticəsini qeyd edirik



mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir.
- çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir.
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır, nəticə çıxarır.
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə, ümumiləşdirmələr aparmaqla əsaslandırır.

(Unutmayaq: bir qədər əvvəldə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu"ndan təhsilin məqsədinə və vəzifələrinə dair seçmələrimizi və dövlət standartının 7-ci bölməsindəki tələbləri)

Ədəbi təhsilin vəzifələri və ədəbiyyat kursunun məzmunu ilə daha yaxından tanış olmaq üçün siniflər üzrə təlim nəticələrini nəzərdən keçirib tutuşdurmaq lazımdır. Siz burada sadədən mürəkkəbə doğru bir sistemin olduğunu aydın şəkildə görəcəksiniz. Fikir verin:

V sinfin sonunda şagird:

- bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;

VI sinfin sonunda şagird:

- bədii əsərləri obrazların xarakterinə, hadisələrin məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;

VII sinfin sonunda şagird:

– bədii nümunələri ideya - məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;

VIII sinfin sonunda şagird:

– bədii nümunələri emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun oxuyur, hissələrə ayırır, plan tərtib edir;

IX sinfin sonunda şagird:

– müxtəlif ədəbi vəzndə olan bədii nümunələri ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;

X sinfin sonunda şagird:

– ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;

XI sinfin sonunda şagird:

– ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir;

İfadəli oxu, əsəri hissələrə ayırma və planlaşdırma ilə bağlı sinifdən-sinfə təqdim olunan nəticələrinin məzmununa fikir verin. Fərqi gördünüzmü? Eyni qayda ilə ikinci abzasları (və o birilərini) nəzərdən keçirin. Yəqin ki, təlim nəticələrinin siniflər üzrə paylanması qaydaların ilə bağlı Sizlərdə müəyyən təsəvvür yaranmış oldu.

İndi isə ənənəvi kursla yeninin arasındakı digər fərqləri də sadalayaq.

Ənənəvi kursda fənyönümlülük(yəni fənnin mənafeyi, ancaq bilik verilməsi hədəf götürülür), yeni də isə nəticəyönümlülük(sonda əldə olunacaq bilik, və bacarıqlar əvvəlcədən müəyyən olunur), şəxsiyyətyönümlülük(şəxsiyyətin formalaşdırılması hədəf götürülür. Bunun üçün yaxşı olardı ki, Siz özünüz elə indi internetdən bu anlayışın məzmununu araşdırın, onun nə ifadə etdiyini müəyyən edin), şagirdyönümlülük, inkişafyönümlülük, inteqrativlik əsas



götürülür. Unutmayaq ki, bu cəhətlər də fənnin məzmuna, proqram materiallarının seçilməsinə öz təsirini göstərir .

Ənənəvi tədrisdə ədəbiyyat proqramı söz sahibinə çevrilir. Fənn kurikulumda isə təlim nəticələri və məzmun standartlarının tələbələri əsas götürülür. Aşağıda ənənəvi kursun vəzifələri ilə bağlı təqdim olunan məzmuna diqqət yetirin, onun müəllimyönümlü və ya şagirdyönümlü olmasını müəyyən edin.

Ənənəvi kursda güdülən məqsədlər proqramın izahat vərəqində belə şərh olunurdu:

- ədəbiyyat haqqında təsəvvür yaratmaq, onun söz sənəti kimi özünəməxsusluğunu, incəsənətin digər növləri ilə oxşar və fərqli cəhətlərini başa salmaq;

- ədəbiyyatın iki qolu – şifahi və yazılı ədəbiyyatın özünəməxsus cəhətləri, oxşar və fərqli xüsusiyyətləri, qarşılıqlı əlaqələrini öyrətmək;

- şifahi və yazılı ədəbiyyatın geniş yayılmış janrlarını və hər janr barədə yığcam nəzəri məlumatı mənimsətmək;

- ədəbiyyatımızın ümumi inkişaf yolu barədə təsəvvür yaratmaq;

- konkret seçmələrin öyrədilməsi əsasında dünya ədəbiyyatı haqqında təsəvvür yaratmaq;

- ədəbiyyat nəzəriyyəsindən zəruri biliklər vermək;

- bədii mətnin oxusu və təhlili üzrə zəruri bacarıqlar yaratmaq;

- ifadəli oxu bacarığını formalaşdırmaq;

- şifahi və yazılı nitqi inkişaf etdirmək.[10]

Göstərilən vəzifələrə diqqət yetirilsə, burada ədəbiyyat fənninin məzmununa dair ilkin təsəvvürlər almaq olur. Fikir verin ki, həmin məzmun bilikyönümlüdür, yoxsa şəxsiyyətyönümlü?

[10] Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı, Bakı 2003, səh. 6

Hər iki kursun tədrisi yollarında, üsullarında da fərqlər vardır. Ənənəvi kursda biliyin hazır şəkildə təqdim olunması əsas götürülürdü. Yeni kursda müəllim bu vəzifədən imtina edir. Şagirdlər müstəqil fəaliyyətə, araşdırmaya cəlb olunmaqla əvvəlcə qarşıya qoyulan problemlərin ilkin həlli yollarını göstərir, sonra isə aparacaqları araşdırmalarla onun doğruluğunu isbat edirlər.

Fənnin məzmunu anlayışının ənənəvi və yeni yanaşmada fərqli anlam ifadə etdiyi Sizlərə bəlli oldu. İndi isə məktəbdə ədəbiyyat tədrisinin necə təşkil olunmasına diqqətinizi cəlb edək.

Qüvvədə olan Qanuna əsasən ümumi təhsil pilləsi üç səviyyədə özünü göstərir: ibtidai təhsil, ümumi orta və tam orta təhsil. Ədəbiyyatın bir fənn kimi tədrisi olunması V sinifdən başlayır və XI sinifdə tamamlanır. Deməli, ədəbiyyat fənni ümumi orta və tam orta təhsil səviyyəsində özünü göstərir.

1. Birinci səviyyə V-IX sinifləri,
2. İkinci səviyyə X-XI sinifləri əhatə edir.

Birinci səviyyə özü də iki yerə bölünür:

a) V-VII siniflərdə ədəbiyyatın öyrədilməsi
b) VIII-IX siniflərdə ədəbiyyatın öyrədilməsi

Bu bölgü ənənəvidə də, yeni kursda da keçərlidir. Məlumdur ki, ədəbiyyat fənninin məzmununu ədəbi əsərlər təşkil edir. Ədəbi təhsilin *birinci mərhələsində*(V-VII siniflərdə) şagirdlərin mənəvi aləminin zənginləşməsində, estetik inkişafında, dünyagörüşünün formalaşmasında, ədəbi və həyati bilik və bacarıqlarının inkişaf etdirilməsində, bir şəxsiyyət və layiqli bir vətəndaş kimi yetişməsində rol oynaya biləcək əsərlər seçilib dərsliklərə, proqrama daxil edilmişdir (Onların, bu seçimlərin nə qədər uğurlu olub olmaması başqa söhbətin predmetidir). Bu siniflərdə klassiklərimizin və çağdaş sənətkarlarımızın bədii irsindən seçilən nümunələr, onlarda əksini tapan mütərəqqi, səfərbəredici, təlqinedici ideyalar(bu ideyaların əsasında isə vətən məhəbbəti, valideynə hörmət,



əməyə rəğbət və s. dayanır) şagirdlərimizin həyata hazırlanmasına, mənəvi dünyasının formalaşmasına, eyni zamanda standartlarda, qanunumuzda nəzərdə tutulan ideyaların uğurla həyata keçirilməsində müsbət töhfələrini verir.

*İkinci mərhələdə* isə(VIII-IX siniflərdə) ədəbiyyatımızın keçdiyi yol barəsində şagirdlərdə ümumi təsəvvürün yaradılması hədəf götürülmüşdür. Əsas diqqət klassiklərimizdən üzü bəriyə bədii irsimizin öyrədilməsi məsələlərinə yönəldilmişdir.

VIII sinifdə "Qədim dövr Azərbaycan ədəbiyyatı"ndan (XIII əsrə qədər)" "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", Ə. Xaqaninin "Gənclərə nəsihət", N. Gəncəvinin "Sultan Səncər və qarı", "Orta dövr Azərbaycan ədəbiyyatı"ndan (XIII əsrdən XVII əsrə qədər)" İ. Nəsiminin "Ağrımaz", Ş. İ. Xətayinin "Bahariyyə", M. Füzulinin "Söz", "Yeni dövr Azərbaycan ədəbiyyatı"ndan I mərhələ (XVII-XVIII əsrlər)" "Koroğlu ilə Bolu bəy", M. P. Vaqifin "Hayıf ki yoxdur", "Yeni dövr Azərbaycan ədəbiyyatı"ndan II mərhələ (XIX əsr)" Q. Zakirin "Durnalar", Aşıq Ələsgərin "Dağlar", S. Ə. Şirvaninin "Qafqaz müsəlmanlarına xitab", "Yeni dövr Azərbaycan ədəbiyyatı"ndan III mərhələ (XX əsrin əvvəlləri)" C. Məmmədquluzadənin "Qurbanəli bəy", M. Ə. Sabirin "Əkinçi", Ə. Haqverdiyevin "Bomba", M. Hadinin "Türkün nəğməsi", H. Cavidin "Ana", "Dünya ədəbiyyatından seçmə"lərdən M. A. Ərsoy "İstiqlal marşı" əsərləri dərsliyə daxil edilmişdir.

Seçilən nümunələrə fikir versək, onlarda şagirdlərin maraq, tələbat və ehtiyaclarının ödənilməsinə, həyati bacarıqlara yiyələnməsinə, təfəkkürünün və dünyagörüşü və mənəvi aləminin formalaşmasına xidmət göstərəcək məzmunun əks olunduğunu görürük. Şagirdlər Uruz bəyin simasında mərdlik, cəsurluq nədir, Xaqanidə gənclik hansı mənəvi keyfiyyətlərə sahib olmalıdır, Nizaminin əsəri ilə haqqı, həqiqəti söyləmək mümkünmü, Nəsimidə dözümlü, məğrur və iradəli insan necə ola bilər, Xətayidə təbiəti necə sevmək, onun gözəlliklərinə necə yanaşmaq olar, Füzulidə insan həyatında sözün mərtəbəsi nəyə

görə uca tutulmalıdır, "Koroğlu"da igidliyin hansı keyfiyyətləri vardır(liderlik keyfiyyətinə yiyələnmək işinə necə sahib çıxmaq olar), Vaqifdə sözü necə söyləmək, fikrini necə məharətlə ifadə etmək, Zakirdə insanın mənəvi aləmi necə zəngin ola bilər, nələr insanın daxili aləmini gözəlləşdirər, Aşıq Ələsgərdə təbiət gözəlliyi insanın duyğularına, vətən sevgisinə nələri gətirə bilər, Şirvanidə ziyalı narahatlığı nədir, o narahatılq kim və ya nə üçündür, o narahatlığı keçirməyinə dəyərmi, Mirzə Cəlildə insan təbiətindəki Qurbanəliliyin insanın özünə və ətrafına nələri gətirə bilər, buna ehtiyac varmı, belə olmamaq mümkünmü, belə halın yaranması səbəblərini aradan qaldırmaq olarmı, Sabirdə əməkçi insan nələrə haqq edə bilər, Haqverdiyevdə hansı əməllər insan mənəviyyatını zənginləşdirər, Hadidə hansı duyğular millət sevgisini, türkçülüyü, azadlıq eşqini daha da zənginləşdirər, Caviddə ana dünyasına nələr xasdır, Ərsoyda azadlıq duyğuları nəğməyə necə çevrilə bilər suallarına cavab tapacaqlar. Əsas məsələ bu cavablara elmi-metodik, pedaqoji-psixoloji baxımından gedən yolun düzgün tutulmasından asılıdır.

İndi də IX sinif materiallarına nəzər salaq. Bu sinifdə də ədəbiyyatımızın sonrakı(1918-1920-ci ildən bəriyə) inkişaf meylləri izlənilmişdir. "Milli-mədəni dirçəliş və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat"dan (1918-1920-ci illər) Ə. Cavadın "Azərbaycan bayrağına", C. Cabbarlının "Ana", "İctimai-siyasi ziddiyyətlər və repressiya dövründə ədəbiyyat"dan(1920-1940-ci illər) A. Şaiqin "Anabacı", Y. V. Çəmənzəminlinin "Zeybək qızı", A. İldırımın "Əsir Azərbaycanım", M. Müşfiqin "Həyat sevgisi", "İkinci dünya müharibəsi dövründə ədəbiyyat"dan(1941-1945-ci illər) S. Vurğunun "Ananın öyüdü", S. Rüstəmin "Təbrizim", Mir Cəlalın "Vətən yaraları", "Müharibədən sonrakı dövrdə ədəbiyyat"dan(1946-1960-cı illər) E. Heminqueyin "Qoca və dəniz", M. Şəhriyarın "Heydərbabaya salam", M. İbrahimovun "Gələcək gün", "Milli özünəqayıdış dövründə



ədəbiyyat"dan(1961-1990-cı illər) R. Rzanın "Çinar ömrü", İ. Şıxlının "Namərd gülləsi", İ. Hüseynovun "Zəhər", M. Arazın "Əsgər məktubu", Ə. Kərimin "Qaytar ana borcunu", Anarın "Keçən ilin son gecəsi", Elçinin "Talvar", "Müstəqillik illərində ədəbiyyat"dan (1991-ci ildən günümüzə qədər) Q. İlkinin "İntiqam", B. Vahabzadənin "İstiqlal", X. R. Ulutürkün "Qaytar mənim qüdrətimi, Azərbaycan!" əsərləri şagirdlərdə ədəbi bilik və bacarıqlarının inkişaf etdirilməsinə cəlb olunmuşdur.

VIII-IX siniflərdə müxtəlif ədəbi dövrlər üzrə materialları təqdim olunanda dövrün yığcam ədəbi-mədəni xülasəsinin verilməsini(baxmayaraq ki, standartlarda bu nəzərə alınmamışdır) müsbət qarşılamaq lazımdır. Giriş(bələdçi) rolunu oynayan bu icmallar ədəbi əsərlərin, onların qaldırdığı ideyaların daha yaxşı anlaşılmasına imkan verir.

Unutmayaq ki, ümumi orta təhsil məcburi xarakter daşıyır və bu səviyyəni bitirən yeniyetmələrimiz peşə liseylərində, orta ixtisas məktəblərində təhsillərini davam etdirə bilərlər. Bunu nəzərə alan dərslik ədəbiyyatımızın inkişaf yolu barədə yığcam təsəvvür verməli idi və hazırda bu vəzifəni lazımi səviyyədə yerinə yetirmişdir.

X-XI siniflər tam orta təhsil səviyyəsini əhatə edir. Bu siniflərdə ədəbiyyat fənni tarixi-ədəbi prinsip əsasında təqdim olunur. Qədim ədəbiyyatımızın keçdiyi yol ilə bağlı ümumi təsəvvür yaradılır. Bu siniflərdə - hələlik 10-cu sinifdə ədəbi materiallar aşağıdakı başlıqlarda təqdim olunur.

1. Azərbaycan şifahi xalq ədəbiyyatı
2. Qədim dövr Azərbaycan ədəbiyyatı (Ən qədim zamanlardan XIII əsrə qədər)
3. Orta dövr Azərbaycan ədəbiyyatı(XIII-XVI əsrlər)
4. Yeni dövr Azərbaycan ədəbiyyatı. I mərhələ (XVII-XVIII əsrlər)
5. Yeni dövr Azərbaycan ədəbiyyatı. II mərhələ (XIX əsr).

Bunlar layihə formasında araşdırılacaq icmallardır. Amma burada dövrün ədəbi tarixi mənzərəsi ilə bağlı yığcam məlumat da verilmişdir. Unutmayaq ki, standartlarda belə bir məlumatın təqdimi nəzərdə tutulmamışdır.

Həmin sinifdə təqdim olunan sənətkarların həyatı və yaradıcılıq yolu barədə də yığcam məlumat verilmişdir. Bu məlumatlar da layihə formasında təqdim olunmuşdur. Belə bir məlumatın da verilməsi standartlarda nəzərə alınmamışdır. Amma belə bir yığcam məlumatın verilməsini, bu səpkidə axtarışların aparılmasını müsbət qəbul etmək olar.

Deməli, X sinifdə

- icmallar(layihə),
- sənətkarın həyatı, yaradıcılıq(layihə),
- ədəbi əsərlər,
- ədəbi-nəzəri məlumatlar,

əks olunurlar.

Ədəbiyyat fənnin məzmunu Sizlərə daha aydın olsun deyə başlıqları, sənətkarları və tədrisi nəzərdə tutulan əsərləri diqqətinizə çatdırırıq:

1. Azərbaycan şifahi xalq ədəbiyyatı(layihə)

2. Qədim dövr Azərbaycan ədəbiyyatı (Ən qədim zamanlardan XIII əsrə qədər) (layihə)

- "Kitabi-Dədə-Qorqud" eposu. "Salur Qazanın evinin yağmalandığı boy".
- N. Gəncəvinin həyatı, yaradıcılıq yolu. "İskəndərnamə" poeması.

3. Orta dövr Azərbaycan ədəbiyyatı(XIII-XVI əsrlər) (layihə)

- Nəsiminin həyatı, yaradıcılıq yolu. "Sığmazam"
- Xətayinin həyatı, yaradıcılıq yolu (layihə). "Dəhnamə"
- M. Füzulinin həyatı, yaradıcılıq yolu (layihə). "Məni candan usandırdı". "Leyli və Məcnun".

4. Yeni dövr Azərbaycan ədəbiyyatı. I mərhələ (XVII-XVIII əsrlər) (layihə)



- "Koroğlu" eposu. "Həmzənin Qıratı aparması"
- M. P. Vaqifin həyatı, yaradıcılıq yolu (layihə)."Pəri".

5. Yeni dövr Azərbaycan ədəbiyyatı. II mərhələ (XIX əsr) (layihə)

- Q. Zakirin həyatı, yaradıcılıq yolu (layihə). "Badi-səba mənim dərdi-dilimi..."
- M. F. Axundzadənin həyatı, yaradıcılıq yolu (layihə). "Hekayəti- Müsyö Jordan həkimi-nəbatət və dərviş Məstəli şah caduküni- məşhur". "Aldanmış kəvakib".
- Aşıq Ələsgərin həyatı, yaradıcılıq yolu (layihə). "Dağlar".
- S. Ə. Şirvaninin həyatı, yaradıcılıq yolu (layihə). "Guş qıl".
- N. Vəzirovun həyatı, yaradıcılıq yolu (layihə). "Müsibəti-Fəxrəddin".

XI siniflər ədəbiyyat fənni üçün hələlik işlər davam etdirilir və bir il sonra orada da hansı sənətkarların və əsərlərin tədrisinin nəzərdə tutulacağının şahidi olacağıq.

Fənnin məzmunundan, öyrədiləsi sistemindən danışanda "Şifahi nitq", "Yazılı nitq" məzmun xətlərində nəzərdə tutulan işləri də nəzərdən keçirmək lazımdır.

Avropa Şurasının 2006-cı ildə qəbul etdiyi(18.12.2006) qərarı, bu günün insanı üçün zəruri olan ən vacib səriştələr içərisində birinci sırada "ana dilində ünsiyyət bacarıqları" dayanır. Bu olduqca ciddi tələbdir. Ədəbiyyat dərslərində ünsiyyət bacarıqlarının formalaşdırılması daim diqqətdə saxlanılır və müxtəlif siniflər üzrə standartların irəli sürdüyü vəzifələrin icrasını zəruri edir.

Şifahi və yazılı nitq məzmun xətlərinin əhatə etdiyi alt-standartlar da sadədən mürəkkəbə doğru, iyerarxik prinsiplə düzülmüşdür. Bunlardan birini nəzərdən keçirək:

V sinifdə:

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.

VI sinifdə:

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini obrazlı sözlərdən və ifadələrdən istifadə etməklə şərh edir.

VII sinifdə:

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh edir.

VIII sinifdə:

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.

IX sinifdə:

2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

X sinifdə:

2.1.2. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır.

XI sinifdə:

2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.

Eyni qayda yazılı nitq məzmun xətində də vardır. Buyurub özünüz onların nəzərdən keçirə bilərsiniz. Biz nümunə üçün aşağıda bir alt-standartın məzmununun V sinifdən başlayaraq necə paylaşdığını göstəririk:

V sinifdə:

3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.

VI sinifdə:

3.1.2. Bədii nümunələrdəki başlıca fikri anladığını nümayiş etdirir.

VII sinifdə:

3.1.2. Bədii nümunələrdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.

VIII sinifdə:

3.1.2. Əlavə məlumatlara və təəssüratlarına əsaslanmaqla mövzuya və problemə münasibət bildirir.



IX sinifdə:

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.

X sinifdə:

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

XI sinifdə:

3.1.2.Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

XI sinif ənənəvi kurs olduğundan oradakı məzmunu da xatırlatmaq yerinə düşür. Unutmayaq ki, hazırkı XI sinif keçən ilki (X sinifdə öyrədilən) kursun davamı kimi çıxış edir. Burda da xronoloji(ədəbi-tarixi) prinsip əsas götürülmüşdü. Buradakı materialların məzmunu və yerləşdirilməsi ənənəvi kursun tələbələrinə uğun idi(bilikyönümlülük, fənyönümlülük, müəllimyönümlülük, təklifyönümlülük və s.). Həmin kursun da başlıca məqsədi ədəbiyyat tarixinə dair şagirdlərə mükəmməl biliklərin verilməsi idi. Kursun əhatə etdiyi mövzuları aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Giriş xarakterli icmal
2. Ədəbi-tarixi icmallar
3. Geniş şəkildə öyrədilən sənətkarların həyatı haqqında ümumi məlumatlar
4. Geniş şəkildə öyrədilən sənətkarların yaradıcılığının ümumi mənzərəsini əks etdirən icmallar
5. Geniş şəkildə öyrədilən sənətkarın konkret əsəri
6. Ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar
7. Sinifdənxaric oxu materialları

Biz beləliklə orta məktəbdə ədəbiyyat kursunun məzmunu və öyrədilməsi sisteminə dair məlumatları nəzərdən keçirdik. Bizə aydın oldu ki, hər bir ədəbiyyat müəllimi kursun məqsəd vəzifələrini bilməklə yanaşı onun məzmununu, onun

orta məktəbdə necə yerləşdirilməsinə də bələd olmalıdır. Bu, bütövlükdə kursun bir bütöv halında göz önündə canlanmasına, müəllimin hər hansı bir sinifdə fəaliyyət göstərməsinə ümumi istiqamət verir.

**?!**

1. **Ədəbiyyat fənninin məzmunu və məktəbdə öyrədilməsi sistemi barədə nə kimi biliklərə yiyələndiniz?**
2. **Onun məzmunu necə müəyyənləşir?**
3. **Ədəbiyyat proqramında fənnin qarşısında duran vəzifələr barəsində nə deyilir?**
4. **Ədəbi təhsil neçə pillədə həyata keçirilir? Onların səciyyəvi cəhətləri ilə bağlı nə deyə bilərsiniz?**



## ƏDƏBİYYAT FƏNN ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

Ədəbiyyat fənn kurikulumundan(təhsil proqramı) danışmazdan öncə *kurikulum, fənn kurikulumu və tədris proqramı* anlayışlarına nəzər salmaq gərəkdir. Kurikulum sözünün mənası *yol, istiqamət* deməkdir. Hal-hazırda təhsil haqqında Qanunumuzda bu termin "təhsil proqramı" kimi işlənir. Ənənəvi tədris proqramı ilə bu anlayış həm məzmun, həm də struktur baxımından xeyli fərqlənir. *Təhsil proqramı(Kurikulum) təhsilin məzmunu(1), təşkili(2) və qiymətləndirilməsi(3) ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual(əsas, ümumi) sənəddir.*

Biz aşağıda hər iki proqramın qısa məğzi ilə Sizləri tanış edirik. Ənənəvi ədəbiyyat proqramı iki hissədən ibarət idi (və bildirək ki, onun bitməsinə bir il qalır):

**- giriş**(izahat vərəqi);

- **əsas hissə.**

**Giriş**də ədəbiyyat proqramının məzmunu, ədəbi təhsilin sistemi, tədris prosesində istifadə olunacaq təlim üsulları barədə qısa məlumat verilirdi. Bu müəllimə istiqamət vermək səciyyəsi daşıyırdı.

**Əsas hissə**də proqram materialları və onların siniflər üzrə bölgüsü təqdim olunurdu. Bu hissədə:

- hər bir sinif üzrə fənnin tədrisinə ayrılan saatın ümumi miqdarı,
- siniflər üzrə proqram materialları və onların tədrisinə ayrılan saatlar,
- proqram materiallarının qısa şərhi,
- ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar,
- fənlərarası əlaqə,
- sinifdənxaric oxu üçün tövsiyə olunan materiallar göstərilirdi.

Yeni təhsil proqramı məzmunca tamamilə fərqli şəkildə yaradılmışdır. Hər iki proqramın məzmun fərqinə diqqət yetirək:

| Ənənəvi tədris proqramı | Müasir təhsil proqramı (kurikulum) |
|---|---|
| *Bilikyönümlüdür* | *Şəxsiyyətyönümlüdür* |
| *Müəllimyönümlüdür* | *Şagirdyönümlüdür* |
| *Fənyönümlüdür* | *Nəticəyönümlüdür* |
| *Təklifyönümlüdür* | *Tələbyönümlüdür* |
| *İnteqrasiya sistemli deyil* | *Inteqrativlik əsas prinsipdir* |
| *Qiymət normaları dəqiq deyil* | *Qiymətləndirmə standartı və mexanizmləri müəyyən edilib* |

Cədvəldəki anlayışlara bir aydınlıq gətirək. Göründüyü kimi ənənəvi proqram daha çox, bilikyönümlü(yəni şagirdlərin bilik qazanmaların üstünlük verilməsi), müəllimyönümlü(bütün işlər müəllimin fəaliyyətinə istiqamətlənməsi, müəllim subyekt, bilikötürən kimi çıxış etməsi), fənyönümlü(fənnin mənafeyi əsas götürülməsi), təklifyönümlü(ehtiyac və tələbatın nəzərə alınmaması) idi və qiymət normaları isə, demək olar ki, əks olunmurdu. Burada fəndaxili və fənlərarası əlaqə də məqsədyönlü və sistemli xarakter daşımırdı, tədris prosesi yaddaşa, hafizəyə əsaslanırdı.

Yeni təhsil proqramı "yaddaş" məktəbindən "düşüncə" məktəbinə keçidə əsaslanır, təfəkkürün, biliklərin həyati bacarıqlara çevrilməsinə, bacarıqların inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Təlim prosesinin məzmunu, iştirakçıların daşıdıqları vəzifə tamamilə dəyişir. Müəllim bilikötürən, şagird isə passiv dinləyici imicindən uzaqda tutulur. Şagirdə daha şahmat fiquru kimi yanaşılmır ki, onun rəyi soruşulmadan onu taxtanın istənilən yerinə qoyasan. O, təlim prosesinin bərabər tərəfdaşı, fəal, düşünən, düşündüklərini sərbəst surətdə ifadə etməyi bacaran, fərqli fikir və mövqelərə hörmətlə yanaşan bir iştirakçısı kimi çıxış edir. Təlimdə əməkdaşlıq, qarşılıqlı anlaşma, subyekt-subyekt münasibətləri, şagirdin maraq, tələbat



və ehtiyaclarına ünvanlanma, şəxsiyyətyönümlülük, nəticəyönümlülük, inteqrativlik və s. məsələlər əsas məzmuna çevrilir.

Cədvəlin ikinci sütununda əksini tapan həmin anlayışların nə bildirdiyini metodik ədəbiyyat belə izah edir:

*Şəxsiyyətyönümlülük* – təhsil alanın idraki, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşdırılmasıdır.

*Şagirdyönümlülük* – təhsil sahəsində fəaliyyətlərin təhsilalanların mənafeyinə, maraq və tələbatlarının ödənilməsinə, istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına xidmət etməsidir.

*Nəticəyönümlülük* – nəzərdə tutulan təlim nailiyyətlərinin nəticələr formasında əvvəlcədən müəyyən edilməsidir.

*Tələbyönümlülük* – fərdin, cəmiyyətin və dövlətin dəyişən ehtiyac və tələbatlarının nəzərə alınmasıdır.

*İnteqrativlik* – təhsilin məzmun komponentlərinin bir-biri ilə və həyatla sistemli şəkildə əlaqələndirilməsidir.

*Qiymətləndirmə standartları* – təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

Adlarını qeyd etdiyimiz bu anlayışlar təhsilin yeni bir keyfiyyət, sistem üzərində qurulduğunu isbat edən tamamən yeni məsələlərdir.[11]

Sizin diqqətinizi ədəbiyyat təhsil proqramına yönəltmək istəyirik. Haqqında danışacağımız təhsil proqramı(kurikulum) öz yerini yenisinə təhvil vermək üzrədir. Artıq yeni təhsil proqramı layihə formasında dərc olunmuşdur. Onun təsdiq olunması və fəaliyyət başlanmasına az bir zaman qalmışdır. Buna baxmayaraq biz hazırda V- X sinfin istifadəsində olan təhsil proqramının məzmunundan danışmağa məcburuq.

[11] Bax: Veysova Z., Ümumi orta təhsil səviyyəsi üzrə yeni fənn kurikulumlarının tətbiqi, təlimçilər üçün vəsait, Bakı 2013., səh.26

Ədəbiyyat təhsil proqramı(kurikulumu) "Təhsil haqqında" Qanunu və "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" sənədinin müddəalarını əldə rəhbər tutur. O, mövcud qaydaya əsasən **üç** böyük **bölməni** əhatə edir: *fənnin məzmunu, təlim strategiyaları* [12] *və şagird nailiyyətinin qiymətləndirilməsi.*

Ənənəvi tədris proqramı ilə fənn kurikulumunun strukturunu müqayisə etmək baxımından aşağıdakı cədvəli diqqətinizə təqdim edirik[13]:

## Fənn kurikulumunun strukturu və məzmunu

**Fənn kurikulumunun strukturu**




"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramlar (kurikulumlar)" konseptual sənədini bu cədvəllə tutuşdursaq, aydın olacaq ki, birinci sənəd 14, fənn kurikulumu isə 3 bölmədən(fənnin məzmunu, təlim strategiyaları və şagird

[12] Təlim strategiyası- təhsil prosesində istifadə olunan forma, metod , üsul və vasitələrinin məcmusudur(hədəf, ona çatmaq yolu, üsulu və vasitələri).
[13] Cədvəl Aydın Əhmədovun kurikulum təlimləri üçün tərtib etdiyi slaydlardan götürülmüşdür(2006-ci il).



nailiyyətlərinin qiymətləndirilməsi) ibarətdir. Birinci sənəd ümumi konsepsiyanı əhatə edir. Fənn təhsil proqramı (kurikulumları) isə bu sənəddən ümumi təlim nəticələrini, fənnin məzmun standartlarını, təlim strategiyalarını və qiymətləndirməni götürür.

Cədvəl fənn kurikulumunu qısa şəkildə əks etdirir. Onun tərkibini bir qədər genişdir. Bunu aşağıdakı kimi əyaniləşdirək:

**Giriş**

-Ədəbiyyat fənni üzrə təhsil proqramı və onun xarakterik cəhətləri

-Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri

**<u>I. Ədəbiyyat təliminin məzmunu</u>**

**1.1. Ümumi təlim nəticələri**

- Ümumi orta təhsil səviyyəsi(V-IX siniflər) üzrə şagird:

..... (5 ildə ədəbiyyat üzrə nələri bilməli və bacarmalıdır, onlar təqdim olunur).

- Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:

..... (2 ildə ədəbiyyat üzrə nələri bilməli və bacarmalıdır, onlar təqdim olunur).

**1.2. Məzmun xətləri**

**...**(məzmun xətlərinin adları çəkilir).

**-** Ümumi orta təhsil səviyyəsində məzmun xətlərinin əsaslandırılması

....(nə üçün həmin məzmun xətləri seçilmiş sualına aydınlıq gətirilir).

- Tam orta təhsil səviyyəsində məzmun xətlərinin əsaslandırılması

..... (nə üçün həmin məzmun xətləri seçilmiş sualına aydınlıq gətirilir).

**1.3. Məzmun xətləri üzrə təlim nəticələri**

**-** Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri:

....(hər bir məzmun xəttinin təlim nəticələri göstərilir).

- Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri:

.... (hər bir məzmun xəttinin təlim nəticələri göstərilir).

**1.4. Fəaliyyət xətləri**

**....** (fəaliyyətin məzmunu verilir).

**1.5. Məzmun standartları**

**V sinif**

V sinfin sonunda şagird:

... (şagirdləri əldə edəcəkləri bilik və bacarıqların məzmunu verilir).

Məzmun standartları üzrə əsas və alt-standartlar**:**

1**.** Ədəbiyyat və həyat həqiqətləri:

...(əsas və alt-standartlar göstərilir).

2. Şifahi nitq:

...(əsas və alt-standartlar göstərilir).

3. Yazılı nitq:

... (əsas və alt-standartlar göstərilir).

**VI sinif**

**(**V sinifdəki kimi bundan sonra gələn siniflər üzrə quruluş beləcə davam edir**)**

**VII sinif**

**VIII sinif**

**IX sinif**

**X sinif**

**XI sinif**

**1.6. Fəndaxili və fənlərarası inteqrasiya**

**<u>II. Təlim strategiyaları</u>**

**2.1. Ədəbiyyat təliminin təşkilinə verilən əsas tələblər**

**2.2. Ədəbiyyat təliminin təşkilində istifadə olunan forma və üsullar barədə**



**2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr**

**2.4. Ədəbiyyat fənninin məzmun standartlarının şərhi**

**<u>III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi</u>**

**Tezaurus (sözlük, terminlər)**

**IV. Resurslar**

**Istifadə olunmuş ədəbiyyat**

Başlıqlarda əksini tapan məsələləri aydınlaşdırmaqdan əvvəl bir neçə məqama fikir verək. Xatırladaq ki, rəsmi sənədlərin müəllimdən nə istədiyi aydın olduqdan sonra daha bir vacib məsələ - ədəbiyyat fənninin məqsədi və məzmunu da diqqətdə saxlanılmalıdır. Hər bir müəllim ədəbiyyatın orta məktəbdə nə üçün tədris olunduğunu, onun üzərinə nə kimi vəzifələr qoyulduğunu aydın təsəvvür etməlidir. Bildirək ki, ədəbiyyat təhsil proqramının girişində bu barədə söhbət açılmışdır.

Həmin rəsmi sənəddə dövlətin nə istədiyi ətraflı şəkildə izah olunmuşdur. Hər bir ədəbiyyat müəllimi bu məzmunu bilməli və fəaliyyətində onu həyata keçirməlidir. Çünki bizim görəcəyimiz işin nədən ibarət olduğunu həm də bu rəsmi sənəd[14] aydın ifadə edir.

Gəlin birlikdə o məzmunu izləyək:

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri:**

- Humanist və demokratik ideyaları əks etdirən ədəbiyyatımızın ümumtəhsil məktəblərində tədrisi milli dövlətçilik maraqları baxımından böyük əhəmiyyət kəsb edir. Məktəb ədəbiyyat kursu həqiqi vətəndaşın və müasir dünyagörüşlü şəxsiyyətin yetişməsində mühüm rolu olan fənlərdəndir.

[14] Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər), Bakı: 2013.

Qüdrətli tərbiyə vasitəsi olan bədii söz sənətimiz şagirdlərin mənəvi-estetik tərbiyəsi, xalqın ədəbi-mədəni irsini, tarixi keçmişini, mübarizəsini, adət-ənənələrini öyrənmək üçün mötəbər mənbə, etibarlı qaynaqdır. *Müasir məktəbdə müstəqil düşünməyi, qazandıqları bilikləri tətbiq etməyi, qarşılaşdıqları problemləri həll etməyi bacaran, saf mənəviyyatlı, təşəbbüskar, yaradıcı, demokratik ruhlu, humanist gənclər tərbiyə edilməsi sosial tələb kimi meydana çıxır(seçmələr bizimdir – F.Y.).*

Orta məktəbi bitirən *hər bir gənc bədii ədəbiyyatı*, *digər mənbələri* **oxumağı, təhlil etməyi, qiymətləndirməyi, öz biliklərini müstəqil şəkildə artırmağı bacarmalı**, **fasiləsiz təhsilə hazır olmalıdır**. Məktəb ədəbiyyat kursunda yüksək ideya-bədii dəyərə malik əsərlərin öyrədilməsi əsasında şagirdlərdə *mütaliə bacarığı* formalaşır, onların *ədəbi təhsili, tərbiyəsi və inkişafı* təmin olunur(*seçmələr bizimdir* – F.Y.).

*Ədəbiyyat* həyatı ümumiləşdirilmiş şəkildə, obrazlar vasitəsilə əks etdirən söz sənəti kimi *şagirdlərin müstəqil həyata hazırlanmasında, həyati əhəmiyyət kəsb edən bacarıqlara yiyələnməsində mühüm rol oynayır. Bədii ədəbiyyatın "insanşünaslıq", "həyat dərsliyi" adlandırılması bu fənnin hər bir şagird – oxucu üçün özünü, həyatı, insanı dərk etmək vasitəsi kimi əhəmiyyətini ifadə edir(seçmələr bizimdir – F.Y.).*

Firudin bəy Köçərli yazırdı: "Hər bir millətin şöhrət və əzəmətinə, tərəqqi və səadətinə bais olan səbəblərdən birisi də onun ədəbiyyatıdır. Ədəbiyyat xalqın aineyi-həqiqətnümasıdır ki, onun maddi və mənəvi tərəqqisini və istiqbalı üçün nicat və səadət yollarını eynilə göstərir. Ədəbiyyat ...millətin cisminə şəfa, ruhuna səfa, fikrinə cila, ağlına və təmami mənəvi və ruhani qüvvələrinə qol-qanad verib uca məqama qaldırır".

Ədəbiyyatdan müxtəlif məşğələlərdə Azərbaycan ədəbiyyatının, eləcə də dünya xalqlarının ədəbiyyatından *seçilmiş nümunələrin müzakirəsi şagirdlərin müasir dövrdə xüsusi aktuallıq kəsb edən mənəvi-estetik problemləri, həyatda, cəmiyyətdə baş verən dəyişiklikləri dərk edib*



*qiymətləndirmələrinə, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmələrinə imkan yaradır (seçmələr bizimdir – F.Y.).*

Azərbaycan ədəbiyyatı əsrlərdir təlim-tərbiyə məktəbi funksiyasını yerinə yetirir. Gözünü dünyaya açan körpəni ananın oxşamaları, laylaları qarşılayır, dil açıb yeriməyə başlayanda sanamalar, düzgülər, tapmacalar, yanıltmaclar, uşaq nağılları onun nitqini, təfəkkürünü inkişaf etdirir*, həyat üçün zəruri olan ilkin bacarıqlar* formalaşdırır.

Ədəbi əsərlərin öyrədilməsi zamanı şagirdlərin *şifahi və yazılı nitqi* tədricən cilalanır. *Şagirdlər ana dilimizdə yazılmış əsərlərdə dilin gözəlliyini, dərin fikir və ifadə zənginliyini görüb-götürür. Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir(seçmələr bizimdir – F.Y.).*

Ədəbiyyat dərslərində *nitq inkişafı üzrə aparılan işlər* məktəblilərdə *bədii sözə həssas münasibətin yaradılmasına, sözün, fikrin məna incəliklərini duymaq, ifadə etmək bacarığının formalaşdırılmasına imkan yaradır(seçmələr bizimdir – F.Y.).*

Ədəbiyyatın məktəbdə öyrədilməsi zamanı *bədii zövqün formalaşdırılması diqqət mərkəzində saxlanılır, şagirdlərin həyatda, insanda olan gözəlliyi duymaq, qiymətləndirmək bacarığı inkişaf etdirilir(seçmələr bizimdir –F.Y.).*

Ümumtəhsil məktəblərində **ədəbiyyat təliminin məqsədi** bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnmələrinə nail olmaqdır. Bu məqsədlə aşağıdakı **vəzifələrin** həyata keçirilməsi təmin edilir.

**Ümumi orta təhsil səviyyəsində**:

İncəsənətin bir növü kimi söz sənətinin - şifahi və yazılı ədəbiyyatın xalqın mənəvi sərvəti olması, həyatı, taleyüklü

məsələləri özünəməxsus bədii vasitələrlə əks etdirməsi barədə şagirdlərdə dolğun təsəvvür yaradılır.

Milli və dünya ədəbiyyatından seçilmiş kamil sənət nümunələri vasitəsilə məktəblilərdə sözə, söz sənətinə həssas, bədii-emosional münasibət formalaşdırılır, təhlil, dəyərləndirmə, fikirlərini şifahi və yazılı çatdırmaq bacarığı inkişaf etdirilir.

Ədəbiyyat nəzəriyyəsi üzrə zəruri biliklərə və mütaliə mədəniyyətinə yiyələnən şagirdlərdə konfliktlərə, problemlərə, ədəbi nailiyyətlərə əsaslandırılmış münasibətin formalaşması təmin edilir.

**Tam orta təhsil səviyyəsində:**

Şagirdlərin ümumi orta təhsil səviyyəsində qazandıqları bacarıq və vərdişləri təkmilləşdirilməklə, tarixi-xronoloji ardıcıllıqla Azərbaycan ədəbiyyatının çoxəsrlik inkişaf yolu, ədəbi ənənə və əlaqələri, Azərbaycan və dünya ədəbiyyatının görkəmli ədəbi simalarının yaradıcılığından nümunələr öyrədilir, ədəbiyyat nəzəriyyəsinə dair məlumatlar genişləndirilir, şagirdlərin ədəbi-bədii, tənqidi təfəkkürünün formalaşması təmin olunur.

Ümumtəhsil məktəblərində ədəbiyyatın təlim fənni kimi məzmununun əsasını Azərbaycan ədəbiyyatının kamil nümunələrinin, eləcə də dünya ədəbiyyatından seçmələrin oxusu və öyrənilməsi təşkil edir. Ədəbi əsərlərin qavranılması, təhlili tarixi və ədəbi-nəzəri biliklərə, bacarıqlara əsaslanmaqla həyata keçirilir[15].

Ədəbiyyat təhsil proqramında əksini tapan təqdim etdiyimiz nümunə ilə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunundan seçdiyimiz məzmunu müqayisə edin və onların arasında nə kimi bənzəyişlərin olduğuna diqqət yetirin.

[15] Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər), Bakı: 2013, səh. 5-8.



Ədəbiyyat təhsil proqramında məqsəd və vəzifələrdən sonra **ümumi təlim nəticələrinə**, **məzmun xətlərinə, siniflər üzrə təlim nəticələrinə** oradan da **məzmun xətləri üzrə əsas və alt-standartlara** keçmək olar.

Belə deyək ki, ədəbiyyat fənninin məqsəd və vəzifələri aydındır. Onda ümumi orta və tam orta təhsil səviyyəlində təlimin nəticəsi nə olmalıdır? IX və XI sinif bitirən şagirdlərdən hansı bilik və bacarıqlar tələb olunur? Rəsmi sənəddə bu ümumi təlim nəticələri ardıcıl şəkildə qeyd olunmuşdur.

Ümumi təlim nəticələri, adından göründüyü kimi, təlim prosesinin ümumi nəticəsinin nədən ibarət olduğunu göstərir; ümumi orta(V-IX siniflər) və tam orta(X-XI siniflər) təhsil səviyyələrində şagirdlərə əldə edəcəkləri bilik və bacarıqların məzmununu (məzmun standartını) ifadə edir. Fənn kurikulumu bu ümumi təlim nəticələrini siniflər üzrə sadədən mürəkkəbə doğru, iyerarxiya prinsipi ilə paylaşdırır. Siz bunun üçün hər bir sinif üzrə gözlənilən təlim nəticələrə baxın. Onda hər şey Sizə daha yaxşı bəlli olacaqdır. Təlim nəticələrini əldə etmək üçün dərslərdə ilboyu məzmun xətləri üzrə nəzərdə tutulan standartlar "işləməlidir". Həmin standartlar məhz bu təlim nəticələrinin əldə olunması üçündür. Əgər dərslərdə onlar davamlı şəkildə istifadə olunmazsa, təlim nəticələrini əldə edə bilmərik. Bu, rəsmi dövlət standartıdır.

Ümumi təlim nəticələrində ifadə olunan məzmunu(bilik və bacarıqları) bir neçə başlıqda qruplaşdırıb vermək olar(Çünki oradakı məzmun dağınıq və səpəli kimi görünür). Həmin qruplaşdırma işi məzmun xətti kimi adlanır. Hər məzmun xətti uyğun olan bilik və bacarıqları ifadə edir.

"Ədəbiyyat" fənni üzrə üç məzmun xətti[16] müəyyənləşdirilmişdir: *1. Ədəbiyyat və həyat həqiqətləri, 2. Şifahi nitq, 3.*

[16] Məzmun xətti – fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasına təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir. Bir rəqəmlə işarələnir və sıralanır (məsələn, 1., 2., 3.). Bütün siniflər üzrə eyni olur.

*Yazılı nitq*. Niyə 4, 5 yox məhz 3 məzmun xətti? Fənn kurikulumu bu seçimi əsaslandırır və hər bir məzmun xətti üzrə gözlənilən nəticələri irəlicədən qeyd edir. Sonra isə hər məzmun xətti üzrə əsas və alt-standartları seçib təqdim edir.

Biz istərdik ki, Siz əvvəlcə, müxtəlif siniflər üzrə məzmun xətlərinin adlarına(1), sonra əsas standartların [17] məzmununa(2), nəhayət, alt-standartların[18] məzmununa(3) fikir verəsiniz. Onda bu sənədin necə qurulmasına dair Sizdə daha düzgün təsəvvür yaranar. Onlarda nəyi sabit, nəyin isə dəyişkən olduğun aydın şəkildə görəcəksiniz. Bu işi görəndən sonra aşağıdakı cədvələ nəzər salaraq biliklərinizin doğruluğunu yoxlayın.




[17] Əsas standart - fənlər üzrə müəyyən olunan təlim nəticələrini məzmun xətləri üzrə ümumi şəkildə ifadə edir. İki rəqəmlə işarələnir(1.1.; 1.2 və s.). Siniflər üzrə əsasən dəyişməz qalır

[18] Alt-standart – əsas standartın tərkibidir. Alt-standartın 3 rəqəmlə işarələnir(1.1.2; 2.1.3 və s.). Əsas vəzifəsi: a)Təlim məqsədlərinin dəqiq müəyyən olunması üçün etibarlı zəmin yaradır; b)Təlim strategiyalarının düzgün seçilməsində mühüm rol oynayır; c) Təlimdə inteqrativliyi təmin edir; d)Təlimin məzmununun davamlı inkişafını təmin edir. Sinifdən sinfə dəyişir.



Fənn kurikulumunun 1.5-ci yarım bölməsinə nəzər salın. Burada "Məzmun standartları" sözləri yazılmışdır. Siz bu anlayışın nə ifadə etdiyini aydın təsəvvür etməlisiniz. Bu başlığın altında hər bir sinif üzrə təlim nəticələri qeyd olunmuş, ondan sonra isə "Məzmun xətləri üzrə əsas və alt-standartlar" başlığı verilmişdir. Bu başlıqdan sonra isə əsas və alt-standartlar təqdim olunmuşdur..

Biz məzmun standartları dedikdə məzmunun standartını, yəni məzmuna verilən rəsmi dövlət tələbini nəzərdə tutmalıyıq. Məzmun standartı cümlə formasında ifadə olunaraq özündə bilik və bacarıqları əks etdirir. Təlim nəticələrin, əsas və alt-standartlarda məzmun standartlarıdır. Məzmun standartı iki komponenti özündə birləşdirir. Bunu aşağıdakı cədvəldə əyani görə bilərsiniz:




Məzmun standartının bilik komponenti məzmununa görə fərqli formalarda özünü göstərir. Elə biliklər vardır ki o, fakt və hadisələri, məlumatları, tərif və anlayışları əhatə edir, onlardan ibarət olur. Bunlar məlumat xarakterli biliklərdir. Elə biliklər vardır ki, işin gedişatını əhatə edən qaydalardır, yəni bu proses nədən başlanacaq, necə davam edəcək və nə ilə yekunlaşacaq ardıcıllığına dair qaydaları özündə əks etdirir. Elə biliklər də vardır ki, müzakirələr zamanı əldə olunan yeni biliklərdir. Bu deyilənlər istər-istəməz biliyin növlərini – kateqoriyalarını yaradır. Birinci növ biliklərə deklorativ[19](faktoloji), ikinci növə

[19] Deklarasiya – bəyanat. Deklorativ –burada məlumat

prosedural, üçüncü növə isə kontekstual(konseptual) biliklər deyilir.

Məzmun standartının fəaliyyət komponenti daha çox fellərlə ifadə olunur. Yəni fəaliyyət dedikdə biz hərəkəti, halı, vəziyyəti, prosesi ifadə edən sözləri – felləri başa düşürük. Fellər semantikasına görə müxtəlif olduğu kimi, fəaliyyətin də bu cür müxtəlif növləri orta çıxır. Müxtəliflik dedikdə idraki (dərketmə, öyrənmə, oxuma, təhlil və tətbiqetmə, dəyərləndirmə və s.), ünsiyyət ( izah etmə, nəql etmə, şərh vermə və s.) və hərəki (qaçmaq, yazmaq, oynamaq, çəkmək və s. fəaliyyət sahələri nəzərdə tutulur. Bunlar fəaliyyətin növləri – kateqoriyalarıdır. Cədvələ baxaq:




Bir neçə alt-standartlarını nəzərdən keçirək və onu tərkib hisslərinə - bilik və fəaliyyət komponentinə ayıraq:

1.1. **Bədii nümunələrin məzmununu** *mənimsədiyini nümayiş etdirir.*



1.1.1. **Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını** *lüğətlərdən istifadə etməklə aydınlaşdırır.*

1.1.2. **Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa** uyğun *ifadəli oxuyur.*

Tünd rənglə işarələnmiş hissələr bilik, kursivlə verilənlər isə fəaliyyət komponentidir. **Bədii nümunələrin məzmunu** – deklorativ; **Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənası** – deklorativ; **Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa** – deklorativ biliklərdir.

*Mənimsədiyini nümayiş etdirir* – idraki, ünsiyyət; *lüğətlərdən istifadə etməklə aydınlaşdırır* – idraki; *ifadəli oxuyur* – idraki fəaliyyətlə bağlıdır. İndi də verilmiş cədvəllərin məzmunu ilə tanış olun.



## Fəaliyyət növləri

Slayd 1.6.3.

| Fəaliyyətlər kateqoriyaları | Bacarıqlar |
|---|---|
| **İdraki (koqnitiv)** | *tanımaq, izah etmək, nümunə göstərmək, istifadə etmək, təhlil etmək, müqayisə etmək, dəyərləndirmək* |
| **Emosional-affektiv (ünsiyyət)** | *izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermək, təqdim etmək* |
| **Psixomotor** | *rəqs etmək, qaçmaq, yazmaq, rəsm çəkmək, yapmaq, quraşdırmaq* |

Slayd 1.6.4.

| İdrak taksonomiyası (Blum, 1956) | | | |
|---|---|---|---|
| **Səviyyə** | **Ümumi təlim nəticələri** | **Spesifik təlim nəticələri** | **Fəaliyyətin göstəriciləri** |
| **Bilik** | *Ümumi terminləri bilir* | *Müəyyən edir, təsvir edir, sadalayır, sıralayır, seçir,* | *Yadda saxlamaq; xatırlamaq, tanımaq; işarə etmək* |
| **Anlama** | *Fakt və prinsipləri anlayır* | *Fərqləndirir, izah edir, nümunələr gətirir* | *İzah etmək; bir ifadə vasitəsindən digər ifadə vasitəsinə keçirmək; öz sözləri ilə təsvir etmə* |
| **Tətbiq etmə** | *Konsepsiya və prinsipləri yeni şəraitdə tətbiq edir.* | *Dəyişir, hesablayır, istifadə edir, nümayiş etdirir* | *Problem həll etmə; müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq etmə* |
| **Analiz** | *İşin təşkili strukturunu təhlil edir.* | *Ayırır, hissələrə bölür, əlaqələndirir, müəyyən edir* | *Onların bir yerdə necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalamaq; ünsiyyətin əsasını təşkil edən strukturu tapmaq; motivləri müəyyənləşdirmək* |
| **Sintez** | *Əşyaları və ideyaları təsnif edərək sxemlər yaradır* | *Yaradır, tərtib edir, yazır, nitq edir* | *Həm şifahi formada, həm də fiziki obyekt ola bilən unikal (yeganə), original (ilkin) məhsulun yaradılması* |
| **Dəyərləndirmə** | *Yazı materialının məntiqi ardıcıllığını qiymətləndirir.* | *Müqayisə edir, qarşılaşdırır, mühakimə yürüdür* | *Məsələ haqqında mühüm qərarlar çıxarmaq; mübahisələri və ya fikir müxtəlifliklərini həll etmək* |

(Hər üç cədvəl Z. Veysovanın vəsaitindən götürülmüşdür)



Ədəbiyyat təhsil proqramının 1.6 bölməsi "Fəndaxili və fənlərarası inteqrasiya"ya həsr olunmuşdur. Burada həmin məzmun bütün siniflər üzrə təqdim olunmuşdur. Bildirək ki, hazırda ədəbiyyatdan müəllim üçün metodik vəsaitlərdə "İllik planlaşdırma"da bu inteqrasiya imkanları müəyyən qədər əhatə olunmuşdur(oradakı çatışmazlıqları və b. cəhətləri nəzərə almırıq).

Ədəbiyyat təliminin məzmunu aydın olduqdan sonra onun necə öyrədilməsi məsələləri ortaya çıxır. Kurikulumda ikinci bölmə bu vəzifəni yerinə yetirir. Təlim strategiyaları başlığı altında 4 yarımbölmə verilir. Onların adlarına fikir versəniz, məzmun sizə müəyyən qədər aydın olar.

Ədəbiyyat müəllimi tədrisi prosesinin təşkilinə verilən yeni tələbələri, onların məzmununu, dərslərin təşkilini və tədris prosesində istifadə olunan iş formalarını və üsulları, ədəbiyyat üzrə planlaşdırma işini, məzmun standartlarının müəllimdən nə tələb etdiyini buradakı məzmun vasitəsi ilə bilir. Biz onların məzmunu ilə Sizləri bir-bir tanış edəcəyik.

Yeni məzmun, yeni öyrətmə tərzi, yeni iş formaları və planlaşdırma işlərini ortaya çıxardığı kimi, günün tələbləri isə uyğunlaşan yeni qiymətləndirmə mexanizmini də tədris prosesinə gətirməli idi. Burada üçüncü bölmə şagird nailiyyətlərinin qiymətləndirilməsinə həsr olunmuşdur. Ədəbiyyat müəllimi qiymətləndirmənin növlərini, işləmək mexanizmini bilməzsə, tədrisin keyfiyyətinin idarə olunmasını həyata keçirmək olmaz. Ədəbiyyat müəllimi diaqnostik, formativ, summativ qiymətləndirməni, onların nümunələrini yaratmağı bacarmalıdır. Həmin sənəddə müəllimə dəstək üçün bu cəhətlərə yer verilir. Xatırladaq ki, müəllim üçün metodik vəsaitlərdə də bu qiymətləndirmə növləri barədə metodik işlər verilmişdir. Müəllim onlardan yaradıcı şəkildə bəhrələnməlidir.

?!

1. **Tədris proqramı ilə təhsil proqramının nə kimi oxşar və fərqli cəhətləri vardır?**
2. **"Ümumi təhsili pilləsinin dövlət standartları və proqramları(kurikulumları)" və fənn kurikulumunun məzmunu və quruluşu barədə nə kimi biliklər əldə etdiniz? Bu sənədlər bir-birindən nə ilə fərqlənir?**
3. **Həmin sənədləri hansı cəhətlər birləşdirir?**
4. **Təlim nəticəsi, məzmun xətti, əsas və alt-standartlar anlayışlarını necə izah edərdiniz? Onların nə kimi əhəmiyyəti vardır?**



# TƏLİM STRATEGİYALARI[20]

## Ədəbiyyat tədrisinin təşkili

Bu başlıq altında Siz ədəbiyyat tədrisinin təşkilinə dair məlumatlara, verilən əsas tələblər, ədəbiyyat dərslərinin yeni təlim texnologiyalarından istifadə ilə tədrisi(Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı və fəal(interaktiv) təlim, fəal(interaktiv) təlimin mexanizmləri), ədəbiyyat dərslərində istifadə olunan üsullar(metod və texnikalar), iş formaları(fərdi, cütlərlə, kiçik və böyük qruplarla iş), müəllimin təlim fəaliyyətinin planlaşdırılması(perspektiv və cari planlaşdırma), ədəbiyyat dərslərinin növləri(induktiv, deduktiv və qarışıq tipli), ədəbiyyat dərslərində müəllimin mövqeyini (fasilitasiya bacarıqlarını), ədəbi əsərlərin öyrədilməsi, icmalların öyrədilməsi, yazıçının həyat və yaradıcılığına dair məlumatın öyrədilməsi, ədəbiyyat nəzəriyyəsinə dair məlumatların öyrədilməsi, ədəbiyyatdan sinifdənxaric və məktəbdənkənar işlərin təşkili, ədəbiyyat dərslik komplektləri ilə işləmək bacarığı, nitq inkişafı işlərinin təşkili məsələlərini nəzərdən keçirəcəksiniz

### Ədəbiyyat tədrisinin təşkilinə verilən tələblər

Ədəbiyyatın tədrisi qarşısına qoyulan tələblər zaman dəyişdikcə yeniləşmişdir. Dövrün tələbi bu işin məzmununun yeniləşməsinə, tərkibinin dəyişməsinə səbəb olmuşdur. Məsələyə bu yönümdən yanaşsaq, 1991-ci ildə C. Əhmədovun vəsaitində[21] əksini tapan ümummetodik tələbləri diqqətinizə çatdırmaq istəyirik:

[20] Strategiya – hədəfi, ona çatmaq üçün ən səmərəli yolu və bu yolda istifadə olunan üsul və vasitələrin cəmini əhatə edir.
[21] Bax. Əhmədov C., Ədəbiyyat tədrisi metodikası, Bakı 1991, səh.181-186

1. Qarşıya qoyulan məqsədə çatmaq üçün dəqiqlik və məqsəd aydınlığı;
2. Dərsin özündən əvvəlki və sonrakı məşğələlərlə əlaqəsi;
3. Dərsdə təlimlə tərbiyənin vəhdətinin gözlənilməsi;
4. Dərsin bütün mərhələlərində şagirdlərin fəallığının təmin olunması;
5. Şagirdlərin əmək intizamının təmin olunması;
6. Dərsdə vaxtdan maksimum səmərəli istifadə;
7. Dərsin zəruri vəsaitlə təmin olunması;
8. Dərsin faydalı yekunlarla nəticələnməsi.

Burada əksini tapan məsələlər sovetlər dönəminin tələbləri ruhunda tərtib olunsa da, öz aktuallığını qoruyur və bugünkü dərslərimiz üçün hələ də keçərlidir, amma yetərli deyil. Bunun üçün verilən tələblərə təkrar baxmaqla təsəvvürünüzdə canlanan məsələləri uzlaşdırsanız kifayət edər.

Müəllim hazırlığı ilə 95 ildən çox məşğul olan doğma universitetimizin metodika sahəsində də öz zəngin ənənəsi və təcrübəsi olmuşdur. O, bu sahədə respublikamızın yeganə baş aparıcı müəssisəsi sayılmışdır. Ona görə də universitetimizin ədəbiyyat tədrisi metodikası proqramında verilən tələblərə də diqqəti ayrıca cəlb etmək istərdik. Tələbə və müəllimlərimizin müəyyən dövrə qədər istifadəsində olan 2005-ci il proqramında[22] oxuyuruq:

1. Ədəbiyyatın tədrisi prosesində şagirdlərə vətənpərvərlik tərbiyəsinin aşılanması müasir dövrün əsas problemi kimi;
2. Ədəbi parçaların tədrisini humanistləşdirmək müasir dərsin aktual bir keyfiyyəti kim;
3. Bədii materialın öyrədilməsində yazıçı ideyasının düzgün qiymətləndirilməsi;

[22] Bax. Pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram, Ədəbiyyat tədrisi metodikası, Bakı 2005, səh. 7-8



4. Dərsin intensivləşdirilməsi. Akademik dərs saatının hər bir mərhələsindən maksimum dərəcədə səmərəli istifadə edilməsi;
5. Tədris materiallarının öyrədilməsində təlimin texniki vasitələrindən istifadə edilməsi;
6. Tədris prosesində fəndaxili və yaxın fənlər arasında əlaqənin ön plana çəkilməsi;
7. Ədəbiyyat dərslərində şagirdləri müstəqil fəaliyyətə alışdırmaq.

Nəzərə alsaq ki, bu proqram tərtib olunanda hələ ədəbiyyat kursu yenilənməmişdi, onda yuxarıdakı tələblərin dövrümüz üçün nə qədər aktual olduğunu aydın şəkildə görə bilərik. Amma bunları da yetərli saymaq olmaz.

Ədəbiyyat tədrisinin təhsil islahatı tələblərinə uyğunlaşdırılması bu gün ən vacib məsələlərdən biridir. Təsadüfi deyildir ki, orta məktəbin ədəbiyyat kursu artıq yenilənməni başa vurmaq üzrədir. Yeni kurs yeni tələblər ruhunda fəaliyyət göstərməkdədir. Həmin tələblər içərisində müasir təlim texnologiyalarının, elektron resursların tədris prosesinə gətirilməsi, dərslərdə fəal(interaktiv) təlim texnologiyasından istifadə, əyani vasitələrdən, internetdən, multimedianın imkanlarından istifadə yolu ilə tədrisin keyfiyyətinin yüksəldilməsi, təlim prosesində şagirdə münasibətin dəyişməsi, müəllimin bələdçi, şagirdin isə tədqiqatçı olması, yaddaş amilindən düşüncə amilinə keçilməsi, dialoqun geniş tətbiqi, nəticəyönümlü və şəxsiyyətyönümlü təhsilin həyata keçirilməsi və s. bir vəzifə kimi qarşıda durur.

Ədəbiyyat tədrisinin keyfiyyətinin yüksəldilməsində kadrların əvəzedilməz rolunu xüsusi ilə vurğulamaq istərdik. Gələcəyin ədəbiyyat müəllimi nələrdən xəbərdar olmalıdır sualına çoxlu və fərqli cavablar vermək mümkündür. Burada onun ixtisasını mükəmməl bilməsi ilə yanaşı şəxsi keyfiyyətlərinə, səriştəsinə qədər hər bir şeyi nəzərdə tutmaq olar. Biz təxmini olaraq onları aşağıdakı kimi qruplaşdırmaq

qərarına gəldik. Belə hesab etdik ki, gənc ədəbiyyat müəllimi aşağıdakı məsələlərdən kifayət qədər məlumatı olmalı, müvafiq bilik və bacarıqlara yiyələnməlidir:

1. Təhsil haqqındakı rəsmi sənədlərin ondan nə istədiyini(yəni məzmununu),
2. Ümumi təhsil məktəblərində ədəbiyyatın tədrisi yollarını, məqsəd və vəzifələrini, tədris prosesinin planlaşdırılmasını, təşkilini və qiymətləndirilməsini, metodik qaydaları, üsul və vasitələri, onları praktik olaraq istifadə etməyi,
3. Ədəbiyyat dərslik komplekti ilə işləmək bacarıqlarına yiyələndiyini nümayiş etdirməyi,
4. Ən vacib, zəruri, müasir tələblərə cavab verən elmi-nəzəri, pedaqoji-psixoloji və metodik bilikləri,
5. İnternet resurslarından səmərəli istifadə etməyi,
6. Təqdimatlar, tədqiqatlar aparmaq, özünü inkişaf, özünü təkmilləşdirmək qaydalarını,
7. Müəllim üçün ən zəruri təşkilati, idarəetmə və ünsiyyət bacarıqlarına yiyələndiyini nümayiş etdirməyi və s.

Ədəbiyyatın tədrisi metodikası fənni gələcəyin ədəbiyyat müəllimlərində yuxarıda adı tutulan keyfiyyətlərin, bilik və bacarıqların olmasını hədəf götürməlidir. Dövlətin təhsil siyasətini bilmədən, şagirdlərlə, dərsliklərlə işləmək bacarığına sahib olmadan, tədris prosesini təşkil etmək, planlaşdırmaq, idarə etmək, qiymətləndirmə və monitorinq aparmaq, sənətinin sirlərinə yiyələnmədən, yüksək vətəndaşlıq keyfiyyətlərinə, sənət sevgisinə sahib olmadan gələcəyin yaxşı ədəbiyyat müəllimi olmaq mümkün deyil.

Hər bir ədəbiyyat müəllimi dövlətin onun qarşısında nə kimi vəzifələr qoyduğunu, ondan nə tələb olunduğunu aydın şəkildə təsəvvür etməlidir.

Dərs keçməyə başlayan hər bir ədəbiyyat müəllimi məhz həmin vəzifələrin icrasına özünü hazır hesab etməlidir. Onun tədris etdiyi hər bir mövzunun arxasında bu rəsmi sənədlərin



tələb etdiyi məsələlər dayanmalıdır. Bunun üçün də öncə "Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu"nun aşağıdakı müddəalarını nəzərinizə çatdırırıq.

*Maddə 4. Təhsilin əsas məqsədi* (yəni təhsilimiz kimlərin yetişdirilməsinə xidmət göstərməlidir, fənlərimizin, mövzularımızın tədrisi zamanı biz hansı insanı yetişdirməliyik və bu insanda hansı keyfiyyətlər özünü göstərməlidir?):

*4.0. Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır:*

*4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;*

*4.0.2. milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;*

*4.0.3. sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq.*

Bəs ümumi təhsil qarşısına qoyulan vəzifələr nədən ibarətdir? Yenə də hamin Qanunun aşağıdakı müddəaların nəzər salmaq lazımdır:

*19.1. Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyata və əmək fəaliyyətinə hazırlanmasını təmin edir.*

*19.2. Ümumi təhsil təhsilalanların fiziki və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinə və sivil dəyərlərə əsaslanan*

*vətəndaş təfəkkürünün formalaşmasına, milli və dünyəvi dəyərlərə hörmət hissinin aşılanmasına, ailə, cəmiyyət, dövlət və ətraf mühit qarşısında hüquq və vəzifələrinin müəyyən edilməsinə imkan yaradır.*

Ümumi təhsil müəssisələrin güddüyü əsas məqsəd nədir sualına da yenə həmin sənədin aşağıdakı bəndlərində cavab verilir. Hər bir fənn müəllimi, eləcə də ədəbiyyat müəllimi öz fəaliyyətində burdakı tələbləri əldə rəhbər tutmalıdır. Unutmayaq ki, orta məktəb dərslikləri yaradılanda da məhz həmin tələbələrin həyata keçirilməsi bir zərurət kimi qarşıya qoyulur. Biz aşağıda həm ümumi orta təhsil(V-IX siniflər), həm də tam orta təhsil(X-XI siniflər) üzrə təlim məqsədlərini təqdim edirik:

*19.13. Ümumi orta təhsilin məqsədi təhsilalanların şifahi nitq və yazı mədəniyyətinin, ünsiyyət bacarığının, idrak fəallığının və məntiqi təfəkkürünün inkişafını, təhsil proqramına daxil olan fənlər üzrə və eləcə də dünya sivilizasiyasının inkişafı haqqında müvafiq bilik və təsəvvürlərinin formalaşdırılmasını, müasir informasiya-kommunikasiya vasitələrindən istifadə etmək qabiliyyətini, hadisələri qiymətləndirmək və öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığını təmin etməkdən ibarətdir.*

*19.17. Tam orta təhsil səviyyəsində təhsilalanların istedad və qabiliyyətinin reallaşdırılması, müstəqil həyata və peşə seçiminə hazırlanması, fəal vətəndaş mövqeyinin, milli və ümumbəşəri dəyərlərə, insan hüquqlarına və azadlıqlarına hörmət hissinin və tolerantlığın formalaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarından və digər texniki vasitələrdən sərbəst istifadə etməsi, iqtisadi biliklərin əsaslarına yiyələnməsi, xarici dillərdən birində, yaxud bir neçəsində ünsiyyət saxlaması və s. təmin olunur.*



Dərslik komplektləri yaradılanda Qanunun bu tələbləri ilə yanaşı onun məzmununu əldə rəhbər tutan "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" sənədinin müddəaları da nəzərə alınmalıdır. Həmin sənədin ümumi təlim nəticələri(9-cu bölmədə verilir və səviyyələr üzrə - ibtidai (I-IV siniflər), ümumi orta (V-IX siniflər) və tam orta (X-XI siniflər – təqdim olunur) və fənlər üzrə məzmun standartları(10-cu bölmə) ümumi təhsilin səviyyələri üzrə əldə olunacaq bilik və bacarıqları əks etdirməklə orta məktəb dərsliklərində nələrin güdüləcəyinə dair zəruri istiqamət verir. Siz əvvəlki bölmədə həmin sənədin məzmunu ilə tanış edildiniz. Yaxşı olardı ki, indi ümumi təlim nəticələri(9-cu bölmə) və məzmun standartlarında(10-cu bölmə) əksini tapan məzmunla Qanunundakı müddəaların bir-biri ilə necə uzlaşdığına diqqət yetirəsiniz. Hər bir gənc ədəbiyyat müəllimi onun qarşısında duran vəzifələrin nədən ibarət olduğunu, bu vəzifələrin haradan qaynaqlandığını bilməlidir. Biz burada diqqəti yenidən "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" sənədindəki bir məsələyə cəlb etmək istərdik. Bu da təlim prosesinin təşkilində əldə əsas götürüləcək prinsiplərdir. İş prosesində bu tələblər mütləq yerinə yetirilməlidir. Həmin sənəddən oxuyuruq:

Pedaqoji proses əvvəlcədən müəyyən olunmuş nəticələri əldə etmək üçün müəllimlərin əlaqələndirici, istiqamətverici, məsləhətçi, şagirdlərin isə tədqiqatçı, təcrübəçi, yaradıcı subyektlər kimi qarşılıqlı əməkdaşlıq fəaliyyətləri əsasında aşağıdakı **prinsiplər** nəzərə alınmaqla qurulur:

– *pedaqoji prosesin tamlığı* — pedaqoji prosesdə təlimin məqsədləri kompleks şəkildə (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;
– *təlimdə bərabər imkanların yaradılması* — bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji

proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

- *şagirdyönümlülük* — şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- *inkişafyönümlülük* — şagirdlərin əqli fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- *fəaliyyətin stimullaşdırılması* — pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;
- *dəstəkləyici mühitin yaradılması* — pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Buradakı prinsiplər ədəbiyyat müəlliminin peşə fəaliyyətində bir açar rolunu oynamalıdır. Onların məğzinə dair qısa şərhlərimizi verək. Hər bir ədəbiyyat dərsində təlim-tərbiyə-inkişaf məqsədləri dəqiq şəkildə müəyyən olunmalı və onun icrası nail olunmalıdır. Təlimin bütün iştirakçıları üçün bərabər iş şəraiti yaradılmalıdır. Hər bir şagirdin dərslərdə fəal iştirakı, fikir söyləmək, münasibət bildirmək hüququ təmin olunmalıdır. Bir şagirdlə deyil, bütün siniflə birlikdə işləmək, onları dinləmək, dərsə cəlb etmək vacibdir. Bir şagird başqa birindən heç bir vəchlə üstün tutula bilməz. Dərs prosesi şagirdin maraq, tələbat və mənəvi ehtiyaclarının yüksək səviyyədə ödənilməsinə xidmət göstərməli, şagirdin inkişafı(intellektual, psixi, etik, estetik, mənəvi və s.) izlənilməli və daim diqqətdə saxlanılmalıdır.



---

?!

1. **Ədəbiyyat tədrisi qarşısına qoyulan tələbləri yenidən nəzərdən keçirin. Onlara sərbəst münasibət bildirin.**
2. **Həmin təsnifata nələri əlavə edərdiniz?**
3. **Proqram və ali məktəb dərsliyində irəli sürülən həmin tələbləri ümumiləşdirməyə çalışın.**
4. **Rəsmi sənədlər təhsilin məzmunu ilə bağlı nələri ifadə edir?**
5. **"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu" sizə nə kimi məlumatları təqdim etdi?**
6. **Bu məlumatların sizin gələcək müəllimlik fəaliyyətinizlə bağlı nə kimi əlaqələri vardır?**
7. **Təlim prosesinin təşkili prinsiplərinə nələr daxildir?**

## Ədəbiyyat dərslərinin quruluşu

Ədəbiyyat tədrisinin təşkilindən danışılanda gənc ədəbiyyat müəlliminin bilməsi üçün vacib olan məsələlərdən biri və ən mühümü də **dərslərin qurulmasıdır**. Qəbul olunan qərarlar, təhsilin və tədrisin qarşısına qoyulan vəzifələr, tələblər dərs prosesində reallaşır. Təhsilalanların və təhsilverənlərin işlərinin məzmununda əksini tapan məsələlər (bunun üçün ümumi təhsil pilləsinin dövlət standartı sənədinə bir daha baxmağınız vacibdir) də dərs prosesinin səmərəli təşkilindən asılıdır. Pedaqoji, psixoloji və elmi-metodik tələblərin gözlənilməsi yolu ilə bu dərsləri günün tələbləri səviyyəsində qurmaq olar.

Ədəbiyyat dərsləri necə qurulmalıdır, dərs necə başlamalı, davam etməli və yekunlaşmalıdır. Tədrisin qarşısına qoyulan vəzifələr, dövrün tələbi, qabaqcıl təcrübə bu dərslərin necə qurulmasını tələb edir? Təbii ki, bu suallara müəyyən qədər cavab verilməlidir.

Qeyd edək ki, yeni kursda ədəbiyyat müəlliminin bu cəhətdən işinə istiqamət vermək üçün hər bir sinif üzrə metodik vəsaitlər işlənmişdir. Həmin vəsaitlər tədris prosesinin səmərəli qurulmasına kömək məqsədi ilə yaradılmışdır. O tövsiyələrin dövrün tələbini, müəllim ehtiyaclarını nə səviyyədə ödədiyini bu kursunuzun gedişində - mühazirə və seminar məşğələlərinizdə yerindəcə müşahidə edəcək, daha düzgün həll variantının nə ola biləcəyi bacarıqlarına yiyələncəksiniz: müəllim üçün vəsaitlər dövlətin tələb etdiyi fəal(interaktiv) təlim texnologiyasını dərslərə gətirə bilirmi, uğurlar və çatışmazlıqlar nədən ibarətdir?

Dərslərin uğurlu alınması üçün pedaqogikadan, psixologiyadan və digər ixtisas fənlərindən aldığınız biliklər köməyinizə gəlməlidir.

Yeni kurs işə başlayan andan fəal(interaktiv) təlim texnologiyası ilə dərslərin keçirilməsi rəsmi bir tələb kimi



qarşıya qoyulmuşdur. Azərbaycan Respublikası təhsil nazirliyi bu texnologiyanın tətbiqi sürətləndirmək üçün ümumi təhsil məktəb müəllimlərinin əksəriyyətini təlimlərə cəlb etmiş, onlara müvafiq bilik və bacarıqlar aşılamışdır. Artıq ümumi müsbət nəticələr də əldə olunmuş, pedaqoji ictimaiyyət, böyük müəllimlər ordusu rəsmi sənədlərin tələb etdiyi bu texnologiyanın uğurla tətbiq etməkdədirlər.

Fəal(interaktiv) dərslərin üstünlükləri nədən ibarətdir, hansı mərhələləri vardır, şagirdin ümumi hazırlığı işinə ənənəvi kursdan fərqli olaraq nə kimi keyfiyyət dəyişikliyi gətirə bilir suallarına cavab vermək üçün biz həmin texnologiyanın mahiyyətinə məzmununa nəzər salmalıyıq.

Yenə də ənənəvi və yeni kursdakı dərs mərhələlərini fərqləndirməli olacağıq. Ənənəvi kurs biliyi hazır şəkildə təqdim etməsinə, yaddaşa köklənməsinə, şagirdlərə bir obyekt kimi yanaşmasına, onların mexaniki yaddaşının, hafizəsini qiymətləndirməsinə, əzbərçilik meyllərinin üstün tutulmasına görə müsbət qəbul olunmamış və rəsmi sənədlərdə çıxdaş edilmişdi. Hazırda sonuncu - XI sinifdə bu üsulla dərslər keçilir(Xatırladaq ki, həmin kursda mövzuları fəal(interaktiv) təlimlə keçən müəllimlərimiz də çoxdur). Bu amili nəzərə alaraq biz aşağıda ənənəvi və yeni kursla bağlı dərs mərhələlərini və onlarda görüləcək işlərin məzmununu Sizlərə təqdim edirik.

## 1. Ənənəvi dərsin mərhələləri

_Ali pedaqoji universitetlər üçün tərtib olunan son "Ədəbiyyat tədrisi metodikası proqramı"nda, eləcə də uzun müddətdən bəri tələbələrin ixtiyarında olan metodika kitablarında cüzi fərqlərlə aşağıdakı dərs mərhələləri qəbul olunmuşdur.

Metodik vəsaitlərin 1976 və 1991-ci illərdə çap olunduğunu və aradan xeyli illərin keçdiyini nəzərə alsaq, son dövrlərdə bir sıra yeni yanaşmaları da xatırlatmaq istərdik. Ona görə də dərsin mərhələləri barədə söhbət açanda iki anlayışı fərqləndirmək istərdik: a) ənənəvi dərslərin quruluşu, b) fəal dərslərin quruluşu.

*Ənənəvi dərsin mərhələləri* dedikdə(ədəbiyyatdan proq-ram mövzularının xüsusiyyətlərini hələlik bir kənara qoyuruq) aşağıdakılar nəzərdə tutulur:

1. *Sinfin təşkili*
2. *Keçmiş mövzunun sorğusu və yekunlaşdırılması*
3. *Keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə*
4. *Yeni mövzunun izahı*
5. *Yeni mövzunun möhkəmləndirilməsi*
6. *Ev tapşırıqlarının verilməsi*

Bu mərhələlərin hər birinin öz vəzifəsi vardır.

**1. Sinfin təşkili** mərhələsində əsas vəzifə şagirdləri yeni dərsin başlanmasına səfərbər etməkdir. Bu zaman pedaqoji, psixoloji və metodik iş elə təşkil olunur ki, o, növbəti dərs mərhələləri üçün bir təməl rolunda çıxış edir. Tədris prosesində şagirdlərin qazanacaqları nailiyyətlərin özülü bu mərhələdə qoyulur. Müəllim sinfə daxil olan kimi işin təşkilini – təşəbbüsü əlinə alır. Siniflə salamlaşır, şagirdlərin dərsə necə davam etməsini yoxlayır, sinif jurnalında müəyyən qeydlərini aparır, lövhənin səliqəsinə, tabaşir və silginin olub-olmamasına diqqət yetirir. Bu işləri yerbəyer etdikdən sonra dərsin növbəti



mərhələsinə – keçmiş mövzunun sorğusu və yekunlaşdırılmasına keçir.

**2. Keçmiş mövzunun sorğusu və yekunlaşdırılması.** Bu mərhələdə müəllim aşağıdakı işləri yerinə yetirir:

⇒ Ev tapşırıqlarının olub-olmadığını və onların necə icra olunduğu dəqiqləşdirir,

⇒ Keçmiş mövzunun necə öyrənildiyini müəyyənləşdirmək üçün əvvəlcə frontal, sonra isə fərdi sorğu həyata keçirir. Frontal sorğuda şagirdlərə keçmiş mövzu ilə bağlı olan 10-15 sual(bəzən də 20-yə qədər) ünvanlayır. Məqsəd şagirdlərin dərsi necə öyrəndiklərini müəyyən etmək və sinfi fəallaşdırmaqdır. Müəllim müsahibənin gedişində özü üçün onu dəqiqləşdirir ki, görsün, şagirdlər mövzunun məzmununu nə səviyyədə mənimsəmişdir. Onlar üçün nə aydın olmamış və ya qaranlıq qalmışdır. Müəllim bu cəhətləri müəyyən etdikdən, dəqiqləşdirdikdən sonra müsahibəni yekunlaşdırmaq üçün bir neçə şagirdin fərdi sorğusunu həyata keçirir. Fərdi sorğu zamanı müsahibədə əksini tapan məsələlər ümumiləşdirilir, yeri gələndə müəllim sinfə belə bir tələb də qoya bilər ki, şagirdlərdən biri müsahibədə əksini tapan məsələləri, deyilməyən cəhətləri qeyd etsinlər. Yaxud da müsahibə bitdikdən həm müsahibəni yekunlaşdırmaq, həm də deyilənləri ümumiləşdirmək baxımından keçmiş dərsin hissə-hissə sorğusunu apara bilər. Bu sorğu zamanı təkrarlara yol vermək düzgün deyildir. Çünki eyni bir məzmunu təkrarən dinləmək sinfin dərs dinləmək marağına mənfi təsir göstərir. Əgər söhbət kiçik həcmli şeir parçaları üzərində işdən – onun əzbər soruşulmasından gedərsə, onda fərdi sorğu qarşısına elə tələblər qoyulmalıdır ki, sinif bu prosesi maraqla

izləyə bilsin. Məsələn, müəllim sinfə müraciətlə tapşırıq verir: - *Uşaqlar, yoldaşınızın necə şeir deməsini diqqətlə izləyin. Görün o, şeiri nə dərəcədə ifadəli şəkildə söyləyəcəkdir*. Və ya - *Uşaqlar, diqqətlə fikir verin, görün, kim hekayənin bu hissəsini daha canlı söyləyə biləcəkdir?*

Fərdi sorğu zamanı belə əlavə tapşırıqların verilməsi dərsin maraqlı keçməsinə, yoldaşların bir-birini maraqla izləməsinə şərait yaratmış olur.

Fərdi sorğu frontal sorğunu yekunlaşdırmaq işinə – nələrin qazanıldığına yekun vurmaq kimi çıxış edir. Müsahibə və fərdi sorğu prosesində şagirdlərin nələri dəqiq bilib-bilməməklərini ayırd edən müəllim çatışmayan cəhətləri göstərir və keçmiş dərsdə şagirdlərin nəyə nail olduqlarını və ya nələri diqqətdən yayındıqlarını onlara açıb göstərir. Yalnız belə bir yekunlaşdırmadan sonra növbəti mərhələyə keçilir.

**3.** Növbəti mərhələ **keçmiş mövzu ilə yeni mövzu arasında əlaqə**nin yaradılmasıdır. Bu mərhələ xüsusi diqqət tələb edir. Əgər yeni biliklərlə keçmiş biliklər arasında rabitə yaradılmazsa, onlar bir-biri ilə mənəvi tellərlə bağlanmazsa, onda dərslər arasında varislik prinsipi pozulacaqdır. Təsəvvür edin ki, zəncirin bir həlqəsi qırılmışdır. Və ya bənnanın işini xatırlayın: binanın hörgüsündə daş parçaları bir-biri ilə tələb olunan qaydada bağlanmasa, həmin divar bir qədər ucalan kimi yıxılmağa, uçmağa məruz qalacaqdır. Keçmiş dərslə yeni dərs arasında əlaqə biliklərin qavranılmasında vahidliyi, davamlılığı təmin edir, şagirdlərin ədəbi və həyati biliklərinin mükəmməlliyinə şərait yardır. Deməli, biz mövzulararası əlaqənin dərsdəki yerini düzgün qiymətləndirməyi bacarmasaq, onda çox şeylərdən şagirdlərimizi məhrum edə bilərik.

***Mövzulararası əlaqə*** aşağıdakı məzmunda özünü göstərə bilər:

a) Əsərlərdə əksini tapan zaman və dövrün oxşarlığına görə



b) Əsərlərin qaldırdığı mövzu və ideya yaxınlığına görə
c) Əsərlərdə təsvir olunan hadisələrin(hisslərin) oxşarlığına görə
d) Ədəbi janr baxımından bu əlaqələrin yaradılması
e) Sənətkarların ədəbiyyat tariximizdəki rolu və mövqeyinə görə
f) Sənətkarların yaşadıqları dövrə görə
g) Sənətkarların düşüncə tərzlərində əksini tapan oxşarlıqlar əsasında
h) Sənətkarların yaradıcılıqlarındakı oxşarlıqlar əsasında
i) İncəsənət əsərlərinin nümayişi, filmlərdən fraqmentlər, əyani vasitələrdən istifadə ilə əlaqələrin yaradılması
j) Müasirlərinin xatirələrindən istifadə etməklə(əvvəlki dərsdə keçilən sənətkar sonrakı dərsdəki sənətkar barəsində müəyyən fikirlər söyləmişdirsə)
k) Şagirdlərin əvvəlki dərsdən aldığı bilik və təəssürat əsasında və s.

**Bu əlaqələrin necə yaradılması hesabına yeni dərsin taleyi həll olunur**. Bu bağlılıq nə dərəcədə mükəmməl və sərrast qurularsa, yeni dərsin izahında qaşıya qoyulan məqsədə bir o qədər də yaxın düşülər. Mövzulararası əlaqə pedaqoji, psixoloji, estetik, metodiki və elmi baxımdan düzgün qurulmalıdır. O, şagirdin marağını yeni mövzunun üzərində cəmləşdirməyi bacarmalıdır. Şagird bu əlaqədən yeni mövzunun başlanmasına elmi və emosional dəstək almalıdır.

**4. Yeni mövzunun izahı** ədəbiyyat dərsinin növbəti və vacib mərhələlərindən biridir. Bu mərhələdə planlaşdırılan bir çox məsələlər öz həllini tapmağa başlayır: yeni mövzunun uşaqlara nə məqsədlə keçilməsi, mövzunun hansı cəhətlərinin diqqət mərkəzində qalması, onun necə tədris olunması və dərsin qarşısına qoyulan təlim, tərbiyə və inkişaf vəzifələri və s.

**5. Yeni mövzunun möhkəmləndirilməsi** mərhələsi keçilən mövzunun şagirdlərdə oyatdığı təəssüratın aşkara çıxarılmasına, dinlənilən materialı şagirdlərin necə qavradığını müəyyənləşdirməyə, nəhayət qazanılan biliyin tətbiq olunmasına şərait yaradır. Bu mərhələ görülən işin – keçilən dərsin səmərəli yekunudur. Atalar demişkən, nə əkilmişdirsə, o da biçilir.

Möhkəmlətmə mərhələsi müəllimə imkan verir ki, o, mövzunun şagirdlər tərəfindən hansı səviyyədə qavranıldığını müəyyən etsin. Biliyin möhkəmləndirilməsi mərhələsində müəllim fərqli iş formalarından, üsul və vasitələrdən istifadə edə bilər. Belə ki *müsahibə, kitab üzərində iş, şagirdlərin müstəqil işi və oxu* üsullarının birindən və ya bir neçəsindən istifadə etməklə müəllim möhkəmlətməni səmərəli şəkildə həyata keçirə bilər.

**6.** Dərsin sonuncu mərhələsi **ev tapşırıqlarının verilməsidir**. Ev tapşırığı dəqiq, yığcam və aydın olmalıdır. Şagirdlər evdə hansı işləri görəcəklərini, bunu nə məqsədlə edəcəklərini və necə edəcəklərini aydın təsəvvür etməlidirlər.

*Ənənəvi dərslərdə* özünü göstərən bəzi ***çatışmazlıqları*** da qeyd etmək istərdik. Belə dərslər bir qayda olaraq bilikləri şagirdlərə hazır şəkildə təqdim etməyə üstünlük verir. Şagirdlərin fikri müstəqilliyinə, biliyi axtarıb tapmasına, polemikaya, diskussiya açmağa, fərqli mövqelərin ortaya qoyulmasına, alternativ mövqelərin aşkarlanması və əsaslandırılması məsələlərinə, qazanılan biliklərin şagirdin şəxsi təcrübəsi ilə sıx əlaqələndirilməsinə, bu biliklərdən konkret bir şəraitdə istifadə və tətbiq olunmasına imkan yaratmır. Məhz bu cür çatışmazlıqlarına görə də Avropa təhsil məkanında, Amerikada yeni təlim texnologiyalarından - fəal(interaktiv) təlim geniş şəkildə istifadə olunur.



## 2.Ədəbiyyat təlimində yeni texnologiyalar

Qeyd etdiyimiz kimi, 1998-ci ildən bəri **müasir təlim texnologiyaları, pedaqoji texnologiyalar**, **fəal(interaktiv) təlim** anlayışları bizim təhsil məkanımızda da özünə mükəmməl yer tutmağa başladı. Həmin il ümummilli liderimiz Heydər Əliyev cənabı tərəfindən təhsil sahəsində islahatların aparılması üçün islahat komissiyasının yaradılmasına dair sərəncam verdi. Az keçmədi ki, komissiya tərəfindən təhsil sahəsində günün tələbələrinə cavab verən islahat proqramı qəbul olundu.

Bu proqramda digər məsələlərlə yanaşı müasir təlim texnologiyalarının, yeni təlim üsullarının məktəbə gətirilməsi işi öncül sahə elan olundu. Xarici ölkələrdən respublikamıza müasir təlim texnologiyalarını, fəal təlim üsullarını təbliğ edən mütəxəssislər dəvət olundu və onlar ali, orta ixtisas və orta məktəb müəllimlərinə bu texnologiyaların istifadə mexanizminə dair treninqlər keçdilər. Çox keçmədi ki, görülən işlər öz bəhrəsini verməyə başladı və bu texnologiyalar tədricən məktəb həyatında sirayət etdi. Demək olar ki, belə üsullarla dərs deyən müəllimlər ordusu yarandı.

Təlim prosesinin həyatın tələblərinə cavab verməsi, şagirdlərdə həyati bacarıqların formalaşdırılması, biliklərin şüurlu surətdə qazanılması, bu və ya digər səviyyələrdə və zamanlarda pedaqoqların daim diqqət mərkəzində olmuşdur. Amma son dövrlərdə daha çox düşünən auditoriyanın, sinfin formalaşdırılması fikri özünü bir qədər də qabarıq göstərməkdə idi.

Zaman və rəsmi sənədlərimiz təhsil prosesinə mütərəqqi texnologiyaların gətirilməsini, şagirdlərdə həyati bacarıqların formalaşdırılmasını, onların bir şəxsiyyət kimi yetişdirilməsini bir tələb kimi qarşıya qoyurdu. Təhsilin məzmununda aparılan dəyişmələr, humanizm, təhsilalana subyekt yanaşılması, nəticəyönümlülük, məzmun standartlarına söykənmək və s. məsələlər bir norma kimi qəbul olundu.

Son 30 ildə Avropa və dünya təhsil sistemində baş verən keyfiyyət dəyişmələri, elmi-texniki tərəqqinin sürətlə və birbaşa insan məişətinə daxil olması həmin təhsil sisteminin nə dərəcədə səmərəli qurulmasına ilkin və sadə bir misaldır.

Məsələ təkcə bununla bitmir ki, elmin son nailiyyətləri dərhal həyatda öz yerini tutur və seyflərdə ilişmir. Məsələ həm də mənəvi tərbiyənin, insan tərbiyəsinin, müstəqil düşüncəli şəxsiyyət yetişdirilməsinin daim gündəmdə saxlanılmasındadır.

Deyərdik ki, bu sahədə xaricdə – Avropada, dünyada əldə olunan nailiyyətlər olduqca çoxdur. Müasir pedaqoji təcrübədən bizə o cəhətlər aydın olur ki, biliklər şagirdlərin şəxsi təəssüratları, həyati təcrübələri ilə sıx əlaqələnəndə, onlarda həyati bacarıqlar formalaşdırılanda təlim prosesində müəyyən keyfiyyət dəyişmələri baş verir. Üstəlik belə bir təlim prosesində interaktiv təlim üsullarının tədrisə gətirilməsi qazanılmış nailiyyətləri xeyli artırır.

Təcrübə və müşahidələr onu göstərir ki, dərslər fəal(interaktiv) formada qurulması, tədrisdə fəal təlim üsullarından istifadə olunması bu cür məşğələlərdə aşılanan bilik və bacarıqların keyfiyyət səviyyəsini 80% həddinə, sinifdə fəallığın səviyyəsini isə daha yüksəklərə qaldırır. Belə dərslərdə şagird mənəviyyatının formalaşdırılmasında, onların həyata hazırlaşdırılmasında, sərbəst düşüncəli şəxsiyyət kimi yetişdirilməsində, elmi bilik və bacarıqlara yiyələnməsində xeyli nailiyyətlər əldə olunur. Xüsusən, dərs prosesinə şüurlu yanaşmada və qazanılan biliklərin tətbiq olunması işində uğurlu nəticələr alınır.

Xatırladaq ki, təlim prosesində müasir təcrübədə hədəf götürülən məsələlərə bunlar daxil edilir:

1. İnsan mənəviyyatı sahəsində – təlim prosesində hər bir şagird(öyrənən) belə bir sualların fonunda inkişafda saxlanılır: Mən kiməm? Kim olacağam? Kimi sevəcəyəm? İnsanlara münasibətimi necə quracağam? Siyasi əqidəm necə olacaq?



Mənim inam sistemimə nə daxildir? Mənim borcum nədir? Hansı hərəkətlərim mənim dəyərimi qaldıracaqdır?

2. Bilik və bacarıq sahəsi – qazanılan biliklərdən harada və necə istifadə ediləcək, həyatda öyrənənə hansı səviyyədə gərəkli olacaq? Bu zaman iş prosesi elə qurulur ki, alınan biliklər bütün fənlər üzrə ünvanlı olur. Problemin qoyulması, onun şagirdin həyat təcrübəsi, dünyagörüşü, şəxsi təəssüratları ilə əlaqələndirilməsi, onun açılması yollarının müəyyənləşdirilməsi və s. şagirdlərin(öyrənin) həyati biliklər əldə etməsinə imkan yaradır.

Son dövrlərdə təlim texnologiyalarının ikisi barəsində daha geniş söhbət açıldığından("Debat" proqramı ilə həyata keçirilən dərsləri də qeyd edə bilərik. Artıq bu proqram çərçivəsində Respublikamızda müəyyən treninqlər həyata keçirilir) biz də onların məzmunundan, tətbiqi imkanlarından danışmaq istərdik. Onlardan biri **Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı (TTİMY)**, digəri isə yuxarıda bəzi cəhətlərini qeyd etdiyimiz **fəal(interaktiv) təlimdir**. Əslinə qalanda **TTİMY** texnologiyasının özü də fəal(interaktiv) təlimin bir qoludur. Onun iş prinsipləri ilə fəal təlimin iş prinsipləri arasında bir çox oxşarlıqlar vardır. Buraya qrup, fərdi və cütlərlə iş formasına əsaslanan birgə təlim fəaliyyətini, biliklərin axtarılması və tədqiq olunmasını, şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsini aid etmək olar.

Biz hazırda hər iki təlim texnologiyası ilə keçilən dərslərin mərhələlərinə, məzmununa, işləmə mexanizminə dair Sizlərə bir qədər ətraflı şəkildə məlumat vermək istəyirik. Məqsədimiz də budur ki, gənc müəllimlərimiz bu texnologiyalardan istifadə yolu keçilən dərslərin üstünlüklərini görə bilsinlər. Həmin üstünlüklərin nəyin hesabına yarandığını nələrdən ibarət olduğunu həm nəzəri, həm də təcrübi yönümdə dərk etsinlər. Başqa bir məqsədimiz isə bəzi pedaqoji yazılarda, metodik vəsait və dərsliklərdə gedən təhrifləri, yanlışlıqları aradan qaldırmaqdır.

## a) TTİMY texnologiyası ilə qurulan dərslər

Ötən əsrin sonlarına doğru bu təlim texnologiyası post sovet məkanında sürətlə yayılmağa başladı. Bu səbəbsiz deyildi. Təlim prosesini yaddaşdan düşüncəyə çevirmək o dövr üçün çox maraqlı bir model idi. Texnologiyanın hədəfi şagirdlərin düşüncələrinin, tənqidi təfəkkürünün inkişafı etdirilməsi idi. İxtisarın açması belədir: Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı .

Məlumdur ki, təfəkkürdən danışılanda məntiqi, tənqidi və yaradıcı təfəkkür yada düşür. Məntiqi təfəkkür fakt və hadisələri bütün əlamət, keyfiyyət və xüsusiyyətlərinə görə səciyyələndirməyə imkan verir. Müqayisələr aparmaq, tutuşdurmaq əsas əlamətlərindəndir. Tənqidi təfəkkür fakt və hadisələri təhlil etmək, ona dəyər vermək, qiymətləndirmək, müsbət və mənfi cəhətlərini qeyd etmək keyfiyyətlərini özündə birləşdirir. Yaradıcı təfəkkür isə baza biliklərinə və bacarıqlarına söykənməklə yeni ideyaları yaradır.

Tənqidi təfəkkürün inkişafını hədəf götürən texnologiya məhz daha çox ikincinin üzərində dayanır, onu inkişaf etdirir. Bunun üçün də həm mütaliəni, həm də yazı işlərini tənqidi təfəkkürün inkişafına cəlb edir. Materiala sinifdə mütaliə etmək, oradakı fakt və hadisələri yazılı şəkildə dəyərləndirmək bu dərslərdə əsas götürülür.

**TTİMY** texnologiyası ilə aparılan dərslər üç başlıca mərhələyə bölünür:

a) **Düşünməyə yönəltmə**
b) **Dərketmə**
c) **Düşünmə**

**Düşünməyə yönəltmə** prosesi dərsin birinci mərhələsi hesab olunur və mövzu ilə bağlı şagirdlərin(öyrənənlərin) ilkin təsəvvürlərini aşkara çıxarmağa imkan verir. Mövzu dairəsində şagirdlərin nələri bildiklərini aşkara çıxarmaq bu mərhələnin başlıca vəzifəsidir. Bununla müəllim şagirdləri problemə daxil



olmağa hazırlayır. Onların fikir və düşüncəsində bir oyanış yaradır. Şagirdlər problem barəsində düşünür və nələri bildiklərini nümayiş etdirirlər, eyni zamanda onda yeni cəhətləri görməyə istiqamətlənməyə başlayırlar. Onlarda belə bir qənaət yaranır ki, mövzu barəsində bildikləri ilə kifayətlənmək olmaz. Beləliklə, bu mövzu ilə bağlı nələri öyrənmək istədiklərinə dair suallar formalaşdırırlar. Həmin suallar lövhədə qeyd olunur. Çünki növbəti dərs mərhələsi(dərketmə) bu sualların araşdırılmasına həsr olunacaqdır. Deməli, biz bu birinci mərhələdə sanki torpağa toxum əkirik, şagirdləri düşünməyə istiqamətləndiririk.

**Dərketmə** mərhələsində şagirdlər materialı oxuyur və onun mahiyyətini dərk etməyə, mənanı qruplaşdırmağa çalışırlar(Bu mərhələ sünbülə bənzədilir. Deməli, birinci mərhələdə əkdiyimiz dən ikinci mərhələdə özünü sünbül formasında göstərir).

**Düşünmə** mərhələsində dərk olunmuş biliklər təhlil və tətbiq olunur, şagirdlər tərəfindən bir daha nəzərdən keçirilir, alınmış məlumatlar yeni sahələrə tətbiq olunur, başqa bir formalara çevrilir(Bu mərhələni sünbüldən alınan məhsullara – çörəyə, bulkaya, tortlara və s. bənzədirlər. Yəni ideya tamamilə fərqli və yeni formalarda, libasını dəyişmiş şəkildə ortaya gətirilir). Bu mərhələlərin ikisi – **düşünməyə yönəltmə** və **düşünmə** müəllimdən daha çox hazırlıq tələb edir.

TTİMY texnologiyası ilə aparılan dərslərin quruluşu və təxmini vaxt bölgüsü belədir:

1. *Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması....... 3 dəq.*
2. *Düşünməyə yönəltmə .......................................... 9 dəq.*
3. *Dərketmə ........................................................... 15 dəq.*
4. *Düşünmə ............................................................15 dəq.*
5. *Ev tapşırıqlarının verilməsi və ya sorğu vərəqələrinin doldurulması........................ 3 dəq.*

*Cəmi: 45 dəq.*

TTİMY texnologiyasının öz fəlsəfəsi, işinin təşkil olunma xüsusiyyətləri və metodları vardır. Bu texnologiyanın başlıca vəzifəsi mütaliə və yazı işlərinin şagirdin tənqidi təfəkkürünün formalaşdırılması işinə cəlb olunmasıdır. Yəni yazının və oxunun imkanlarından maksimum şəkildə bəhrələnməklə şagirdlərin tənqidi təfəkkürünü inkişaf etdirməkdir. Təbii ki, iş prosesində yaradıcı və məntiqi təfəkkürün inkişaf etdirilməsi məsələləri bir an da olsa unudulmur.

---

**?!**

1. **Ənənəvi dərslər necə quruluşa malikdir?**
2. **Hər bir ənənəvi dərs mərhələsinin üzərinə düşən vəzifələri qeyd edin.**
3. **Ədəbiyyat təlimində yeni texnologiyalar dedikdə nələr nəzərdə tutulur?**
4. **Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı texnologiyası məzmunu barəsində nə deyə bilərsiniz?**
5. **Tənqidi Təfəkkürün İnkişafında Mütaliə və Yazı texnologiyasında dərs mərhələləri və onlarda görülən işlər barəsində nə deyə bilərsiniz?**



## b) Fəal(interaktiv) təlimlə qurulan dərslər

Fəal(interaktiv) dərslər şagirdləri sehr dünyasına aparan, onları qəlbən və ruhən dərsə bağlayan, problemləri görməyə istiqamətləndirən, onları axtarışlara, düşünməyə, fikir mübadiləsi aparmağa, işgüzar ünsiyyətə sövq edən, onlarda sərbəst düşüncəni və həyati bacarıqları inkişaf etdirən maraqlı dərs modellərindən biridir. Ənənəvi dərslərdə bir yeknəsəqlik, cansıxıcılıq, monotonluq müşahidə olunduğu halda, bu dərslərdə istifadə olunan üsulların rəngarəngliyi, iş formalarının müxtəlifliyi, fəal müzakirələr ona daha işgüzar və emosional çalarlar gətirir. Bunlara səbəb həmin dərs modelinin maraqlı və məntiqi bir quruluşa malik olması, tədqiqat xarakteri daşımasıdır. Fəal(interaktiv) təlimlə keçilən dərslər elə təşkil olunur ki, şagirdlər dərs vaxtının tez bitməsinə təəssüf edilər. Gəlin həmin dərslərin quruluşu ilə tanış olaq.

Biz əvvəlcə *interaktiv təlim* və *texnologiya* terminlərinə də aydınlıq gətirmək istərdik. İnteraktiv sözü ingiliscə **inter** – qarşılıqlı, birgə, **akt** isə fəaliyyət göstərmək deməkdir. Bu iki söz ya insan, ya da kompüterlə söhbət, dialoq rejimində qarşılıqlı fəaliyyətdə olmaq bacarığını bildirir. Deməli, interaktiv təlim hər şeydən əvvəl, dialoqlu təlimdir. Onun gedişində müəllim və şagirdin qarşılıqlı, birgə fəaliyyəti ilə tədris prosesi həyata keçirilir. Müəllim bilikləri ötürən rolundan imtina edir və yeni bir vəzifəni – bələdçi(fasilitator) vəzifəsini yerinə yetirir.

**Texnologiya** isə hərfi mənada materialları işləmə üsul və vasitələrindən bəhs edən elm deməkdir.[23] Pedaqoji texnologiyadan danışılanda da bu sahədə müəyyən vəzifələri həll etmək üçün səfərbər olunan üsul və vasitələr toplusunu əhatə edən elm sahəsini nəzərdə tutmaq lazımdır.

---

[23] Rusca-Azərbaycanca lüğət, III cild, Bakı 1983, səh. 321

**Fəal(interaktiv) təlimlə** aparılan dərslərdə rəngarəng iş formaları, qrup işləri aparıcı mövqeyə çıxır. Dərsin mərhələləri və təxmini vaxt bölgüsü aşağıdakı şəkildə olur:

1. *Motivasiya ...................................................3 dəq.*
2. *Tədqiqatın aparılması ............................... 9 dəq.*
3. *Məlumat mübadiləsi ..................................10 dəq.*
4. *Məlumatın müzakirəsi və təşkili ..................7 dəq.*
5. *Nəticələrin çıxarılması ............................... 5 dəq.*
6. *Yaradıcı tətbiqetmə .................................... 8 dəq.*
7. *Qiymətləndirmə(və ya refleksiya).................. 3 dəq.*

*Cəmi: 45 dəq.*

Həmin mərhələlərdə nə kimi işlərin görülməsinə nəzər salaq.

**1. Motivasiya.** Fəal(interaktiv) dərsin birinci və ən vacib mərhələsi bünövrə rolunu oynayan **motivasiya** mərhələsidir. Motivasiya mərhələsinin əsas vəzifəsi idraki fəallığın yaradılmasıdır. Bu mərhələ dərsin başlanmasına şagirdləri səfərbər edir, onlarda fikri fəallığı yaradır, yeni öyrəniləcək mövzuya – problemin qoyulmasına, hazırlıq işlərini həyata keçirməyə intensiv maraq oyadır və problemin tədqiq olunması üçün **tədqiqat sualını** meydana gətirir. Tədqiqat sualı qoyulduqdan sonra şagirdlər həmin **problemin ilkin həlli variantlarına** dair öz **ehtimallarını (proqnozlarını**) verirlər. Müəllim həmin variantları bir-bir lövhədə qeyd edir. Bu zaman təkrarlar nəzərə alınmır(Qeyd: ənənəvi dərslərdən fərqli olaraq fəal(interaktiv) təlimdə dərsin başlanğıcında yeni mövzu, adətən, elan olunmur. Motivasiya mərhələsi yeni öyrəniləcək mövzunu problem kimi şagirdlərin özlərinə tapdırır).

Motivasiya mərhələsi həmçinin təlim prosesində psixoloji, emosional və işgüzar mühitin yaranmasına imkan yaradır.

Motivasiya sözünün mənası sübutlar, əsaslar, dəlillər, səbəblər deməkdir. Fəal təlimdə bu mərhələ faktlara söykənməklə, nəyəsə, hansı istiqamətəsə fikir və düşüncənin



yönləndirilməsidir. Bu mərhələdə faktlara söykənmək dedikdə şagirdlər şəxsi qənaətlərinə, biliklərinə, təsəvvürlərinə, dünyagörüşlərinə, həyati təcrübələrinə müraciət etməklə problemin həll olunması yollarına dair ilkin fərziyyələrini irəli sürürlər və fikirlərini əsaslandırmağa cəhd edirlər. İlkin fərziyyələrin lövhəyə qeyd olunması ilə motivasiya mərhələsi öz işini yekunlaşdırır.

Deyilənlərə əsasən motivasiya mərhələsində görülən işləri belə ümumiləşdirə bilərik. Bu mərhələdə **əvvəlcə mövzu tapdırılır və o, lövhəyə qeyd olunur**, **sonra isə həmin mövzu ilə bağlı tədqiqat sualı ortaya qoyulur və o sual da mövzunun altında lövhəyə yazılır, daha sonra isə qoyulmuş suala şagirdlərin ilkin fərziyyələri alınaraq lövhəyə qeyd olunur**

Motivasiya mərhələsində mövzunun tapdırılması üçün müxtəlif vasitələrdən istifadə etmək olar. Buraya metodik ədəbiyyatda müxtəlif vasitələri daxil edir və adını da **simvollu materialların şərh edilməsi** qoyurlar. Simvollu materiallar mövzuya bir işarə, yönəltmə kimi qəbul edilməlidir. Bu simvollu materiallar sanki "oğrunun yadına daş salır". Belə ki şagirdlərə tədris olunacaq mövzu ilə bağlı müxtəlif simvollu materiallar - **şəkil, sxem, simvol, təranə(melodiya)**, **bədii əsərdən bir fraqment, əşya, rəvayət, tapmaca, hikmətli söz, atalar sözləri, şeir parçası, kinofilmdən kiçik bir fraqment, musiqi klipindən bir parça, portret, rəssamlıq işi, qrafik** və s. təqdim olunur və onlardan soruşulur: (Əgər Siz istənilən bir görüntünü - şəkil, portret, tablo və s. nümayiş etdirirsinizsə, onda), **- Uşaqlar, Siz burada nə görürsünüz?** sualını qoyursunuz. Şagirdlərdən cavab aldıqdan sonra ikinci bir sual ünvanlayırsınız: **Bu mənzərə( və ya şəkil, tablo, lövhə...) xoşunuza gəldimi?** Şagirdlərin cavabı dinlənildikdən sonra onlara təklif olunur ki, öz təəssüratlarını, fikir və qənaətlərini əsaslandırsınlar. Bunun üçün müəllim onlara **Nəyə əsasən belə düşünürsünüz?** sualını verir və onların təəssüratlarını dinləyir. Sonra isə onlara yeni bir sual ünvanlayır: **- Uşaqlar, Sizcə, bu**

**gün nə barədə danışacağıq?(və ya biz bu gün hansı mövzudan söz açacağıq?** Təbii ki, şagirdlər nədən söhbət açılacağını dərhal təxmin edə biləcəklər. Çünki müəllimin təqdim etdiyi material mütləq mövzunu ortaya çıxarır(və çıxarmalıdır). Şagirdlərin cavabı alınandan sonra müəllim davam edir: **- Uşaqlar, Siz çox doğru buyurdunuz. Bu gün biz ….(**tutaq ki, bahardan, payızdan, təbiətdən, şəlalədən və s.**) danışacağıq.** Müəllim mövzunun adını dəqiq şəkildə lövhəyə qeyd edir.

Tutaq ki, Abbas Səhhətin "Yay səhəri" və ya Səməd Vurğunun "Ceyran"[24] şeirlərindən birinin tədrisinə bu yönümlü motivasiya qurulmalıdır. Mövzunun tapdırılması üçün müəllim internet axtarış sistemindən bəhrələnərək birinci mövzuya dair(açar sözlər: *yay səhəri*, *yay, yay lövhələri*) *yay şəkilləri* sözünü yazır. Bu zaman axtarışın nəticələri yerində həmin mövzuya dair minlərlə şəkil olduğu göstərilir. Müəllim onları nəzərdən keçirərək lazım bildiyi şəklin sürətini çıxarmaqla dərsdə nümayiş etdirə bilər. Eləcə də Ceyran sözünü axtarış sisteminə daxil edib müvafiq bir şəkli surətini çıxarmaqla dərsdə nümayiş etdirə bilər. Əgər məktəbin internet şəbəkəsi varsa, elə sinifdə canlı, rəngli formada da onları tapıb göstərmək mümkündür.

Əgər istənilən bir musiqi parçasını, klipi səsləndirirsinizsə, onda işi bu cür təşkil edirsiniz: **- Uşaqlar, gəlin bir musiqi parçası dinləyək, görək orada hansı hisslər tərənnüm olunur.** Sonra müəllim həmin vəsaiti şagirdlərə təqdim edir və onlardan soruşur: **Siz nə dinlədiniz?(nə eşitdiniz?) Dinlədiyiniz parça xoşunuza gəldimi, o, Sizdə hansı hisslər yaratdı?** Cavablar dinlənildikdən sonra müəllim yenidən soruşur: - **Uşaqlar, deməli, bu gün biz nədən söhbət açacağıq?** Şagirdlər öz təxminlərini bildirir və müəllim ona əsaslanmaqla mövzunun adını dəqiq şəkildə lövhəyə qeyd edir.

[24] Mövzular təxminidir. Siz işin gedişinə fikir verin.





Və ya ceyran şəkillərindən birini seçib göstərmək olar:



– **Uşaqlar, Siz düzgün buyurdunuz, biz bu gün ... barəsində dərs keçəcəyik**( və ya söhbət açacağıq). Tutaq ki, H. Arifin "Analar" şeiri keçilir. Bu zaman analar barəsində istənilən bir musiqi parçasını internetdən tapıb fleş yaddaşa köçürüb sinifdə ondan bir fraqmenti səsləndirmək olar. Səsləndirəndən

sonra isə iş yuxarıda təqdim etdiyimiz ardıcıllıqla davam edə bilər.

Əgər mövzunun tapdırılması üçün bədii parçalar, hikmətli və atalar sözləri və s. səsləndirilərsə, onda onlar dinlətdirilməli, sonra təəssüratlar alınmalı, sonra səsləndirilən parçada nədən söhbət getdiyi soruşulmalı və nəhayət, bu gün nə barədə danışılacaqdır sualı vasitəsi ilə mövzunun adı tapdırılmalıdır. Təxminən belə:

**- Uşaqlar, Siz bu eşitdiyiniz parçadan xoşunuz gəldimi? Nəyə əsasən bu qənaətə gəldiniz? Sizcə, bu mətndə nədən danışıldı? Bəs bu gün biz nədən danışacağıq? Onda bizim mövzumuz necə adlana bilər?** suallarını ardıcıllıqla qoyursunuz**.** Şagirdlərdən cavab aldıqdan sonra davam edirsiniz: **- Uşaqlar, Siz çox doğru buyurdunuz. Bu gün biz ….(**tutaq ki, bahardan, payızdan, təbiətdən, şəlalədən və s.**) danışacağıq.** Müəllim mövzunun adını dəqiq şəkildə lövhəyə qeyd edir.

Motivasiya mərhələsinin ikinci bir addımı(mövzunun adı tapdırıldıqdan sonra) **tədqiqat sualının** ortaya qoyulmasıdır. Müəllimlər çox zaman bu sualların qoyuluşunda, onun tərtib olunmasında çətinlik çəkirlər. Bunun əsas səbəbi tədqiqat sualı ilə dərsin məqsədi – təlim nəticələri arasında əlaqənin düzgün qurulmamasıdır. Müəllimlər bu əlaqəni aydın təsəvvür etmədiklərindən elə çətin tədqiqat sualı qoyurlar ki, bir çox hallarda özləri belə ona cavab verməkdə aciz qalırlar.

Tədqiqat sualı birbaşa dərsin mövzusu və məqsədi ilə bağlı olmalıdır. Məlum məsələdir ki, bu dərsdə müəllim nəyi uşaqlara qazandıracağını(Bunun üçün mövzunun xarakterinə uyğun gələn alt-standartlar seçilməlidir. O, təlim nəticələri formasında dəqiqləşdirilməlidir. Müəllim bunları müəyyən etdirən sonra həmin məzmunu əhatə edən tədqiqat sualını ortaya qoymalıdır) aydın təsəvvür etməli, elə onu da tədqiqat sual kimi ortaya qoymalı və lövhəyə qeyd etməlidir.

Əsərlərin məzmunu və ya təhlili üzərində iş dərslərində tədqiqat sualının iki maddəsi olmalıdır. *Məzmun dərslərində*



**birinci sual** təxminən bu cür qoyula bilər(aşağıda başqa variant də təqdim edəcəyik, hansını xoşlasanız ona da seçə bilərsiniz, amma iki sual məsələsini unutmaq olmaz): bu əsərdə nədən söhbət gedə bilər(epik əsərlərdə), Şair (...) mövzusu ilə bağlı düşüncələrini bizə hansı sözlərlə çatdıra bilər?(lirik əsərlərdə). **Ikinci sual** isə alt-standartın tələb etdiyi məsələləri ümumiləşmiş şəkildə ifadə etməlidir. *Təhlil dərslərində* də **birinci sual** "Əsəri şair(yazıçı) nə üçün (...) belə adlandırmışdır?" olmalı, *ikinci sual* isə alt-standartların tələb etdiyi məsələləri ümumiləşmiş şəkildə ifadə etməlidir.

Bir neçə sadə variantı nəzərinizə çatdırmaq istəyirik. Tutaq ki, Siz, V sinifdə H. Arifin "Analar" şeirini keçəcəksiniz. Bu zaman bu variantlardan birinə müraciət etməklə belə bir iş görürsünüz. Əvvəlcə, analar haqqında gözəl hikmətli sözü – **"Cənnət anaların ayağı altındadır"(Məhəmməd peyğəmbərimizin kəlamı)** ( cəmi bir nümunə verilməlidir, çox olmaz) səsləndirirsiniz. Yönəldici suallar verməklə şagirdlərdən onun məzmununa, mənasına münasibət bildirməyi, fikirlərini əsaslandırmağı xahiş edirsiniz**.** Sonra isə soruşursunuz: **Bu hikmətli sözdə kimdən söhbət getdi?** Təbidir ki, şagirdlər **anadan** cavabını verəcəklər. Bu cavabın arxasınca, **Deməli, biz bu gün hansı mövzudan söz açacağıq?** Şagirdlər cavab verirlər ki, **yəqin ki, analar barəsində danışılacaq**. Müəllim onlara mövzunu düz tapdıqları üçün təşəkkür edir və dərsin adını dəqiq şəkildə lövhəyə qeyd edir: **H. Arifin "Anlar" şeiri**.

Tədqiqat sualları**:**

**1. Sizcə, mətndə ana haqqında nə təsvir oluna bilər? bilər?**

**2. ....** (dərsdə reallaşdırılacaq alt-standartların tələblərini ümumiləşdirən digər sual)

Şagirdlər ehtimallarını irəli sürürlər. Müəllim onları qısa şəkildə tədqiqat suallarının altında qeyd edir.

(Bundan sonra qrup tapşırıqları verilir və dərsin o biri mərhələləri üzrə iş davam etdirilir).

Tədqiqat sualının qoyulmasının müxtəlif variantları vardır. Ən sadəsi belədir ki, mövzunun adı tapılandan sonra şagirdlərdən soruşula bilər:

Birinci sual; - **Sizcə, bu mətndə bu barədə nə danışıla bilər?**(bu tipli sualları daha çox epik əsərlərə qoymaq olar).

İkinci sual; ... (dərsdə reallaşdırılacaq alt-standartların tələblərini əhatə edən ümumiləşdirici sual).

*Lirik əsərlərdə:*

Birinci sual; - **Əgər Siz şair olsa idiniz, bu gördüyünüz ceyranı hansı sözlərlə oxucunuza – bizə sevdirərdiniz?**

Ikinci sual: ... (dərsdə reallaşdırılacaq alt-standartların tələblərini əhatə edən ümumiləşdirici sual).

Ümumiyyətlə götürsək, şeir parçalar üzərində işləyəndə bu tipli sualların verilməsi olduqca məqsədəuyğundur. Siz yaxşı bilirsiniz ki, şeir parçası ətraf aləmə şairin obrazlı münasibətinin ifadəsidir. Ona görə də hər nə olsa da, bu cür əsərlər keçiləndə şagirdlərimizə imkan vermək lazımdır ki, onlar istənilən təsvir, tərənnüm obyekti ilə bağlı onları vəsf eləyə biləcək, öz səmimi düşüncələrini əks etdirən sözləri desinlər: obrazlı olub-olmaması sizi hədəfdən yayındırmasın. Yetər ki, onlar ürəklərindən keçən ən xoş, ən gözəl sözləri seçib söyləyə bilsinlər. Siz onları bir-bir lövhəyə qeyd edir və sonra isə dərsin növbəti mərhələsinə keçirsiniz.

Tədqiqat sualını başqa vasitələrdən istifadə etməklə də qoymaq olar. Metodik ədəbiyyatda buna **sual verməyə həvəsləndirmə** deyilir(Amma unudulmamalıdır ki, əsərlərin öyrənilməsi zaman iki maddəlik tədqiqat sualını olması vacibdir. Aşağıda birinci sualın qoyulması variantları nəzərdən keçirilir. Ikinci suallar mütləq alt-standartların tələblərini ödəməlidir).

A) Mövzu tapdırıldıqdan sonra müəllim sinfə belə bir sualla müraciət edir: *Biz bu məsələ ilə bağlı nəyi bilirik, nəyi bilmirik?* Əvvəlcə, nəyi bilirik sualına cavablar alınır. Sonra bu barədə nələri bilmirik və ya nələri öyrənmək bizə faydalı olardı? sualına aid suallar cərgəsi yaradılır və onlardan mövzuya daha



yaxın olanı hazırkı mövzu üçün tədqiqat sualı kimi istifadə olunur.

Məsələn, "Vətən" mövzusu tapdırıldıqdan sonra müəllim şagirdlərdən soruşur: biz mövzu ilə bağlı nələri bilirik? Şagirdlər müxtəlif cavablar verirlər və müəllim onları lövhədə birinci qrafada qeyd edir. Sonra yenidən şagirdlərə sualla müraciət olunur: Biz onun haqqında daha nələr öyrənmək istərdik? Şagirdlərin verdikləri cavablar ikinci qrafada lövhədə qeyd olunur. Və onlardan bilavasitə mövzu ilə bağlı olanı tədqiqat sualı kimi dairəyə alınır. Məsələn, **Şeirdə Vətəni bizə sevdirəcək, səciyyələndirəcək əsas cəhətlər nə ola bilər?**(bu, birinci sualdır, alt-standartların tələbini əhatə edən ikinci ümumiləşmiş sualın da qoyulması vacibdir). Sonra müəllim bu suallara dair ilkin təsəvvürləri alıb lövhəyə qeyd edir və dərsin növbəti mərhələsinə keçir.

B) *Açıq suallardan istifadə yolu ilə.* Açıq suallar o suallardır ki, onun bir neçə variantda cavabı olur. Belə sualların tərkibində **niyə, nə üçün, nə səbəbə görə, hansı, hansı keyfiyyətlərinə görə, əgər belə olmasaydı nə baş verə bilərdi, bu məsələnin səmərəli həlli yollarını nədə görürsünüz və nəyə görə belə düşünürsünüz** və s. söz və ifadələrdən istifadə olunmalıdır. Məsələn, Şair və ya yazıçı nə üçün əsərini bu cür adlandıra bilərdi?, Bu əsərdə nə və ya kim haqqında söhbət açılır?(bunlar birinci suallardır) və s.

C) *"Açar sözlər"dən və sual əvəzliklərindən istifadə etməklə tədqiqat suallarının qurulması.* Bu sözlərə ona görə belə ad verilmişdir ki, açarın hansı funksiya daşıdığı göz önünə gətirilsin. Əgər biz onun vasitəsi ilə qıfılı açıb içəri daxil oluruqsa, bu sözlər də istənilən bir mövzuya daxil olmağa həmin imkanı yaradır. Yetər ki, həmin sözləri iştirakı ilə mövzuya və dərsin məqsədinə uyğun suallar qurulsun.

Müəllim şagirdlərin diqqətini bu sözlərə cəlb edir, onlara təklif edir ki, gördükləri bu sözlərdən istifadə etməklə mövzuya dair suallar tərtib etsinlər. Tərtib olunan sualların miqdarına

məhdudiyyət qoymağa ehtiyac yoxdur. Şagirdlər həmin "açar sözlər"ə istinadən suallar tərtib edirlər. Həmin suallar bir-bir lövhəyə qeyd olunur və dərsin məqsədinə daha çox uyğun gələn sual tədqiqat sualı kimi götürülür, dairəyə alınır və şagirdlərin ilkin ehtimalları bir-bir lövhəyə qeyd olunur. Sonra dərsin növbəti mərhələsinə keçilir.

Bəzən belə də olur ki, şagirdlər problemlə bağlı nələri öyrənmək istəyəcəklərinə dair suallar qoymaqda çətinlik çəkirlər, belə sualları müəyyənləşdirə bilmirlər. Belə vəziyyətdə həmin "açar sözlər"ə nəzər salmaq kifayət edər. Yaxşı olar ki müəllim həmin açar sözlərin hər birini bir A4 formatlı bir vərəqdə yazıb daim şagirdlərin göz önündə saxlasın.

Həmin "açar sözlər"ə **xüsusiyyətlər, növlər, rol, əhəmiyyət, səbəb, nəticə, əlaqə, quruluş, funksiya, keyfiyyət, əlamət, çatışmazlıqlar və üstünlüklər** və s. daxildir.

İş nümunəsinə fikir verək. Məsələn, X sinifdə Nəsimi mövzusunun tədrisi zamanı(mövzu tapdırıldıqdan sonra –F.Y.) müəllim şagirdlərə təklif edə bilər ki, onlar müəyyənləşdirsinlər, görsünlər hansı "açar sözlər"ə istinad etməklə mövzuya dair suallar tərtib etmək mümkündür. Şagirdlər verilmiş "açar sözlər"dən istifadə etməklə aşağıdakı sualları qura bilərlər:

1. Nəsiminin ədəbiyyat tariximizdə **rolu** nədən ibarətdir?
2. Onun həyat və yaradıcılığına hansı **xüsusiyyətlər** xasdır?
3. Nəsiminin bədii irsinin bizim üçün **əhəmiyyəti** nədir?
4. Nəsimi irsinin **üstünlükləri** nədən ibarətdir?
5. Nəsimi irsinin ənənələrlə hansı bir **əlaqəsi** vardır? və s.

Deyilənlərə yekun vurmağa çalışaq. Dərsin motivasiya mərhələsində işlər aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

a) Simvollu material təqdim olunur,



b) Onun haqqında şagirdlərin təəssüratı soruşulur, fikirlərini əsaslandırmaq xahiş olunur,
c) Cavablar ümumiləşdirilir və şagirdlərdən soruşulur: burada nədən söhbət gedirdi?
d) Şagirdlərin cavabı dinlənildikdən sonra onlara sual verilir: deməli, bu gün biz nə haqqında söhbət açacağıq?
e) Şagirdlərin cavabı alınandan onlara təşəkkür edilməklə mövzunun adı dəqiq formada lövhəyə qeyd olunur,
f) Mövzuya tədqiqat sualı qoyulur və o da lövhəyə qeyd olunur,
g) Tədqiqat sualına şagirdlərin ilkin cavabları (fərziyyələri) alınır və yığcam şəkildə tədqiqat sualının altında lövhəyə yazılır.

Motivasiyanı yaratmaq işində hansı variantın seçilməsi mövzunun xarakterindən və müəllimin istəyindən asılıdır. Metodik ədəbiyyatda **iki növ motivasiyanın** olduğu göstərilir: **yığcam və geniş**. Geniş motivasiyada əvvəlcə 2-3 yönəldici sual sonra isə tədqiqat sualı qoyulur, yığcam motivasiyada isə mövzudan sonra birbaşa tədqiqat sualına müraciət olunur. Müəllim hansı variantı məsləhət bilirsə, onu da seçə bilər.

Motivasiya mərhələsi *tədqiqat sualına* verilən cavabların lövhədə qeyd olunması ilə yekunlaşır. Dərsin növbəti mərhələsinə keçilir.

**2. Tədqiqatın aparılması mərhələsi.** Bu mərhələdə irəli sürülən fərziyyələrin yoxlanılması, dəqiqləşdirilməsi üçün şagirdlərin tədqiqat aparmalarına şərait yaradılır. Müəllim əvvəlcədən qrup tapşırıqların hazır edir. Bu tapşırıqlarda dərsin məqsədini – təlim nəticələrini əhatə edən müddəalar əsas götürülür. Əgər təlim nəticəsi 3-5 maddə arasındadırsa, deməli, o maddələr tədqiqat zamanı mütləq araşdırılmalı və şagirdlər problemi hərtərəfli tədqiq etmək bacarığını kiçik qrup (ola bilsin ki, dərsdə fərdi, cütlərlə, böyük qrupla iş formalarından istifadə

oluna bilər. Bu amili unutmaq olmaz) formasında nümayiş etdirilməlidir.

Bu mərhələdə müəllim sinifdəki şagirdlərin miqdarını nəzərə almaqla neçə qrup yaradacağını, o qruplara hansı tapşırıqlar verəcəyini əvvəlcədən müəyyən etməlidir. Burada hansı iş formasının seçilməsi(fərdi, cütlərlə, kiçik qrupla, böyük qrupla) olduqca vacibdir. Hansı iş formasının seçilməsi isə proqram materialının verdiyi imkandan asılıdır. Elə mövzular var ki, kiçik qrupla iş, eləsi də var ki, böyük qrupla iş formasında həyata keçirilə bilər.

Qrup tapşırıqları verilən zaman **yaddaşı, məntiqi, tənqidi və yaradıcı təfəkkürü** inkişafa sövq etdirən suallar (tapşırıqlar) sisteminə müraciət olunmalıdır. *Yaddaş, hafizə* insanın həyatda mövcud olmasını şərtləndirən ən vacib amillərdən biridir. O yoxdursa, deməli, insan da yoxdur. Qrup tapşırıqları verilərkən elə etmək lazımdır ki, suallardan biri şagirdlərin hafizəsini yoxlamağa imkan yaratsın. Müəllim elə sual qoymalıdır ki, şagirdlər mətni oxuduqdan sonra onun məzmununu düzgün xatırlasınlar, yadlarına salsınlar, əldə etdikləri biliyi bir siyahı formasına sala bilsinlər, əlamətləri keyfiyyətləri düzgün və dəqiq sadalasınlar, onları düzgün qeyd etsinlər, nələri isə unutmadıqlarına əmin olsunlar.

*Məntiqi təfəkkür* də yaddaş əsasında formalaşır və insanın bir varlıq kimi formalaşmasında mühüm rol oynayır. Biz əldə etdiyimiz biliklərə, məlumatlara, həyat təcrübələrimizə o zaman sahib çıxırıq ki, bu bilikləri müxtəlif nöqtələrdən qiymətləndirə bilirik, onları əvvəlki biliklərimizlə müqayisə edir, tutuşdurur, oxşar və fərqli cəhətləri ayırd edir, qruplaşdırır, əsasları ikinci dərəcəli cəhətlərdən uğurla ayıra və seçə bilir, onu təhlil edir, şərh edir, səbəbini tapır, nəticə çıxarırıq. Bu əməliyyatları yerinə yetirmək məhz məntiqi təfəkkürün hesabına baş verir. Kimdə bu cür bacarıqlar daha çox inkişaf edirsə, onlar həyatda bir o qədər də uğur qazanmış olurlar. Bu cür insanlarda çaşma, səhv etmə, yanlış yola düşmə qətiyyən ola bilməz.



Deməli, qrup tapşırıqları zamanı elə etmək lazımdır ki, onlardan biri də məhz məntiqi təfəkkürün inkişaf etdirilməsinə yönləndirilmiş olsun. Dərslərdə təlim nəticəsindən çıxış etməklə müqayisəedici, qruplaşdırıcı, əsas məsələləri ikinci dərəcəli məsələlərdən ayırd etməni tələb edən tapşırıqlar vermək bəs edir ki, məntiqi təfəkkürün inkişafı təmin olunsun. Məsələn, *Ana və Vətən kəlmələrini birləşdirən və ayıran cəhətləri qeyd edin. Novruzəli və Xan obrazlarının fərqi nədən ibarət olduğunu müəyyən edin.* Deməli, qrupun birinə məhz bu məzmunlu tapşırıq verilməlidir.

*Tənqidi təfəkkür* də yaddaş materialından bəhrələnməklə, ona söykənməklə insana isbat edir ki, əldə olunanlardan da yaxşısına sahib çıxa bilərsən. Əldə etdiyin biliklər, həyat təcrübəsi və s. sənə kifayət edirmi, ona dəyər ver, münasibətini bildir və bu qənaətini əsaslandır, səhvləri tap, düzgün olanını seç. Tənqidi təfəkkürü lazımi səviyyədə formalaşmış insan hər bir fakt və hadisəni olduğu kimi görməkdən əlavə, ona hərtərəfli yanaşa, təhlil edə, qərar verə və əsaslandırılmış münasibət ifadə edə bilir. Ona görə də qrup tapşırıqları verilərkən elə etmək lazımdır ki, bir qrup da təlim nəticələrinin məzmununa uyğun olaraq fakt və hadisələrə münasibət bildirmək, dəyər vermək, əhəmiyyətini göstərmək tapşırığı üzərində işləsin. Məsələn, *Əsərdə təsvir olunan hadisəyə Siz necə dəyər verərdiniz? Filan hadisənin əhəmiyyətini nə ilə əsaslandırardınız?...*

*Yaradıcı təfəkkür* də yaddaşdan, hafizədən mayasını götürür insanın həyatına bir işıq, yaradıcılıq, qurub-yaratmaq əzmi gətirir. İnsan təkcə təqlid etmir, hər hansı bir işin mexanizmini mənimsədikdən sonra daha mükəmməlini və səmərəli olanını yaradır. İnsanın fantaziyası hər bir şeydə yeni-yeni əlamət, hərəkət və keyfiyyətlər yaratmağa qadirdir. Belə təfəkkürə sahib olan insanlar öz həyatlarını rəngarəng qurmağı bacarır, cəmiyyətin inkişafına təkan vermiş olurlar. Təsadüfi deyildir ki, son iyirmi ildə təfəkkürün inkişaf etdirilməsi ən vacib məsələ kimi gündəmdə saxlanılmaqdadır. Deməli, qrup

tapşırıqları hazırlananda qoyulan suallardan bir də yaradıcı təfəkkürün inkişaf etdirilməsinə aid olmalıdır. Məsələn, *Hadisəni Siz necə davam etdirərdiniz? Siz bu prosesin çıxış yollarını nədə görərdiniz? ...*

Deməli, biz dərslərdə məhz elə tapşırıqlardan istifadə etməliyik ki, onlar şagirdlərimizin həm hafizəsini, həm də düşüncələrinin daim inkişafda saxlaya bilsin.

Tapşırıqlar yazılı şəkildə icra olunduğundan suallarda bu ifadələr – **yazın, qeyd edin, yazılı şəkildə ifadə edin, yazılı şəkildə əsaslandırın, yazılı şəkildə göstərin** və s. öz yerini tutmalıdır. Yoxsa şagirdlər tapşırığı şifahi icra edərlər və bunun da heç bir faydası ola bilməz. Təəssüf ki çox zaman müəllimlər tapşırıqda nəzərə alınmalı olan bu vacib məqamı unudur və səhvlərə yol verirlər.

**Yaddaşa** dair tapşırıqda aşağıdakı sözlərdən birinin iştirakı kifayət edir: *öyrən, əzbərlə, yadına sal, xəyalında canlandır, danış, ifadə et, tap, siyahını tərtib et, sadala, təsdiqini tap(əsaslandır), hər hansı bir sıraya, növə aid et, göstər, tərif ver.*

**Məntiqi təfəkkürün** inkişaf etdirilməsinə dair tapşırıqda aşağıdakı sözlərdən birinin iştirakı bəs edər: *təsvir et, müqayisə et, oxşarlıqları və fərqləri tap, təsnif et, qur, dəyişdir, hesabla, sadələşdir, müəyyən et, öz tərifini ver, əlaqəni aşkar et, sxem, qrafik, cədvəl düzəlt, tərtib et davam et, təhlil et, izah et, şərh et, nəticə çıxar, səbəbi tap(səbəb, nəticə), ümumiləşdir, əsas ideyanı seçib ayır, mahiyyətini ifadə et.*

**Tənqidi təfəkkürün** inkişaf etdirilməsinə dair tapşırıqda verilmiş sözlərdən birinin iştirakı kifayətdir*: müxtəlif baxış nöqtələrindən qiymətləndir, əhəmiyyətini, rolunu qiymətləndir, meyarları müəyyən et, meyar cədvəlini tərtib et, səhvləri tap, faktları uydurmadan seçib ayır, mübahisəli məqamları aşkar et, tənqidi yanaş, düzgün olanı seç, ən mühüm predmetləri və hadisələri müəyyən et, əhəmiyyətini sübut et, öz ideyanı əsaslandır, ən səmərəli yolu tap, məsləhət ver.*



**Yaradıcı təfəkkürün** inkişafına dair tapşırıqda əks oluna bilər: *hekayə, situasiya, nağıl, musiqi, üsul uydur; maket, model, sxem, qrafik, kitab tərtib et; proqnoz ver, müqayisə et və analoqunu tap, ixtira et, yarat, başqa obyektə döndər, yeni tətbiq üsulunu tap, dəyişikliklər et, yenidən tərtib et, yeni əsaslar üzərində təsnif et, yeni şəraitə uyğun hala gətir, öz şəxsi mülahizəni ver, problemi müəyyən et, fərziyyələr söylə, mübaliğə et. Minimuma endir, simvol şəklində təsvir et.*

Tədqiqatın aparılması mərhələsində tədqiqat sualına verilən ilkin cavabı – fərziyyələri yoxlamaq və təsdiq etmək baxımından qrup işlərinə start verilir. Müəllim bilik - tədqiqat mənbələrini elan edir, şagirdləri qruplara bölür, hər qrupu tapşırıq və iş vərəqləri ilə təmin edir, tapşırığın necə icra olunacağına dair ümumi təlimat verir, tədqiqatın aparılacağı müddəti elan edir.

Tədqiqatın aparılması mərhələsi şagirdlərin iş vərəqlərində qeyd etdirdikləri məlumatlarla yekunlaşır. Yəni verilmiş vaxt ərzində görülən işlərin nəticəsi iş vərəqlərində öz əksini tapır. Bu mərhələdə müəllim tərəfindən aşağıdakı səhvlər buraxıla bilər:

- Tədqiqatın aparılması mərhələsində müəllim dərsin məqsədini əhatə etməyən suallardan istifadə edə bilər.
- Tapşırıqların düzgün həlli variantını qruplara yaxınlaşıb özü söyləyə bilər.
- Ola bilsin ki, tapşırıqlarda məntiqi, tənqidi və yaradıcı sualları düzgün qoya bilməz.
- Suallar olduqca qəliz və mürəkkəb ola bilər.
- Şagirdlərin tədqiqat işlərinin gedişində müəllim bir seyrçi kimi qalar və ya işin gedişinə gərəksiz müdaxilələr edər.

Bunlara qətiyyən yol vermək olmaz. Qrup tapşırıqları təlim nəticələrinə və tədqiqat sualına əsaslanmaqla qısa, aydın, sadə və şagirdlərin güclərinə müvafiq formada olmalıdır. Tədqiqata ayrılan vaxt azalanda, yəni iki dəqiqə, bir dəqiqə qalanda onu şagirdlərə elan etmək lazımdır. Tədqiqatın

gedişində müəllim dəstəkləyici və nəzarətedici işləri yerinə yetirməlidir.

Tədqiqatın aparılması mərhələsi şagirdlərin iş vərəqlərinə cavablarının qeyd edilməsi ilə yekunlaşır.

**3. Məlumat mübadiləsi** mərhələsi. Bu mərhələdə müəllim hər bir qrupun təqdimatına neçə dəqiqə vaxt ayrıldığını elan edir. Şagirdlər tədqiqatın nəticələrini – qrup işlərini bir-bir sinfə təqdim etməyə başlayırlar. Bunun üçün hər qrupdan bir nəfər nümayəndə tədqiqatın nəticələrini sinfə çatdırır. Əgər ona suallar olarsa, onu cavablandırır və əyləşir.

Müəllim bu mərhələdə şagirdləri bir-birilərinin təqdimatlarına qulaq asmağa səfərbər etməlidir. Bütün qrupların təqdimatları bitdikdən sonra irəlicədən müəyyən edilmiş meyarlar əsasında qiymətləndirmə həyata keçirilir.

Məlumat mübadiləsi mərhələsi lövhəyə yapışdırılmış iş vərəqləri ilə yekunlaşmış olur.

Bu mərhələdə müəllim aşağıdakı səhvləri buraxa bilər:

- Qrupun birinə çox, digərinə az vaxt ayırar
- İş vərəqlərinin bir-birinin üstünə yapışdırtdırar
- Təqdimatlar zamanı liderlər iş vərəqlərini qarşısını örtmüş olar,
- Qiymətləndirmə meyarlarını qabaqcadan elan etmədən qiymətləndirmə aparar,
- Öz fikrini əsaslandırmaq əvəzinə, şagirdlərə onu zorla qəbul etdirər.
- Qrup işlərinin təqdimatında hər dəfə eyni şagirdi lövhəyə dəvət edər,
- Təqdimat zamanı öz münasibətinə dərhal açıqlayar.

**4. Məlumatın müzakirəsi və təşkili( yəni sistemə salınması, ümumiləşdirilməsi)** mərhələsi. Bu mərhələdə təqdim olunan qrup işlərinin nəticələrinə nəzər salınır, onlardakı məlumatlar üzərində müşahidələr aparılır, üst-üstə düşən və düşməyən məqamlara şagirdlərin diqqəti cəlb olunur,



ümumiləşdirmələr aparılır. Bunu bir qədər ətraflı şəkildə izah edək.

Təsəvvür edin ki, lövhəyə 5 qrupun iş vərəqləri asılmışdır. Müəllim qiymətləndirməni bitirdikdən sonra həmin iş vərəqlərindəki məlumatların müzakirə ediləcəyini elan edir. Şagirdlərə bildirir ki, - *Gəlin, indi iş vərəqlərindəki məlumatlara ümumi bir nəzər salaq, onlardakı oxşar fikirləri müəyyən edək, ümumiləşdirək və yekun bir məlumat ortaya qoyaq.*

Beləliklə, qrup işlərini birləşdirilən və fərqli cəhətlər müəyyən olunur və yekun, ümumi bir rəyə gəlinir. Tutaq ki, birinci qrupun iş vərəqində müşahidə apardıq və orada əks olunun əlamətlərin "ata"ya, eyni ilə digər qruplarda "ana"ya, "bacı"ya, "qardaş"a, "nənə"yə aid olduğu müəyyən etdik. Sonra müəllim həmin əlamətlərin bir yerə cəmlənməsini və nə alına biləcəyini soruşur. Təbiidir ki, şagirdlər bu əlamətlərə görə "AİLƏ" anlayışını ortaya qoyurlar(aşağıdakı sxemə baxın).




Bu mərhələdə ümumiləşdirmə və təsnif etməni istənilən cür təşkil etmək olar. Müəllim unutmamalıdır ki, iş vərəqlərindəki məlumatlar, dərsin məqsədinə uyğun formada müşahidə etdirilməli, həmin vərəqlər arasında rabitə tapılmalı, "körpülər" qurulmalı, oxşar fikirlər bir tərəfə, fərqlilər isə başqa tərəfə toplanmalı və yekun qənaət – ümumiləşmiş fikir ortaya qoyulmalıdır. Həmin yekun qənaət axtarışların nə ilə nəticələndiyini yığcam formada şagirdlərin gözü önündə canlandırmalıdır.

Bu mərhələdə müəllim tərəfində aşağıdakı səhvlər buraxıla bilər:

- Qrupların təqdim etdiyi iş vərəqləri üzərində şagirdlərin müşahidəsini düzgün təşkil edə bilməz,
- Müzakirə üçün sualları düzgün qoya bilməz,
- İş vərəqlərindəki məlumatları düzgün ümumiləşdirtdirə bilməz, əvəzində bu işi özü edər,
- Ümumiləşdirmə, yekun rəyi dərsin məqsədindən kənar məsələlərlə bağlayar,
- Şagirdlərin sərbəst müşahidə aparmalarına, fikir yürütmələrinə imkan yaratmaz.

Bu mərhələ ya yekun qənaətlərin yeni bir vərəqdə qeyd olunması ilə, ya da mövcud iş vərəqlərinin tezisləri üzərində "+" və ya "-" işarələrinin qoyulması ilə bitir.

**5. Nəticələrin çıxarılması** mərhələsi. Bu mərhələ dərsin ən vacib məqamını özündə əks etdirir. Burda görülən iş o olur ki, tədqiqatların yekununu əks etdirən qənaətlərlə motivasiya mərhələsindəki tədqiqat sualı və ona dair irəli sürülmüş ilkin fərziyyələr tutuşdurulur, nələrin üst-üstə düşdüyü, nələrin isə yeni olduğu aydınlaşdırılır. Bu mərhələnin yekununda artıq yeni biliyin əldə edilməsi özünü göstərir.

Bu mərhələdə müəllim tərəfindən aşağıdakı səhvlər buraxıla bilər:

- Yekun qənaətlə dərsin ilk mərhələsində əksini tapan tədqiqat sualı və ilkin fərziyyələr düzgün əlaqələndirilə bilməz,
- Müəllim əlaqələndirici sualı düzgün qoya bilməz,
- Bu mərhələdəki işləri - tutuşdurmanı və digər işləri müəllimin özü icra edər.

**6. Yaradıcı tətbiqetmə** mərhələsi. Bu mərhələdə əldə olunmuş yeni bilik yaradıcı şəkildə tətbiq olunur. Bunun üçün müəllim şagirdlərə yaradıcı tapşırıq verir(həm sinif, həm də ev tapşırığını əvvəlcədən müəyyənləşdirmək gərəkdir). tapşırıqlardan istifadə edir. Müəllim mövzunun tələbindən, dərsin təlim nəticələrindən irəli gələn yaradıcı tapşırığı şifahi formada şagirdlərə elan edir və icra müddətini bildirir.



Bu mərhələdə müəllim aşağıdakı səhvləri edə bilər:

- Yaradıcı tapşırıq əvəzinə möhkəmləndirici suallardan istifadə,
- Bütün şagirdlərin yaradıcılıq işlərinin nəticələri ilə tanışlıq,
- Vaxt rejiminə düzgün əməl etməmək,
- Şagirdlərin işlərinin dinlənilməsində diqqətsizlik, qeyri-səmimilik, dəstəkləyici münasibətin olmaması.

Bu mərhələ şagirdlərin yaratdıqları iş nümunələrinin təqdimi ilə yekunlaşır. Həmin mərhələdə bir neçə şagirdin işi dinlənilməli və haqqında mütləq müsbət fikirlər söylənməlidir.

**7. Qiymətləndirmə və ya Refleksiya.** Bu mərhələdə formativ qiymətləndirmə aparılır, müəyyən olunmuş meyarlar əsasında şagird nailiyyətləri yoxlanılır. Bu zaman sual və tapşırıqlardan, test nümunələrində istifadə oluna bilər. Müəllimin vaxtı qalarsa, onda biliyin əldə olunması yollarına da şagirdlərin diqqətini cəlb etmək lazımdır: *Biz bu bilikləri necə əldə etdik? Əvvəlcə, nədən başladıq? Sonra hansı işləri gördük? Daha sonra nə etdik?* və bu qayda ilə davam edilir. Bu sözün mənası əldə olunmuş biliyin, keçilən yolun şüurda canlandırılmasıdır.

Bu mərhələdə müəllim aşağıdakı səhvləri buraxa bilər:

- Biliklərin əldə olunması ardıcıllığını düzgün soruşa bilməz,
- Sualların qoyuluşunda uzunçuluğa yol verər?
- Biliyin əldə olunması yolunu ancaq özü şərh edər.

==========================================

Biz ənənəvi dərslərdə bu cür cəhətləri görə bilmirik. Məhz bu keyfiyyətlərinə görə də ənənəvi dərs modelləri ilə yeniləri arasında ciddi fərqlər yaranır. Bu fərqlər onların istifadəsində olan üsullarda da özünü göstərir: ənənəvi dərs 5-6 üsula möhtacdırsa, yeni təlim texnologiyalarının istifadəsində isə 400-dən çox üsullar və fərqli iş formaları vardır. Birincinin

üsulları yaddaşın, yeni kursun ki isə təfəkkürün inkişafına yönəlmişdir.

İstər ənənəvi, istərsə də fəal(interaktiv) təlim və TTİMY texnologiyası ilə aparılan dərslərdə təlim, tərbiyə və inkişaf məqsədləri, dərslərin təchizatı, istifadə olunan metodlar, dərslərin mərhələləri və təxmini vaxt bölgüsü qeyd olunmalıdır.

## Fəal dərsin mexanizmləri

Fəal(interaktiv) təlim texnologiyası tədris materiallarının elə öyrədilməsi sistemidir ki, bu zaman şagirdlərin qarşısını problem qoyulur, onlarda həmin problemi həll etmək tələbatı yaradılır, onlar birgə fəaliyyət, axtarış həyata keçirib bilikləri müstəqil şəkildə əldə edirlər. Bu zaman əsas yük şagirdlərin tədqiqat işlərinin təşkilinə, alınan biliklərin yaradıcı tətbiqinə, şagirdlərin məntiqi tənqidi və yaradıcı təfəkkürünün inkişafına yönəldilir. Deyilənlər onu göstərir ki, fəal(interaktiv) dərslər mükəmməl mexanizmə malikdir.

Saatın necə işlədiyini, hansı quruluşa malik olduğunu bilirsiniz. Onun bir çarxını sıradan çıxarsaq, o hərəkət edə bilərmi? Fəal(interaktiv) təlimin də öz mexanizmləri vardır. Əgər bu mexanizmlərdən biri yoxdursa, onda fəal(interaktiv) təlim də yoxdur. Həmin mexanizmlərə daxildir:

1. Problemli şəraitin yaradılması,
2. Şagirdin tədqiqatçı, müəllim bələdçi olması,
3. Dialoq və əməkdaşlığın zəruriliyi,
4. Psixoloji dəstək: hörmət və etibar.

Həmin mexanizmlərin nələri əhatə etməsinə diqqət yetirək.

**1. Problemli şəraitin yaradılması** mexanizmi aşağıdakıları məsələləri əhatə edir:

- Təlim şagirdlər üçün maraqlı olduqda və o özü problemi həll etməyə qadir olduqda ən zəif şagird təlimdə fəallaşır. Bu faktı unutmamaq gərəkdir.



- Deməli, öyrənmə (idrak) fəallığını yaratmaq üçün şagirdin qarşısına dərs mövzusunun tələb etdiyi məsələni bir problem kimi qoymaq və şagirdi həmin problemin həll edilməsinə yönəltmək lazımdır.
- Problemin qoyulması ona görə vacibdir ki, bu zaman şagirddə ziddiyyəti həll etmək tələbatı yaranır və bu birbaşa təfəkkürü oyadır, şagirdi problemi həll etməyə vadar edir, bu da öz növbəsində idrak (yəni dərketmə) fəallığını yaradır.
- Problemi yaratmaq üçün ziddiyyət və bu ziddiyyətin həlli üçün məlumat qıtlığı olmalıdır.
- İdrak fəallığı yaratmaq üçün problem cəlbedici, maraqlı, düşündürücü olmalı, müxtəlif fikirlər yaratmalı, müstəqil tədqiq edilməsi mümkün olmaqla şagirdlərin öz qabiliyyətlərini nümayiş etdirməyə imkan verən və onların imkanlarına, səviyyəsinə uyğun olmalı, eyni zamanda asan olmamalıdır.
- Problem yaranandan və ortaya qoyulandan sonra dərsdə problemin həlli üçün şagirdlər tərəfindən müxtəlif fərziyyələr təklif olunur.

**2. Şagird – tədqiqatçı, müəllim – fasilitator, bələdçi olması** mexanizmi aşağıdakı məsələləri əhatə edir**:**

a) Dərslərdə bir çox hallarda şagirdlərin hamısının eyni səviyyədə fəallığına və məlumatı yaxşı qavramalarına nail olmaq bir o qədər də asan iş deyil Bu məsələnin uğurlu həlli şagirdin marağından, bilik səviyyəsindən, onun əhvali-ruhiyyəsindən, idrak proseslərinin (hafizənin, diqqətin, təfəkkürün) xüsusiyyətlərindən, müəllimin ustalığından, dərsi necə qurmasından və s. asılıdır.

b) Müəllim şagirdin qarşısına qoyulan problemi özü həll etməməlidir. Əgər belə edəcəksə, onda

şagirdlərin fəallığı aşağı düşməyə başlayacaqdır. Bu işin baş verməməsi üçün müəllim bələdçi, yol göstərən, istiqamət verən mövqeyini tutmalıdır. Müəllim heç bir məsələnin hazır şəkildə şagirdə təqdim etməməlidir.

c) Şagirdin təlim prosesinin subyektinə çevrilməsini hazırkı təhsil siyasətinin özəyini təşkil edir. Bu o deməkdir ki, o, dərs prosesində kəşfedici şəxsin (tədqiqatçının, axtarış aparanın) rolunu yerinə yetirir.

d) Deməli, dərs prosesində müəllim şagirdlərin bilikləri əldə etməsi işində bələdçi mövqeyini tutur, şagirdlər isə bilikləri kəşf edən şəxs kimi çıxış edir.

### 3. Dialoqun və əməkdaşlığın zəruriliyi.

⇒ Fəal(interaktiv) dərsin əsas cəhətlərindən biri də dərs prosesində dialoq və əməkdaşlığın zəruriliyidir. Təlimin hər bir iştirakçısının bilik və təcrübəsindən istifadə edib problemin daha səmərəli həlli yollarını tapmaq lazım gəldiyindən mütləq dialoqa və əməkdaşlığa üstün yer verilməlidir.

⇒ Dialoqda şagirdin öz qabiliyyətlərini nümayiş etdirməsinə imkan yaranır; şagirdin öz fikirləri ilə bölüşmək, fəal dinləmək, müxtəlif fikir və baxışları nəzərə almaq, birgə iş görmək, bir-birinə hörmət etmək və s. kimi ünsiyyət bacarıqları formalaşır.

⇒ Müəllim və şagirdlərin arasında baş dialoq və əməkdaşlıq problemi daha səmərəli həll etmək və müxtəlif fərziyyələri araşdırmaq üçün də əlverişli şərait yaradır.

⇒ Bu münasibətləri həyata keçirmək üçün müəllim müxtəlif yollara müraciət edə bilər. Onlara şagirdlərin biliklərini canlandırmaq və qoyulan



problemin həllinə istiqamət vermək üçün yönəldici suallardan istifadəni, lazımi məlumat mənbələrinin təqdimini, tədqiqat işinin düzgün təşkilini, problemin həll edilməsinin stimullaşdırılmasını, həvəsləndirməni, yaradıcı əhvali-ruhiyyənin yaradılması yolunu göstərmək olar.

**4. Psixoloji dəstək: hörmət və etibar** mexanizmi imkan yaradır ki, təlim prosesində şagirdin gördüyü hər bir işə psixoloji dəstək verilsin, tərəflərin bir-birinə hörmət və ehtiramı əməldə təmin olunsun. Bu mexanizm aşağıdakı məsələlər diqqətdə saxlanılır:

a) Şagirddə uğursuzluq qorxusunu, inamsızlıq hissini aradan götürmək və şagirdlərin idrak fəallığını, problemi həll etməyə həvəsini dərs boyu lazımi səviyyədə saxlamaq üçün psixoloji dəstək ən vacib məsələdir.

b) Bunu etmək üçün müəllim problemin şagirdlər tərəfindən müstəqil tədqiq edilməsi və onun həlli üçün bütün imkanları yaratmalıdır, onun cavablarını yaxşı və ya pis qiymətləndirməkdən imtina etməlidir, problemin həllində istənilən cəhdi yaradıcı fikir kimi qəbul etməlidir. Əsas şərt: müəllim şagirdlərə psixoloji dəstək verməlidir – onlara hörmət və etibarla yanaşmalıdır.[25]

Müşahidələr və məktəb təcrübəsi onu göstərir ki, yeni təlim texnologiyaları şagirdlərin bir vətəndaş, şəxsiyyət, bilikli və düşüncəli bir insan kimi yetişməsində, onlarda həyati bacarıqların formalaşmasında mühüm rol oynayır.

---

[25] Bax: Veysova Z., Fəal(interaktiv) təlim, müəllimlər üçün vəsait Bakı 2007, səh. 12-17 və "Yeni fənn kurikulumlarını tətbiq edəcək ibtidai sinif müəllimləri üçün treninqin proqramı və icmalı", əlyazması hüququnda, Bakı 2010, səh. 34-38

?!

1. **Dərs mərhələləri barəsində nə kimi biliklərə malik oldunuz?**
2. **Ənənəvi və fəal təlimlə keçilən dərslər barəsində Sizdə nə kimi təsəvvür yarandı?**
3. **Fəal təlimlə keçilən dərslərin quruluşu barəsində nə söyləyə bilərsiniz?**
4. **Motivasiya mərhələsinin vəzifəsi nədən ibarətdir və onu necə yaratmaq olar?**
5. **Motivasiya mərhələsi nə ilə yekunlaşır?**
6. **Tədqiqat işləri necə təşkil olunmalıdır?**
7. **Tədqiqatın nəticələri necə təqdim olunur?**
8. **İş vərəqlərində əksini tapan məlumatlar necə əlaqələndirilməlidir?**
9. **Ümumiləşmələrin aparılması, alınan qənaətlərin ilkin fərziyyələrlə müqayisəsi nə uçun lazımdır?**
10. **Refleksiya mərhələsində hansı işlər görülür?**



## ƏDƏBİYYAT TƏLİMİNİN ÜSULLARI

Təlim prosesinin iki tərəfi vardır: tədris etmə, öyrənmə. Tədris etmə birbaşa müəllimin işini tənzimləyən amilləri əhatə edir. Proqram, dərslik, təhsilə dair rəsmi sənədlər buraya daxildir. Öyrənmə isə prosesin gedişini və onun obyektini – şagirdi nəzərdə tutur. Bu iki tərəfin qarşılıqlı fəaliyyəti əsasında təlim prosesi həyata keçirilir. Təlim prosesində müəllim bilikləri şagirdlərə çatdırmağa çalışır, onlarda müxtəlif bacarıq və vərdişlər formalaşdırır. Həmin işə nail olmaq üçün isə müəyyən vasitələrdən istifadə edilir. Bu vasitələrə yol, üsul qayda, yaxud da tərz deyirlər. Deməli, biliyi şagirdlərə çatdırmaq yolları təlim üsullarını – öyrənmə və öyrətmə prosesini təşkil edir.

Təlim üsulu – müəllimin şagirdlərə müvafiq bilik, bacarıq, vərdiş və keyfiyyətləri aşılamaq, çatdırmaq vasitəsi , yoludur. Təlim üsullarının bu günə qədər xeyli təsnifatı olmuşdur. Belə müxtəlifliyə səbəb ona kimin necə, nə məqsədlə yanaşması olmuşdur. Xatırladaq ki, təlim üsulu anlayışına dair Siz pedaqogikada ətraflı məlumat əldə etmişsiniz.

Təlim üsulları müxtəlif cür olur. Bu müxtəliflik imkan verir ki, müəllim öyrədiləcək materialın xarakterindən asılı olaraq ən gərəkli olanını seçsin. Həmin seçilən üsul biliyin şagirdə canlı, maraqlı və yaradıcı şəkildə çatdırsın. Ona görə də müəllimlər təlim üsullarından hansını seçmək istəyəndə dərslik materialının xarakterinə fikir verirlər(Dərslikdə əksini tapan materiallar həm də proqram materialları adlanır).

Deməli, biz təlim üsulları dedikdə, bilikləri şagirdlərə **öyrətmək, çatdırmaq, qazandırmaq yollarını** başa düşməliyik.

Alimlər bu günə kimi təlim üsullarını müxtəlif cür təsnif etməyə, qruplaşdırmağa səy ediblər. Bu cür bölgülər içində məşhur olanları aşağıdakılardır:

1) Ənənəvi təlim üsulları.

2) Fəal(interaktiv) təlim üsulları.

1-ci qrup üsullar biliyi şagirdlərə hazır şəkildə təqdim etməyə üstünlük verir, 2-ci qrup isə, əksinə, biliyi şagirdlərin özlərinə qazandırmağı qarşısına məqsəd qoyur. Bu qruplardan – təlim üsullarından hansılarının seçilməsi fənn müəllimin savadından, bacarığından, fənnini və şagirdlərini sevməsindən asılıdır. Yaxşı müəllimlər şagirdlərinə hazır bilik verməkdənsə, onu axtarmaq, tapmaq yollarını açıb göstərir. Şagirdin özü müstəqil olaraq informasiya toplayır və bilik əldə edir.

## 1. Ənənəvi təlim üsulları

Bu gün orta məktəblərimizdə ənənəvi üsullardan hələ də istifadə olunmaqdadır. Onun belə geniş yayılmasının bir çox səbəbləri vardır:

1. Bu təlim üsullarının istifadəsinə dair mənbələrdə xeyli məlumat var. Amma yeni təlim üsullarından istifadəyə dair qıtlığı hökm sürməkdədir.
2. Ənənəvi üsullar azdır, sadədir və müəllimlərin yaddaşında asanlıqla qalır.
3. Ali məktəblərin metodika dərslikləri 1968, 1976 və 1991-ci illərdə çap olunmuşdur. Bunlarda əsasən, ənənəvi (bəzi vəsaitlərdə isə 70-80-ci illərdə Lerner və Skatinin təklif etdiyi üsulların da adları tutulur) təlim üsullarından söhbət açılmışdır. ƏTM fənninin proqramı təqvim ili baxımından yeniləşsə də(sonuncu nəşr 2005-ci il tarixindədir), o da fəal təlim üsullarına toxunmaq istəməmiş, tədrisi qəflətdə saxlamağı üstün tutmuşdur. Deməli, bu günün tələbi başqa olsa da, metodika sahəsində yeni dərsliklər hazır olmadığından ali məktəblər üçün tərtib olunan proqram, keçmiş dərsliklər və dərs vəsaitləri yenə də ənənəvi üsulların təbliğini davam etdirməkdədir.
4. Ən vacibi isə yeniliklərin təbliği mexanizminin səmərəli şəkildə işləməməsidir. Yeniliklər sadə bir formada,



ümuminin anlayacağı şəkildə pedaqoji ictimaiyyətə çatdırılmadığından onun qəbulu prosesi olduqca çətin gedir. Bunun müsbət həlli üçün mütəxəssis sözünə, peşəkarlara geniş meydan açılmalıdır.
5. Ləngimə prosesində isə itirən biz oluruq; təhsilimiz və gənclərimiz.

**Ənənəvi təlim üsullarına** - müəllimin sözü, oxu, müsahibə, kitab üzərində iş və şagirdlərin müstəqil işləri üsulları aiddir. Gəlin, birlikdə həmin üsulların məzmunu, mahiyyəti ilə birlikdə tanış olaq.

**1. Müəllimin sözü** üsulu üç yerə bölünür: müəllimin nəqli, müəllimin şərhi və müəllimin mühazirəsi.

**Müəllimin nəqli** – yəni nağıl etməsi daha çox ədəbi əsərlər öyrənilən zaman istifadə olunur. Bu üsuldan istifadə edən müəllim ya əsərin məzmununu öyrənməyə dair **giriş söhbəti** aparır, ya da **əsərin yarandığı dövrlə bağlı tarixi məlumat** verir. O, hər iki halda nəqldən (nağıldan) istifadə edir.

**Giriş söhbəti** və **tarixi məlumatın nəql edilməsi** nə üçündür? Giriş söhbəti oxunulacaq –öyrəniləcək əsərin məzmunu qavramaq üçün tramplin rolunu oynayır. Əgər biz əsərin əhatə etdiyi məzmuna dair(onu təkrarlamadan) giriş söhbəti aparmasaq, oradakı bəzi mətləblər şagirdə oxu zamanı qaranlıq qala bilir. Eləcə də dövr və şəraitlə bağlı şagirdlərdə ilkin təəssürat yaratmadan əsəri öyrətmək olmur. Özünüz fikir verin, görün, Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərindəki tarixi şəraiti bilmədən, neft sənayesinə işləməyə – fəhləliyə gələn insan axınının səbəblərini izah etmədən, əmək şəraitinin dözülməzliyi barədə söhbət açmadan A. Şaiqin "Məktub yetişmədi" əsərinin əsas məzmununu, ideyasını şagirdlərə necə çatdırmaq olar?

Deməli, bədii əsərlərin oxusuna hazırlıq mərhələsində müəllimin nəqli üsuluna müraciət etmək zəruridir.

**Müəllimin şərhi** – sözlərin, misraların, beytlərin məzmun və mahiyyətinin açıqlanmasıdır. Yəni, müəllim hər

hansı bir əsəri öyrədəndə onun məzmununu açmağa – şərh etməyə çalışır. Bu üsuldan istifadənin məqsədi materialın məzmununun daha yaxşı dərk olunmasına kömək etməkdir.

**Müəllimin mühazirəsi** – adından göründüyü kimi, materialın mühazirə yolu ilə şagirdə çatdırılmasını nəzərdə tutur. Bu mühazirənin zaman məhdudluğu vardır. Ali məktəblərdən fərqli olaraq məktəb mühazirələri maksimum olaraq 20 dəqiqə davam edə bilər.

Müəllimin mühazirəsi üsulundan **icmal mövzuların** keçilməsində, **yazıçının həyat və yaradıcılığı barədə ümumi məlumatların verilməsində** istifadə olunur və bu üsuldan ancaq X-XI siniflərdə istifadə oluna bilər.

**2. Oxu üsulu** mətnin oxunması ilə bağlıdır. Biz hər hansı bir əsərin (və ya mətnin) məzmununu öyrənəndə, onu təhlil edəndə həmin üsuldan istifadə edə bilərik. Oxu üsuluna aşağıdakılar daxildir:

- ⇒ izahlı oxu (mətn oxunduqca həm də izah edilir);
- ⇒ ifadəli oxu (mətnin təbii, canlı və ifadəli formada sinif qarşısında səsləndirilməsi);
- ⇒ fərdi oxu (bir nəfərin oxusunu nəzərdə tutur);
- ⇒ kollektiv oxu;
- ⇒ rollar üzrə oxu (dram əsərlərinin oxusundan istifadə olunur);
- ⇒ ucadan oxu;
- ⇒ sakit oxu.

Fənn müəllimi qarşısına qoyduğu məqsəddən asılı olaraq oxunun müxtəlif növlərindən istifadə edə bilər. Bunun üçün proqram materialının xarakterini nəzərə almaq lazımdır.

**3. Müsahibə üsulu.** Suallar əsasında aparılır və məzmununa görə iki yerə bölünür:

1) Təkrarlama müsahibəsi;

2) Evristik müsahibə.

Təkrarlama müsahibəsində elə suallardan istifadə olunur ki, onlar keçilmiş bilikləri şagirdin yadına salır, onu bərpa etdirir.



Müəllim bu üsuldan o zaman istifadə edir ki, ya bir bəhs, fəsil və ya bölmə keçilib qurtarmışdır, ya da rübün sonudur. Təkrarlama müsahibəsi ümumi bilikləri, şagirdin səviyyəsini müəyyənləşdirməyə xidmət edir.

Evristik müsahibə isə şagirdləri axtarışa təhrik edən, yeni biliyi şagirdlərin özünə tapdıran üsuldur. Burada qoyulan suallar fakt və hadisələri müqayisə etməyə, təhlil etməyə, müstəqil nəticələrə gəlməyə şərait yaradır. Bu üsul dərsin maraqlı və canlı olmasını şərtləndirir. Həmin üsuldan daha çox ədəbi əsərlərin təhlil dərslərində istifadə olunur.

Evristik sözü evrika sözündən olub mənası "tapdım" deməkdir.

Evristik müsahibənin mayasında problemli-vəziyyət yaradan sual durur. Həmin sual elə qurulur ki, şagird ona birbaşa cavab verə bilmir. Məcbur olur ki, fikrini sübuta yetirmək üçün tez-tez mətnə müraciət eləsin. Məsələn, "Keçəl Həmzə Qıratı qaçırmaqda haqlı idimi? "Hə" və ya "yox" variantının seçilməsi geniş diskussiyaya aparıb çıxaracaq və növbəti suallar zəncirini yaradacaqdır. Nəhayət, qarşıya qoyulan ana sual dəyərləndiriləcək, yəni cavab tapılaraq problem açılacaqdır.

**4. Kitab üzərində iş üsulu.** Adından göründüyü kimi, müəllim elə tapşırıq verir ki, şagird onun cavabını kitabdan axtarmağa başlayır. Əgər hər hansı bir tapşırıq şagirdi mətnə istiqamətləndirir və orada axtarışlar aparmağa sövq edirsə, bu, kitab üzərində iş üsuludur. Belə ki,

- mətnin oxunması;
- mətnin təhlili;
- mətndən sitat seçilməsi;
- lüğətin yazdırılması və s. buraya daxil edilir.

**5. Şagirdlərin müstəqil işi.** Bu üsul şagirdlərin müstəqil və yaradıcı işlərini əhatə edir. Şagirdlərin müstəqil işinə birbaşa müəllim rəhbərlik edə də bilər, etməyə də. Şagird müstəqil surətdə istənilən mövzu çərçivəsinə yazı işləri, məruzələr, çıxışlar hazırlaya bilər və s.

Dediklərimiz ənənəvi təlim üsulları ilə bağlı olan cəhətlərdir. Bu günlərdə həmin üsullara yaradıcılıqla yanaşan müəllim öz işlərində müəyyən uğurlar da əldə edə bilirlər.

## 2. Fəal(interaktiv) təlimdə iş üsulları (metod və texnikalar)

Fəal(interaktiv) təlim üsulları birbaşa şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə yönəldilmişdir. Bu üsullardan dərsin müxtəlif mərhələlərində istifadə olunur.

İnteraktiv təlimdə istifadə olunan iş üsulları (metodik ədəbiyyatda buna metod deyilir və hər metodun tərkibində onun xüsusiyyətlərini daşıyan, onun tərkibinə daxil olanlar isə texnikalar adlandırılır.) bəzisi motivasiya, bəzisi tədqiqatın aparılması, bəziləri də yaradıcı tətbiqetmə mərhələsində istifadə olunur.

Fəal(interaktiv) təlim texnologiyasına daxil olan xeyli metod və texnikalar – iş üsulları vardır. İnternet səhifələrində belə texnikaların sayının 400-dən çox olduğu xatırlanır.

Dərsin müxtəlif mərhələlərində tətbiq olunan və tədqiqat işinin - qrup işlərinin təşkilinin səmərəli olmasında istifadə olunan bu iş üsullarından hələlik bizə bəlli olanı 40-a qədərdir. Onlar strategiya, texnika, tədqiqatı təşkil edən iş üsulları kimi də adlandırılır. İnternet səhifələrində rast gəlinən yazıların əksəriyyətində onlar üsullar və texnikalar kimi qeyd olunur. Biz iş üsulları terminini daha məqbul hesab edirik. Çünki bu üsullar tədqiqatın təşkil olunmasında istifadə olunan alətlər kimidir.

Fəal(interaktiv) təlim texnologiyasında istifadə olunan üsulları ənənəvi təlim metodlarından bir sıra cəhətləri ilə fərqlənir.

Belə ki ənənəvi üsullar müəllimə aid idi, onun bilikləri şagirdə necə çatdırılması işinə xidmət edirdi. Fəal(interaktiv) təlimdə isə iş üsulları birbaşa şagirdə, onun axtarışlarının gedişinə, alınan nəticələrinin necə ortaya qoyulmasına,



şagirdlərin tədqiqatçılıq qabiliyyətinin, təfəkkürünün inkişaf etdirilməsinə xidmət edir. Şagird qrup tapşırıqları alanda onu hansı üsul vasitəsi ifadə edəcəyini mütləq bilməlidir. Ona görə də bu iş üsullarının mahiyyəti, istifadə qaydası onlara aydın olmalıdır.

Müəllim tapşırıqları təqdim edəndə şagirdlərə elan etməlidir ki, tutaq ki, nəticələrini ya Venn diaqramı, ya konseptual cədvəl, ya iki hissəli gündəlik və s. şəklində təqdim etsinlər. Bir neçə dərsdən sonra şagirdlər bu iş üsulları ilə işləmə vərdişlərinə yiyələnəcəklər və ondan sonra müəllimin də işi bir qədər asanlaşacaqdır.

Bu iş üsullarını ənənəvi təlim metodlarından fərqləndirən cəhət də məhz həmin üsulların birbaşa şagirdlərə aydınlaşdırılması, ondan istifadəyə dair konkret bir təlimatın verilməsidir. Gəlin birlikdə həmin iş üsullarının məzmunu və tətbiqi yeri ilə tanış olaq.

### 1. Şaxələndirmə (Klaster)

*Məzmunu:* Məlumatların məna əlaqələrinin sxem formasında aşağıdakı şəkildə əyaniləşdirilməsidir. Ona semantik xəritə də deyilir.

*Təlimat:* Bu zaman mərkəzi dairədə əsas anlayış qeyd olunur. Xətlər anlayışın şaxələnməsinə işarədir. Yeni dairələr yeni anlayışları göstərir. Beləliklə, nəyin nədən asılı olduğu əyaniləşdirilir. Bu şaxələndirmənin sadə variantıdır. Onu istənilən sayda xətlərlə zənginləşdirmək və genişləndirmək olar. Əsərin məzmunu və təhlili üzrə iş apararkən ondan səmərəli istifadə etmək olar.

*Tapşırıq nümunəsi:* Şeirdə nədən danışıldığını klasterlə ifadə edin; Obrazın hərəkət və davranışlarını klasterdən istifadə etməklə qeyd edin; Əsərin quruluşunu klaster vasitəsi ilə ifadə edin və s.

*Dərsdə yeri:* motivasiya, tədqiqatın aparılması, nəticələrin çıxarılması və yaradıcı tətbiqetmə mərhələləri.




**2. Venn diaqramı**

*Məzmunu:* Obyektlərin oxşar və fərqli cəhətlərinin dairələr formasında əlaqələndirilməsi, əyaniləşdirilməsi Venn diaqramının əsas cəhətidir. Kiçik qruplara tapşırıq veriləndə və ya böyük qrupla iş aparanda bu iş üsuluna müraciət etmək olar.

*Təlimat*: Ən azı iki obyekt götürülür. Bu zaman hər bir dairədə müqayisə ediləcək obyektlərin fərdi keyfiyyətləri, dairələrin kəsişməsi nəticəsində yaranan yerdə isə hər iki obyektin oxşar cəhətləri qeyd olunur. Təhlil işləri zamanı istifadə olunur.

*Tapşırıq nümunəsi*: Koroğlu ilə Hasan paşa obrazların xüsusiyyətlərini Venn diaqramı ilə ifadə edin; Hekayə ilə mənzum hekayənin xüsusiyyətlərini Venn diaqramı ilə ifadə edin






*Dərsdə yeri:* Motivasiya, ümumiləşdirmə və yaradıcı tətbiqetmə mərhələlərində, təhlil dərslərində, əsərin məzmununun öyrədilməsi dərslərində istifadə oluna bilər. Məsələn, "Koroğlu" dastanından verilən qolun təhlil üzərində iş aparılanda(böyük və ya kiçik qruplarla iş zamanı) müəllim kiçik qruplardan birinə belə bir tapşırıq verə bilər ki, "Koroğlu ilə Keçəl Həmzə obrazlarını Venn diaqramı əsasında araşdırın", A dairəsində Koroğluya, B dairəsində isə Keçəl Həmzəyə dair əsas keyfiyyətlər və dairələrin kəsişdiyi yerdə isə onları birləşdirən əlamət və ya keyfiyyətləri qeyd edin".

**3. "Beyin həmləsi"("Əqli hücum")**

*Məzmunu*: Qoyulmuş problemin(məsələnin, sualın) həlli yollarına dair qısa zaman ərzində daha çox cavabın(ideyanın) toplanmasıdır.

*Təlimat*: Problem elan olunur və onun həlli yollarına dair şagirdlərin fikirləri alınır. Alınan ideyalara heç bir müdaxilə edilməməli, onlara irad və ya tənqidi münasibət bildirilməməli və olduğu kimi lövhədə qeyd olunmalıdır. Sonra onlara yenidən nəzər salınmalı və ən səmərəli olanları seçilməlidir. Əsərin məzmunu və təhlili üzərin iş aparılanda istifadə oluna bilər.

*Tapşırıq nümunəsi:* Şair vətən sevgisini hansı sözlərlə ifadə edə bilər? Düşmənə nifrəti hansı yollarla ifadə etmək olar? Dostluq deyəndə ilk anda yada nələr düşür?

*Dərsdə yeri:* Ən çox motivasiya, məlumatın müzakirəsi və təşkili mərhələsində istifadə olunur.

## 4. T- sxemlər

*Məzmunu:* Bu sxemlərdə yeni bir ideya (problem) qoyulur və bu ideyanın mümkünlüyünün mövcud olan problemə(əsərin ideyasına) hansı müsbət və mənfi cəhətləri gətirə biləcəyi fakt və dəlillər əsasında proqnozlaşdırılır. "T" hərfinə oxşadığına görə belə adlandırılır. Problem elan olunandan sonra iki pəncərəli sxemə nəzər salınır. Hər qrafanın altında uyğun cavablar qeyd olunur.

*Təlimat:* Yeni bir ideyanın mümkünlüyü ehtimal olunur və həmin ideya tapşırıq formasında ya qruplara, ya da beyin həmləsi formasında bütün sinfə elan olunur. Sonra həmin ideyanın mümkünlüyünün əsərdəki problemin xeyrinə və ya zərərinə aparıb çıxara biləcəyi amillər sadalanır. Irəli sürülən ehtimallar əsaslandırılır. Əsərin təhlilinə həsr olunan dərslərdə istifadəsi məqsədəuyğundur.

*Tapşırıq nümunəsi:* Əgər Nizami bu hekayəsinə itləri saxlatmaqla bağlı epizodu daxil etməsə idi nə baş verərdi?(N. Gəncəvin "Mərv ölkəsinin hökmdarı və bir cavanın hekayəsi" üzrə); Qasidlərin bir neçə gəlişi olmasa idi, əsərdə nələr ola bilərdi?(M. Hüseynin "Odlu qılınc" əsəri üzrə).

*Dərsdə yeri:* Tədqiqatın aparılması, yaradıcı tətbiqetmə mərhələlərində istifadə oluna bilər.

**(təklif olunan yeni ideya** buraya yazılır**)**

| **Problemin (əsərin və ya ideyanın) xeyrinə ola biləcək cəhətlər**: | **Problemin (əsərin və ya ideyanın) zərərinə olacaq cəhətlər** |
|---|---|
| | |



## 5.Kublaşdırma

*Məzmunu:* Bu üsul problemin çoxtərəfli araşdırılmasına imkan verir. Kubun hər üzünə aşağıda qeyd olunmuş suallardan biri yazılır. Burada 6 sual olur və onlar problemi müstəqil şəkildə araşdırmağa imkan yaradır.

*Təlimat:* Kub 15 sm ölçüsündə düzəldilir və hər üzünə nəzərdə tutulan bir sual qeyd olunur. Tapşırıq verilən zaman həmin kub qrupa təqdim olunur və oradakı suallara ardıcıllıqla cavabların axtarılıb tapılması və iş vərəqində qeyd olunması bildirilir.

Kubun tərəflərinə uyğun olaraq istifadəsi nəzərdə tutulan suallar:



1. *Təsvir et - O necədir? Ona hansı xüsusiyyətlər xasdır?*
2. *Müqayisə et - O nə ilə(və ya kim ilə) oxşar və fərqlidir?*
3. *Əlaqələndir - O Sizə nəyi(və ya kimi) xatırladır?*
4. *Təhlil et - O nədən ibarətdir?*
5. *Tətbiq et - Ondan necə və harada istifadə edə bilərsiniz?*
6. *Lehinə, yaxud əleyhinə mühakimə yürüt - O yaxşıdır, yoxsa pis? Niyə?*

Sualların icrasında ardıcıllığın gözlənilməsi məsləhətdir. Bunun üçün sualları kubun üzərində sırası ilə də düzmək lazımdır. Sualların hamısını bir qrupa və ya hər qrupa birini təqdim etmək olar.

*Tapşırıq nümunəsi:* T. Şahbazinin "Qayçı" əsərindəki Məhəmməd surətini "Kublaşdırma "dan istifadə etməklə araşdırın; T. Bayramın "Müqəddəs istək" əsərinə "Kublaşdırma" yolu ilə münasibət bildirin.

*Dərsdə yeri:* Daha çox tədqiqatın aparılması mərhələsində, ədəbi əsərlərin təhlili prosesində (obrazları, mövzunu, ideyanı araşdıranda) istifadə oluna bilər.

## 6. Proqnozlaşdırılmış oxu-1

*Məzmunu:* Əsərdən alınan ilkin təəssüratlara əsaslanmaqla oradakı hadisələrin necə davam edə biləcəyinə dair ehtimalları irəli sürməyə imkan verir. Müəllim tərəfindən əsərdən bir parça oxunur, həmin hissənin məzmunu yığcam şəkildə bərpa olunur. Sonra şagirdlərə aşağıdakı cədvəl təqdim olunur və onun doldurulması tələb olunur. Eyni qayda ildə digər hissələr üzərində iş davam etdirilir.

*Təlimat:* Müəllim əsəri bir neçə hissəyə bölür, əvvəlcə birinci parçanı oxuyur(fasiləli oxuda da belə olur), sonra fasilə edərək oxunmuş hissənin məzmununa dair qısa müsahibə aparır. Daha sonra aşağıdakı cədvəl onlara təqdim olunur və qrafalardakı məlumatlar fərdi şəkildə doldurulur. Növbəti hissə oxunur, fasilə edilir. Şagirdlərdən ehtimallarının nə qədər doğru çıxdığı soruşulur. Bunun üçün bir neçə nəfər yazdıqlarını oxuyur. Sonra oxu bu qayda ilə davam etdirilir.

*Dərsdə yeri:* Tədqiqatın aparılması mərhələsində istifadə oluna bilər. Yadda saxlayın ki, dərsdə bu üsuldan istifadə etdikdən sonra mütləq dərsin məqsədində əksini tapan standartların tələbinə əsasən qrup tapşırıqları verilməlidir. Bu üsul əsərin məzmunu üzərində iş aparılarkən istifadə olunur. İş yazılı şəkildə olduğuna görə bir qədər vaxt apara bilər. Dərsin planlaşdırılması zamanı bu amili müəllim nəzərə alsa yaxşıdır.

| Hadisələr necə davam edəcək? | Hansı dəlillərə əsasən belə düşünürsünüz? |
|---|---|
| | |



## 7. Ədəbi məktublar

*Məzmunu:* Şagirdlər öz dostlarından birinə məktub vasitəsilə maraqlı bir əsəri oxuduğunu və onun da bu əsəri oxumasının necə vacib olduğunu bildirir. Bu üsul şagirdlərdə əsərlərə rəy yazmaq bacarığı formalaşdırır.

*Təlimat:* Hər bir şagirdə 5-10 mətn təqdim olunur. Tapşırıq verilir ki, onların içərisindən bəyəndikləri bir mətni seçsinlər və onun barəsində uzaqda yaşayan xəyali dostlarına məktub yazsınlar, həmin mətni ona da oxumağı tövsiyə etsinlər. Yazılarında fikirlərini əsaslandırmağa çalışsınlar ki, nə üçün dostunun həmin mətni oxuması vacibdir. Deməli, yazılan məktub vasitəsilə mətndə əks olunan məsələlərə rəy verilir və onun oxunması vacibliyi üçün səbəblər göstərilir.

Materialları seçməkdə şagirdlərə tam sərbəstlik verilir. Tələb bu cür qoyulur ki, yazılan məktub-rəylər qısa, yığcam və tutumlu olsun. Nəzərdən heç nə qaçmasın. Yazılmış məktublar sinifdə yaradılan ekspertlər qrupu tərəfindən məhz həmin keyfiyyətlərinə görə qiymətləndirilir.

*Dərsdə yeri:* Ümumiləşdirici dərslərdə bu üsuldan istifadə etmək olduqca faydalıdır.

## 8. Karusel

*Məzmunu:* Qruplar öz iş vərəqlərində qoyulan bir və ya bir neçə suala cavab yazırlar. Sonra yazdıqlarını saat əqrəbi istiqamətində digər qruplara ötürürlər. Həmin qruplar da yazılanlara öz əlavələrini edirlər. Vərəqlər qruplarda işlənilir və sonda hərənin vərəqi özünə qayıdır. Yazı prosesi dayandırılır.

*Təlimat:* Sinif bir neçə (4-5) qrupa bölünür. Hər qrupa eyni (fərqli də ola bilər) tapşırıq verilir: - Tapşırıqdakı məsələ barəsində bildiklərinizi qısa formada iş vərəqində yazın. Tapşırığın icra vaxtı elan olunur. Qruplar işi yekunlaşdırır və müəllim elan edir ki, indi hər qrup öz iş vərəqini saat əqrəbi istiqamətində yaxınlıqda yerləşən o biri qrupa ötürsün. Qruplar

vərəqi alan kimi  qeyd olunan fikirlərə öz əlavələrini edir və təkrar fikirlərin yazılmasına yol verilmir. Sonra həmin vərəq digər qrupa ötürülür. Onlar da tamamlama işlərini həyata keçirirlər. Bu iş o zamana qədər davam edir ki, qrupun iş vərəqi özünə çatmış olur. Əgər qrupların sayı beşdirsə, deməli, bu vərəqlərdə dörd tamamlanma işləri  aparıla bilər.




Hər qrup yalnız öz  rəngli qələmindən istifadə edir. Bu ona görə lazımdır ki, hansı qrupun nəyi əlavə etdiyi aydın şəkildə görünsün. Sonda qrup rəhbərlərinin hər biri vərəqdə icra edilən işləri nümayiş etdirir və izahatlarını verirlər. Nələrin əlavə edildiyini söyləyir və həmin əlavələrə öz münasibətlərini bildirirlər.

Bu iş üsulunun faydası orasındadır ki, hər hansı məsələ barəsində biliklər fəal formada, kollektiv müzakirə və ümumi rəy əsasında ortaya çıxarılır. Hamı biliyin nümayiş edilməsinə cəlb olunur.



*Tapşırıq nümunəsi:* İnsanın uğur qazanması amilləri(V sinif, "Üç qardaş" nağılı əsasında) (1 və ya 2 fikir qeyd edilir).

*Dərsdə yeri:* Həmin üsuldan tədqiqatın aparılması mərhələsində, məzmun və təhlil işləri aparılanda, mövzuların, bəhslərin təkrarında istifadə oluna bilər.

### 9. Proqnozlaşdırılmış oxu-2

*Məzmunu:* Buradakı iş prosesi "Proqnozlaşdırılmış  oxu-1"-in gedişatını xatırladır. Burada fərq orasında olur ki, cədvəlin üçüncü qrafası peyda olur və onun da tələbələri yerinə yetirilir. Müəllim əsərin birinci hissəsini oxuyur, fasilə zamanı cədvəlin sütunlarına nəzər salınır. Əvvəlcə birinci, sonra isə ikinci sütunun məzmununa uyğun iş görülür.

Proqnoz cədvəli

| Sizcə, nələr baş verəcək? | Hansı dəlillərə əsaslanırsınız? | Nələr baş verdi? |
|---|---|---|
| | | |

*Təlimat:* Təhkiyə xarakterli əsərin birinci hissə oxunub qurtardıqdan sonra birinci və ikinci sütunun tələblərinə əsasən işlər görülür. Şagirdlər öz düşüncələrini bu sütunlarda qeyd edirlər. Oxu davam edir və fasilə edilir. Bu zaman əvvəlcə 3-cü sütun üzrə iş aparılır və şagirdlər  öz qeydlərini edirlər. Sonra müəllim onlara birinci və ikinci sütunla bağlı qoyulan suallara cavab yazmalarını tapşırır.

Fasilələr zamanı bir neçə şagirddən birinci və ikinci sütunlarda nə yazdıqları soruşulur. Sonra iş bu qayda ilə davam etdirilir.

Sonuncu hissənin oxusunda cədvəldəki sualların məzmununda dəyişiklik edilir. Birinci qrafaya yazılır: Sizcə, əsər necə bitəcək?  İkinci və üçüncü qrafa isə eyni ilə qalır. Oxu bitdikdən sonra qoyulmuş sonucu sual əsasında iş

yekunlaşdırılmağa başlayır. Şagirdlər ehtimallarını və dəlillərini oxuyurlar.

Sonuncu sual təxminən bu məzmunda ola bilər:

- Proqnozlarınız necə oldu? Kimin proqnozu düz çıxdı? Hərə öz cavabını söyləyir.

*Dərsdə yeri:* Tədqiqatın aparılması mərhələsində istifadə olunmalıdır. Oxu tamamlandıqdan sonra standartların tələbinə əsasən qrup tapşırıqları verilməli, dərsin digər mərhələləri üzrə işlər görülməlidir.

## 10. Fasiləli oxu

*Məzmunu:* Bu metodu həm də istiqamətlənmiş oxu adlandırılır. Proqnozlaşdırılmış oxuya bənzəyir. Burada iş şifahi formada və cədvəlsiz olaraq həyata keçirilir. Bu iş üsulunda müəllim əvvəlcədən əsəri bir neçə hissəyə bölür, hər hissənin oxusunu tamamladıqdan sonra əsərdən alınan təəssüratı ortaya çıxaran suallar qoyur, hissənin məzmununa dair qısa müsahibə aparır və sonda şagirdlərə növbəti hissədə əsərin necə davam edə biləciyə dair sual ünvanlayır. Şagirdlərin ehtimallarını dinlədikdən sonra digər hissənin oxusuna başlanılır və iş bu qayda ilə davam edir. Əsərin sonucu hissəsinin oxusuna başlananda isə müəllim şagirdlərə belə sual verir: - Sizcə, bu əsər necə tamamlanacaq? Nəyə görə bu cür düşünürsünüz? Şagirdlərin ehtimalları alınandan sonra oxu tamamlanır və yenə də təəssürat alınmaqla məzmuna dair qısa müsahibə aparılır.

*Təlimat:* Mətn əvvəlcədən hissələrə bölünməli, hər bir hissənin qısa məzmununu almaq üçün bir neçə sual hazırlanmalıdır. Müəllim tərəfindən əsərin birinci hissə oxunduqdan, müəyyən olunmuş yerdə oxuya fasilə edilməli, oxunmuş hissə ilə bağlı şagirdlərin təəssüratını ortaya çıxaran suallar qoyulmalı, cavablar alınmalı, sonra oxunmuş parçanın məzmunu ilə bağlı kiçik müsahibə təşkil olunmalıdır. Sonra isə əsas sual qoyulmalıdır – Uşaqlar, Sizcə, buradakı hadisələr necə



davam edəcək? Qoyulmuş suala bir neçə şagirddən cavab alındıqdan sonra, onların nə üçün belə düşündükləri soruşulmalı, bundan sonra əsərin növbəti hissəsinin oxusuna başlanılmalı və birinci hissənin oxusundakı proses eynilə təkrarlanmalıdır. Bu iş nəzərdə tutulan digər hissələrinin oxusu bitənə qədər davam etdirilməlidir. Sonuncu hissənin oxusuna başlanılanda isə əsas sualda bir azca dəyişiklik etmək lazımdır: - Sizcə, əsər necə tamamlanacaq? və Nəyə görə bu cür düşünürsünüz?

Fasilələr zamanı şagirdlərə veriləcək təxmini suallar:

- Oxuduğunuz hissədə nədən söhbət gedir?
- Hansı mühüm hadisə yaxınlaşmaqdadır?
- Siz nəyə görə belə düşünürsünüz?

Suallar bir-bir dinlənilir. Şagirdlər üçün hər bir sualı araşdırmaq üçün düşünməyə vaxt ayrılır. Cavablar dinlənilir və növbəti hissə oxunmağa başlanır. İkinci fasilə edilir və təxminən aşağıdakı tipli suallardan istifadə edilir(həmin suallar dəyişə bilər. Çünki onlar əsərin süjet xəttinə uyğun qurulmalıdır. Təbiidir ki, hər bir əsər üçün fərqli və xarakterik suallar və süjet xətləri vardır, müəllim fasiləli oxu prosesində bunları mütləq nəzərə almalıdır):

- İşin gedişi sizi qane edirmi?
- Haqqında söhbət gedən necə adamdır? Niyə belə düşünürsünüz?
- Sizcə, o bundan sonra necə hərəkət edəcək?

Sualların cavabları bir-bir dinlənilməlidir. Cavabların hazırlanması üçün vaxt ayrılmalıdır.

Bu qayda ilə üçüncü hissə oxunur və məzmun və təhlilinə dair suallar qoyulur. Cavablara hörmətlə yanaşmaq, şəxsi münasibət bildirməmək, imkan daxilində çox cavab dinləmək lazımdır. Sonuncu hissənin oxusu bitdikdən sonra fasilə edilir və təxminən bu tipli suallardan istifadə olunur:

- Hadisələr Sizin gözlədiyiniz kimi bitdimi?
- Qəhrəmanın hərəkətlərini necə qiymətləndirirsiniz?

- Siz nə nəticəyə gəldiniz?

*Dərsdə yeri:* Tədqiqatın aparılması mərhələsində istifadəsi məqsədəuyğundur. İşin gedişində yazı olmadığı üçün vaxtı az aparır. Müəllim işi planlaşdırarkən bunu nəzərə alsa yaxşıdır. Unutmaq olmaz ki, fasiləli oxudan sonra dərhal dərsin məqsədində əksini tapan standartlar əsasında qrup tapşırıqlarının verilməsinə keçilməlidir. Biz nəsr əsərlərinin oxusunda bu üsuldan istifadə etməyə dair iş nümunələri təqdim edəcəyik.

## 11. "İNSERT" (interaktiv qeydetmə sistemi)

*Məzmunu:* Bu üsul fəal dərketmə prosesinə xidmət təşkil edir. Şagirdlər mətni oxuduqca onun üzərində müvafiq işarələr qoyurlar. Həmin işarələr ya fikirlərə, ya abzasda ifadə olunan məzmuna, ya da cümlədə ifadə olunan mənaya uyğun ola bilər. Şagird mətni oxuduqca ona maraqlı gələn yerləri *qəbul etdiyini*, *bildiyini, şübhələndiyini, başa düşmədiyini, informasiyanın ziddiyyətli olduğunu* işarələr vasitəsi ilə qeyd edir. Təkrar oxu zamanı həmin yerlərə yenidən nəzər salır və müzakirələrə qoşulanda mətn barəsində öz mülahizələrini söyləyir. Şərti işarələrin açması belədir: "✓" - bilirəm, "-" - ziddiyyətli informasiya, "+" – mənim üçün yenidir, "?"- mənə aydın deyil.

*Dərsdə yeri:* TTİMY texnologiyası ilə keçilən dərslərdə dərketmə mərhələsində istifadə olunur. Fəal(interaktiv) təlimdə də tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələsində istifadə oluna bilər.

Mətn üzərində "✓", "-", "+", "?" işarələrinin qeyd edilməsi "İnteraktiv Qeydetmə Sistemi" (ingiliscə İNSERT) adlanır.

## 12. "BİBÖ"

*Məzmunu:* Bu üsul TTİMY texnologiyası üzrə hər üç dərs mərhələsini özündə birləşdirir(düşünməyə yönəltmə, dərketmə və düşünmə). Bilirəm, İstəyirəm biləm, Öyrəndim sözlərinin baş hərfləri əsasında yarandığından bu üsula belə deyilir. Fəal(interaktiv) təlimdə də bu üsul geniş istifadə olunur.

*Təlimat:* Dərsin başlanğıcında mövzu lövhəyə qeyd olunduqdan sonra boş bir iş vərəqi lövhəyə yapışdırılır, orada üç sütun çəkilir. Birinci sütunda *"Bilirik"* sözü yazılır. Onun tələbi yerinə yetirilir, şagirdlərin problemlə bağlı bilikləri qısa şəkildə bu sütunda qeyd olunur. Sonra ikinci sütunun sərlövhəsi – *"İstəyirik bilək"* yazılır və şagirdlərin müəyyən etdiyi suallar burada qeyd olunur. Dərsin sonunda isə tamamlanma işi aparmaq üçün yenidən cədvələ qayıdılır və üçüncü sütunun sərlövhəsi qeyd olunur. Bu zaman ikinci sütundakı hansı suallara cavab tapılmışdırsa, onların yanında müsbət işarəsi qoyulur, orada qeyd olunmayan, amma yeni olan məlumatlar isə üçüncü sütunun altında qeyd olunur.

| Bilirik | İstəyirik bilmək | Öyrəndik |
|---|---|---|
| …. | ….. | …. |

*Dərsdə yeri:* Bu üsul iki mərhələnin - motivasiya və nəticənin çıxarılmasının məzmunun özündə cəmləşdirir. Birinci iki qrafa motivasiya mərhələsində, sonuncu qrafa isə nəticənin çıxarılması mərhələsində doldurulur.

## 13. "İki hissəli gündəlik"

*Məzmunu:* Cədvəl formasındadır. İki sütundan ibarətdir. Birinci sütunda şagird əsərdən xoşladığı yeri seçib qeyd edir, ikinci sütunda isə nə üçün bu seçimi etdiyini əsaslandırır. Mətnin şüurlu oxusu prosesinə xidmət edir və təfəkkürü işə qoşur.

*Təlimat:* Tapşırıq verilir ki, mətni oxuyun, Sizi cəlb edən misra, bənd və ya sözləri(nəsr əsərlərində isə cümlə, epizod və s.) seçərək birinci sütunda qeyd edin, o biri sütunda qarşısında niyə onu seçmənizə dair şərhinizi verin, yəni seçiminizə bir aydınlıq gətirin. Beləliklə, hərə fərdi şəkildə aşağıdakı cədvəli

doldurur. Sonra yazılar dinlənilməyə başlayır. Hər bir cavaba həssaslıqla yanaşılır.

| SİTAT: | ŞƏRH: |
|---|---|
| | |

*Dərsdə yeri:* motivasiya, tədqiqatın aparılması, yaradıcı tətbiqetmə mərhələlərində istifadə oluna bilər.

### 14. "Konseptual cədvəl"

*Məzmunu:* Cədvəl formasında olub şagirdlərin özlərinin müəyyən etdiyi bir neçə obyekti, özlərinin təyin etmiş olduqları meyarlar əsasında qrup formasında icra etmələrini, nəticələrin cədvəlin müvafiq sütunlarına doldurulmasını tələb edir. Sütun və sətirlərin sayı şagirdlərin özlərinin istəyindən asılıdır.

*Təlimat:* "Konseptual cədvəl"də müqayisə ediləcək obyektlər müəyyən edilir və sütunun birində yazılır. Digər sütunda isə onları hansı keyfiyyətlərinə görə müqayisə etmək lazım gəldiyi qeyd olunur. Ədəbiyyat dərslərində, xüsusən də, təhlil prosesində surətlərin səciyyəsini həmin cədvəl əsasında aparmaq olar. Konseptual cədvəlin tərtibi üçün şagirdlərə tapşırıq verilməli, onların özləri istənilən obrazları seçməli və müqayisə edəcəkləri xüsusiyyətlərə görə həmin obrazlara münasibətlərini uyğun qrafada qeyd etməlidirlər. Nəticədə görülən iş barədə məlumat dinlənilməlidir. Cədvəlin əsas mahiyyəti odur ki, şagird müqayisə ediləcək xüsusiyyətləri düzgün müəyyən edə bilsin və həmin xüsusiyyətlərə görə də obrazlara öz müstəqil fikrini ifadə etsin.

*Tapşırıq nümunəsi:* "Müqayisə ediləcək obyektlər" sırasına özbək xalq nağılı olan "Üç qardaş"dan hər birini bir sətirdə yazmaq olar. Onların qarşılarında isə müqayisə ediləcək ortaq cəhətləri qeyd etmək olar. Nümunə kimi cədvəli təqdim edirik:



| **Müqayisə ediləcək obyektlər** | **Müqayisə ediləcək xüsusiyyətlər** | | |
|---|---|---|---|
| | Şəxsi keyfiyyəti | Əməyə münasibəti | Insanlığı |
| Birinci qardaş | | | |
| Ikinci qardaş | | | |
| Üçüncü qardaş | | | |

*Dərsdə yeri:* tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələlərində istifadə oluna bilər.

### 15. "Blum taksonomiyası"

Onu təklif edən şəxsin adı ilə belə adlanır. Dərs prosesində müxtəlif çətinlik səviyyəsinə aid olan suallar sistemindən istifadəni nəzərdə tutur. Bluma görə hafizə sualları ən sadə suallar hesab olunur və onun reytinqi aşağıdır. Əgər suallar təfəkkürə ünvanlanırsa, onu işə qoşursa, belə sualların reytinqi yüksək olur. Tələb bu cür də qoyulur ki, dərs prosesində mexaniki hafizəni inkişaf etdirən suallardan az, təfəkkürü inkişaf etdirən suallardan isə çox istifadə edilməlidir.

Blum sualları məzmununa görə belə düzür. Bu suallar i-çərisində hansıların birinci, ikinci və s. yerlərdə durduğunu bu cür əyaniləşdirir:

1. Sintez(tərkib, birləşdirmə) sualları – şagirdləri ideyalarını özünəməxsus və yaradıcı formada yenidən qurmağa vadar edir.
2. Təhlil sualları – şagirdləri şüurlu şəkildə mövzunun tərkib hissələrinin tədqiqinə dəvət edir.
3. Qiymətləndirici sual – şagirdləri, öz anlama və bəzi dəyərlər sisteminə uyğun olaraq rəy və ya hökmlər formalaşdırmağa dəvət edir.

4. Çevirmə sualları – şagirdləri informasiyanı yeni formalara salmağa dəvət edir.
5. Tətbiq sualları – şagirdləri problem həllinə və ya ideyanın yeni şəraitə uyğunlaşdırmağa dəvət edir.
6. İnterpretasiya(izah, şərh) sualları – şagirdləri fikirlər, faktlar və dəyərlər arasındakı əlaqələri açmağa dəvət edir.
7. Yaddaş sualı – məlumatın yadda saxlanılması və xatırlanmasını yoxlayan sualdır.

Suallar sisteminin təsnifatı onu göstərir ki, təfəkkürü müxtəlif səviyyəli suallarla inkişaf etdirmək mümkündür. Dərsdə müəllim sadə suallardan başlayaraq, orta və yüksək səviyyəli suallara müraciət etməlidir. Blum sualları reytinqinə görə belə əyaniləşdirir. 1. Hafizə, 2. Çevirmə+interpretasiya (şərh, izah), 3. Tətbiq, 4. Təhlil, 5. Sintez-proqnoz, 6. Qiymətverici.

Həmin sıralanmanı səviyyəsinə görə aşağıdakı kimi əyaniləşdirək:

| | | | | | |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |

Aşağı səviyyə Yüksək səviyyə

Deməli, ədəbiyyat dərslərində hansı suallardan istifadə olunması və onun hansı səviyyəli olması bu göstərdiyimiz şkalada öz əksini tapır. Dərslərdə suallar elə qurulmalıdır ki, onlar şagirdi formal səviyyədən - aşağı səviyyəli sualdan başlayaraq yüksək səviyyəli suallarla işlədə bilsin(Əgər biz təkcə hafizəni yoxlama tipli suallardan istifadə etsək, onda qarşıda duran vəzifələri yerinə yetirə bilmərik).

Bu suallar sistemi "kublaşdırma" üsulu ilə eyniyyət təşkil edir və şagirdlərə mövzu dairəsində **altı cür** suala cavab tapmağa dəvət edir.

İndi, biz, həmin "Blum taksonomiyası"na əsasən 6 cür sual nümunəsini təqdim edirik:



*C. Cabbarlının yaradıcılığı*

1. *Cəfər Cabbarlının dramaturji fəaliyyəti barədə nə bilirsiniz?(hafizə sualı)*
2. *"Oqtay Eloğlu" və "Od gəlini" əsərlərinin səhnələşdirilməsindən hansı təəssüratlar almışam?(çevirmə+interpretasiya(şərh, izah) sualı).*
3. *C. Cabbarlı yaradıcılığı timsalında 20-30-cu illər dramaturgiyasında yenilik, quruculuq prosesi necə əksi olunmuşdur?(tətbiq sualı)*
4. *"Od gəlini" əsərində Aqşin və Elxan obrazları timsalında fərdi keyfiyyətləri necə aşkara çıxarmaq olar(təhlil sualı).*
5. *Cəfər Cabbarlı yaradıcılığı 30-50-ci illərdə necə ola bilərdi?(sintez proqnoz)*
6. *Cəfər Cabbarlı həyatımızda və düşüncələrimizdə necə əks olunmuşdur(qiymətverici sual)*

Biz həmin suallar sistemini "tənqidi araşdırma"nın hər bir bəndinə uyğun olaraq tərtib və təqdim etdik. Əsas məsələ fənn müəllimlərinin bu tipli sualları tərtib etməsi və dərslərdə onlardan istifadəsidir. Bunun üçün sualların məzmununa dair verilən izahatlarla yenidən tanış olmaq və həmin tələblər gözlənilməklə suallar sistemini qurmaq lazımdır.

Əgər biz hazırkı ədəbiyyat dərsliklərinə fikir versək, orada əksini tapan suallar öz məzmununa görə məzmun və təhlil suallarına uyğun gələcəkdir. Bunu yoxlamaq üçün Siz, dərsliklərdə əksini tapan sualları həmin şkala səviyyəsində müqayisə edin və orada əks olunan sualların yanındaca "Təhlil", "Hafizə", "Çevirmə-interpretasiya"(izah, şərh)", "Tətbiq", "Sintez", "Qiymətvermə" sözlərindən uyğun gələnlərini qeyd edin. Özünüz üçün yəqinləşdirəcəksiniz ki, həmin dərslikdəki suallar hansı səviyyəni əhatə edir. (Sualları qruplaşdırıb şkala ilə müqayisə etmək kifayət edər – F.Y.)

## 16. Sankveyn(5-lik)

*Məzmunu:* Beş sətirlik(misralıq) şeir parçasıdır. Şagirdlərin yaradıcı təfəkkürünün inkişafına ünvanlanmışdır. Mətn oxunub qurtardıqdan sonra alınan qənaətlər 5 sətirlik şeir formasında tərtib olunur.

*Təlimat:* Onun tərtibi aşağıdakı sxem əsasında olur:

I sətir: mövzunu ifadə edən bir söz – **isim**

II sətir: mövzudakı əhvalı ifadə edən iki söz – **sifət**

III sətir: mövzu üzrə hərəkətləri, hadisələri göstərən üç söz – **fel**

IV sətir: mövzuya şəxsi münasibəti ifadə edən **dörd sözdən ibarət bir cümlə**

V sətir: I sətrin sözü üçün(mövzunun ifadəsi üçün) **1 söz – metaforik sinonim**

Məsələn, Mirzə Cəlilin "Poçt qutusu" hekayəsi üçün beşlik nümunəsi

*Xidmət.*
*Sadəlövh, avam.*
*Tərəddüd edir, itirəcəyindən qorxur, məmuru döyür.*
*Avamlığın belə nəticələnməsi kədərlidir.*
*İbrət.*

*Dərsdə yeri:* tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələsində istifadə oluna bilər.

## 17. Çarpaz müzakirə(Debat)

*Məzmunu:* Hər hansı bir problemlə bağlı aparılan müzakirədir. Müzakirədə iki tərəf iştirak edir. Tərəflərdən biri problemin lehinə, digəri isə əleyhinə fikir söyləyir. İş elə təşkil olunur ki, əvvəlcə bir tərəf öz fikir və mülahizələrini söyləyir, onu tutarlı fakt və dəlillərlə isbata çalışır. İkinci tərəf isə həmin fakt və dəlilləri əsaslandırılmış şəkildə təkzib etməyə başlayır. İş



ekspertlər səviyyəsində müşahidə olunur. Fakt və dəlilləri daha inandırıcı görünən tərəf xal qazanır.

*Təlimat:* Problem müəyyən olunur. Ekspertlər və qruplar yaradılır. Ekspertlər işin gedişatını qeydə almalı, hansı tərəfin arqumentlərinin daha güclü olduğunu qeyd etməlidirlər. Sinif problemin tərəfdarları və əleyhdarları olmaqla olaraq iki yerə bölünür. Hər iki tərəfə vaxt verilir. Bu vaxt ərzində ideyanı müdafiə edənlər də, onu əleyhinə çıxış dənlər də öz dəlillərini, mülahizələrini hazırlayırlar. Sonra çıxışlar başlanır. Əvvəlcə, söz tərəfdarlara verilir. Sonra əleyhdarlar danışır. Kimlərin dəlilləri tutarlı olarsa, ekspertlər bu barədə qeydlər edirlər.

Debatlar müəyyən qaydalar əsasında təşkil olunur. İştirakçılar, bir-birinin sözünü kəsməməli, onu axıracan dinləməli, fərqli fikirlərə hörmətlə yanaşmalı, reqlamentə əməl etməli, tolerantlığı gözləməli, nəzakətli olmalı, öz fikrini zorla qəbul etdirmədən imtina etməlidir. Debatın gedişində qrup daxilində yerdəyişmələr ola bilər. Belə ki lehinə olan qrupun tərkibindəki iştirakçılardan biri digər tərəfin arqumentləri ilə razılaşsa, o biri qrupun sırasına keçə bilər. Bu o zaman olur ki, problemin müəyyən bir qanadı müzakirə olunub bitir və onun nəticəsində istənilən iştirakçı öz mülahizəsinə əsasən hansı tərəfdə qalmağını qərarlaşdırır. Müəllim belə yerdəyişmələr olanda həmin iştirakçıya nə üçün belə etdiyini əsaslandırmağı xahiş edir. Debatın əsas vəzifəsi müzakirə edilən məsələyə dair fikir mübadiləsi aparmaq və üçüncü tərəfi öz mövqeyinə yaxınlaşdırmaq və ya inandırmaqdır.

Onun keçirilməsinə mühüm tələblər qoyulur: o, proqram materialını əhatə etməli, sırf təlim-tərbiyə və inkişafetdirmə vəzifələrinə xidmət göstərməlidir.

*Dərsdə yeri:* Tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələlərində ondan istifadə oluna bilər.

## 18. Müzakirələr(Diskussiya)

*Məzmunu:* Böyük qrupda hər hansı bir və ya bir neçə məsələyə dair fikir mübadiləsinin aparılmasıdır.

*Təlimat:* Müəllim irəlicədən nəyi müzakirə etdirəcəyini və reqlamenti müəyyən etməlidir. Dərs zaman müəllim problemi təsvir etməli, onun həlli yolunun nədən ibarət olmasını böyük qrupun müzakirəsinə təqdim etməli və yekun bir qərarın əldə olunmasını təmin etməlidir. Debatdan fərqli olaraq sonda müəyyən qərarın qəbul edilməsi vacibdir. O, istənilən mövzularda aparıla bilər. Burada müzakirə olunan məsələ ilə bağlı hərə öz fikrini, öz mövqeyini ifadə edir, fərqli mövqelərə əsaslandırılmış münasibət bildirir. Müzakirələrdə də debatda olduğu kimi müvafiq qaydalara əməl edilməlidir.

*Dərsdə yeri:* motivasiya, tədqiqatın aparılması, məlumatın müzakirəsi və təşkili, nəticənin çıxarılması mərhələlərində istifadə oluna bilər.

## 19. Söz mənimdir

Bu ifadə aparıcının işə tərəfsiz münasibətini bildirmək və işi yekunlaşdırmaq istəyi zamanı istifadə olunur. Bu ifadə müzakirənin və debatın bitməsini qərarlaşdırır.

## 20. Qalereya gəzintisi

*Məzmunu:* Qrup işlərinin nəticələrinin müşahidə olunmasıdır. Qruplarda aparılan tədqiqatların nəticələri divarlardan asıldıqdan sonra şagirdlərə(tələbələrə) imkan yaradılır ki, onlar həmin işlərin nəticələri ilə sərbəst şəkildə tanış olub özləri üçün müəyyən qeydlər götürsünlər(şifahi və ya yazılı formada). Qalereya gəzintisi sözü də məhz buradan götürülmüşdür.



*Dərsdə yeri:* Məlumatın müzakirəsi və təşkili mərhələsində bu üsuldan istifadə etmək olar.

## 21. Ziqzaq(dolanbac)

*Məzmunu:* Bu ifadə əyri-üyrü xətt, çox dolaşıq xətt kimi də qəbul oluna bilər. Bu elə iş üsuludur ki, qrup iştirakçıları həm müəllim, həm də şagird rolunda çıxış edərək materialı müstəqil şəkildə öyrənirlər. Təxminən 25 nəfərlik sinifdə əvvəlcə birdən beşə qədər say həyata keçirilir. Hər 1, 2, 3, 4, 5 sayı düşənlər qrup halında ayrıca bir stol ətrafında oturdulur. Beləliklə, 5 qrup meydana gəlir. Həmin qruplara doğma qruplar deyilir. Sonra həmin qruplardakı 1-lərdən bir masaya, 2-lər digər, eləcə də 3-lər, 4-lər, 5-lər isə başqa masalara toplanırlar. Beləliklə, 1-lərdən, 2-lər, 3-lər, 4 və 5-lərdən ibarət yeni qruplar yaradılır və hərəsi bir masa ətrafına dəvət olunurlar. Bu qruplara isə ekspert qrupları deyilir.




*Təlimat:* Müəllim əvvəlcədən planlaşdırdığı, hazırladığı və beş hissəyə böldüyü proqram materialını həmin ekspert qruplarına paylayır. Birlər olan qrup birinci hissəni birlikdə oxuyub müzakirə edir, bir-birilərinə suallar verir və materialı tam mənimsəyirlər.

Eyni qayda ilə ikinci qruplar ikinci, üçüncü qruplar üçüncü və digərləri də öz hissələrini öyrənirlər. Vaxt bitdikdən sonra ekspertlər öz doğma qruplarına qayıdırlar. Burada onlar növbə ilə öyrəndikləri hissənin məzmununu yoldaşlarına danışırlar: əvvəlcə birlər, sonra ikilər, sonra digər ekspertlər. Lazım gələndə onların suallarına cavab verirlər.

*Dərsdə yeri:* tədqiqatın aparılması mərhələsində istifadə oluna bilər.

### 22. Müsahibə əsasında oçerk

*Məzmunu:* Şagirdlərin sərbəst fikir yürütməsi və yazı vərdişlərinin inkişaf etdirilməsinə xidmət edir. Şagird istənilən bir obyekt barəsində müşahidələrini aparır, müsahibə üçün suallarını tərtib edir və cavabları qeydə alır. Nəticəni yoldaşlarına çatdırır. Bu iş üsulu şagirdlərin mühakimə yürüt-mək qabiliyyətlərini inkişaf etdirir, onlara rabitəli nitq vərdişləri aşılayır.

*Dərsdə yeri:* Yaradıcı tətbiqetmə mərhələsində istifadə oluna bilər.

### 23. Esselər(5, 10 dəqiqəlik)

Tənqidi və yaradıcı təfəkkürün inkişaf etdirilməsində istifadə olunan yazı işidir. Esse ədəbi, fəlsəfi, ictimai problemləri sistematik elmi şəkildə deyil, sərbəst şəkildə şərh edən oçerkdir. Müddətinə görə 5 və 10 dəqiqəlik ola bilər. Məzmununa görə təsviri, nəqli və mühakimə xarakterli ola bilər. Əsas vəzifəsi obyektlə bağlı hər hansı bir təəssüratın təsviri, nəqli və mühakimə yolu ilə ifadə olunmasıdır. Ondan tədris olunacaq mövzuya giriş kimi və ya alınan biliyə yaradıcı yanaşma məqsədi ilə istifadə oluna bilər.

### 24. "Açar sözlər"

*Məzmunu:* Problemin məğzini əhatə edən sözlər qrupudur. Onun vasitəsilə istənilən anlayışa çıxmaq, müxtəlif suallar tərtib etmək mümkündür.



Daha çox istifadə olunan açar sözlər: **rol, əhəmiyyət, səbəb, nəticə, əlaqə, qarşılıqlı əlaqə, qüsur və üstünlük, struktur, xüsusiyyətlər, xassələr, funksiya, qayda, quruluş, növ, cəhət, əlamət** və s. Həmin sözlərdən istifadə ilə şagirdlər öyrənmənin qarşısına suallar qoyur(həmin sözlərin iştirakı ilə suallar tərtib edir) və tədqiqat aparmağa başlayırlar.

*Təlimat:* Mövzular üçün sual tərtib etmə lazım gələndə həmin açar sözlərə baxmaq və suallar tərtib etdirmək olar. Bunun üçün həmişə həmin sözləri əks etdirən vərəqələri göz önündə görünən bir yerdə saxlamaq lazımdır.

*Tapşırıq nümunəsi:* məsələn, Aşıq Abbas Tufarqanlı "Bəyənməz" əsəri üzrə; Bu şeirin mənim həyatımda rolu nə ola bilər? Şeirin nə kimi əhəmiyyəti vardır? Şeiri başqalarından hansı cəhətlərinə görə fərqləndirmək olar? və s.

*Dərsdə yeri:* Motivasiya, nəticələrin çıxarılması, yaradıcı tətbiqetmə mərhələlərində istifadə etmək olar.

### 25. Rollu oyunlar

*Məzmunu:* Eyni fakt və ya hadisənin müxtəlif mövqelərdən qiymətləndirilməsidir.

*Təlimat:* Hər bir şagird götürəcəyi rolu aydın təsəvvür etməli və onun prizmasından öz fikirlərini əsaslandıraraq irəli sürməlidir.

*Tapşırıq nümunəsi:* Oxunan mətnə dair şagirdlərə belə bir tapşırıq verilə bilər ki, həmin mətni tənqidçi, psixoloq, müəllim, şagird mövqeyindən qiymətləndirin. Burada mətn sabit, ona yanaşanlar isə fərqli insanlar olduğundan əsərə münasibətdə də fərqli mövqelər, mülahizələr ortaya çıxacaqdır.

*Dərsdə yeri:* Bu iş üsulundan tədqiqatın aparılması və yaradıcı tətbiqetmə mərhələsində istifadə oluna bilər.

## 26. Auksion(Hərrac)

*Məzmunu:* İstənilən bir məsələ, obyekt barəsində mümkün qədər çoxlu informasiyanın verilməsidir.

*Təlimat:* İstənil bir fakt ortaya qoyulur, onun barəsində hərə yalnız bir ideya irəli sürür. Sonuncu ideyadan sonra qısa vaxt verilir və ya üçə qədər sayılır. Ideyalar gəlməsə axırıncı fikir söyləyən qalib hesab edilir. İşin gedişi zamanı təkrarlara yol verilmir.

Müəllim istənilən bir obrazı təhlil etdirəndə onun haqqında auksion keçirə bilər. Şagirdlərə elan olunur ki, həmin obraz haqqında son sözü deyən qalib sayılır. Auksionun qaydası belədir ki, sual qoyulandan sonra hər bir cavab dinlənilir. Yeni cavab gözləmək üçün üçə qədər sayılır. Əgər cavab gəlməsə, sonuncu fikri deyən şəxs qalib elan olunur.

*Tapşırıq nümunəsi:* ... obraza münasibət bildirin. Və ya nə üçün əsər belə - ... adlandırılmışdır?

*Dərsdə yeri:* Motivasiya, tədqiqatın aparılması, yaradıcı tətbiqetmə mərhələlərində istifadə oluna bilər.

## 27. Söz assosiasiyası

*Məzmunu:* "Söz sözü çəkər" məsəlini xatırlayın. Bu üsul mənanı dolayısı yolla, başqa bir söz vasitəsilə ortaya çıxarır. Qoyulmuş sözə yaxın mənalı digər sözün tapılmasını tələb edir.

*Təlimat:* Müəllim mövzunun tələbinə uyğun olan bir söz səsləndirir. Şagirdlər həmin sözlə daha çox bağlı olan digər sözləri söyləyirlər.

*Tapşırıq nümunəsi:* Ana sözünü deyəndə ilk olaraq yada nə düşür? Şagird cavab verir: ata, vətən, doğma yurd və s. Sonra müəllim uyğun gələn anlayışı seçir və bu gün nədən danışılacağını şagirdlərə elan edir. Və yaxud, bahar dedikdə ilk olaraq nəyi xatırlayırıq?( yaz fəslini, təbiətin oyanışını, novruz bayramını, keçəli və kosanı, səmənini, yeni ilin gəlməsini və s.)



*Dərsdə yeri:* motivasiya və yaradıcı tətbiqetmə mərhələsində istifadə oluna bilər.

## 28. Anlayışın çıxarılması

*Məzmunu:* Hər hansı əlamət(lər)ə görə əşyanın, anlayışın tapılmasını ortaya qoyur.

*Təlimat:* Tapılacaq anlayış bir vərəqə yazılır və üstü sual işarəsi yazılmış başqa bir vərəqlə örtülür. Onun altında isə həmin anlayışa dair bir neçə (azı iki) əlamət qeyd olunur. Şagirdlərə müraciət olunur: Verilmiş əlamətlər hansı anlayışı bildirir? Həmin anlayışı tapın.

Əgər həmin əlamətlərə istinadən anlayış tapılmasa, müəllim başqa əlaməti də buraya daxil edir. Ta ki şagirdlər əlamətlər əsasında anlayışı ortaya çıxar bilsinlər. Bu zaman mücərrəd əlamətlər tərtib etməkdən qaçmaq lazımdır.

*Dərsdə yeri:* Bu üsuldan motivasiya mərhələsində daha çox istifadə oluna bilər.

## 29. Problemin həlli

*Məzmunu:* problemi yaradan ziddiyyətləri aşkar edib, onun həllinin səmərəli yolunu tapdırmağa xidmət edir. Problem qoyulur, onu yaradan səbəblər müəyyən olunur və necə aradan qaldırılmasına dair yolların araşdırılmasına başlanılır.

*Təlimat:* problem qoyulur və onu yaradan səbəblər aşkara çıxarılır. Onun həlli yollarını tapmaq üçün fakt və dəlillər, təkliflər toplanır. Toplanan məlumat sistemləşdirilir. Mümkün həlli yolları müəyyənləşdirilir. Səmərəli yol seçilərək əsaslandırılır, nəticə ümumiləşdirilərək seçilmiş həll yolu qiymətləndirilir. Bütün siniflə və ya kiçik qruplarda iş zamanı istifadə oluna bilər. Məzmununa görə təhlil dərslərində istifadə olunması məqsədəuyğundur.

*Tapşırıq nümunəsi:* qardaşların şahın hüzuruna aparılması səbəbləri. Belə alınmaması üçün nə etmək olardı? (V sinifdə "Üç qardaş" xalq nağılı əsasında)

*Dərsdə yeri:* tədqiqatın aparılması mərhələsində istifadəsi məqsədəuyğundur.

## 30. Layihənin hazırlanması

*Məzmunu:* Müxtəlif mövzular müstəqil şəkildə tədqiq olunur. Əvvəlcə görüləcək iş üçün müddət nəzərə alınmaqla planlaşdırma aparılır, mənbələr müəyyənləşdirilir, materiallar öyrənilir, məlumatlar toplanır, sistemə salınır, yekunlaşdırılır, tədqiqatın nəticəsinin təqdimatı həyata keçirilir.

*Təlimat:* Mövzu və ya problem(bir və ya bir neçə mövzu, problem də qoyula bilər) müəyyən olunur. Sinfə seçim imkanının verilməsi də mümkündür. Sonra layihənin icra vaxtı, planlaşdırılması, üsul və vasitələri, mənbələri, tədqiqat nəticələrinin necə təqdim oluna biləcəyinə dair təlimat və tövsiyələr verilir. Sonucu mərhələ layihənin təqdimatı və görülmüş işin qiymətləndirilməsidir. Müəllim bilik mənbələrinin müxtəlifliyinə diqqət yetirməlidir. Bu mənbələr dərslikdən, əlavə oxu materiallarından, internet resurslarından istifadəni nəzərdə tuta bilər.

*Tapşırıq nümunəsi:* S. Vurğun əsərlərində vətən sevgisi(bir neçə nümunə əsasında); Dostlar dar gündə tanınar( atalar sözləri və şeir nümunələri əsasında)

*Dərsdə yeri:* tədqiqatın aparılması mərhələsi və müstəqil iş üçün nəzərdə tutulur.

## 31. Qərarlar ağacı

*Məzmunu:* Qoyulan problemin bir neçə həlli yollarını araşdırıb tapmaq, həmin yolların hər birinin müsbət və mənfi cəhətlərini görmək, onları qeyd etmək, ən səmərəlisini seçmək



imkanını verir. Yəni əgər üç variant varsa, yalnız biri qəbul oluna bilər. "+" işarəsi təklif olunan variantın üstünlüklərini, "-" işarəsi isə qüsurunu, çatışmazlığı göstərmək üçün qoyulmuşdur. Hər işarənin qarşısında uyğun cavablar yazılır. Cədvəl formasında ifadə olunur.

| Problem: .... | | |
|---|---|---|
| 1-ci həll yolu: | 2-ci həll yolu:... | 3-cü həll yolu ... |
| + tərəfləri:<br>- tərəfləri: | + tərəfləri:<br>- tərəfləri: | + tərəfləri:<br>- tərələri: |
| Qərar: | | |

Ola bilər ki, problemin həlli variantları az və ya çox olsun. Yəni mütləq üç həlli yolunun götürülməsi vacib deyil.

*Təlimat:* problem qoyulur və şagirdlərlə birlidə bir neçə həlli yolu(variantlar) müəyyənləşdirilir. Qruplara təqdim olunur. Şagirdlər verilmiş vaxt ərzində həmin variantlar üzərində işləyir, onların müsbət və mənfi cəhətlərini müzakirələr apararaq cədvələ qeyd edir və bir seçim edərək onu qərar hissəsinə yazırlar. Çalışma tamamlandıqdan sonra qruplar növbə ilə yazılarını təqdim etməyə başlayırlar. Bu zaman qərar yazılan hissənin üzəri örtülmüş olur. Müəllim variantların məzmunundakı müsbət və mənfi cəhətlərə istinad etməklə sinifdən soruşur ki, bu qrup hansı qərarı verə bilər. Şagirdlərin fikri alındıqdan sonra cədvəlin "qərar" xanası açılır. Qrupların təqdimatı bitdikdən sonra əldə olunmuş nəticələrin tutuşdurulmasına başlanılır, eyni və fərqli qərarlara diqqət cəlb olunur, hansının daha əsaslı olduğu müzakirəsi aparılır.

*Tapşırıq nümunəsi:* "Başqalarına möhtac olmamaq üçün hansı işləri görmək mümkündür?(N. Gəncəvinin "Kərpic kəsən qocanın dastanı" hekayəsinin motivləri əsasında); "Analara qayğı bəsləmək üçün hansı işləri görmək mümkündür? (H. Arifin "Analar" şeiri üzrə).

*Dərsdə yeri:* Tədqiqatın aparılması mərhələsində istifadəsi daha məqsədəuyğundur. Sinifdənxaric oxu materiallarının motivləri əsasında da bu üsuldan istifadə etmək olar.

### 32. İdeyalar xalısı

*Məzmunu:* Düzgün müzakirələr aparmaq vərdişlərini inkişaf etdirir. Şagirdlər əvvəlcə kiçik qruplarda problemi yaradan səbəbləri yazır, sinfə oxuyur və iş vərəqlərinə yapışdırılar. Sonra eyni ilə onu aradan qaldırmaq yollarını göstərirlər.

*Təlimat:* Kiçik qruplar problemin törəməsi səbəbini balaca, rəngli vərəqdə qeyd edir, iş vərəqində bir zolaq üzərinə yapışdırırlar. İş tamamlanan kimi qruplar yazdıqlarını oxuyurlar. Sonra problemin həlli üçün nə etmək lazım olduğu tapşırığı verilir. Cavablar başqa bir rəngli vərəqələrə yazılır, oxunaraq iş vərəqəsinə yapışdırılır. Işin sonunda problemin həlli yollarının müzakirəsi həyata keçirilir. Problemin ən səmərəli həlli yolu seçilir. Tapşırığın cavabını əks etdirən vərəqlər rəngli olduqları və iş vərəqlərinə yapışdırıldıqda rəngarənglik nümayiş etdirdiyi üçün mənzərə xalı xalıya bənzədilir.

*Tapşırıq nümunəsi:* 1. İnsan doğma yerlər üçün darıxır (Ə. Cavadın "Azərbaycan! Azərbaycan!" şeirinin motivləri əsasında). 2. Yağılar dinc bir ölkəyə basqın edirlər( M. Hüseynin "Odlu qılınc" əsəri üzrə).

*Dərsdə yeri:* Tədqiqatın aparılması mərhələsində və təhlil dərslərində, müstəqil işlər zamanı istifadə oluna bilər.

P.S. Belə iş üsulları çox olduğundan biz hələlik yuxarıdakı məlumatlarla kifayətlənməli olacağıq.



## Fəal(interaktiv) təlimdə istifadə olunan iş formaları

İş formaları dərsin əvvəlində də, tədqiqatın işlərinin təşkilində də, digər dərs mərhələsində istifadə oluna bilər. Dərsin mövzusu və məqsədindən asılı olaraq tədqiqat işləri aparılır. Bu tədqiqat işləri xarakterinə görə bir nəfərlə, eləcə də bir neçə nəfərin birgə iştirakı ilə aparıla bilər. Ona görə də tədqiqat işlərinin müxtəlif formalarda təşkil edilməsi məsələsi ortaya çıxır.

Fəal(interaktiv) dərslərdə istifadə olunan iş formaları bunlardır:

**1. Fərdi iş** – tapşırığın icrası bir nəfər aid olur. Şagird qoyulmuş sualını cavabını bir dəftər vərəqinə qeyd edir. Tələb olunan anda yazdıqlarını oxuyur, onun məzmunu ilə sinif yoldaşlarını tanış edir. Dərsin motivasiya, yaradıcı tətbiqetmə mərhələsində geniş istifadə olunur. Deməli, bir nəfərə üçün nəzərdə tutulan iş formasıdır formadır



**2**. **Cütlərdə iş** –tapşırığın icrası iki nəfər aid olur. Burada təklif olunan tapşırıq iki nəfərin iştirakı ilə həll olunur. Onlar tapşırığın tələblərini birlikdə öyrənir və müzakirə fonunda yerinə yetirirlər. İş ümumi razılığa gəlmək, birlikdə yekun bir qərarın verilmək və dəftər vərəqində qeyd etməklə nəticələnir. Müzakirənin nəticəsi şifahi və yazılı formada icra oluna bilər. Yazılı forma bir vərəqdə əksini tapmalıdır.





**3. Kiçik qruplarda iş -** 5-6 nəfərin iştirakı ilə görülən birgə işdir. Tapşırıq qrup halında nəzərdən keçirilir, müzakirə olunur və yekun qənaətlər ümumi razılıq əsasında iş vərəqlərində qeyd olunur. Əgər keçilən dərs problemin bu formada araşdırılmasına imkan verirsə, onda müəllim kiçik qruplarda iş formasına üstünlük verir. Qeyd edək ki, kiçik qruplarla iş fəal(interaktiv) dərslərin sıx müraciət etdiyi iş formasıdır.

Bu zaman sinifdə şagirdlərin miqdarı nəzərə alınmaqla 4-5 qrup yaradıla bilər. 25 nəfərlik sinifdə kiçik qrupu formalaşdırmaq üçün müxtəlif vasitələrdən istifadə oluna bilər.





Məsələn, şagirdlərə təklif oluna bilər ki, 1-dən 5-ə qədər saysınlar. Sonra 1-lər, 2-lər, 3-lər, 4-lər, 5-lər hərəsi bir stolun ətrafında dairəvi formada otururlar. Bunu şəkillərlə də etmək olar. Yəni 5 müxtəlif gülün ( meyvə, rənglər və s. də ola bilər) hərəsindən 5 dənə çoxaldıb bir yerə sərmək olar və şagirdlərə



təklif etmək olar ki, xoşlarına gələn gülləri seçib götürsünlər. Sonra isə müəllim qızılgülləri, yasəmənləri, qərənfilləri, nərgizi, bənövşəni hərəsini bir stol ətrafına toplayır.

**4. Böyük qrupla iş** – bütün sinif üçün nəzərdə tutulan iş formasıdır. Beyin həmləsi, müzakirə, debat iş üsullarının tətbiqi zamanı bu iş formasına tez-tez müraciət olunur.

Hansı iş formasının seçilməsi proqram materialının xarakterindən, hansı axtarış formasının seçilməsindən, hansı iş üsulunun tətbiqindən, şagirdlərin yaş və bilik səviyyələrindən asılıdır.



Fəal(interaktiv) dərslərdə adətən bir neçə iş formasında istifadə olunur. Bu da öz növbəsində şagirdlərlə işin rəngarəngliyini, dərsin mobilliyini təmin edir.

**?!**

1. **Təlim üsulları dedikdə nə başa düşürsünüz?**
2. **Onları neçə yerə bölmək olur?**
3. **Ənənəvi təlim üsulları barədə nə deyə bilərsiniz?**
4. **Təsnifatın müsbət və mənfi cəhətləri barədə danışın.**

5. **Fəal(interaktiv) təlimdə istifadə olunan iş üsulları barədə nə kimi təsəvvürə malik oldunuz?**
6. **Ədəbiyyat dərslərində hansı iş formalarından istifadə etmək olar? Onların məzmunu və xüsusiyyətləri barədə nə deyə bilərsiniz?**



# MÜƏLLİMİN TƏLİM FƏALİYYƏTİNİN PLANLAŞDIRILMASI

Planlaşdırma müəllimin tədris-metodiki işinin aynasıdır. Onun düzgün elmi-metodiki və pedaqoji-psixoloji tərtibi qaydaları vardır. Hazırda bu vəzifəni orta məktəb müəllimləri üçün tərtib olunan metodik vəsaitlər yerinə yetirir. Həmin vəsaitlərdə proqram materiallarının tədrisi ardıcıllığı, ayrılan saatlar, dərslərdə reallaşdırılacaq alt-standartlar, təlim üsulları, qiymətləndirmə növləri, dərsdə istifadə olunacaq iş formaları, mövzunun tədrisində fənlərarası və fəndaxili inteqrasiya, resurslar və b. məsələlər geniş şəkildə əks olunmuşdur. Həmin vəsait də Təhsil Nazirliyi tərəfindən təsdiq olunduğuna görə buradakı planlaşdırmada düzəlişin aparılmasını yalnız məktəb ədəbiyyat metodşurasının qərarı ilə həyata keçirmək olar.

Amma bu məsələdə ədəbiyyat müəllim də müəyyən bilik və bacarıqlara sahib olmalıdır. O, planlaşdırmada standartların, inteqrasiya imkanlarının, qiymətləndirmə məsələlərinin dəqiqləşdirilməsi işini həyata keçirə bilər. Təqdim olunan standartlar qrupunda, inteqrasiya məsələlərində, resurslarda əlavələr və dəyişikliklər apara bilər.

Təlimin, təhsilin, ədəbiyyat tədrisinin qarşısına qoyulan vəzifələrin uğurlu həlli planlaşdırmanın düzgün elmi-metodiki əsaslarla tərtibindən keçir.

Bunu nəzər alaraq biz aşağıda müəllimin təlim fəaliyyətinin planlaşdırılmasından və bu işin əsas xüsusiyyətlərindən danışmaq istəyirik.

Xatırladaq ki, ənənəvi metodikalarımız planlaşdırmanın 3 növündən söhbət açırdı. Buraya *illik, yarımillik və gündəlik* plan daxil idi. Onların adları kimi məzmunları da fərqli idi. Qeyd edək ki, illik planlaşdırma nə qədər səmərəli olsa da, ənənəvi kursda müəllimlər onun tərtibindən qaçır, onu artıq bir iş hesab edirdilər. Müəllimlər üçün işlək vəziyyətdə olanı isə yarımillik (buna təqvim-tematik plan deyilirdi) və gündəlik planlar idi.

Ənənəvi kurs öz ömrünü başa vurduğundan o planlar daha işləmir və onlar tarixi-metodik əhəmiyyət daşıyırlar. Ona görə də diqqətinizi daha çox yeni kursda istifadə olunan planlara yönəldəcəyik.

Yeni kurs planlaşdırmanın iki növündən – **perspektiv(illik)** və **cari** planlaşdırmadan(gündəlik) istifadə edir. Burada yarımillik planlaşdırmanın (təqvim-tematik planın) adı çəkilmir. Hazırda illik planlaşdırma tədris prosesi ilə bağlı məsələləri tam şəkildə əhatə etdiyindən köhnəyə ehtiyac qalmır.

Yeni kursda müəllimlərə illik planın iki variantı təklif olunmuşdur. Biz orta məktəbin müəllim üçün vəsaitlərində bu planlaşdırmanın bölmələrinə bir qədər sərbəst yanaşmaları da görürük. Onları da qəbul etmək olar. Amma qaydalara uyğun gələn illik planlaşdırma aşağıdakı şablonlara uyğun gələnləri hesab olunmalıdır.

### İllik planlaşdırma ( I variant)

| Tədris vahidi[26] | Mövzular | Standartlar | İnteqrasiya | Resurslar(təchizat) | Qiymətləndirmə | Saat | Tarix |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |

Qeyd: Bu cür planlar orta məktəbin ədəbiyyat müəllimləri üçün hazırlanmış müəllim üçün metodik vəsaitlərdə vardır. Onlara internetdə http://www.trims.edu.az səhifəsindən baxa bilərsiniz.

[26] Tədris vahidi dərslikdəki mövzuların tematik qrupudur.



### İllik planlaşdırma (II variant).
### (Təqvim planın kurikulum əsasında nümunəsi)[27]

| Tarix(həftələrlə) | Mühüm hadisələr | Tədris vahidinin adı | Tarix | Mövzular | Tədris vahidi üzrə reallaşdırılan standartlar | Mövzular üzrə reallaşdırılan standartlar | Strategiyalar | Fərdi yanaşma | Qiymətləndirmənin üsul və vasitələri | Tədris vahidi üçün ayrılmış vaxt | Hər mövzu üçün ayrılmış vaxt | Resurslar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

Həmin səhifədə bütün siniflər üçün ədəbiyyat dərsliklərinə və müəllimlər üçün vəsaitlər yerləşdirilmişdir.

Planlaşdırma həyata keçiriləndə proqram materiallın xüsusiyyətinə, şagirdlərin yaş və bilik səviyyələrinə və elmi-metodik, pedaqoji-psixoloji amillərə diqqət yetirilməlidir. Dərsliklər, müəllim üçün metodik vəsaitlər bu amilləri nəzərə alırmı? Mövzular üçün alt- standartlar seçiləndə "Ədəbiyyat və həyat həqiqətləri", "Şifahi nitq", "Yazılı nitq" məzmun xətlərindən seçimlər düzgün edilmişdirmi, fəndaxili əlaqələr gözlənilmişdirmi, təklif olunan alt-standartları, onların miqdarını, təlim-tərbiyə və inkişaf vəzifələrini yerinə yetirməsini yetərli saymaq olarmı, təlim materialının xarakteri imkan verərsə, təqdim olunan alt-standartları dəyişdirmək, çoxaltmaq və ya azaltmaq mümkündürmü, summativlər, sinifdənxaric oxu dərslərinin təşkili, layihələrin təqdimi məsələlərində simmetriyalar gözlənilmişdirmi suallarına ədəbiyyat müəllimi cavab tapmağı bacarmalıdır.

[27] Bax: Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları, Bakı 2008, səh.282-283

Adətən illik planlaşdırmada bu nöqtələrdə səhvlər, nöqsanlar, təhriflər özünü göstərir. Müəllim planlaşdırmada həmin nöqsanları görməli və onları metodşuranın dəstəyi ilə aradan qaldırmağı bacarmalıdır. Bəzən müəllimlərə qadağalar qoyulur ki, bir dərsdə uzağı 3- 4 standart reallaşdırıla bilər, çox olmaz. Bu tamamilə zərərli və elmi-metodik baxımından olduqca yanlış yanaşmadır. Belə ki, əgər proqram materialının xarakteri imkan verirsə, onu süni şəkildə azaltmaq və ya artırmaq olmaz. Məsələn, əsərin məzmunu üzərində iş dərslərində "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttindən 1.1. əsas standartının dörd (1.1.1-dən 1.1.5.-ə qədər də seçilə bilər. O baxır keçilən əsərə), şifahi və yazılı nitq məzmun xətlərinin hərəsindən isə bir və ya iki alt-standart (minimum 6 alt-standart) seçilə bilər.

Gündəlik planlar isə müəllimin birbaşa dərsə hazırlığı prosesini əks etdirən ən işlək sənəddir. Müəllimin dərsdə gördüyü işlərin məzmunu bu sənəddə əks olunur. həmin sənəd illik planda mövzunun tədrisi üçün nəzərdə tutulan işlərin necə yerinə yetirilməsi vəziyyətini əks etdirir. Müəllim üçün vəsaitlərdə proqram materiallarının tədrisinə dair tövsiyələr də verilmiş, dərs icmalları da təqdim olunmuşdur. Hər bir gənc müəllim unutmamalıdır ki, verilmiş mülahizələr, təqdim olunmuş icmallar rəsmi göstəriş deyildir, tövsiyə xarakteri daşıyır.

Məktəb təcrübəsi gündəlik planın **iki növünü** tanıyır: geniş plan – buna dərsin icmalı deyilir və qısa plan.

Geniş plan <u>titul səhifəsindən</u>, <u>dərsin planından</u> və <u>dərsin gedişi</u> bölmələrindən ibarətdir. Dərsin planı dedikdə burada *dərsin mövzusu, məqsədi, dərsdə istifadə olunan üsullar, təchizat məsələləri və dərsin mərhələləri üzrə təxmini vaxt bölgüsünü* nəzərdə tutulur. Dərsin gedişi dedikdə isə həmin *mərhələlərin hər birində görülən işlərə dair geniş qeydlərin aparılması* başa düşülməlidir.



Qısa planda isə dərsin mərhələlərini əks etdirən təxmini vaxt bölgüsü, dərsin gedişatının geniş təsviri nəzərdə tutulmur. Burada dərsin mərhələlərinə dair əsas tezislər qeyd olunur, hər bir mərhələnin məzmunu plan şəklində, əlavə şərhlər verilmədən hazırlanır.

Təcrübəli müəllimlər qısa gündəlik plandan istifadə edirlər.

**Gündəlik plan nümunəsi –(1)**
**Fəal(interaktiv) dərsin texnoloji xəritəsi.**

| Standartlar | Mövzu | İnteqrasiya | Texnikalar | İş forması | Resurslar |
|---|---|---|---|---|---|
| | | | | | |
| DƏRSİN TƏLİM NƏTİCƏLƏRİ | | | | | |
| 1.MOTİVASİYA | | | | | |
| *Tədqiqat sualı* | | | | | |
| 2.TƏDQİQATIN APARILMASI | | | | | |
| 3.MƏLUMAT MÜBADİLƏSİ | | | | | |
| 4.MƏLUMATIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ | | | | | |
| 5.NƏTİCƏ | | | | | |
| 6.YARADICI TƏTBİQETMƏ (dərsdə, evdə) | | | | | |
| 7.QİYMƏTLƏNDİRMƏ (meyarları və üsulları) və REFLEKSİYA | | | | | |

Cədvələ diqqətlə baxın. O belə doldurulmalıdır: Yuxarıdakı rəngli sütunda başlıqların altında uyğun cavablar qeyd olunmalıdır. "Standartlarda" dərsdə reallaşdırılacaq alt-standartların rəqəmləri(kodları), "Mövzu"nun altında keçiləcək dərsin mövzusu, "İnteqrasiya"da fənlərarası inteqrasiya- fənnin adı və alt-standartı (tarix: 1.2.1, musiqi: 2.1.2 və s.), "Texnikalar"da dərsdə istifadə olunacaq üsullar, "İş forması"nda fərdi, cütlərlə, kiçik və ya böyük qruplarla iş formalarından uyğun gələnləri, "Resurslar"da dərsin gedişatına xidmət edən əyani vasitələr, sxemlər, cədvəllər, video çarxlar, kitablar, kliplər və s. qeyd olunur.

Dərsin təlim nəticələrində alt-standartların açıqlamaları qeyd olunur.

"Motivasiya"nın qarşısında nümayiş etdiriləcək vəsaitin adı və yönəldici suallar, "Tədqiqat sualı"nın qarşısında uyğun suallar( iki sualın verilməsini tövsiyə etmişdik. Bu sualların tərtibində də məzmun və təhlil suallarının fərqləndirilməsini xatırlayın), "Tədqiqatın aparılması" qrafasının qarşısında qrupların sayını və onlara təqdim olunacaq tapşırıqları, digər mərhələlərin də qarşısında uyğun olan işləri qeyd etmək lazımdır.



## Gündəlik plan nümunəsi – (2)
## (Əsərin məzmunu üzrə iş)

Gündəlik planın tərtib zamanı müəllim işi aşağıdakı ardıcıllıqla yerinə yetirməlidir:

**Mövzu**: A. Səhhətin "Vətən" şeirinin məzmunu

**Standartlar**: 1.1.1; 1.1.2; 2.1.2; 3.1.2.

**Inteqrasiya**: Tarix, 0.0.0.

**Texnikalar**: klaster, beyin həmləsi, müzakirə

**Iş forması**: böyük və kiçik qrupda iş

**Resurslar** (təchizat): filmdən parça, musiqi...

**Dərsin təlim nəticələri**: (1.1.1, 1.1.2., 2.1.2 və 3.1.2- alt-standartının tələbləri xüsusiləşdirilir. Neçə alt-standart varsa, bir o qədər də təlim nəticəsi göstərilir. Məsələn, alt- standart *1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır*. Onu çevirək təlim nəticəsinə: *1. Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır*. Digər alt-standartlar də bu qayda ilə təlim nəticələrinə çevrilir).

**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. **Sinfi təşkili və ev tapşırıqlarının yoxlanması....... 5 d.**
2. **Motivasiya.............................................................. 3 d.**
3. **Tədqiqatın aparılması..........................................10 d.**
4. **Məlumat mübadiləsi.............................................10 d.**
5. **Məlumatın müzakirəsi və təşkili.......................... 5 d.**
6. **Nəticənin çıxarılması............................................. 3 d.**
7. **Yaradıcı tətbiqetmə................................................ 6 d.**
8. **Qiymətləndirmə və ev tapşırığının verilməsi....... 3 d.**

**Cəmi: 45 dəq.**

**Dərsin gedişi:**

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması**

**2. Motivasiya**: vətən motivli klip səsləndirilir. Təəssüratlar dinlənilir. Mövzu lövhəyə qeyd olunur.

*Tədqiqat sualları*:

a) Şair şeirdə vətənlə bağlı fikir və hisslərini necə ifadə edə bilər?

b)Şeiri ifadəli oxumaq üçün nə etmək gərəkdir?

c)Şeirin məzmununu şərh etmək üçün hansı işləri görmək olar?

**3.Tədqiqatın aparılması**: Kiçik qruplarla iş üçün tapşırıqlar;

1-ci qrup: Şeirdəki çətin söz və ifadələrin məzmununu lüğət vasitəsi ilə aydınlaşdırın.

2-ci qrup: Şeiri ifadəli oxu üçün hazırlayın və oxuyun

3-cü qrup: Şeirdəki təsvir və ifadə vasitələrini müəyyən edin,

4-cü qrup: Şeirdən aldığınız təəssüratı qeyd edin.

5-ci qrup: Şeirdə ifadə olunan fikri ardıcıllıqla qeyd edin.

**4. Məlumat mübadiləsi**: Qruplar ayrılmış vaxt ərzində tədqiqatlarının nəticələri ilə yoldaşlarını tanış edirlər.

**5. Məlumatın müzakirəsi və təşkili**: Təqdimatlarda əksini tapan məlumatları ümumiləşdirmək, sistemə salmaq üçün müzakirə aparılır.

Müzakirə üçün suallar:

- Şeir nə barədə idi?
- Şeirin ifadəli oxusu nə zaman uğurlu alındı?
- Hansı söz və ifadələri məzmunu mənimsəməyə əngəllər yaradırdı?
- Yoldaşlarınızın ifadəli oxusu sizi qane etdimi? Biz bu müzakirəni necə ümumiləşdirə bilərik?..

**6. Nəticənin çıxarılması**: Bu mərhələdə ümumiləşmiş fikirlərlə tədqiqat sualı zamanı alınmış fərziyyələr tutuşdurulur, nələrin üst-üstə düşdüyü, nələri yeni olduğu müəyyən edilir. Nəticədə yeni bilik əldə olunur.

**7. Yaradıcı tətbiqetmə**:

a) Sinifdə: şeirin ifadəli oxusu yarışı;



b) Evdə: vətənlə bağlı klaster hazırlamaq və ya esse yazmaq)

**8. Qiymətləndirmə və ev tapşırıqları**. Qiymətləndirmə meyarları:

a) fikrini şərhetmə;
b) ifadəli oxuma;
c) lüğətdən istifadə etmə.

☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼☼

Qeyd: Gündəlik planı həm cədvəl formasında , həm də cədvəlsiz tərtib etmək olar.

## Dərs icmalın tərtibinə dair tövsiyələr

Dərsdə reallaşdırılacaq alt-standartlar seçiləndə mövzunun xarakterinə diqqət yetirilməlidir. *Əsərin məzmunu* ilə bağlı keçilən dərslərdə 1.1 əsas standartının, *təhlili ilə bağlı* iş aparılanda isə 1.2 əsas standartının tərkibindən alt-standartlar götürülməlidir. Əgər *əsərin öyrənilməsinə cəmi bir saat* həsr olunubsa, onda hər iki əsas standartın tərkibindən mövzunun xarakterinə uyğun gələn alt-standartlar seçilməlidir.

Dərslər üçün alt-standartlar seçiləndə hər üç məzmun xəttinin imkanlarına nəzər salınmalıdır. Onların hər üçündən alt-standart seçib dərsə gətirilməlidir.

Fəndaxili və fənlərarası inteqrasiyanın imkanlarından səmərəli istifadə olunmalıdır. Fəndaxili inteqrasiya dedikdə məzmun xətləri arasındakı bağlılığı, fənlərarası dedikdə isə mövzunun xarakterindən irəli gəlməklə digər fənlərlə əlaqələrin qurulmasını nəzərə tutmaq lazımdır.

Tədqiqatın aparılması mərhələsində qruplara tapşırıq veriləndə *tədqiqat sualının* və *təlim nəticələrinin* tələblərinə riayət olunmalıdır. *Təlim nəticələrində əksini tapan məsələlər qrup tapşırıqlarına* çevrilməlidir. Bunun üçün ən azından

onların sonluğundakı indiki zamanı( –ır[4]) əmr formasına (-ın[4]) çevirmək lazımdır.

Qiymətləndirmə meyarları alt-standartların fəaliyyət hissəsinə əsasən müəyyənləşdirilməlidir. Fellər indiki zaman formasından çıxarılmalı və **-ma,- mə** formalarına salınmalıdır. Məsələn,

1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini **müqayisə edir.**

1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri **aydınlaşdırır**, əsaslandırılmış **münasibət bildirir.**

a) Müqayisə etmə
b) Aydınlaşdırma
c) Münasibət bildirmə



## FƏAL/İNTERAKTİV DƏRSLƏRDƏ ƏDƏBİYYAT MÜƏLLİMİNDƏN TƏLƏB OLUNAN KEYFİYYƏTLƏR

Ədəbiyyat müəllimi və ümumiyyətlə müəllim hansı keyfiyyətlərə malik olmalıdır sualına hərə bir cür cavab verə bilər. Təbii ki, öncə rəsmi sənədlərimizin müəllimlərin qarşısına qoyduğu vəzifələri yada salmalıyıq. Bunun üçün Ümumi təhsil pilləsinin dövlət standartı və proqramı(kurikulumları) sənədinin "təhsilverənlərin keyfiyyət göstəriciləri" bölməsini və digər sənədlərin məzmununu bir daha xatırlayın.

- *dövrün tələbatına uyğun gələn elmi-nəzəri bilik;*
- *uşaqlarla ünsiyyət qurma və iş bacarığı;*
- *əxlaqi-mənəvi keyfiyyət, pedaqoji etika və mədəniyyət;*
- *əməkdaşlıq, tədqiqatçılıq, özünütəhsil və idarəçilik bacarıqları;*
- *layihə, müsabiqələrdə, innovativ proqramlarda iştirak etmək qabiliyyəti;*
- *öz fəaliyyətini təqdim etmək, qabaqcıl təcrübədən bəhrələnmək bacarığı;*
- *ədalətlilik, məsuliyyətlilik, cavabdehlik keyfiyyəti;*
- *məktəb və ictimaiyyət arasında nüfuzu.*

Ədəbiyyat müəllimi həm də təhsil alanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini ümumi şəkildə ifadə edən məzmunu da bilməlidir. Təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən edən təlim nəticələri və məzmun standartlarıdır. Onlarda aşağıdakı tələbələr gözlənilməlidir:

- *fərdin, dövlətin, cəmiyyətin maraq və tələbatının ödənilməsi;*
- *təhsilin nəticəyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulmasına didaktik zəmin yaradılması;*

– *təhsilalanların həyati bacarıqlara yiyələnməsinin prioritet hesab edilməsi;*
– *keyfiyyətli təhsil almaq üçün hamıya bərabər imkanların yaradılması;*
– *təhsil səviyyələri üzrə təhsil proqramlarında (kurikulumlarda) varisliyin təmin olunması;*
– *şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə müvafiq standartların müəyyən edilməsi üçün etibarlı əsas yaradılması;*
– *təhsilalanların sağlamlığının qorunması məqsədi ilə ağırlaşdırıcı tədris materiallarının təlim prosesinə gətirilməsinin qarşısının alınması.*

Digər rəsmi sənədlərin tələbləri də öz yerində. Müəllim bu sənədlərdən xəbərsiz öz fəaliyyətlərini qətiyyən davam etdirə bilməzlər.

Bizim nəzərimizdə ədəbiyyat müəllimi bir günəşə bənzəyir. Təsadüfi deyildir ki, internetdə yerləşdirdiyimiz feysbuk səhifəmizi biz məhz bu cür adlandırmışıq: **ədəbiyyat müəllimi, sən bir günəşsən.**

Müəllimin mənəvi siması, daxili aləmi ilə səsləşən bir məsəli Sizlərə çatdırmaq istəyirəm. Belə nəql edirlər ki, bir gün bir neçə nəfər Qazının yanına şikayətə gəlir ki, bəs bilməzsənmi, filan kəndin mollası oğurluq edib. Ona sözünüz nədir? Qazı təmkinini pozmadan molla oğurluq eləməz deyir. Həmin şəxslər bildirir: - Necə yəni molla oğurluq eləməz?! Oğurladığı əşya ilə birlikdə bir azdan Sizin hüzurunuza gətirəcəklər. Bəs onda sözünüz nə olacaq? Qazı əfəndi təmkinini pozmadan yenə də molla oğurluq eləməz deyir. Həyətdən müxtəlif səslər eşidilir. Adamlar yanlarında da həmin kəndin oğurluq üstündə tutulan mollası və oğurladığı əşya ilə qeyzlə Qazının otağına daxil olurlar. Şikayətçilər mollanı və oğurladığı əşyanı Qazıya göstərərək hirsli vəziyyətdə soruşurlar: - İndi buna sözünüz nədir? Qazı yenə təmkinini pozmadan "Molla oğurluq eləməz"



deyir. Deyir ki, O oğrudur ki, gəlib Molla olub. Molla oğruluq eləməz.

Hikmətə fikir verişinizmi? Bəli, müəllim olan kəs daima öz adını uca tutmalıdır. Əsl müəllimi başqa cür də təsəvvür etmək olmaz.

Əziz həmkarlarım. Bu müəllim ad sizə necə də yaraşır. Çünki harada olursunuzsa-olun, əməllərinizdə nəciblik, ürəyinizdə hərarət, simanızda bir nur olur. Sizi digər sənət yoldaşlarından fərqləndirən əsas keyfiyyət də məhz orasındadır ki, siz müqəddəs və ülvi mənəviyyatımızın, poeziyamızın, nəsrimizin, dramaturgiyamızın ən gözəl keyfiyyətləri ilə birbaşa təmasda olur, onları öz mənəviyyatlarınıza köçürür və şagirdlərimizdə həmin irsə möhtəşəm bir məhəbbət hissi aşılayırsınız. Şagirdlərimiz belə bir ədəbiyyat nümunələri ilə tanış olduqca qəlbləri qürur və iftixar hissi ilə dolur, fəxr edirlər ki, belə bir xalqın nümayəndəsi, belə bir zəngin sərvətin varisləridirlər.

Ədəbiyyat müəlliminə qürur gətirən amillərdən olduqca çoxdur. Biz onların hamısını sadalasaq, onda cildlər gərək olar. Bunlarından ən birincisi və ən əsası gələcəyimizin qurucuları olan gənc nəslin əxlaqi-mənəvi tərbiyəsini, bir şəxsiyyət, bir vətənpərvər insan kimi yetişməsini dövlətimizin məhz Sizlərə etimad göstərməsi, etibar etməsidir. Bu, heç kimə rəva görülməyən, ancaq Sizlərə, Sizlərin saf mənəviyyatına, təmiz qəlbinizə, hərarətli əllərinizin ixtiyarına buraxılan böyük bir etimaddır. Bu inamı uca tutmaq isə hər bu yolu seçənin, hər birimizin müqəddəs vəzifəsidir.

İkincisi, ulu öndərimiz doğma Azərbaycanımızın, yeni ruhlu Azərbaycanımızın qurucusu və memarı olan Heydər Əliyev cənabının bizlərə verdiyi qiymət(kitabın ön səhifəsindəki sitata baxın), göstərdiyi qayğı və bizə bəslədiyi inamdır. O qayğı ki, indi onu hörmətli prezidentimiz İlham Əliyev cənabları bir an da olsun Sizlərdən əsirgəmir.

Üçüncü bir məqam birbaşa sizin uğurlarınızın rəhni olacaq sevgi hissləridir. Sizlərə aşağıdakı sehrli üçbucağı təqdim

edəcəyik. Əgər bu üçbucağa əməl etsəniz müəllimlik həyatınız, həqiqətən də, mənalı, maraqlı və faydalı olacaqdır. Bunu Sizə həmin sehrli üçbucağı sınaqdan çıxaran, bəhrəsini görən və 30 ildən artıq iş təcrübəsi olan müəlliminiz deyir. Əgər Sizdə səmimiyyət, üstəgəl bu sehrli üçbucaqdakı keyfiyyətlər olacaqsa,

**Sənətinə**




**Şagirdlərinə** **Vətəninə**

onda Siz həmişə bir günəş kimi yetirmələrinizin yoluna nur salacaq, özünüzü daima bəxtəvər hesab edəcək, sənətinizdən zövq alacaqsınız. Bu yolda uğurlar daim Sizinlə olacaq.

Ürəyini, onun hərarətini, gözünün nurunu şagirdlərinə təmənnasız olaraq bəxş edən müəllimlər ən bəxtəvər insanlardır. Bu sənətin arxasında dayanan hər bir insan yaxşı bilir ki, müəllimlikdə də şairlikdə olduğu kimi istedad gərəkdir. Şairlərdə istedad anadangəlmə, fitri olur. Tutaq ki, sənin istedadın yoxdur və yazıb-yarada bilmirsən. Amma sənətində sevgi və səmimiyyətin varsa, deməli, bu istedad artıq sənin qanındadır.

Uşaqlar, uşaq dünyası sirli, sehrli, saf və müqəddəs bir dünyadır. Bu dünyanın qapıların hər müəllimin üzünə açıla bilməz. Bu qapıdan içəri daxil olmaq da hər bir müəllimə müyəssər olan iş deyildir. Bu qapıdan zorla, təhdidlə içəri daxil olmaq qətiyyən mümkün deyil. Onun açarı, sehrli açarı yalnız SƏMİMİYYƏTDİR. Həmin səmimiyyəti isə SEVGİ yaradır. Bu iki amil BİLİK, SAVADla birləşdikdə hər şey öz yerini tutur. Siz belə bir duyğulara sahib çıxsanız, onda bir müəllim kimi alnıaçıq yaşamağın nə olduğunu çox gözəl hiss edəcəksiniz. Şair uşaqların dilindən necə də gözəl ifadə edir:

Ey sevimli müəllim,



Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə,
Sənin meyvələrin var.
Əkdiyin ağacların,
Gülü, çiçəyi solmaz,
Dünyada Sənin kimi,
Varlı bağban tapılmaz!...

Müəllimin səmimiyyəti uşaq dünyasının qapılarını onun üzünə taybatay açır. Belə bir müəllimi şagirdlər çox sevir, onun hər bir sözünü çox böyük məhəbbətlə qəbul edirlər. Müdrik Caviddəki məktəbli qız obrazını göz önünə gətirin.

-Yavrum, qızım! Adın nədir?
- Gülbahar.
- Pəki, sənin annan, baban, varmı?
- Var.
- Nasıl, zənginmidir baban?
- Əvət, zəngin, bəyzadə...
- Öylə isə geydiyin neçin böylə sadə?
Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma…
- Var, əfəndim, var… lakin,
Müəlliməm hər gün söylər: "Onların yox qiyməti,
Bir qızın ancaq bilikdir, təmizlikdir zinəti".
- Pək doğru söz…
Bu dünyada sənin ən çox sevdiyin
Kimdir, quzum, söylermisin?
-Ən çox sevdiyim, ilkin,
O allah ki, yeri, göyü, insanları xəlq eylər.
- Sonra kimlər?
- Sonra onun göndərdiyi elçilər...
- Başqa sevdiklərin nasıl, yoxmu?
- Var…
- Kimdir onlar?
-Annam, babam, müəlliməm, bir də bütün insanlar.

Bu şeir parçalarında təsvir olunan obraz Sizlərsiniz, əziz gənc müəllimlər! Unutmayın ki, o saf tarlada – uşaq dünyasında nə əkəcəksinizsə, cəmiyyətimiz, dövlətimiz də onu biçəcək.

Etiraf edək ki, bugünkü şagirdi, sinfi idarə etmək nəinki 20-30 il, elə 3-5 il əvvəlkilərdən də qat-qat çətindir. Deməli, bu günün müəllimi üçün iş prosesində, dərslərdə şagirdlərlə işləmək qaydalarına bələd olmaq da vacibdir. Siz özünüzdə yaxşı bilirsiniz ki, bu iş müəllimdən böyük bir məsuliyyət tələb edir. Şagirdlər daha şahmat fiqurları kimi deyil ki, onları istənilən yerə qoyasınız, o da orda dura. Artıq təlimdə subyekt+obyekt münasibətləri deyil, subyekt+subyekt münasibətləri bərqərar olmalıdır. Onlar bərabərhüquqlu tərəfdaş kimi təlim prosesində fəal işgörənə çevrilməlidirlər. Məhz buna görə də hazırda avtoritar üslubdan demokratik üsluba keçmək, ona yiyələnmək bacarığı ən vacib tələblər sırasında durmaqdadır. İndiki müəllimi sələflərindən fərqləndirən keyfiyyətlərdən biri də elə budur.

Müəllimi daha həqiqəti sinfə gətirmək əvəzinə onu tapmağın yolunu göstərir. Disterveq vaxtilə bunu belə ifadə etmişdi: Pis müəllim həqiqəti sinfə gətirər, yaxşı müəllim isə onu tapmağın yolunu göstərər.

Yeni kursun mahiyyəti də ondadır ki, müəllim bilikləri şagirdlərinə hazır şəkildə verməkdənsə, onlara bələdçilik edir. İşi elə təşkil edir ki, hər şeyi şagirdin özü araşdırsın, özü tapıb ortaya qoysun və bu "kəşfi" ilə qürur duysun.

Elmi ədəbiyyatda müəllimin bu cür vəzifə tutması "bələdçilik"(fasilitator) kimi adlandırılır. Bu sözün əsl anlamı "asanlaşdıran", "yüngülləşdirən" deməkdir. Pedaqoji ədəbiyyatda bunu bələdçi kimi ifadə edirlər. Bunu o cür də qəbul etmək olar. Hal-hazırda müəllim, ancaq yolgöstərən rolunu öz üzərinə götürür, şagirdinə isə müstəqil araşdırmalar aparmaq, fikir mübadiləsi etmək, düzgün qərarlar qəbul etmək fürsətini verir.

Müəllimin bələdçi (fasilitator) mövqeyində dayanması üçün bir sıra vacib qaydalara riayət etməsi gərəkdir. Həmin qaydalar elmi ədəbiyyatda belə qruplaşdırılır:



1. Psixoloji dəstəkləmə qaydaları,
2. Fikrin təhrik edilməsi qaydaları,
3. Məlumatla təmin etmə qaydaları,
4. Təşkilati dəstəkləmənin qaydaları. [28]

Fəal(interaktiv) dərslərdə müəllim bu qaydalara riayət etməlidir. Həmin qaydalarla diqqətlə tanış olmaq və iş prosesində onlara əməl etmək gərəkdir. Sizin hər biriniz mühazirə və seminar məşğələlərində bu qaydaların necə yerinə yetirilməsi gedişi ilə əyani şəkildə tanış olmuşsunuz. Ona görə də dərs prosesində onlara riayət etmək sizə bir o qədər də çətin gəlməyəcəkdir. Gəlin həmin bələdçilik qaydaları ilə tanış olaq.

**I. Psixoloji dəstəkləmənin qaydaları:**

1. Müsbət dil ifadələrindən istifadə edin, müzakirədə və qrup işində iştirak etmələrinə görə iştirakçılara öz minnətdarlığınızı bildirin (pozitiv münasibət və hörmət).

2. Danışanlara diqqətlə qulaq asın. Hər bir iştirakçıya öz fikrini söyləməyə imkan yaradın. Qrupun yalnız yüksəkdən danışan iştirakçılarını dinləməyinizi yox, bütün qrupun iştirakçılarını diqqətlə dinləməyə hazır olduğunuzu nümayiş etdirin ("fəal dinləmə" vərdişi).

3. İştirakçılarla birlikdə işləyib hazırladığınız qaydalara riayət edin. Unutmayın ki, treninq(dərs) zamanı Siz davranış nümunəsi kimi çıxış edirsiniz (təlimçi – müəllim davranış modeli kimi).

4. İştirakçılara adları ilə müraciət edin və onların gözlərinə baxın (fərdi yönəlmə).

5. Konstruktivliyi dəstəkləyin, qarşıdurmaya şərait yaratmayın.

6. İştirakçıların fikirləri ilə səmimi maraqlanın.

7. Yalnız liderlərin və ən fəalların deyil, bütün iştirakçıların nöqteyi-nəzərinə eyni dərəcədə diqqətlə yanaşın.

[28] Bax: Veysova Z., Fəal(interaktiv) təlim, müəllim üçün vəsait, Bakı 2007.

8. Hər hansı bir fikrin qiymətləndirilməsində məzəmmət və lovğalığa imkan verməyin. Lazımsız olaraq qrupun işini qiymətləndirməyin. Müəllimin - təlimçinin qiyməti onun şəxsi fikrini əks etdirməməlidir və qiymətləndirmə üçün yox, fasilitasiya üçün bir vasitə olmalıdır! O, iştirakçıların fikirləri ilə razı olmadıqda, bunu onlarla müzakirə etməyi təklif etməlidir. Lakin təlimçi işi mütləq qiymətləndirməli olduqda, o, bunu meyarlar əsasında həyata keçirməlidir

**II. Fikrin təhrik edilməsi qaydaları:**

1.Motivasiya mərhələsində şagirdləri dərsin mövzusunun müəyyənləşdirilməsinə cəlb edin.

2. Dərsə şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürü və elmi-tədqiqat vərdişlərini inkişaf etdirən tapşırıqları daxil edin.

3. Qapalı suallardansa, açıq suallardan daha çox istifadə edin. Qapalı suallar – "Siz bunu bilirsinizmi?", "Nə?", "Harada?" , "Nə vaxt?". Bu cur suallara yalnız bir konkret cavab almaq olar: "Hə" və ya "Yox" . Açıq suallar bir yox, bir neçə mümkün cavabı nəzərdə tutur. Çalışın sualları "Nə üçün?", "Nəyə görə?", "Hansı yolla?", "Necə?" və s. sözlərlə başlayın. Açıq sualların nümunəsi: " …haqqında nə bilirsiniz?", "Nə üçün bu haqda daha çox bilmək istərdiniz?", "Bu necə baş verir?"

4. İştirakçılar tərəfindən ifadə olunan fikirləri anlamağa çalışın və öyrəndiyiniz, oxuduğunuz, yaratdığınız fikirləri zorla qəbul etdirməyin.

5. Fasilitasiya zamanı konkret misallardan, müqayisə və qarşılaşdırma, analogiya üsullarından istifadə edin. İstiqamət verməyən "kar" sualları az sayda verməyə çalışın.

6. Mənaca yaxın olan yönəldici suallardan istifadə edin, lakin bilavasitə yönəldici suallardan istifadə etməyin. Həmçinin, əvvəlcədən şübhəli fikirdən ibarət olan çaşdırıcı suallardan istifadə edə bilərsiniz. Bu suallar iştirakçıları sizin fikirlərinizi təkzib etməyə təhrik edəcək və onu lazım olan istiqamətə yönəldəcək.



7. İştirakçının deyə biləcəyi sözü və ya fikri onun əvəzinə ifadə etməyin. Mətndə əsas fikri müəyyən etmək və onu öz sözləri ilə ifadə, ümumiləşdirmə, öz fikrini ifadə və yenidən ifadə etmə bacarığı üzərində işləyin. İştirakçıları öz fikirlərini daha dəqiq ifadə etməyə təhrik edin və onlara köməklik göstərin. Bunun üçün sərf etdiyiniz vaxta təəssüflənməyin! Bu prosesi nümayiş etdirin və iştirakçıların diqqətini buna cəlb edin!

8. İştirakçıların əvəzinə onların məhsulunu izah etməyin, hər bir iştirakçıya digər iştirakçıların işinə öz fikir və münasibətlərini ifadə etməyə imkan yaradın.

9. İştirakçıların cavablarının formal dinlənilməsinə yol verməyin. İştirakçıların əsas fikirlərini ümumiləşdirib, digərlərini onların şüuruna çatdırmaq lazımdır.

10. Fasilitasiya zamanı iştirakçıların cavablarını dəqiqləşdirin, şərh edin (qiymətsiz, məzmununa görə), problemli hallarda onların həllinə iştirakçıları cəlb edin.

**III. Məlumatla təmin etmə qaydaları:**

1. Fasilitasiyanı başlamaq ərəfəsində şagirdlərdə lazımi biliklərin və sizdə məlumat mənbələrinin olduğunu yoxlayın.

2. İştirakçıların şüurunda dərsin dəqiq "şəklini" formalaşdırın.

3. Dərsdə təkcə dərslikdə olan materialdan yox, həm də müxtəlif sənədlər, məlumat ədəbiyyatı, iştirakçıların öz təcrübə və müşahidələrindən istifadə edin.

4. Materialın müxtəlif qavrama yollarını tətbiq edin (görmə, eşitmə, hiss etmə və s.).

5. Sual və cavabları mümkün qədər qısa, lakonik və şagirdlərin səviyyəsinə uyğun söyləyin.

6. Başqa şagirdlər tərəfindən deyilən yeni anlayışların, eləcə də sualın və ya mülahizələrin yanlış anlaşılmasını vaxtında başa salın.

7. Şagirdlərə bütün dərs ərzində problemin həlli yolunda əldə etdikləri nailiyyətləri haqqında məlumatı və əks əlaqəni verməyi unutmayın.

**IV. Təşkilati dəstəkləmənin qaydaları:**

1. Müzakirəni təşkil etdikdə yeni bilik əldə etmək üçün hər kəsin fikrinin vacib ola bilməsini bütün şagirdlərə çatdırın. Bunu həyata keçirmək üçün iştirakçıları aşağıdakı suallar vasitəsilə müzakirəyə cəlb edin: "Bu haqda siz nə fikirləşirsiniz?" , "Kim razıdır, kim razı deyil?" , "Başqa cür bunu demək (və ya etmək) olardımı?" və s.

2. Şagirdlərdə öz fəaliyyətlərini planlaşdırmaq və təşkil etmək bacarığını formalaşdırın.

3. Lövhədə və ya kağız üzərində qrup işi zamanı müəyyən edilən əsas halları qeyd etmək məqsədəuyğundur. Unutmayın ki, qrup işinin nəticələri sonrakı mərhələdə məlumatın müzakirəsi və təşkili üçün lazımdır ("körpülərin" quraşdırılması).

4. Öz razılığını və ya narazılığını ifadə etmək üçün şagirdlərə xüsusi işarələr təklif edin (məsələn, baş barmağın yuxarı və ya aşağı vəziyyəti) və onlarla müzakirə zamanı əks əlaqəni verməyə təhrik edin.

5. Destruksiya(destruksiya *pozuculuq*, konstruksiya isə onun əksini bildirir, yəni *qurmaq* mənasında işlənir) cəhdlərinin, artıq danışmağın, qeyri-adekvat və ya məqsədəuyğun olmayan söhbətlərin qarşısını alın. Bunun üçün iştirakçını mədəni surətdə dayandıraraq, ona öz fikirlərini qısa və məzmuna uyğun çatdırmaq qaydasını xatırladın. Diskussiyanın lideri olun!



## ƏDƏBİYYAT DƏRSLƏRİNİN NÖVLƏRİ METODBİRLƏŞMƏLƏR

Ədəbiyyat kursunun məzmununu əsasən ədəbi əsərlər təşkil edir. ədəbiyyat dərsinin növlərindən danışanda istər-istəməz öncə bu materialların tədrisinə həsr olunan dərslərə nəzər salmalıyıq.

**Ədəbi əsərlərin öyrədilməsinə həsr olunan dərslər.** Ədəbi əsərlərin seçilib proqrama daxil edilməsində bir çox amillər nəzərə alınır. Onlardan biri də ədəbiyyatdan təlim nəticələrinin əldə olunmasına və məzmun standartlarının reallaşdırılmasına xidmət etmək baxımından ədəbi əsərlərin verdiyi imkanların nəzərə alınmasıdır. Bu rəsmi tələbdir və dərslik siyasəti ilə bağlı rəsmi sənəddə bununla bağlı konkret göstərişlər də verilmişdir.

Təlim nəticələrinə və standartların məzmununa əsasən sinfidən-sinfə təqdim olunan əsərlərdə, onların qaldırdığı ideyalarda da fərqlər özünü göstərməyə başlayır. Bunu aydın təsəvvür etmək üçün əvvəlcə müxtəlif siniflər üzrə standartların təqdim etdiyi janrları nəzərdən keçirək:

V sinifdə:

- Heca vəznli şeirlər və sadə süjetli bədii nümunələr - əfsanə, nağıl, təmsil, hekayə.

VI sinifdə:

- Heca vəznli şeirlər və süjetli bədii nümunələr - əfsanə, nağıl, dastan, təmsil, hekayə.

VII sinifdə:

- Heca vəznli şeirlər və süjetli bədii nümunələr - dastan, hekayə, mənzum hekayə.

VIII sinifdə:

- Müxtəlif vəznli (heca, əruz) şeirlər və süjetli əsərlərdə - dastan, hekayə, novella, dram, poema.

IX sinifdə:

- Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlər və süjetli əsərlərdə - poema, hekayə, povest, roman, dram.

X sinifdə:

- Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlər və süjetli əsərlər - dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə.

Göründüyü kimi, şeirlər və əfsanə, nağıl, təmsil və hekayə ilə tanışlıq V sinifdə dərinləşdirilir. Bu siniflərdə həm janrların forma xüsusiyyətləri, həm də standartların nəzərdə tutduğu işlər yerinə yetirilməlidir.VI sinifdə dastanlar işə qoşulur. Onun forma elementləri də bu sinifdə şagirdlərə təqdim olunur. VII sinifdə mənzum hekayə, əruz vəzni, VIII sinifdə əlavə olaraq novella, dram, poema, IX sinifdə povest, X sinifdə komediya, faciə ilə şagirdlərin tanış edilməsi nəzərdə tutulmuşdur.

Standartların məzmunundan o aydın olur ki, V-XI siniflərdə ədəbiyyat fənninin əsas obyekti bədii əsərlərdir. "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xətti əsərlərin öyrədilməsi zamanı iki əsas standart ətrafında işlərin görülməsini tələb edir. Bunlardan birincisi (1.1.) "Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir", ikincisi isə (1.2.) "Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir" adlanır. Bu məzmunlardan göründüyü kimi bədii mətnlər üzərində işi iki istiqamətdə aparmaq lazım gəlir: əsərin məzmununun öyrədilməsi, əsərin təhlilinin həyata keçirilməsi.

Əsərin məzmunun öyrədilməsi zamanı görülən işlə təhlilinin aparılması zamanı aparılacaq işin məzmunu eyni ola bilməz. Məhz buna görə də əsas standartların tərkibindəki alt-standartlar öz başlıqlarına uyğun işləri yerinə yetirirlər. Ədəbiyyat dərslərinin növlərindən danışılanda bu iki nəzərə alınmalıdır. Onda aşağıdakı dərs növləri yaranmış olur:

*1. Ədəbi əsərlərin məzmununun öyrədilməsinə həsr olunan dərslər.* Bu dərslər şagirdlərə ədəbi əsərin məzmununu



öyrədilməsi işini şagirdlərdə məzmunun mənimsənildiyini nümayiş etdirən bacarıqları aşılayır. Həmin bacarıqlara nələrin daxil olması isə alt-standartların məzmununda ifadə olunmuşdur. Əsərin həcmi böyük olarsa, onun tədrisinə 2 saat vaxt ayrılarsa, onda birinci dərs saatında məzmun, ikinci dərs saatında isə təhlil işləri həyata keçirilməlidir. Əgər əsərin tədrisinə 3 saat vaxt verilmişdirsə, onda iki saat məzmun üzərində işə, bir saat isə təhlil işlərinə həsr olunmalıdır.

Məzmununa 2 saat ayrılacaq dərslərdə fasiləli oxu üsulunun tətbiqi daha məqsədəuyğundur. Bəzən müəllimlər əsərin birinci dərs saatında məzmun işlərini sinifdə aparır, əsərin qalan hissələrini isə evdə oxumağı tövsiyə edirlər. Bu düzgün yol deyildir. Mətnlərin sinifdə səsləndirilməsi olduqca vacibdir. Müəllimlər əsasən orada çətinlik çəkirlər ki, fasiləli oxu ilə bir dərs saatında o boyda mətni səsləndirmək və digər işləri yerinə yetirmək olmur, vaxt çatmır. Onlar haqlıdırlar. Amma çox sadə və aydın çıxış yolu vardır. Bunun üçün müəllim əvvəlcədən dəqiq müəyyən etməlidir ki, oxuya təxminən neçə dəqiqə vaxt ayıracaq, sonra həmin müddət ərzində sinifdə nə qədər səhifənin oxunması mümkün olacaq. Əsərin fasiləli oxusu üçün təxminən 10 dəqiqənin ayrılması məqsədəuyğundur. Əgər birinci dərs üçün öyrəniləcək əsərin həcmi 6-7 səhifəyə qədərdirsə və ondan 4 səhifəni oxumaq mümkündürsə, onda müəllim əvvəlki iki səhifənin yığcam, qısa məzmununu danışmalı, qalan səhifələrin fasiləli oxusunu həyat keçirməlidir. Eyni iş ikinci dərs saatında da davam etdirilməlidir.

Əsərin həcmi daha böyük olanda, ona iki dərs saatı ayrılanda ev oxusuna bu halda müraciət oluna bilər: əsəri həcminə görə təxminən 4 hissə bölürük: 1, 2, 3, 4. Birinci dərsdə 1-ci hissənin oxusunu yuxarıdakı qaydada aparırıq, 2-ci hissəni evdə oxumağı tapşırırıq, 3-cü hissəni sinifdə oxuyuruq, 4-cü hissəni evdə oxumağa tapşırırıq. Unutmayaq ki, nəsr əsərlərinin tədrisində fasiləli oxu bitəndən sonra digər dərs mərhələləri üzrə işlər davam etdirilməlidir. İşin sırasının motivasiya, fasiləli oxu,

tədqiqatın aparılması, məlumat mübadiləsi, məlumatların müzakirəsi və təşkili(qruplaşdırılması), nəticənin çıxarılması və nəhayət yaradıcı tətbiqetmə və qiymətləndirmə kimi olması məqsədəuyğundur.

Məzmunun öyrənilməsinə həs olunan dərslər yeni bilik verən dərslər sayılır. Onlara induktiv dərslər deyilir.

*2. Ədəbi əsərlərin əhlilinə həsr olunan dərslər.* Bu cür dərslərdə 1.2. əsas standartının tələbələri yerinə yetirilir. Adətən təhlil dərslərinə 1 saat vaxt ayrılır. Dərsin qurulması ya müzakirə, yada tədqiqat yolu ilə aparıla bilər. Bu dərslər möhkəmlətmə, tətbiq xarakteri daşıdığından onlara deduktiv dərslər deyilir.

*3. Ədəbi əsərlərin məzmun və təhlilinin birlikdə öyrənilməsinə həsr edilən dərslər.* Şeirlərin bir çoxu dil baxımdan sadə və həcmcə yığcam olduqlarına görə onların öyrənilməsinə həsr olunan dərslərdə məzmun və təhlil işləri(məzmun (1.1.) və təhlillə(1.2.) bağlı əsas standartlarının tələbləri) birgə icra olunur. Adətən belə əsərlərin tədrisinə bir saat vaxt ayrılır. Belə dərslərə qovuşuq, qarışıq tipli dərs demək olar. Bunlarda yeni bilik verilməsi də, biliklərin tətbiqi də həyata keçirilir(Həm induktivlik, həm də deduktivlik).

**Ədəbiyyat nəzəriyyəsi materiallarının öyrədilməsi.** Ədəbiyyat fənni üzrə ədəbi əsərləri ədəbi-nəzəri məlumatlar müşayiət edir. Həmin məlumatlara ədəbi janrlar, bədii təsvir və ifadə vasitələri barəsində təqdim olunan şərhləri daxil etmək olar. Buradan da ədəbiyyat nəzəriyyəsinə dair məlumatların verilməsi zərurəti ortaya çıxır. Dərslik və standartlar bunun üçün ədəbiyyat nəzəriyyəsinə dair təqdim olunan məlumatları ayrıca dərs növü kimi tədrisə gətirilməsini vacib hesab etmir.

Janrlarla bağlı ədəbi-nəzəri məlumatlar təhlil dərslərində nəzərdən keçirilir. Amma təsvir və ifadə vasitələri ilə bağlı həm məzmun, həm də təhlil dərslərində şagirdlərin müstəqil işləri təşkil olunur. Məzmun dərslərində onların ancaq müəyyən



olunması, təhlil dərslərində isə rolunun aydınlaşdırılması bir tələb kimi irəli sürülür.

Bu cür material üzərin işlər

a) əsərin tədrisi prosesində,

b) əsərin təhlili başa çatdıqdan sonra aparıla bilər.

Alt-standartlarda əksini tapan bədii təsvir və ifadə vasitələrini siniflər üzrə diqqətinizə çatdırırıq:

V sinifdə: *epitet, təşbeh.*

VI sinifdə: *epitet, təşbeh, mübaliğə, bədii sual*.

VII sinifdə: *epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota.*

VIII sinifdə: *metafora, bədii təzad, kinayə*.

IX sinifdə: *metonimiya, inversiya, simvol*

X sinifdə: *epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya.*

XI sinifdə: *epitet, bənzətmə, metafora, metonimiya, sineqdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya*.

Bir qədər əvvəldə qeyd etdiyimiz ədəbi növ və janrlar barəsində məlumatları da bu materialların yanında hesab etsək, onların nə qədər əhatəli olduğunu görərik.

Yeni kursun tələbinə uyğun olaraq standartlarda nəzərdə tutulan məsələlər barəsində dərslərdə məlumatların verilməsi deyil, bu və ya digər nəzəri məsələnin müşahidə olunması, rolunun aydınlaşdırılması əsas vəzifə kimi şagirdlərin qarşısına qoyulur.

**İcmal materiallarının öyrədilməsi**. Ədəbiyyat kursunda əhatə olunan materiallardan bir qimi də ***giriş, ədəbi-tarixi və sənətkarın həyatı, yaradıcılıq yolu*** başlığı altında təqdim olunan icmallardır.

***Giriş*** mövzuları kursun başlanğıcında özünü göstərir. Kursa bələdçilik edir. Bu cür mövzuların tədrisi üçün 1 saat vaxt ayrılır.

***Ədəbi-tarixi icmallar*** yeni kursda VIII-IX sinifdən dərsliyə daxil edilmişdir. Həmin siniflərdə onun tədrisinə vaxt ayrılmamışdır. Tanışlıq xarakterlidir və başlıq altında təqdim olunan əsərlərin öyrənilməsinə, məzmununun, ideya-bədii xüsusiyyətlərinin düzgün dərk olunmasına bir bələdçilik edir.

Bu mövzuların da əsas cəhəti orasındadır ki, bir neçə əsrlik dövrün ədəbi-mədəni xülasəsini şagirdlərə təqdim edir. Bu zaman bəzən elə olur ki, bir neçə əsrlik tarixi və ədəbi-mədəni mühit əhatə olunur, 5-6 sənətkar barəsində məlumatlarla şagirdlərin tanış etdirilməsi nəzərdə tutulur. X-XI siniflərdə layihə formasında(dərslikdə bu söz nisbi mənada işlənib – F.Y.) tədrisinə bir saat vaxt ayrılır

Həmin siniflərdə təqdim olunan ***sənətkarın həyatı, yaradıcılıq yolu*** materialları da icmal xarakterlidir. Onun məzmununda tərcümeyi-hal və sənətkar yaradıcılığının ümumi mənzərəsi əks olunmuşdur. Bu cür mövzuların tədrisi üçün 1 saat vaxt ayrılmışdır. Standartlarda belə bir məlumat verilməsi nəzərdə tutulmasa da, biz də bunların dərsliklərdə olmasını vacib hesab edirik.

**Ədəbiyyat dərslərində şifahi və yazılı nitqin inkişafı.**

Ədəbiyyat dərslərində şagirdlərin ***şifahi və yazılı nitqinin inkişaf etdirilməsi*** bu gün ən vacib tələblərdən biri kimi qarşıya qoyulmuşdur. Ədəbi əsərlərin öyrənilməsinə həsr olunan dərslərdə nəzərdə tutulacaq 3 işdən ikisi – şifahi nitq və yazılı nitq məzmun xətlərində əhatə olunmuşdur. Hər bir dərs bu məzmun xətləri üzrə alt-standartların reallaşdırılmasını mütləq mənada diqqətdə saxlamalıdır. Dərsin təlim nəticələrində şifahi və yazılı nitq məzmun xətlərindən uyğun gələn alt-standartlar da əks olunmalıdır. Bunu fəndaxili inteqrasiya da bu cür tələb edir. Hər bir dərsdə şagirdlərin nitqinin inkişaf etdirilməsi, ünsiyyət bacarıqlarının formalaşdırılması müəllimin diqqətində olmalıdır.



Ənənəvi kursun XI sinfində isə *giriş, icmal materialları, sənətkarın həyatı, sənətkarın yaradıcılığının ümumi mənzərəsi, konkret bir bədii əsəri* proqrama salınmışdır.

*Ənənəvi kursda* hər bir materialın öyrədilməsi üçün ümumi qaydalar var idi. Proqram materialları qruplaşdırılır və onların hər birinin öyrənilməsinə həsr olunan dərs tipləri yaranırdı. Bu dərslər belə adlanırdı:

1. Ədəbi əsərlərin öyrədilməsinə həsr olunan dərslər *(yeni kursda forma qalır, öyrədilməsi yolları tamamilə dəyişir),*
2. Tərcümeyi-hala materiallarının öyrədilməsinə həsr olunan dərslər *(yeni kurs layihə formasında sənətkarın həyatı, yaradıcılıq yolu adı altında X-XI sinifdə təqdim edir, tədrisinə 1 saat vaxt ayırır. Öyrədilməsi forması dəyişir),*
3. İcmal materiallarının öyrədilməsi dərsləri *(yeni kurs layihə formasında bu tipli materialları təqdim edir, tədrisinə 1 saat vaxt ayırır. Öyrədilməsi forması dəyişir).*
4. Ədəbiyyat nəzəriyyəsi materiallarının öyrədilməsi dərsləri *(yeni kursda ayrıca nəzərdən keçirilmir, dərs prosesində müstəqil işlər formasında icra olunur),*
5. Nitq inkişafına həsr olunan dərslər (*yeni kursda bu iş ayrıca nəzərdən keçirilmir, hər bir dərsdə bu işlər icra olunur).*

Bu dərslərin necə olmasına dair yanında verilən qeydlərə nəzər salın.

Ənənəvi kursda 5 dərs növü ortaya çıxırdı. İndi biz o qədər dərs növünü ortaya çıxarmağa bir zərurət görmürük. Çünki yeni kursda mövzuların tədrisi tədqiqat və möhkəmlətmə xarakteri daşıdığından **ədəbiyyat dərslərinin** aşağıdakı **növləri** ortaya çıxır.

Materialların xarakterinin, məzmununun nə olmasından asılı olmayaraq bu dərs növləri keçərli sayılır.

Siz proqram materialları kimi, ədəbiyyat dərslərinin də bir-birilərinə bənzəməyəcəyi fikrinə şərik çıxacaqsınız. Onda deyilənləri ümumiləşdirərək proqram materiallarının məzmununa uyğun olaraq ədəbiyyat dərslərinin növlərini aşağıda qeyd edək:

1. **İnduktiv** (yeni bilik və bacarıqları verən dərslər),

2. **Deduktiv**(bilik və bacarıqların tətbiqini, möhkəmləndirilməsini həyata keçirən dərslər),

3. Məzmun və təhlil işlərini birgə həyata keçirən **qovuşuq tipli dərslər**.

Fəal(interaktiv) dərslərdə proqram materiallarını məzmunu dərsin növünü yaratmır. Əsas məsələ yeni bilik və bacarıqların formalaşdırılması və ya möhkəmləndirilməsi ilə bağlıdır.

Yeni bilik verən dərslər(induktiv) fəal(interaktiv) dərslərin bütün mərhələlərini özündə cəmləşdirir. İcmal mövzuları, ədəbi əsərlərin məzmunu üzərində işlər bu formalı dərslər üzərində qurulur.

Möhkəmləndirmə(tətbiq) dərsləri –deduktiv dərslər isə həm 7 mərhələli, həm də bir neçə mərhələli ola bilər. Bu formalı dərslər isə təhlil dərslərində, tətbiq dərslərində istifadə olunur. Bu seçim müəllimin özündən asılıdır. Bir neçə mərhələli dərslər daha çox müzakirə formasında həyata keçirilir.

Fəal(interaktiv) təlim formasında keçilən dərslər birbaşa elmi-tədqiqat işinin aparılmasını xatırladır. Yəni problem qoyulur, onun həllinə dair ilkin fərziyyələr irəli sürülür, sonra həmin fərziyyələri yoxlamaq üçün tədqiqatlar aparılır, tədqiqatların nəticələri işçi vərəqlərində qeyd olunur və sinfə təqdim olunur, ilkin fərziyyələrlə müqayisə edilir və nələrin dəqiqləşdirildiyi barədə hesabat verilir. Bir fərqi vardır ki, bu tədqiqatlar fərdi xarakterli deyildir. Burada problemin araşdırılmasında kiçik qruplar iştirak edir.



**Metodbirləşmələr**

Başlıca vəzifəsi müəllimlərə metodik yardım göstərməkdir. Onun məktəbdaxili, məktəblərarası və rayon üzrə formaları vardır. Məktəbdaxili metodbirləşmə ən azı üç nəfər ixtisas müəllimi olduqda yaradılır. Müəllimlərin sayı üçdən az olduqda fənbirləşmələrini yaratmaq lazım gəlir. Burada iş planı tərtib olunur və həftədə bir dəfə iclasları keçirilir. İş planı məktəb rəhbərliyi tərəfində təsdiq olunur. İş planının məzmununa aşağıdakı məsələlər daxil edilir:

1. Təqvim-tematik(yarımillik) planların tərtibi, müzakirə və təsdiqi
2. Açıq dərslərin qrafikinin tərtibi və təsdiqi
3. İş təcrübələrinin öyrənilməsi və yayılması
4. Metodiki yeniliklərlə müəllimlərin tanış edilməsi
5. Elmi-metodik seminarların, konfransların keçirilməsi

---

**?!**

1. **Ədəbiyyat dərslərinin tipləri nələri əhatə edir?**
2. **Onların məzmunu barəsində nə deyə bilərsiniz?**
3. **Ədəbiyyat dərslərinin tiplərinin yaranması səbəbi barəsində nə deyə bilərsiniz?**
4. **Metodbirləşmə nədir və necə fəaliyyət göstərir?**

## İCMAL MATERİALLARININ ÖYRƏDİLMƏSİ

Ədəbiyyat fənninin məzmununa daxil olan materiallardan bir qismini də icmal mövzuları təşkil edır. Bir qədər əvvəl barəsində müəyyən qədər təsəvvür əldə etmişdiniz.

İcmal mövzuları tutduqları yerdən asılı olmayaraq geniş təlim-tərbiyə imkanlarına malikdirlər. Onlar ya kursun başlanğıcında onun məzmununa dair ümumi təsəvvür verir, ya geniş şəkildə öyrəniləcək hər hansı bir əsərin daha düzgün anlaşılmasına imkan yaradır, ya da bir neçə əsrlik ədəbi-mədəni nailiyyətlərimizi xülasə etməklə növbəti mövzuya - tək-tək öyrəniləcək sənətkarların lazımi səviyyədə dərk olunmasına bir bələdçilik edir.

İcmal mövzuları məclislərdə səslənən ilk sözü xatırladır. O ilk sözü ki, o söz danışan şəxsin özü barəsində, danışdığı məsələ barəsində iştirakçılarda müəyyən təsəvvür yaradır. Həmin şəxsin ətraf tərəfindən tanınması taleyini həll edir. Görünəni budur ki, bu ilk sözün məsuliyyəti olduqca böyükdür. Bunu biz giriş sözü kimi də qəbul edə bilərik. Həmin giriş sözü necəliyindən əsl mətləbin taleyi asılı olur. Ədəbiyyatımızda da belədir. Kursun, fəslin, növbəti mövzuların keyfiyyətli mənimsənilməsi işi bu giriş sözünün sanbalından əməllicə asılıdır. Eynşteyndən soruşulanda ki, Siz ən çox nədə çətinlik çəkirsiniz? Cavabı belə olmuşdu: auditoriyaya giriş sözü söyləməkdə.

Həmin sözlərə fikir verin. Düşünün ki, giriş sözü məhz bu icmal mövzularıdır. O ya şagirdləri ədəbiyyat aləminə daxil edir(kursa giriş mövzuları məhz belədir), ya sənətkarın söz dünyası ilə şagirdləri tanış edir, onları ayrıca öyrəniləcək əsərin düzgün dərk olunmasına yönəldir(sənətkarın yaradıcılığının ümumi mənzərəsini verir), ya da bir neçə əsrlik dövrün ədəbi-mədəni mənzərəsini verməklə, həmən zaman hüdudlarında tariximizi, ədəbi-mədəni nailiyyətlərimizi xülasə etməklə



konkret bir sənətkarımızı daha düzgün başa düşməyə imkan yardır.

İcmal sözünün mənasında *qısa surətdə, müxtəsər, yekunlaşdırma* və *konspekt* anlamları vardır.[29]

**İcmal** mövzuları öz məzmunu və formasına görə mövzuya, bölməyə, kursa bələdçilik edir.

Metodik ədəbiyyatda bunun üç növü fərqləndirilir:

**a) giriş** səciyyəli(yeni kursda da vardır),

**b) tarixi-ədəbi** (yeni kursda VIII-XI siniflərdə verilmişdir,

**c) sənətkarın yaradıcılığının ümumi mənzərəsini** əks etdirən icmallar(yeni kursda X-XI siniflərdə **"sənətkarın həyatı, yaradıcılıq yolu"** kimi təqdim olunur).

**Giriş** mövzularını tədris edərkən dərslikdəki məlumata nəzər salmaq lazımdır. Bu mövzuların tədrisində şifahi və yazılı nitq məzmun xətlərindən müəyyən standartların seçilməsi və reallaşdırılması mümkündür. Bu mövzular, onların məzmunu şagirdlərin mənəviyyatına, dünyagörüşünə, dövlətçilik, azərbaycançılıq duyğularının inkişaf etdirilməsinə tutarlı töhfələr verir. Bunu bir an da olsa unutmamalıyıq. Həmin mövzuları da *induktiv* dərslər formasında keçmək məqsədəuyğun olardı.

**Tarixi-ədəbi səciyyəli icmallarda** bir neçə əsrlik dövrün ictimai-siyasi, ədəbi-mədəni xülasəsi ilə yanaşı həmin dövrdə yazıb yaradan sənətkarlar, onların bədii irsi barədə də yığcam söhbət gedir. Ənənəvi kursda 11-ci sinifdə , yeni kursda isə VIII-XI siniflərdə istifadə olunur. Onun əsas vəzifəsi

- ✓ Ədəbiyyat kursunun müxtəlif dövrləri arasında əlaqəni, rabitəni yaratmaq,
- ✓ Ədəbiyyatın inkişaf meyllərini, ənənə və varislik məsələlərini açıb göstərmək,

[29] Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti, B.1981, səh.105

- ✓ Monoqrafik şəkildə öyrəniləcək sənətkarın ədəbiyyat tariximizdəki yerini dolğunluğu ilə təsəvvür etməkdə yardımçı olmaq,
- ✓ Tariximizi mükəmməl şəkildə, digər mənəvi dəyərlərimizlə vəhdət halında şagirdlərimizə sevdirmək,
- ✓ Adı qeyd olunan əsrlərdə ədəbi nailiyyətlərimizi öz yaradıcılığında əks etdirən sənətkarlarımızın bədii irsinin özəllikləri ilə tanış etdirməkdən ibarətdir.

Hazırda ədəbiyyat dərsliklərində əksini tapan belə icmallar:

VIII sinif üzrə:

1. *Qədim və zəngin ədəbiyyatımız(giriş səciyyəli icmal)*
2. *Qədim dövr Azərbaycan ədəbiyyatı(XIII əsrə qədər*)
3. *Orta dövr Azərbaycan ədəbiyyatı (XIII əsrdən XVII əsrə qədər)*
4. *Yeni dövr Azərbaycan ədəbiyyatı.*
   – I mərhələ( *XVII-XVIII əsrlər).*
   – II mərhələ ( *XIX əsr*)
   – III mərhələ.(*XX əsrin əvvəlləri)*

IX sinif üzrə:

1. *Milli-mədəni dirçəliş və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat (1918-1920)*
2. *İctimai-siyasi ziddiyyətlər və repressiya dövründə ədəbiyyat (1920-1940)*
3. *İkinci Dünya müharibəsi dövründə ədəbiyyat (1941–1945)*
4. *Müharibədən sonrakı dövrdə ədəbiyyat (1946–1960)*
5. *Milli özünəqayıdış dövründə ədəbiyyat (1961–1990)*
6. *Müstəqillik illərində ədəbiyyat (1991-ci ildən günümüzə qədər)*

X sinif üzrə:

1. *Söz sənətimiz – mənəvi sərvətimiz..(giriş xarakterli icmal).*
2. *Azərbaycan şifahi xalq ədəbiyyatı (layihə)*
3. *Qədim dövr Azərbaycan ədəbiyyatı (ən qədim zamanlardan XIII əsrə qədər) (layihə)*
4. *Orta dövr Azərbaycan ədəbiyyatı (XIII–XVI əsrlər) (layihə)*
5. *Yeni dövr Azərbaycan ədəbiyyatı. I mərhələ (XVII – XVIII əsrlər) (layihə)*
6. *Yeni dövr Azərbaycan ədəbiyyatı. II mərhələ (XIX əsr)*

Ənənəvi kursda*, XI sinifdə:*

1. *III mərhələ. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı*
2. *Ən yeni dövr Azərbaycan ədəbiyyatı. I mərhələ. XX əsrin 10-cu illərinin sonundan 50-ci illərə qədər Azərbaycan ədəbiyyatı*
3. *II mərhələ. XX əsrin ortalarından bu günə qədər Azərbaycan ədəbiyyatı.*[30]

*Tarixi-ədəbi səciyyəli icmallarda* bir neçə əsrlik dövrün ictimai-siyasi, ədəbi-mədəni xülasəsi ilə yanaşı o dövrdə yaşayıb-yaratmış sənətkarlar barədə söhbət getdiyindən onun tədrisində informasiya bolluğu baxımından müəyyən çətinliklər ortaya çıxa bilər.

VIII-IX siniflərdə bu materiallar tanışlıq xarakteri daşıyır. Sonra keçilən mövzular üçün bir bələdçi rolunu oynayır. Onların tədrisi üçün ayrıca vaxt ayrılmamışdır. VIII sinfin ədəbiyyat dərsliyindən bir nümunəni nəzərdən keçirək:



[30] Cəfərov N. və b. Ədəbiyyat, ümumtəhsil məktəblərinin 11-cu sinfi dərslik, B. 2006, səh.190

QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI

Azərbaycanda ən qədim zamanlarda yaranan ədəbiyyat və mədəniyyət nümunələri sonrakı dövrlərə gəlib çatmamışdır. VII əsrdə Azərbaycanın ərəblər tərəfindən işğal olunması sənətkarlarımızın ərəb dilində yazıb-yaratmalarına səbəb oldu. XI əsrin ortalarından Azərbaycanda farsca yazmaq ənənəsi başlayır. Hökmdarların fars dilinə üstünlük verməsi, bu dildə yazanlara qayğı göstərməsi həmin ənənənin uzun illər davam etməsi ilə nəticələnir. XI yüzillikdə ərəbcə yazan şair və alimlərimiz olsa da, farsca yazanların sayı get-gedə çoxalır və bu yeni ənənə möhkəmlənir. XI–XII əsrlərdə yazılı ədəbiyyat, əsasən, saraylarda yaşayan sənətkarlar tərəfindən yaradılırdı. Onların əsərləri daha çox hökmdarların mədhinə – tərifinə həsr olunurdu. Həmin dövrdə fərqli məzmunda əsərlər də yaranırdı. Təbiətin, saf məhəbbətin tərənnümü, əmək adamlarına, sadə peşə sahiblərinə rəğbət, zəmanə hökmdarlarından narazılıq və s. əks olunduğu əsərlər bu gün də maraqla oxunur.

XI əsrdə Qətran Təbrizi, XII əsrdə Nizami Gəncəvi, Əfzələddin Xaqani, Məhsəti Gəncəvi və digər qüdrətli sənətkarlar yaşayıb-yaratmışlar. Nizami yaradıcılığı bəşəri dəyərlərə əvəzsiz töhfə verən mənbə kimi bütün dünyada qiymətləndirilir. Qədim dövr Azərbaycan ədəbiyyatında misilsiz xalq yaradıcılığı hadisəsi olan "Dədə Qorqud" dünya ədəbiyyatında çox az rast gəlinən möhtəşəm abidələrdəndir. Ulu babalarımızın – oğuz türklərinin bədii düşüncəsinin məhsulu olan "Kitabi-Dədə Qorqud" dastanları ideya-məzmunu, təkrarolunmaz gözəlliyi ilə yüz illərdir dünya alimlərinin diqqət mərkəzindədir.[31]

Materialın məzmunu və həcmi barədə müşahidə aparın. Şagirdlərə növbəti materialların başa düşülməsi işində buradakı məzmun xeyli kömək edir. **Əsas diqqət bu zaman çərçivəsində mövcud olan ədəbi nailiyyətlərin şagirdlər tərəfindən düzgün tutulmasına yönəldilməlidir.**

Yeni kursda(X-XI siniflərdə) müəlliflər bu icmallara layihə xarakteri vermiş(nisbidir, layihə anlayışına uyğun gəlmir –F.Y.) və tədrisi üçün bir saat vaxt ayırmışlar. Oradakı layihə

[31] Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. Ədəbiyyat-8, Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2015, səh.11.



sözü nisbidir. Sizdə bu barədə müəyyən təsəvvür yaratmaq üçün X sinifdən də eyni mövzunun tarixi-ədəbi icmalını təqdim edirik.

QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI[32]

(ən qədim zamanlardan XIII əsrə qədər)

Layihə üzrə araşdırmaya hazırlaşın.

**1. Bu dövrlə bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın.**

**2. Aşağıdakı sualları və onları araşdırmağa istiqamət verən cavabları oxuyun.**

> Türk xalqlarının qədim dövrlərə aid ortaq ədəbiyyat nümunələri hansı xüsusiyyətləri ilə diqqəti cəlb edir?

Qədim dövrlərdə geniş coğrafi ərazidə yayılmış türk xalqlarının ədəbiyyatı ortaq səciyyə daşımış, Azərbaycan ədəbiyyatı ümumtürk ədəbiyyatının tərkib hissəsi kimi yaranmışdır. Qədim dövrlərə getdikcə türk ədəbiyyatları arasında dil, üslub, obraz baxımından ümumiliyin, əlaqənin daha güclü olduğunu görmək olur. Qədim türk bədii düşüncə nümunələrini bizə ilk tanıdan Çin qaynaqlarıdır. Çin dilinə tərcümə olunmuş, eradan əvvəl II əsrə aid nümunələr – şeir parçaları ideya məzmununa görə bugünkü türkü düşündürür, onda həzin, hüznlü ovqatın yaranmasına səbəb olur. Bu parçalarda ifadə olunmuş hiss-düşüncə min il sonra Orxon-Yenisey abidələrində təkrar olunur, türkün öz dilindən eşidilir, türkün öz əlifbasında, yazısında oxunur.

Qədim türklərin ortaq ədəbiyyatının əsasında duran epos yaradıcılığı – "Dünyanın yaranması", "Türklərin törəyişi", "Oğuz xaqan", "Alp Ər Tonqa", "Ərgənəkon", "Köç" onların tarixini, qəhrəmanlığını əks etdirən qiymətli bədii nümunələrdir. Ortaq məkanda, coğrafiyada, mənəvi mühitdə yaradılmış bu əsərlərdə ulu babalarımızın təfəkkürü, dünyaya, həyata baxışı, mədəni ənənələri bədii ifadəsini tapmışdır. Bizə çatan nümunələrdən məlum olur ki, onlar məzmunca fərqli, rəngarəng olmuşdur. Məsələn, "Yaradılış" dastanında qədim türklərin əvvəllər kainatın mənzərəsinin necə olması barədəki təsəvvürləri öz əksini tapıb.

Əsərdə Tanrı Qara xan obrazı yaradılıb. Dünya Tanrının iradəsinə tabedir. Dünyada xeyirxahlıqla yanaşı, bədxahlıq da mövcuddur. Tanrı bədxahlığın xeyirxahlığı üstələməsinə, dünyanı idarə etməsinə imkan vermir. Göyün

[32] Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat-10, Ümumtəhsil məktəblərinin 10-ci sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2017, səh.19.

yeddinci qatında oturub kainatı idarə edən Tanrı türklərin yaşadığı torpağın da, cəmiyyətin də taleyini müəyyənləşdirir.

Xalqımızın qədim inanc və təsəvvürləri, bədii düşüncəsi "Avesta"da əksini necə tapmışdır?

Qədim türklərin soykökünü təşkil edən el və tayfa birləşmələri Yaxın Şərqdə yaşayan xalqlarla sıx iqtisadi, mədəni əlaqədə olmuşlar. Bu əlaqə eyniköklü xalqların birində yaranan söz sənəti nümunələrinin digər xalqlar arasında da geniş yayılmasına səbəb olmuşdur. Belə əsərlərdən biri olan "Avesta" atəşpərəst Azərbaycan türklərinin də dini kitabı idi. "Avesta"nın müəllifi Zərdüşt peyğəmbərdir. Əsərin özəyi sayılan, bədii təfəkkürün məhsulu olan "Qatlar"da ilk insanın yaranması, insan həyatının müxtəlif məqamları, insanla təbiət arasında mübarizə, müharibədə qələbə və məğlubiyyətin doğurduğu hislər bədii dillə əks etdirilir. Əsərdə Xeyir allahı Ahura Məzda (Hörmüz) ilə Şər allahı Əhrimənin (Anqramanyu) mübarizəsindən söz açılır. Xeyir allahı Hörmüz bütün yaxşılıqların – işığın, sağlamlığın, odun, həyatın yaradıcısıdır. Yalan, zülmət, ölüm, xəstəlikləri isə Şər allahı Əhrimən yaratmışdır. Onların mübarizəsi işığın qaranlıq, xeyirin şər üzərində qələbəsi ilə nəticələnir. "Avesta"da insanlar humanizmə, xeyirxah əməllərə, həyatda bolluğun əsası hesab edilən əkinçiliyə, maldarlığa çağırılırdı. Atəşpərəstlər müqəddəs saydıqları oda sitayiş edir, onun vasitəsilə pisliklərdən qurtulmağın mümkünlüyünə inanırdılar. Zədüştiliklə bağlı olan bir sıra adətlər – odun müqəddəs sayılması, səməni göyərdilməsi, odun (tonqalın) üstündən atlanma və s. dövrümüzə gəlib çatmışdır.

"Kitabi-Dədə Qorqud" dastanının möhtəşəm ədəbi-bədii hadisə sayılmasına səbəb nədir?

Eposun yaranma tarixi kimi, nə vaxt yazıya alınması da fərqli şəkildə izah olunur. Azərbaycan türklərinin qədim qəhrəmanlıq salnaməsi, bədii söz sənətimizin ilk mükəmməl ədəbi-bədii hadisəsi olan "Kitabi-Dədə Qorqud" islamiyyətdən çox-çox öncəki "Oğuznamələr" silsiləsinə daxil olsa da, doğma türkcəmizin abidəsidir. Onun yazıya alınması yazılı ədəbiyyatımızın yalnız ərəb, yaxud fars dilində deyil, həm də doğma dilimizdə inkişaf etdiyini göstərirdi. Bu qiymətli abidə təkcə dilimizi, tariximizi yox, bütövlükdə xalqımızın mənəviyyatını, psixologiyasını, həyata baxışını və s. öyrənmək, dəyərləndirmək üçün mötəbər mənbədir.

VII–IX əsrlərdə ərəbdilli saray ədəbiyyatının hansı səciyyəvi xüsusiyyətləri vardır?

VII əsrin ortalarından Ərəbistanda yaranan güclü islam dövləti bir çox ölkələri islam bayrağı altında istila etdi. Azərbaycan da kənarda qalmadı. Ölkəmizə hücum



edən ərəblər xalqın ciddi müqaviməti ilə qarşılaşdılar. Çətinliklə də olsa, ölkə işğal olundu. İslamın qəbulundan sonra müxtəlif bölgələrdə mədrəsələr açıldı. Məqsəd islam dininin əsaslarını və ərəb dilini mənimsətmək idi. Ərəb dilində mükəmməl sənət əsərləri yaradan Musa Şəhəvat, İsmayıl ibn Yəsar, Əbül-Abbas əl-Əma kimi sənətkarlarımızın yaradıcılığında vətənpərvərlik, doğma yurda bağlılıq hislərinin ifadəsinə geniş yer verilirdi. Ədalət – zülm qarşıdurması, ictimai mühitdəki yaramazlıqlara etiraz onların əsərlərində əksini tapan məsələlərdən idi. Bu sənətkarların təbiət mövzularında yazılmış əsərlərində yenilik axtarışları, səmimilik, lirizm özünü aydın göstərirdi.

Fars dilli saray ədəbiyyatı başlıca olaraq hansı mövzularda varanırdı?

Ərəb xilafəti zəiflədikdən sonra Yaxın və Orta Şərq ölkələrində, saraylarda fars dili geniş yayılmağa başladı. Azərbaycanda XI əsrin ortalarından başlayaraq, farsca yazmaq ənənəsi yarandı. Saray ədəbiyyatında qəsidənin mədhiyyə, həcv, mərsiyə, fəxriyyə kimi növlərinə geniş yer verilir, dini mövzularda əsərlərin yazılmasına xüsusi diqqət yetirilirdi. Mədhiyyələr hökmdarların qüdrətinin, əməllərinin tərifi ilə məhdudlaşmır, onlar xeyirxah, mərhəmətli olmağa, ölkədə quruculuq işləri aparmağa, əmin-amanlıq yaratmağa dəvət edilirdi. Sarayda yaşayan mütərəqqi görüşlü sənətkarlar tarixi hadisələrə, ictimai-fəlsəfi məsələlərə həsr etdikləri əsərlərlə saray ədəbiyyatının mövzu, məzmun baxımından zənginləşməsinə istiqamət verirdilər. Əsərlərini farsca yazsalar da, təbliğ etdikləri ideya və bədii sənətkarlıq baxımından türk-Azərbaycan dünyagörüşünü, mənəviyyatını əks etdirən Qətran Təbrizi, Əbül-üla Gəncəvi, Fələki Şirvani, Mücirəddin Beyləqani, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani məhəbbəti, təbiəti tərənnüm edən, eləcə də dərin fəlsəfi düşüncələri əks etdirən lirik şeirlər yazırdılar. Bu sənətkarların yaradıcılığında ictimai-siyasi problemlər, humanist ideyalar da əksini tapırdı.

XI–XII əsrlər saray ədəbiyyatı hansı səciyyəvi xüsusiyyətləri ilə seçilirdi?

XI əsr saray ədəbiyyatının görkəmli nümayəndəsi kimi şöhrət qazanmış Q. Təbrizinin irsi "Divan"dan və "Ət-təfasir" adlı farsca lüğətdən ibarətdir. Şairin "Divanı"na mədhiyyələrlə yanaşı, məhəbbət, vətən, insan taleyi, təbiət mövzusunda, eləcə də, saraydan narazılığı əks etdirən lirik şeirləri daxildir. Gəncədə və Təbrizdə yazıb-yaratmış şairin Təbrizdə baş vermiş zəlzələ haqqında iki mənzuməsi bu qədim şəhərlə bağlı məlumat verən mənbə kimi dəyərlidir.

M. Gəncəvi XII əsr ədəbiyyatımızda dərin ictimai-fəlsəfi məzmunlu rübailəri ilə şöhrət tapmışdır. Bu şeirlərin lirik qəhrəmanı dərin məhəbbətlə sevən, iztirab çəkən, gözəlliyi dəyərləndirən aşiqdir. Rübailərində müxtəlif peşə sahiblərindən

söz açması şairin əməkçi insana verdiyi yüksək dəyəri əks etdirir. Bu nümunələrdə insanın taleyi, həyatı, sevinci, kədəri ilə bağlı humanist düşüncələr yüksək poetik ifadəsini tapmışdır:

Dün kaşı kuzəmi daşlara çaldım,
Sərxoşdum, bilmədim, əlimdən saldım.
Kuzə dilə gəlib dedi ki, mən də
Sənin kimi idim, bu günə qaldım.

Ə. Xaqaninin "Divan"ındakı ictimai-fəlsəfi məzmunlu şeirlərdə, "Töhfətülİraqeyn" poeması, "Mədain xərabələri" qəsidəsində saraydan narazılıq motivlərinin əks olunması ədalətsizliyə etiraz edən ədibin vətəndaşlıq mövqeyi ilə bağlı idi. Ədəbiyyatımızda ilk poema olan "Töhfətül-İraqeyn" əsərində şairin öz həyatı, uşaqlıq illəri, təhsili, dostları ilə bağlı xatirələri də əksini tapmışdır. Üsyankar təbiətli şair saraydan, hökmdarlardan üz çevirmiş, öz xalqına, sadə insanlara dərin məhəbbət bəsləmişdir:

İstəmirəm, adımı çağıralar Xaqani,
Mən yoxsullar şairi, xəlqaniyəm, xəlqani.

"Mədain xərabələri" qəsidəsində şair Sasani hökmdarlarının paytaxtı olmuş Mədain şəhərinin xarabalıqlarını təsvir etməklə dövrünün şahlarına ibrət dərsi vermək məqsədini güdmüşdür. Şairin əsərlərində doğma yurduna məhəbbət, ondan ayrılığın doğurduğu şikayət motivləri güclüdür:

Şamaxı! Ey mənim sevimli yurdum!
Mən sənin qoynunda xaniman qurdum.
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz.
O şəhər də mənə doğmadır, əziz.

Saray həyatından uzaq olmağı üstün tutan Nizami Gəncəvinin "Xəmsə"si məzmunu, bədii forma kamilliyi, humanist ideyaların ifadəsi baxımından qədim dövr Azərbaycan ədəbiyyatının, intibah dövrünün zirvəsi sayılır. Nizami yeni bir ədəbi məktəbin əsasını qoymuş, poemaları ilə Yaxın Şərq ədəbiyyatının inkişafına istiqamət vermişdir.

**3. Öyrəndiklərinizlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

**Evd əiş.Layihə üzrə işi davam etdirin**

1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.

2. Araşdırma apararkən aşağıdakı sualları cavablarını da əhatə etməyə çalışın:



a) Qədim türk dastanları və "Dədə Qorqud" eposu üçün ortaq olan hansı cəhətlər vardır?

b) Saray şeirinin ədəbiyyat tarixində tutduğu mövqeyi necə qiymətləndirmək olar?

3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

**Mənbələr:**

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. II cild, Bakı: Elm, 2007, səh. 92- 96; 210-211; 216-217; 314-315 ; 361-362; 370-371; 416-417.

2. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait). http://edebiyyat.ucoz.com.

3. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər). Bakı: Ozan, 2008, səh. 13-15; 19-23;

Müəllim üçün vəsaitdə mövzunun tədrisinə dair metodik tövsiyə verilmişdir. Müəllim vəsaitində bu dərslərin tətbiqində bəzi kənara çıxmalar olduğunu nəzərə alaraq biz də həmin mövzunun fəal(interaktiv) təlim əsasında tədrisi nümunəsini təqdim edəcəyik. Təbii ki, yeni bilik verən dərs olduğu üçün induktiv dərs tipini seçməliyik. Burada materialın məzmununa uyğun gələn şifahi və yazılı nitq məzmun xətləri üzrə standartlara da istinad olunmalıdır.

Belə icmal mövzularının tədrisində ən vacib məsələ qısa tarixi məlumatla ədəbi nailiyyətlərin uyğunlaşdırılması vəziyyətinin şagirdlər tərəfindən müşahidə etdirilməsi, qənaətlərin qeyd etdirilməsidir. Dərslikdə mətn üzrə müşahidələr aparıb onu məntiqi cəhətdən hissələrə bölə, materialın məzmununda nələri əks olunduğu öyrənə və alınan qənaətlərini təqdim edə bilərlər.

Qədim və orta əsrlər dövrü ilə bağlı icmal mövzularının öyrədilməsi zamanı yeri gəldikcə həmin dövrlərə dair Azərbaycan tarixi xəritələrindən də istifadə olunmalıdır. Fənlərarası əlaqə və əyanilik baxımından bu işin əhəmiyyəti olduqca böyükdür.

Tarixi-ədəbi icmalların tədrisində müəllim bir neçə məsələni diqqətdə saxlamalıdır:

1. Hər bir mövzunun güddüyü təlim, tərbiyə və inkişaf məqsədlərini aydın təsəvvür etmək.
2. Həmin mövzunun öyrənilməsi prosesində şagirdlərə nə kimi tapşırıqlar vermək və onları standartlarla necə əlaqələndirmək.
3. Dərsin maraqlı və canlı alınması üçün hansı işləri yerinə yetirmək..

Fəal(interaktiv) dərsin gedişini aşağıdakı şəkildə təşkil etmək olar. Bunun üçün X sinifdəki icmallardan birinin tədrisinə - "Qədim dövr Azərbaycan ədəbiyyatı" mövzusuna nəzər salaq.

Bir şeyi unutmayaq ki, təklif olunan dərslərin hər biri(İstər müəllim vəsaitinin, istərsə də bizim təqdim etdiyimiz ) tövsiyə xarakterlidir və heç bir vəchlə müəllimin müstəqil işinin məhdudlaşdırılması demək deyildir. Buradakı iş prosesini nəzərdən keçirərək onu, sadəcə olaraq iş nümunəsi kimi qəbul edin.

**X sinif**

**Mövzu**: "Qədim dövr Azərbaycan ədəbiyyatı"(Ən qədim zamanlardan XIII əsrə qədər)(layihə).[33]

**Standartlar**: 1.1.1., 1.1.4., 1.2.4., 2.2.1., 3.1.2.

**Inteqrasiya**: Tarix, 0.0.0.

**Texnikalar**: klaster, beyin həmləsi, müzakirə

**Iş forması**: böyük və kiçik qrupda iş

**Resurslar** (təchizat): filmdən parça, musiqi...

**Dərsin təlim nəticələri:**

1. Mətndə, əsərdə tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.
2. Bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

[33] İcmal mövzularının tədrisi üçün alt-standartları onun məzmununda əksini tapan əsərlərə görə qoymaq lazımdır. Hər üç məzmun xəttindən seçməklə.



3. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.
4. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə, tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.
5. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır

**Dərsin tipi**: induktiv
**Üsul**: suallar, müzakirə, beyin həmləsi
**Təchizat**: iş vərəqləri, markörlər, dərslik

**Dərsin mərhələləri** və **təxmini vaxt bölgüsü:**

1. *Motivasiya .........................................4 dəq.*
2. *Tədqiqatın aparılması...................... 10 dəq.*
3. *Məlumat mübadiləsi .........................10 dəq.*
4. *Məlumatın müzakirəsi və təşkili......... 8 dəq.*
5. *Nəticələrin çıxarılması ..................... 3 dəq.*
6. *Yaradıcı tətbiqetmə........................... 7 dəq.*
7. *Refleksiya......................................... 3 dəq.*

*Cəmi: 45 dəq.*

**Dərsin gedişi:**

**I. Motivasiya(4 dəq.).** Dərsin başlanğıcında mövzunun tapılması üçün müxtəlif variantlar seçilə bilər. Onlardan üçünü diqqətinizə təqdim edirik. Hər üç variant keçərlidir. Dərs zamanı onlardan birini istifadə etmək lazımdır.

1. Müəllim dərsin başlanğıcında mövzunun tapdırılması üçün belə bir cümləni səsləndirir: **Zaman onlardan uzaqlaşdıqca, onlar xalqına, onun mənəviyyatına daha yaxın olurlar. Klassiklərimizə tale məhz belə bir mənalı ömür bəxş etmişdir.** Sonra müəllim şagirdlərə müraciət edir. **Eşitdiyiniz**

**cümlənin mənasına və məzmununa münasibətinizi bildirin.** Şagirdlərin təəssüratları alındıqdan sonra yenidən onlara müraciət olunur: - **Uşaqlar, sizcə bu gün biz nədən söhbət açacağıq?** Təbiidir ki, şagirdlər klassiklərimizdən, qədim dövrdə yaşayıb yaradan böyük sənətkarlarımızdan söhbət açıla biləcəyi fikrini irəli sürürlər. Müəllim onların fikrini təsdiqləyərək dərsin mövzusunu dəqiq şəkildə lövhəyə qeyd edir: "Qədim dövr Azərbaycan ədəbiyyatı".

2. Müəllim klassik irsimizin ədəbiyyatımızın inkişafında rolu barədə maraqlı bir fikri şagirdlərin nəzərinə çatdırır: **Azərbaycan bədii və ictimai fikir tarixi özündən sonra gələn yazarlar və mənsub olduğu xalq üçün həmişə qürur və iftixar mənbəyi olmuşdur.** Şagirdlər fikri dinlədikdən sonra onlardan soruşulur. **Bu fikri necə qəbul edirsiniz? Ona münasibət bildirin.** Şagirdlərin mülahizələri dinlənilir. Sonra müəllim onlara ikinci bir sual ünvanlayır: **Necə bilirsiniz, biz bu gün nədən söz açacağıq?** Şagirdlərdən "qədim ədəbiyyat", "klassik ədəbiyyat" sözləri alınan kimi mövzunun adı dəqiq formada lövhəyə qeyd olunur: "Qədim dövr Azərbaycan ədəbiyyatı".

3. Müəllim S.Vurğundan belə bir misraları xatırladır:

Ölməz könül, ölməz əsər,
Nizamilər, Füzulilər,
Əlin qələm, sinən dəftər,
De gəlsin hər nəyin vardır,
Deyilən söz yadigardır.

**- Uşaqlar, bu şeir parçasının haradan götürüldüyü Sizə yaxşı məlumdur. Gəlin bu parçaya münasibət bildirək. Burada nədən söhbət gedir? Bu misralar Sizə hansı hissləri aşılayır? Birinci iki misranın məzmununa, sonra isə digərlərinə diqqət yetirin. Onlarda nədən söhbət açılır? ... Sizcə, bu gün biz nədən söhbət açacağıq?** Şagirdlərdən belə bir cavablar alına bilər: **ədəbiyyatımızın yaradıcılarından, klassik sənətkarlarımızın irsindən** və s. Müəllimlim onların



fikirlərinin düzgün olduğunu söyləyir və mövzunu dəqiq şəkildə lövhəyə qeyd edir.

Mövzu tapdırıldıqdan sonra **tədqiqat sualı** ortaya qoyulur və o, lövhəyə yazılır: - **Sizcə, qədim dövr Azərbaycan ədəbiyyatı mövzu və janr baxımından hansı keyfiyyətlərə malik ola bilərdi?** Şagirdlərin ilkin ehtimalları alınır və lövhəyə qeyd olunur.

**II. Tədqiqatın aparılması(10 dəq.)**. Şagirdlər qruplara bölünür. Hər qrupa müvafiq tapşırıq verilir, tədqiqatın vaxtı və qiymətləndirmə meyarları elan edilir.

*<u>1-ci qrup</u>: Ortaq bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir qeyd edin.*

*<u>2-ci qrup</u>: Qədim inanclar və mənəvi dəyərlərlə bağlı "Avesta"da, "Kitabi-Dədə Qorqud" dastanında əksini tapan xüsusiyyətləri qeyd edin.*

*barədə məlumatları toplayın və yazın.*

*<u>3-cü qrup</u>: Qədim Türk dastanları ilə "Dədə Qorqud" dastan üçün ortaq olan cəhətlər barədə qeydlər aparın. Dastanın bu günümüz üçün əhəmiyyəti barədə fikirlərinizi qeyd edin.*

*<u>4-cü qrup</u>: Azərbaycan ədəbiyyatının qədim dövrdə hansı dillərdə, hansı janrlarda yaranmasına dair məlumatları toplayın. Səbəbini göstərməyə çalışın. Mətndəki çətin sözləri müəyyənləşdirin.*

*<u>5-ci qrup</u>: Yazlı ədəbiyyatımızın nümayəndəsi Qətran Təbrizi, Məhsəti Gəncəvi və Xaqani Şirvani yaradıcılığına əsərlərinin ideyasına, probleminə münasibət bildirin, ümumiləşdirmələr apararaq qənaətlərinizi qeyd edin.*

**III. Məlumat mübadiləsi(10 dəq.).** Vaxt bitdikdən sonra qrupun təmsilçisi tədqiqatlarının nəticələri ilə sinif yoldaşlarını tanış etməyə başlayırlar. Müəllim reqlamenti elan edir(hər çıxışa 2 dəq.) və təqdimatlara başlanılır. Hər bir

təqdimata sinifdən sual verilə bilər. Sonda təqdimatlara ümumi qiymət verilir.

**IV. Məlumatın müzakirəsi və təşkili(təsnif olunması, qruplaşdırılması)(8 dəq.).** Müəllim iş vərəqlərindəki məlumatların müzakirəsini həyata keçirməyə başlayır. Onlar arasında əlaqələr qurur, oxşar cəhətləri tapdırır. Əsas fikri həmin dövrdəki ədəbi nailiyyətlərin dəyərinin düzgün tutulmasına yönəldir. Bu zaman aşağıdakı yardımçı suallardan da istifadə oluna bilər:

– *Qədim dövr ədəbiyyatımızı, ortaq türk dastanlarımızı səciyyələndirən hansı xüsusiyyətlərlə tanış olduq?*
– *Bu dövrün ədəbi nailiyyətləri hansılar idi? Onların dəyəri nədən ibarət idi?*
– *Ədəbiyyatımızın fərli dillərdə yaranmasına səbəb nə idi?*
– *"Avesta" və "Dədə Qorqud" dastanını hansı cəhətlər birləşdirə bilər?*
– *Qətran Təbrizi, M. Gəncəvi, X. Şirvani irsinin bizim üçün dəyəri nə ola bilər?*

Müəllim təqdimatlarda əksini tapan ortaq məsələləri müəyyən etdirir və şagirdlərin yekun qənaətini ortaya qoydurur.

**V. Nəticənin çıxarılması(3 dəq.).** Bu mərhələdə yekun qənaətlərlə motivasiya mərhələsində irəli sürülən tədqiqat sualı və ona verilən ilkin cavablar (fərziyyələr) müqayisə edilməyə başlanır. Nələrin üst-üstə düşdüyü, nələrin yeni olduğu ortaya çıxarılır.

**VI. Yaradıcı tətbiqetmə(7 dəq.).** Bu mərhələdə şagirdlərə təklif edilir ki, onlar bu dövr ədəbiyyatını başqa cür necə görmək istədiklərini qeyd etsinlər. Tapşırığın icrasına vaxt verilir və vaxt bitəndən sonra 5-6 nəfərin yazısı oxunur.

**VII. Refleksiya(3 dəq.).** Bu mərhələdə biliklərin necə əldə olunması yoluna nəzər salınır, ev tapşırıqları elan olunur.

==========================================



Ədəbiyyat zəngin bir məbədgahı xatırladır. Bu məbədgahın ucaldılmasında bir çox sənətkarlar iştirak etmişlər. O, damla-damla toplanaraq belə bir görkəmli simaya malik olmuşdur. Onun hər bir guşəsində insan mənəviyyatı, arzular və hisslər dünyası dayanır. Ədəbiyyat müəllimi **tarixi-ədəbi səciyyəli** icmal mövzularını tədris edəndə çalışmalıdır ki, bu məbədgahın bir kərpicinə belə xələl gətirilməsin, əksinə, onların hər birinə, bu kərpici həmin məbədgaha bəxş edənlərə vurğunluq, iftixar və qürur hissləri aşılasın.

==========================================

Hər hansı bir **sənətkarın yaradıcılığının ümumi mənzərəsini** təsvir etməyə və şagirdlərə çatdırmağa çalışan icmallar daha çox yuxarı siniflərdə(X-XI siniflərdə) monoqrafik mövzuların tərkibində özünü göstərirdi. Həmin icmallar monoqrafik şəkildə öyrənilən sənətkarın bədii irsi barədə şagirdlərə ümumi məlumat verməyi qarşısına məqsəd qoyurdu. Onun əsas vəzifəsi bu irsdə əksini tapan əxlaqi-mənəvi dəyərləri və yazıçının sənətkarlıq keyfiyyətlərini dolğunluğu ilə şagirdlərə çatdırmaq, onlara sevdirmək idi.

Yeni kursda bu material "sənətkarın həyatı, yaradıcılıq yolu" kimi layihə formasında təqdim olunur və təxminən eyni məqsədə xidmət göstərir. Onun tədrisi üçün bir saat vaxt ayrılır.

Buradakı mövzu ətrafında şagirdlərin araşdırma aparmaqları, mətnlərin kənarlarında qoyulan sualları cavablandırmaları, əldə etdikləri bilikləri təqdim etmələri və həmin biliklərlə dərslikdəki materialları tutuşdurmalı olduqları müəllim üçün vəsaitdə bir tövsiyə kimi irəli sürülmüşdür.

Bir qədər əvvəldə qeyd etdiyimiz kimi mövzunun tədrisi planlaşdırılarkən, əyani vasitələr barədə düşünülməli, "Ədəbiyyat və həyat həqiqətləri"(Çünki burada ədəbi əsərlərin məzmunu, obrazlar aləmi, ideya-bədii xüsusiyyətləri ilə bağlı məlumatlar vardır), "Şifahi nitq" və "Yazılı nitq" məzmun xətlərinin tərkibindən uyğun bilinən alt-standartlar seçilməli, onlar dərsin təlim nəticələrinə gətirilməli və fəal(interaktiv)

dərsin mərhələlər üzrə induktiv dərs təşkil edilməlidir. Bunun üçün əvvəlki nümunəmizdəki işin gedişinə baxmaq və ona uyğun dərs modeli qurmaq olar.

Müəllim mətndə əksini tapan məlumatlarda əxlaqi-mənəvi keyfiyyətlərin şagirdlər tərəfindən düzgün tutulmasını ən əsas vəzifə bilməli, ondan bir ibrət götürülməsi qayğısına qalmalı, onların dünyagörüşlərinin, həyati biliklərinin, mənəvi aləmlərinin zənginləşməsinə xidmət göstərməsi üçün istifadə etməlidir. Unutmaq olmaz ki, bu sənətkarlarımızın hər biri xalqımızın layiqli övladlarıdır, genefondumuzdur.

Sənətkarların yadigar qoyub getdiyi bədii irs bizim qiymətli xəzinəmizdir. Əgər onunla düzgün rəftar etməyi şagirdlərimizə aşılaya bilsək, onda bu irs daim onlara bir istiqamət, yol göstərəcək, əllərindən tutacaq və sabaha daha inamla aparacaqdır. Bunun üçün də müəllim öz üzərinə düşən məsuliyyəti aydın hiss etməli, təqdimat mərhələsini yüksək səviyyədə təşkil etməyi bacarmalıdır. Zəif və qüsurlu təqdimat sənətkarın tanınma taleyini heç edə bilər.

Müəllim bu mövzuların tədrisində də xeyli işləməlidir: ona neçə saat ayrıldığına fikir verməli, dərsdə hansı işləri yerinə yetirəcəyini aydınlaşdırmalı, dərslikdəki, müəllim üçün vəsaitdəki məlumatı nəzərdən keçirməli, burada nələrin çatıb-çatmadığını dəqiqləşdirməlidir. Sonra isə onu hansı yolla şagirdə çatdıracağını müəyyənləşdirməlidir.

Müəllim orta məktəb dərslik komplektindəki məlumatlara, metodik tövsiyələrə tənqidi yanaşmağı bacarmalıdır. Müəllim icmal mövzularının(həmçinin sənətkarın həyatı və yaradıcılıq yolunun, ədəbi əsərlərin) tədrisi zamanı ən azından aşağıdakı nöqtələrdən dərslik komplektindəki məlumatların müşahidəsini aparmalı, təhlil etməli və nəticələr çıxarmalıdır:

1.Dərslikdə təqdim olunan icmal materialları(və o bir mövzular) öz məzmununa görə şagirdlərin ehtiyaclarını, maraq və tələbatlarını ödəyirmi?



2. Dərslikdəki(icmallardakı) məzmun dövlətin ədəbi təhsilin qarşısına qoyduğu vəzifələrlə necə uzlaşır?

3. Dərslikdəki sual və tapşırıqlar sistemi müəllim üçün vəsaitdə təklif olunan, dərsin təlim nəticələrində qeyd olunan alt-standarların tələbələrini reallaşdıra bilirmi?

4. Dərsin təlim, tərbiyə və inkişaf məqsədləri – təlim nəticələri düzgün müəyyənləşdirilibmi?

5. Müəllim üçün vəsaitdə planlaşdırmada nəzərdə tutulan metod və texnikalar mövzunun tədrisi ilə bağlı şərhlərdə istifadə olunubmu?

6. Müəllim üçün vəsaitdə əksini tapan resursları yetərli saymaq olarmı? Onlar öhdəsinə düşən vəzifəni layiqincə icra edirlərmi?

7. Müəllim üçün vəsait fəal(interaktiv) təlimi düzgün tətbiq edə bilibmi?

8. Motivasiya mərhələsində motivasiyanın yaradılması, tədqiqat suallarının qoyuluşu alt-standartların məzmunu ilə uyğun gəlirmi? Motivasiya mərhələsi düzgün qurulubmu? İlkin fərziyyələrin lövhəyə qeyd olunmasına dair bir göstəriş verilmişdirmi?

9.Tədqiqatın aparılması mərhələsində qrup tapşırıqlarından istifadə olunubmu? Bu zaman dərsin təlim nəticələrində əksini tapan alt-standartlar qruplara bir tapşırıq kimi təqdim olunubmu?

9. Məlumatın müzakirəsi və təşkil olunması(təsnif olunması, qruplaşdırılması) mərhələsində müzakirə və ümumiləşdirici işlər üçün suallar verilibmi? Həmin suallar dərsin təlim nəticələrinə uyğun gəlirmi?

10. Nəticənin çıxarılması mərhələsində ilkin fərziyyələrlə yekun qənaətlərin tutuşdurulmasına dair göstərişlər vardırmı?

11. Qiymətləndirmə meyarları təlim nəticələrinə uyğun tərtib olunubmu? Onu qənaətbəxş saymaq olarmı?

Müəllim dərslik komplekti ilə bağlı bu suallara müsbət cavab tapmasa, özü o kəsirləri aradan qaldırmağa borcludur. Çünki müəllim üçün vəsaitlər yalnız nümunəni təklif edir. Qalan iş müəllimin özündən asılıdır. Dərslikdə bədii materiallar, müəllimin əlinin altında isə sinif üzrə ümumi təlim nəticələri və məzmun standartları(məzmun xətləri, məzmun xətləri üzrə əsas və alt-stndartlar) vardır. Onlardakı tələblərin həyata keçirilməsi müəllimin bir nömrəli vəzifəsidir.

İcmal mövzuları tədris olunanda elə etmək lazımdır ki, o öz üzərinə düşən vəzifəsini – şagirdlərin ədəbi biliklərə şüurlu yiyələnməsini və əsl vətəndaş kimi böyüməsini layiqincə yerinə yetirsin.

---

**?!**

1. **İcmal materialları dedikdə nə başa düşülür?**
2. **Ədəbiyyatın öyrədilməsində onun əhəmiyyəti nədən ibarətdir?**
3. **Məzmununa görə onun neçə növü vardır?**
4. **Onun tədrisində hansı məsələlər diqqətdə saxlanılmalıdır?**



# TƏRCÜMEYİ-HAL MATERİALLARININ TƏDRİSİ

Ədəbiyyat proqramına daxil olan mövzuların bir qismini də tərcümeyi-hal materialları təşkil edirdi. Yeni kursda tərcümeyi-hal materialları "....həyatı , yaradıcılıq yolu" ilə əvəzlənmişdir. Hazırda sənətkarın həyatı və yaradıcılıq yolunun layihə formasında birlikdə nəzərdən keçirilməsi doğru hesab edilmişdir. Biz də bu yanaşmanı məqbul hesab edirik. Onsuz da dərsliklərdəki məlumatlarda sənətkarın həyatından danışılanda bədii irsini də onun gözünə qatırdılar.

Bu qrup bir mövzuların da orta məktəbdə öyrənilməsinin çox böyük əhəmiyyəti vardır. Yeni təhsil proqramının tələbi ilə yazılan dərslik komplektində - müəllim üçün vəsaitdə bu tipli materialların öyrədilməsinə bir saat vaxt ayrılmışdır. Həmin başlıq altında olan mövzular X-XI siniflərdə yerləşdirilmişdir.

Sənətkarın həyatı və yaradıcılıq yolu ilə bağlı materialları proqrama nə üçün daxil edilir və onların tədrisində hansı vəzifələri yerinə yetirmək nəzərdə tutulur?

Bu belə anlaşılmalıdır ki, ədəbiyyatımızın yaradıcıları olan bu sənətkarların hər birisi yaşadıqları dövrün canlı timsalıdırlar. Demək olar ki, onların həyatı bir ibrət aynası və tərbiyə məktəbi kimi çıxış edə bilir. Onların mühiti, ədəbi aləmə gəlişi, fikir və duyğular aləminin formalaşdığı zəmin, dünyagörüşləri şagirdlərə müsbət əxlaqi-mənəvi keyfiyyətlər aşılayır. Şagirdlər aydın şəkildə və əyani olaraq dərk edə bilirlər ki, zamanından, dövründən asılı olmayaraq, xalq işinə yaxın olan, el yolunda qələm çalan, zəhmət çəkən heç bir kəs unudula bilməz. Kim el yolunda nə isə bir yaxşı iş görsə, onun istəklərinə biganə qalmasa, o adamlar, o şəxslər min illər keçərsə belə, xalqın yaddaşından çıxa bilməz. Bu, bir həqiqətdir.

Şagirdlər bu məlumatları öyrəndikcə başa düşürlər ki, insanların 60-90 illə ölçülən cismani ömürləri ilə yanaşı, mənəvi

ömürləri də vardır. Özü də əgər bu mənəvi ömür mənalı və xalqı üçün gərəkli olubsa, onda o, illər, əsrlər çərçivəsinə sığmır. Şagirdlər aydın şəkildə anlayırlar ki, insanın əbədi yaşarlılığı meyarları vardır. Bunun ən ümdəsi el-oba yolunda nələri isə eləməkdir. Bəyəm elə bir şəxs tapıla bilərmi ki, özündən sonra gələcək nəsillərə nə isə yaxşı və xeyirxah işlər qoyub getməyi fikirləşməsin və belə bir arzuya biganə qalsın?

Yuxarı siniflərdə sənətkarın həyatı və yaradıcılıq yolu materiallar öyrədiləndə bu kimi məsələlər həmişə müəllimin diqqət mərkəzində dayanmalıdır. Şagirdlər sənətkarların həyatına dərindən bələd olduqca onlarda belə bir əqidə yaranmalıdır ki, kaş yaxşı işlər görə biləydim və mən də həmin görkəmli şəxsiyyətlər kimi doğma, qədirbilən xalqın yaddaşında yüz illərlə qalaydım. Bugünkü günümüzdə bu cür düşüncə tərzinə nə dərəcədə ehtiyac olduğunu söyləmək, yəqin ki, bir qədər artıq görünərdi?

Sənətkarın həyatı və yaradıcılıq yolu əzab-əziyyətli, enişli-yoxuşlu bir ömrün salnaməsidir. O, şöhrətə çatmanın sınaqdan çıxarılmış pillələridir. Belə materiallarla tanışlıq zamanı şagird aydın şəkildə müşahidə edə bilir ki, insanın həyatda yüksəliş yolu nələrdən keçib gedə bilər. Həmin yolun başlanğıcı, mənbəyi və sonu nələrdən təşkil olunur, burada uğurların səbəbləri hansılardır və ya çatışmazlıqları nə törətmişdir. Həmin mühitdə sənətkar bir insan kimi necə davranmış, nələrə nail olmuş, nələri itirmiş və buna nələr təsir etmişdir.

Şagirdlər həmin materiallar vasitəsilə həm də xalqımızın tarixini daha yaxşı öyrənirlər. Çünki hər bir sənətkarın ömür yolu yaşadığı tarixi bir haqqında müəyyən təsəvvürlərin alınmasına kömək olur. Bugünkü gənclərimizə bu da olduqca gərəkli və vacibdir.

Yazıçının ədəbiyyat tarixində yeri və mövqeyi, ənənələrə sadiqliyi, novatorluğu, özündən sonra gələn ədəbi nəsillərə təsiri və s. kimi məsələlər şagirdlərə təkcə ədəbi-tarixi biliklər vermir,



həm də onların milli qürur, ləyaqət və iftixar hissinin formalaşdırılmasında fəal rol oynayır.

Sənətkarın həyatı və yaradıcılıq yolu ilə bağlı materiallar tədrisi nəzərdə tutulan ədəbi əsərlərin daha dərindən qavranılmasına şərait yaradır.

Ədəbi əsərlərin hansı şəraitdə meydana gəlməsi şagirdlərin ümumi inkişafına əməlli-başlı təsir göstərir, onu daha yaxşı başa düşməyə imkan verir. Maraqlı bir söz eşidəndə, şeir parçası və ya əhvalat dinləyəndə biz dərhal onun müəllifi ilə maraqlanırıq. Bu mənalı sözü və ya fikri söyləyənlərin şəxsiyyətinə bizdə dərin bir hüsn-rəğbət yaranır.

Ədəbi əsərlərin öyrənilməsində də eyni vəziyyət vardır. Maraqlı və ibrətli həyat hadisələri və ya səmimi hisslər aləmi şagirdləri şirin xəyallar dünyasına aparır, onu söyləyən şəxsin söz qoşmaq məharətinə bir heyranlıq yaradır. Təsadüfi deyil ki, ədəbi əsərlərin tədrisi prosesində ilk olaraq V-VII siniflərdə (elə VIII-IX cu siniflərdə də) motivasiya mərhələsində **giriş sözündən** istifadə olunur. Həmin giriş sözündə sənətkarın ədəbiyyat tariximizdəki xidmətləri sadalanır və əsərlərində qaldırdığı əxlaqi-mənəvi keyfiyyətlərə, həyatındakı ibrətli məsələlərə şagirdlərin diqqəti cəlb edilir.

Yuxarıda dediklərimiz sənətkarın həyatı və yaradıcılıq yolu materiallarının təlim-tərbiyə imkanlarının tükənməzliyindən xəbər verir. Bu materialların bir qismində tariximiz, o birisində zəngin mənəviyyatımız, digərlərində isə şərəfli ömrün salnaməsi əksini tapır. Bu materiallar gənclərimiz üçün bir ibrət aynasına çevrilməlidir. Onlardan biz bu gün nələri isə götürə və öz mənəviyyatımızı zənginləşdirə bilərik.

Bu materiallar imkan verir ki, şagirdlərimiz müxtəlif həyat hadisələrinə sənətkarlarımızın gözü ilə baxsınlar, bu həyatdan özləri üçün daha çox şeylər götürməyə cəhd etsinlər və doğma Azərbaycanımızın layiqli vətəndaşlarına çevrilsinlər.

Sənətkarın həyatı  və yaradıcılıq yolu materiallarının tədrisinin nə kimi əhəmiyyət kəsb etdiyini nəzərdən keçirdikdən sonra onun necə öyrədilməsi məsələsi üzərində dayanaq.

Bu cür materiallarının öyrədilməsi hazırda X-XI siniflərin payına düşmüşdür.

X-XI siniflərdə ədəbiyyat tarixi kursu əhatə olunduğuna görə burada  monoqrafik mövzular üstünlük təşkil edir. Həmin mövzular ədəbiyyatımız görkəmli simalarının həyat və yaradıcılığının, bədii irsindən kamil bir sənət nümunəsinin öyrədilməsinə həsr olunmuşdur. Proqram belə mövzuların tədrisinə azı 3-5 saat vaxt ayırır. Bu saatlar  sənətkarın **həyatı, yaradıcılıq yolu(1 saat)** və **ayrıca öyrənilməsi nəzərdə tutulan əsərinə(2-3 saat ola bilər)** həsr edilir. Saatlar artdıqca sənətkarın əsərinin öyrənilməsinə ayrılan vaxt da artır. Amma həyatı və yaradıcılıq yolu materiallarının tədrisi vaxtı əsasən sabit qalır; onların öyrənilməsinə  bir saat vaxt verilir.

Dərslikdəki materialın birini diqqətinizə çatdırırıq. Yuxarıda sadaladığımız məsələlərin, tələbələrin burada necə gözlənildiyini müşahidə edin.

İMADƏDDİN NƏSİMİ(1369-1417)

"Üç dili mükəmməl bilməsi sayəsində Nəsimi Yaxın Şərq bədii fikrinin ən gözəl nailiyyətlərinə yiyələnmiş, geniş biliyə, parlaq istedada, yüksək sənətkarlıq mədəniyyətinə malik ustad bir şair kimi Azərbaycan şeirinə və türk xalqlarının ədəbiyyatına yeni istiqamət vermişdir."

Mirzağa Quluzadə

NƏSİMİNİN HƏYATI, YARADICILIQ YOLU

**Layihə üzrə araşdırmaya hazırlaşın.**

*1. Nəsimi barədə bildiklərinizi yada salıb yığcam müzakirə aparın.*

*2. Aşağıdakı sualları və onları araşdırmağa istiqamət verən cavabları oxuyun.*



| |
|---|
| Nəsiminin dövrü, həyatı və yaradıcılığı üçün önəmli olanlar hansılardır? |

XIII–XIV əsrlərdə baş vermiş mühüm ictimai-siyasi və tarixi hadisələr Azərbaycanda sabitliyin pozulmasına səbəb oldu. Çingiz xanın yürüşlərinin vurduğu yaralar sağalmamış Toxtamışın, Teymurun basqınlarına məruz qalan Azərbaycan böyük itkilər verdi. İşğalçılara qarşı vaxtaşırı baş verən üsyanlar insan qırğınına, şəhər və kəndlərin dağılmasına səbəb olurdu. Yerindən-yurdundan didərgin düşən əhali başqa ölkələrə üz tutur, xəstəlik, aclıq və ölümlə qarşılaşırdı.

Digər tərəfdən, orta əsrlərdə hakim olan ideologiyanın ağır təzyiqləri XIV–XV əsrlərdə açıq və gizli mübarizə üçün zəmin oldu. Müxtəlif təriqətlərin, cərəyanların yaranmasının bir mühüm səbəbi də məhz bu idi. Azərbaycanda, eləcə də Yaxın və Orta Şərqdə ən geniş yayılmış təriqət isə hürufilik idi. Bu təriqətin başçısı və nəzəriyyəçisi Azərbaycan alimi və şairi Şeyx Fəzlullah Nəimi olmuşdur. Hürufiliyə görə, Allah insanda və mövcud olan bütün varlıqlarda təcəssüm tapır. Elə buna görə də insan öz varlığındakı ilahi nuru dərk etməlidir. Bunun üçünsə o, daim əqli-mənəvi təkamül yolu keçməli, təkmilləşməli, qəlbini saflaşdırmalıdır. İnsanı müqəddəs sayan hürufilərin fikrincə, kamil insan tanrı səviyyəsinə yüksələ bilər. Deməli, insana əzab verməк və onu öldürmək olmaz. Bununla da hürufilər ictimai haqsızlığa, zülmə qarşı çıxır, islam dininin bir sıra ayinləri ilə razılaşmırdılar. Hürufilərin feodal hakim dairələri, islam xadimləri tərəfindən təqib və edam edilmələrinin mühüm səbəblərindən biri bu idi.

Göründüyü kimi, Nəsimi keşməkeşli bir dövrdə yaşamışdır. Onun doğulduğu il və yer barədə fərqli fikirlər var. Həyatı haqqında da gerçəklikdən çox rəvayət və əfsanələr əks etdirən məlumatlar mövcuddur.

Dini və dünyəvi elmləri dərindən mənimsəyən gənc, həssas şair insana amansız, qeyri-humanist münasibətlə heç cür barışa bilmirdi. Bu, onu düşünməyə, yollar aramağa sövq edir. Əvvəl sufizmə meyil edən Nəsimi sonralar Nəiminin görüşlərinə tərəfdar çıxır. Hürufilərin mövqeyi onun ürəyincə idi. Nəsimi elə bir elmi-fəlsəfi dayaq axtarırdı ki, onun köməyi ilə insana öz adının uca, mövqeyinin yüksək olduğunu anlamağı öyrətsin. Böyük ehtirasla, coşqunluqla hürufi ideyalarını yayan, təbliğ edən şair təqib olunur. Ölkədən-ölkəyə keçməyə məcbur olan Nəsimi əqidəsindən üz döndərmir, alovlu şeirləri ilə çoxlu tərəfdar tapır. Hələb şəhərində həbs edilən bu cəsur sənətkar 1417-ci ildə ağır işgəncələrlə edam olunur.

İctimai-fəlsəfi lirikanın ən qüdrətli yaradıcılarından olan Nəsimi şeirlərini müxtəlif janrlarda yazmışdır. Bədii irsində qəzəl, qəsidə, tuyuq, rübai, müstəzad və s. yer almışdır. Zəngin irsi qalan şairin əsərlərini mövzusuna, ideya istiqamətinə görə iki böyük qismə ayırmaq olar: *təriqət şeirləri, dünyəvi şeirlər.*

Bundan əlavə, onun dini mövzuda yazdığı əsərləri də vardır.

Nəsimi öncə sufizmə meyil etdiyindən ilk təriqət şeirləri, təbiidir ki, sufiyanə olmuşdur. Lakin sufi ideyalarının təbliğinə həsr olunmuş əsərləri kəmiyyətcə hürufi şeirlərindən azdır. Şairin həm doğma türkcəmizdə, həm də fars dilində yazdığı şeirlərin böyük bir qismində hürufilik ideyalarının ifadəsinə önəm verilmişdir. Bu qəbildən şeirlər sənətkarın hürufilik görüşləri, mənsub olduğu təriqətin mühüm müddəaları barədə aydın təsəvvür yaradır. Bu baxımdan onun "Söz", "Sığmazam", "Mənəm, mən" rədifli, "Daim ənəlhəq söylərəm, həqdən çü Mənsur olmuşam", "Mərhəba, insani-kamil, canımın cananəsi" misraları ilə başlayan qəzəlləri, eləcə də digər janrlarda olan əsərləri yüzillər boyu diqqəti özünə çəkmişdir.

Belə əsərlərdə hürufi termin və anlayışlarına xeyli yer verilmişdir. Onların şərhi şeirdəki əsl mətləbin başa düşülməsini asanlaşdırır. Məsələn, yuxarıda adıçəkilən qəzəllərin birində deyilir:

Çün bizə məlum olubdur mə'niyi-ümmül-kitab,
Arifəm, səm'imə sığmaz zahidin əfsanəsi.

Buradakı "ümmül-kitab" ("kitabın anası") Qur'anın *"Fatihə"* surəsi anlamındadır. Həmin surənin daxili mənasını ilahi sirlər təşkil edir və bu sirlər arif olan hürufilərə məlumdur. Belə bir uca məqama yüksələn ariflər – hürufilər üçün zahidin dedikləri mənasız sözlərdən başqa bir şey deyildir.

Nəsiminin təriqət şeirlərində insan həm ilahi, həm də bəşəri keyfiyyətlərə malik olub gücü, ucalığı və ülvi keyfiyyətləri ilə seçilir. Hürufi təliminə əsaslanan şair insanı müqəddəsləşdirir, onun alçaldılmasını, incidilməsini lənətləyir. Əslində, Nəsimini hürufi ideyalarına cəlb edən də insanın şərəfli mövqeyə ucaldılması idi.

Nəsiminin ikinci qisim – *dünyəvi* şeirləri də az deyildir. Onlar mövzuca rəngarəngdir: dünyəvi məhəbbətin və gözəlliyin tərənnümünə həsr olunanlar, ictimai-fəlsəfi məzmunda yazılanlar, təbiətə həsr edilənlər və s. Bu əsərlərin böyük bir qismi qəzəl, bir qismi isə başqa janrlarda qələmə alınmışdır. "Neylərəm?", "Etməgil", "Yanaram" və s. *məhəbbəti* tərənnüm edən qəzəllər kimi dillər əzbəri olmuşdur.

Təriqət şeirlərindəki *yar, dilbər* ilahi gözəlliklə bağlıdırsa, bu qəzəllərdə tərənnüm edilən *sevgili, məhbub* adəm övladı olub bəşəri xislətlidir, real gerçəkliyin, maddi aləmin yetirməsidir. O, lirik qəhrəman üçün ən qiymətli varlıq, həyatın mənasıdır:

Dilbəra, mən səndən ayru ömrü canı neylərəm?
Tacü təxti, mülkü malu, xanimanı neylərəm?
İstərəm vəsli-cəmalın, ta qılam dərdə dəva,
Mən sənin bimarınam, özgə dəvanı neylərəm?

Məşuqun *zahiri gözəlliyinin* təsvirinə həsr olunan ("Düşdü yenə dəli könül gözlərinin xəyalinə", "Əcəba, bu huri üzlü məhi-bədr, ya pərimi?" və



s.) qəzəllərdə, eləcə də bu mövzuda digər janrlarda yazdığı şeirlərdə daha çox həyati, gerçək gözəl tərənnüm obyekti olaraq götürülmüşdür.

Nəsiminin dünyəvi əsərlərinin bir qismini *ictimai-fəlsəfi* məzmunlu şeirlər təşkil edir. Bu da məlumdur ki, şairin müxtəlif mövzularda yazdığı bütün əsərlərində fəlsəfi fikirlər önəmli yer tutur. Onun ictimai-fəlsəfi şeirlərində əhatə edilən məsələlər isə çoxdur; dünyanın dərk edilməsi ilə bağlı düşüncələr, dünyanın faniliyi və onun vəfasızlığından şikayət, rəzilliyi özünə peşə edənlərdən narazılıq və s.

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil, hər kim boyandı alına.
Arısı yalandır, saqın, dadlısına aldanma kim,
Acıdır anın şəkkəri, ağı qatılmış balına.

Şairin bədii irsində *təbiətə* həsr edilmiş şeirlər sayca az olsa da, onlar ideya-bədii keyfiyyətinə görə ədəbiyyatımızda ən yaxşı əsərlərdən sayılır.

**3. Öyrəndiklərinizlə bağlı fikir mübadiləsi və müzakirə aparın.**

**Evdə iş. Layihə üzrə işi davam etdirin**

1. Sinifdə öyrəndiklərinizi göstərilən mənbələrdən topladığınız məlumat əsasında zənginləşdirin və tamamlayın.

2. Araşdırma apararkən aşağıdakı sualların cavablarını da əhatə etməyə çalışın:

a) "Nəsimi poeziya tariximizdə siyasi-fəlsəfi şeirin ilk böyük nümayədəsidir" fikrini necə əsaslandırarsınız?

b) Şair ilahi və dünyəvi məzmunda yazdığı şeirlərində hansı mənəvi-əxlaqi dəyərləri daha önəmli sayır?

3. Yazılı qeydlər əsasında şifahi təqdimata hazırlaşın.

**Mənbələr:**

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. III cild, Bakı: Elm, 2009, səh. 218-219, 230-232.

2. Babayev Y. M. Azərbaycan ədəbiyyatı tarixi (XIII–XVIII əsrlər). Bakı: Elm və təhsil, 2014, səh. 217- 220.

3. Ədəbiyyat (X sinif şagirdləri üçün elektron vəsait). http://edebiyyat.ucoz.com.

4. Səfərli Ə., Yusifli X. Azərbaycan ədəbiyyatı tarixi (qədim və orta əsrlər).Bakı: Ozan, 2008, səh. 323-326;334-336.

Həmin proqram materiallarının tədris olunmasında müəllim dərsini necə qurmalı, hansı üsul və vasitələrdən istifadə

etməlidir? Bunun üçün də ilk növbədə dərsin təlim, tərbiyə və inkişaf məqsədləri düzgün müəyyənləşdirilməlidir.

X-XI siniflərdə sənətkarın həyatı və yaradıcılıq yoluna dair məlumatın öyrənilməsi zamanı diqqət yetirməlidir: **tədris nəzərdə tutulan sənətkara dair material şagirdlərin mənəvi tərbiyəsinə, ədəbi biliklərinin inkişafına hansı imkanları verəcək, bu işi şagirdlərin əldə etməsi üçün dərs necə qurulacaq, hansı qrup tapşırıqları ilə şagirdlər tədqiqata cəlb olunacaq, nə kimi nəticələrin əldə olunmasına səy göstəriləcəkdir.**

Dərslərdə əlavə ədəbiyyatlar, fotoşəkillər, xəritədən, tarixi-sənədli filmlərdən (fraqmentlər), rəsmi sənədlərdən, tarixi-diyarşünaslıq və ev muzeylərinin imkanları, lent yazıları, video çəkilişlər, slaydlar, internet səhifələrindəki məlumatlardan və s. istifadə olunmalıdır.

Dediklərimizə əsasən, X-XI siniflərdə sənətkarın həyatı və yaradıcılıq yoluna həsr olunan dərslərdə dərsin mərhələlərini və təxmini vaxt bölgüsünü aşağıdakı kimi müəyyənləşdirə olar:

1.Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması ...3 dəq.
2. Motivasiya........................................................ 4 dəq.
3. Tədqiqatın aparılması....................................... 7 dəq.
4. Məlumat mübadiləsi........................................10 dəq.
5. Məlumatın müzakirəsi və təşkili...................... ..7 dəq.
6. Nəticələrin çıxarılması.................................... ..4 dəq.
7. Yaradıcı tətbiqetmə........................................ ..7 dəq.
8. Qiymətləndirmə ev tapşırığının verilməsi............3 dəq

*Cəmi: 45 dəq.*

Təbii ki, dərsə uğurlu təşkili ona hazırlıqdan, planlaşdırma işini düzgün təşkil etməkdən keçir. Müəllim sinif üzrə təlim nəticələrinin tələblərini, məzmun standartlarını əldə rəhbər tutmaqla dərsin təlim, tərbiyə və inkişaf məqsədlərini (təlim nəticələrini) müəyyən etməlidir. Bunun üçün təhsilin məqsəd və vəzifələrinə dair rəsmi sənədlərin qoyduğu tələblər bir daha yada salınmalıdır. Yalnız bu iş tamamlandıqdan sonra



təfərrüatlara enmək olar: dərs mərhələlərində görülən işləri ardıcıllıqla sıralamaq olar. Deməli, müəllim hədəfi müəyyənləşdirməli, ona çatmağın ən səmərəli yollarını, üsullarını və vasitələrini aydın təsəvvür etməlidir.

X-XI siniflərdə sənətkarların həyatı barədə məlumatın öyrədilməsində güdülən məqsəd sənətkarın keçdiyi ömür yolu ilə şagirdləri tanış etmək, onun bədii irsinə maraq və məhəbbətin aşılanması işinə bir stimul yaratmaqdır. Məlumdur ki, sənətkarı əhatə edən və onun dünya görüşünün formalaşmasına təsir edən mühit bu və ya digər dərəcədə əsərlərində də müəyyən izlər buraxır. Sənətkarın ədəbi və ictimai mühiti bilinməzsə, onda onun əsərlərində qaldırılan problemlərin anlaşılmasında da bir natamamlıq özünü göstərər. Deməli, X-XI siniflərdə sənətkarın həyatı və yaradıcılıq yoluna dair məlumat veriləndə həm bu amil, həm də bu sənətkarların unudulmaması, onlara bu qədər ehtiram göstərilməsi səbəbi diqqət mərkəzində saxlanılmalıdır. İşin mənəvi tərəfləri müəllimə də, şagirdə də aydın olmalıdır. Elə həyat materiallarının öyrənilməsinə həsr olunan dərslərdə həmin işlər bir vəzifə kimi qarşıya qoyulmalıdır. Ona görə də belə dərslərin hamısına xas olan ümumi və oxşar məqsədlər ortaya çıxır. Yəni

1. Sənətkarın yaşayıb-yaratdığı dövr və mühitin düzgün anlaşılmasına şəraitin yaradılması,
2. Sənətkarın həyatı və yaradıcılıq yolundan dəyərli məqamları, fəaliyyətinə, dünyagörüşünün formalaşmasına təsir göstərən amilləri düzgün qiymətləndirilməsi,
3. Tədris nəzərdə tutulan əsərin yaranma tarixinə, mühitinə xüsusən diqqət yetirilməsi,
4. Sənətkara, onun həyat və fəaliyyətinə müasirlərinin və ondan sonra gələnlərin, həmçinin dövlətimizin verdiyi qiymətə diqqət yetirmək və şagirdin bu məlumatlardan özü üçün bir nəticə çıxarması qayğısına qalınması,

5. Şagirdlərin təfəkkürünün, nitqinin, mənəvi aləminin inkişaf etdirilməsi

məsələləri diqqətdə saxlanılmalıdır.

X-XI siniflərdə *sənətkarın həyatı və yaradıcılıq yolu ilə bağlı* məlumatların öyrədilməsi zamanı fəal(interaktiv) dərsin induktiv dərs tipinin gedişi əsas götürülməlidir. X sinfin müəllim üçün vəsaitində mövzunun tədrisi üçün fəal(interaktiv) təlim yerində tətbiq edilməmişdir. Bunu bizim irəli sürdüyümüz indiki dərs modeli ilə müqayisə etməniz kifayət edər.

Əvvəlcə diqqətinizə sxematik modeli təqdim edirik. Bu zaman təxminən aşağıdakı səpkidə (sxematik formanı təqdim edirik) işlər qurmaq olar:

*1. Motivasiya*: a) Simvolu material nümayişi, mövzunun müəyyənləşdirilərək lövhəyə yazılması, b) Tədqiqat sualının qoyulması və lövhəyə yazılması, c) Tədqiqat sualına şagirdlərin verdikləri ilkin ehtimalların dinlənilməsi və yığcam halda lövhəyə yazılması.

*2. Tədqiqatın aparılması*. Dərsin təlim nəticələrində əksini tapan məsələlərin qrup tapşırıqları formasında icra olunması, üçün şagirdlərin tədqiqat işlərinin təşkil olunması.

*3. Məlumatın mübadiləsi*. Qrup işlərinin təqdimi. Digər şagirdlərin, təqdimatçıya sualları olarsa, ona cavab verilməsi. Qrup işlərinin qiymətləndirilməsi.

4. *Məlumatın müzakirəsi və təşkil olunması* (yəni qrup-laşdırılması). Təqdim olunmuş iş vərəqlərindəki məlumatların toplu halında nəzərdən keçirilməsi, onlarda əks olunan məlumatların ümumiləşdirilərək sistemə salınması, yekun bir qərara gəlinməsi.

*5. Nəticələrin çıxarılması*. Yekun qərarla motivasiya mərhələsində irəli sürülən tədqiqat sualı və ilkin fərziyyələr arasında əlaqələrin qurulması, tutuşdurma və müqayisənin aparılması, fərziyyələrdə irəli sürülən məsələlərin hansının təsdiq, hansıların isə yeni olduğunun ayırd edilməsi. Yəni nəticənin çıxarılması.



*6. Yaradıcı tətbiqetmə*. "Sənətkarın həyat yolunun məndə oyatdığı təəssürat" və ya "Bu ömür yolunu mən nəyə bənzədərdim?" mövzusunda esse yazmaq.

*7. Qiymətləndirmə(Refleksiya) və ev tapşırıqlarının verilməsi*.

İndi isə dərsin planına diqqət yetirək.

X sinifdə **İ. Nəsiminin həyatı, yaradıcılıq yolu** tədris olunarkən dərsi təxminən aşağıdakı şəkildə planlaşdırmaq olar:

**Mövzu:** İmadəddin Nəsiminin həyatı və yaradıcılıq yolu

**Standartlar**: 1.2.4., 2.1.1., 2.2.1., 3.1.2., 3.1.3.

**Inteqrasiya**: Tarix, 0.0.0.

**Texnikalar**: klaster, beyin həmləsi, Venn diaqramı, T-sxem, müzakirə,

**Iş forması**: böyük və kiçik qrupda iş

**Resurslar** (təchizat):

-Nəsimi filmdən parça, musiqi "Etmə gil" rədifli qəzəli. https://yandex.ru/video/search?p=3&filmId=13259442750920529608&text=nəsimi%20filmindən%20musiqi&noreask=1&path=wizard&reqid=1505034865256665-710745628839777460155688-man1-3579-V

-Proyektor(və ya görüntünün telefondan izlənilməsi).

-Markör və iş vərəqləri.

**Dərsin təlim nəticələri**:

1. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial siyasi, mənəvi dəyərləri baxımından təhlil edir, nəticə çıxarır,

2. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir,

3. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

4. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

5. "Nəsimi əsərlərində insan amili" mövzusunda esse.

**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması ...3 dəq.
2. Motivasiya........................................................ 4 dəq.
3. Tədqiqatın aparılması........................................ 7 dəq.
4. Məlumat mübadiləsi.........................................10 dəq.
5. Məlumatın müzakirəsi və təşkili...................... ..7 dəq.
6. Nəticələrin çıxarılması.................................... ..4 dəq.
7. Yaradıcı tətbiqetmə......................................... ..7 dəq.
8. Qiymətləndirmə ev tapşırığının verilməsi...........3 dəq.

Cəmi: 45 dəq.

**Dərsin gedişi:**

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması**.

**2. Motivasiya**

Bu münasibətlə şagirdlərin diqqəti "Nəsimi" bədii filmindən "Etmə gil" qəzəlinin səsləndirilməsinə yönləndirilir. Köməkçi suallar:

a) Fraqment xoşunuza gəldimi?

b) O sizə nə kimi duyğular aşıladı?

c) Bu gün kimdən söhbət açılacaq?

d) Nəsimini həyatı və bədii irsinin günümüz üçün dəyəri barədə nə deyə bilərsiniz?

***Tədqiqat sualları:*** 1. Nəsimi baş verən bəlalardan, fəlakətdən özünü qurtara bilərdimi?

2.Nəsimi irsinin öz dövrü və bu günümüz üçün əhəmiyyəti barəsində mətndə hansı fikirlər söylənə bilər?

(İzahat prosesində mövzunun adı, tədqiqat sualları yazılmış vərəqə lövhəyə yapışdırılır. Ehtimallar alınıb onun altıda qeyd olunur).



**3. Tədqiqatın aparılması.**

Qrup işləri təşkil olunur. Bu zaman aşağıdakı tapşırıqlardan istifadə oluna bilər:

*1-ci qrup:* Nəsimi irsini dövrün sosial siyasi, mənəvi dəyərləri baxımından təhlil edin. Ondan nə kimi nəticələr çıxarmaq mümkündür?

*2-ci qrup:* Nəsimi yaradıcılığına Sufi-hürufi və məhəbbət ruhlu əsərləri əsasında Venn diaqramı vasitəsilə münasibət bildirin.

*3-cü qrup:* Təsəvvür edək ki, Nəsimi bu gün yaşayıb-yaradır. T- sxem.

| Ədəbiyyatımız nələri qazanardı? | İtkilərimiz nə ola bilərdi? |
|---|---|
| .... | .... |

*4-cü qrup:* Nəsiminin təriqətə xidmət edən əsərlərinin başlıca xüsusiyyətlərinə, mövzusuna, problemlərinə münasibət bildirin

*5-ci qrup:* Şairin fəlakətlərdən qaçması, xilas olması mümkün idimi? Düşüncələrinizi qeyd edin.

**4. Məlumat mübadiləsi**. Təqdimatlar dinlənilir və suallar yaranarsa, təqdimatçı onları cavablandırır.

**5. Məlumatın müzakirəsi və təşkili.** Təqdimatlara ümumi bir nəzər salınır və oradakı məlumatları ümumiləşdirmək, sistemləşdirmək lazım gəlir. Bunun üçün aşağıdakı suallardan istifadə oluna bilər:

*1. Nəsimi irsinin dəyəri barədə nə kimi fikirlər yarandı?*

*2. Nəsimi lirikasının başlıca xüsusiyyətlərinə nələr daxil oldu?*

*3. Nəsimi irsinin dəyəri barədə hansı qənaətlərə gəlmək olar?*

*4. Şairin başına gələcək bəlalardan qaçması nə zaman mümkün ola bilərdi?*

*5. Nəsiminin həyatı, yaradıcılıq yolu barəsində aldığımız bilikləri necə ümumiləşdirə bilərik?*

**6. Nəticələrin çıxarılması**. Əldə olunan yekun qənaətlərlə ilkin fərziyyələr tutuşdurulur və yeni bilik əldə olunur.

**7. Yaradıcı tətbiqetmə**. Bu zaman essenin yazılması və klasterin tərtib olunması tapşırıla bilər. Klasterin mərkəzində "Nəsimi" ifadəsi yazılacaq, ətrafında isə onu xarakterizə edən sözlər düzüləcəkdir.

**8. Qiymətləndirmə və ev tapşırığının verilməsi**.

Qiymətləndirmə meyarları:

-Təhlil etmə

-Nəticə çıxarma

-Tənqidi münasibət bildirmə

-Nitqində istifadə etmə

Evdə: Materialın məzmunu uyğun internet resurları ilə iş: Nəsiminin qəzəlləri(axtarmaq və təqdimat hazırlamaq).

## XI sinif

**Mövzu:** C. Məmmədquluzadənin həyatı[34]

**Standartlar**: (bu kursda standartlar yox idi)

**Inteqrasiya**: Tarix.

**Texnikalar**: klaster, beyin həmləsi, müzakirə

**Iş forması**: böyük və kiçik qrupda iş

**Resurslar** (təchizat): filmdən parça, musiqi, proyektor(və ya telefondan görüntünün nümayişi).

**Dərsin təlim nəticələri**:

a) Sənətkarın hansı bir ömür yolu keçməsinə münasibət bildirir,

b) Sənətkarın ədəbi, ictimai fəaliyyətinin mənasını izah edir,

[34] Yeni kursda həyatı, yaradıcılıq yolu başlığı altında təqdim olunur.



c) Vətən, millət, xalq, ziyalı anlayışlarının Mirzə Cəlilin ömür yolundakı izlərinə münasibət bildirir,

d) Fikirlərini əsaslandırır, fakt və hadisələrə münasibət bildirir.

**Üsul:** Beyin həmləsi, BİBÖ, müsahibə, müzakirə

**Dərsin tipi:** induktiv

**Təchizat:** şəkil – Mirzə Cəlil, Həmidə xanım; internet resursları(YouTube–"C. Məmmədquluzadə")





**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması ...3 dəq.
2. Motivasiya......................................................... 4 dəq.
3. Tədqiqatın aparılması........................................ 7 dəq.
4. Məlumat mübadiləsi.........................................10 dəq.
5. Məlumatın müzakirəsi və təşkili..................... ..7 dəq.
6. Nəticələrin çıxarılması.................................... ..4 dəq.
7. Yaradıcı tətbiqetmə........................................ ..7 dəq.
8. Qiymətləndirmə və ev tapşırığının verilməsi......3 dəq.

Cəmi: 45 dəq.

**Dərsin gedişi:**

**1. Motivasiya**. Birinci şəkil göstərilir və onun altında belə bir cümlə oxunur: "Qələmin müqəddəs vəzifəsi xalqına xidmət eləməkdir"(Cəlil Məmmədquluzadə). Şagirdlərdən soruşulur: Verilmiş cümləyə münasibət bildirin. O, sizdə nə kim təəssürat oyatdı? Fikrinizi əsaslandırın. - Uşaqlar, bu dərsimizdə,

Sizcə, kimdən söhbət gedəcəkdir? Şagirdlər Mirzə Cəlil sözünü qeyd edirlər(İp ucunu kəlamın Mirzə Cəlilə aid olduğunu bildirən sözlər verir).

Müəllim BİBÖ cədvəlindən istifadə etməklə şagirdlərin iştirakı ilə əvvəlcə birinci, sonra isə ikinci qrafanı doldurur(Şagirdlər aşağı siniflərdə , eləcə də VIII sinifdə onun barəsində bir qədər geniş məlumat almışlar. Ona görə də BİBÖ cədvəlindən istifadə olunması məsləhətdir – F.Y.).

Sual: - Uşaqlar, Mirzə Cəlil haqqında biz nə bilirik?

| Bilirik: | İstəyirik bilək(?) | Öyrəndik |
|---|---|---|
| ……. | ---- --- --- ----- | ---- --- ------ --- |

İkinci qrafada "açar sözlər"in dəstəyi ilə suallar tərtib edilir və orada qeyd olunur. Şagirdlər müxtəlif cür suallar tərtib edə bilər. Sonra həmin sualların içərində təxminən aşağıdakı məzmunda olanları dairə alıb tədqiqat sualı kim elan etmək lazımdır.

Tədqiqat sualı: - Sizcə, bu mətndə Cəlil Məmmədquluzadənin həyat və fəaliyyətini müasirlərindən fərqləndirən hansı keyfiyyətlər barəsində söz açıla bilər? Şagirdlərin fərziyyələri alınıb lövhəyə qeyd olunduqdan sonra növbəti mərhələyə keçilir.

**2. Tədqiqatın aparılması.** Qruplara bölünmə işi aparılır. Hər qrup üçün tapşırıqlar təqdim olunur, onun yerinə yetirilməsi qaydası, tapşırığın icrası üçün ayrılan vaxt, qiymətləndirmədə nəzərə alınacaq cəhətlər(meyarlar) izah olunur. Qruplar tədqiqata başlayırlar. Qrup tapşırıqları üçün aşağıdakı suallardan istifadə oluna bilər:

1-ci qrup: *Sənətkarın necə bir ömür yolu keçməsini müşahidə edin. Bu materialdan hansı nəticəni çıxarardınız? Cavablarınızı əsaslandıraraq qeyd edin.*

2-ci qrup: *Sənətkarın bədii irsinin əhəmiyyəti barədə hansı məlumatlara rast tərcümeyi-halında əksini tapan xronoloji məlumatları sırası ilə qeyd edin.*



3-cü qrup: *Mirzə Cəlilin Qori seminariyası və müəllimlik fəaliyyətinə dair məlumatlar Sizdə hansı təəssürat buraxdı? Fikrinizi əsaslandırmağa çalışın.*

4-cü qrup: *Mirzə Cəlilin hüquqi fəaliyyəti, mətbuat dünyasına gəlişi barədə məlumatlar sizdə nə kimi təəssürat oyatdı? Fikrinizi əsaslandırın.*

5-ci qrup: *Mirzə Cəlil irsinə, fəaliyyətinə sağlığında və ondan sonrakı zamanlarda verilən qiymət necə olmuş və siz onu necə dəyərləndirərdiniz?*

**3. Məlumat mübadiləsi.** Şagirdlər verilmiş reqlamentə uyğun olaraq(hər qrupun təqdimatı üçün maksimum 2 dəqiqə) öz işlərini bir-bir təqdim edir, onlara sual olarsa, ona cavab verilər. Qrup işlərinin qiymətləndirilməsi həyata keçirilir.

**4. Məlumatın müzakirəsi və təşkili(qruplaşdırılması).**

Müəllim şagirdlərin diqqətin təqdimatlara cəlb edir, müşahidələr apartdırır, onları arasında rabitələri müəyyən etdirir, materialları müzakirə etdirərək ümumiləşdirməyə nail olur. Bunun üçün aşağıdakı yardımçı suallardan istifadə oluna bilər:

*a) Uşaqlar, gəlin təqdimatlardakı məlumatlara nəzər salaq. Oradakı fikirləri ümumiləşdirməyə çalışaq. Bu təqdimatlar nəzərən belə bir suala cavab tapaq. Sizcə, o, necə ömür yolu seçmişdi?*

*b) Bu ömür yolunun seçilməsində ondan asılı olan və olmayan hansı məqamları xüsusi qeyd edərdiniz? O həyatda mövcud oldu, yoxsa, bu ömrü yaşadı?*

*c) Ola bilməzdimi ki, sadəcə müəllimlik fəaliyyətini edə idi? Nə üçün bu fəaliyyəti ilə kifayətlənmədi?*

*d) Onu başqa cür yaşamağa sövq edən hansı qüvvə idi? Həmin qüvvəyə Siz necə münasibət bildirərdiniz?*

*e) Hər bir insan həyatda öz ömrünü yaşayır. Bəzən insanın iradəsindən asılı olmayan elə bir mühit olur ki, o, məcburən bu cür çərçivələri sındırıb kənara çıxa bilmir. Sizcə, Cəlil Məmmədquluzadə o çərçivələrə sığdımı?*

f) *Onun fəaliyyəti sağlığında və ölümündən sonra necə qiymətləndirilmişdir? Bu fakta münasibət bildirin. Nəyə təəssüflənir, nəyi bəyənir, nəyin isə belə olmasını istəməzdiniz?*
g) *Bu ömür yolundan hansı dərsləri götürmək mümkündür? Nə bizə gərəkli, faydalı ola bilərdi?*

Verilmiş suallar əsasında ümumiləşdirmə aparılır və yekun qənaət ortaya qoyulur. Bu qənaətdə şəxsiyyəti, ədəbi-ictimai fəaliyyəti, vətən və millət fədaisi olması, mənalı və zəngin ömür yolu keçməsi vurğulanır. Sənətkarın ömür-gün yoldaşı Həmidə xanımın şəkli nümayiş etdirilir.

**5. Nəticələrin çıxarılması.** Müəllim yekun qənaətlə motivasiya mərhələsində irəli sürülən tədqiqat sualına və ona verilən ilkin cavablara – fərziyyələrə şagirdlərin diqqətini cəlb etdirir. Nələrin təsdiq, nələrin isə yeni olunduğunu onlardan soruşur. Şagirdlər hər iki məlumatı tutuşdurur, müqayisə aparır və nəticə çıxarırlar. BİBÖ cədvəlinə qayıdılır hansı suallara aydınlıq gətirildiyi "+" işarəsi ilə qeyd olunur. Nələrin isə yeni olduğu "Öyrəndik" qrafasının altında qeyd olunur. Beləliklə, yeni bilik əldə edilmiş olur.

**6. Yaradıcı tətbiqetmə.** Sinifdə: Mirzə Cəlillin həyatına dair klaster tərtibi. Evdə: "Sənətkar və zaman" mövzusunda esse yazmaq.

**7. Qiymətləndirmə(Refleksiya) və ev tapşırıqlarının verilməsi.**

---

**?!**

1. **Tərcümeyi-hal materiallarının tədrisi əhəmiyyəti nədir?**
2. **Məktəbdə bu materiallar necə öyrədilməlidir?**



## ƏDƏBİ ƏSƏRLƏRİN ÖYRƏDİLMƏSİ

Orta məktəb ədəbiyyat kursunun (proqramının) əsas hissəsini ədəbi əsərlər təşkil edir. Dövlətimizin qarşıya qoyduğu məsul və şərəfli vəzifələr bu əsərlərin tədrisi prosesində həyata keçirilir.

Ədəbi əsərlərin təlim-tərbiyəvi imkanları olduqca genişdir. Şagirdyönümlülük, nəticəyönümlülük, inteqrativlik, şəxsiyyətyönümlülük, şagirdlərdə həyati və ünsiyyət bacarıqların formalaşdırılması və inkişaf etdirilməsi, onların mənəvi aləminin zənginləşdirilməsi biz müəllimlərin tədris prosesində bu əsərlərdən necə istifadə etməyimizdən çox asılıdır.

Ədəbi əsərlər bir təsadüf olaraq dərsliklərə gətirilmir. Onların hər birinin seçilib dərsliklərə yerləşdirilməsində bir qanunauyğunluq, bir zərurət vardır.

Dərslik müəllifləri dövlətin nə istədiyini yaxşı bilir və həmin tələbələri ödəyə biləcək bədii nümunələri dərsliyə daxil edirlər.

Rəsmi sənədlərin qarşıya qoyduğu tələblərlə Siz də yaxından tanışsınız. Yəni kimi yetişdirməliyik, o şəxsə hansı bilik, bacarıq və keyfiyyətlər aşılamalıyıq bizə bəllidir.

İndi o vəzifələri uğurla, şərəflə yerinə yetirmək gərəkdir. Çünki heç kimə etibar olunmayan bir iş, müqəddəs varlıq hesab etdiyimiz şagirdlərimizin gələcək taleyi(dövlətimizin taleyi) bizlərə tapşırılır.

Bizim görəcəyimiz hər bir iş həyati bacarıqlara yiyələn, rəqabətə davamlı, öz mövqeyini ifadə etməyi və qorumağı, kollektivdə ünsiyyət qurmağı və işləməyi bacaran, fərqli fikirlərə hörmətlə yanaşan, hər bir addımında ailəsini, dostunu, yoldaşlarını, vətənini, onun mənafeyini, dövlətçiliyini qorumağa hazır olan, rastlaşdığı problemlərdən qorxmayan, onun məharətlə həll edən, həyati mövqe qazanmağı bacaran bir insanı yetişdirməkdən ibarətdir.

Dərsliklərdə əksini tapan əsərlər, onların məzmunu, qaldırdığı problemlər, aşıladığı ideyalar həmin məsələlərin reallaşdırılmasına, gənclərin bir şəxsiyyət kimi yetişməsinə, vətəninə və dövlətinə dərin sevgilərlə böyüməsinə, həyata hazırlanmasına rəngarəng imkanlar açır. Deməli, müəllim bu məqamları bir an da olsa, unutmamalıdır.

Yeni kurs tamamilə ədəbi əsərlərin öyrənilməsinə həsr olunmuşdur. Burada əsas hədəf fənyönümlüllük deyildir. Fənnə dair bilik və bacarıqların verilməsi ilə yanaşı işin digər cəhətlərinə də diqqət yetirilməlidir.

Ədəbi əsərlərin hər biri şəxsiyyətin yetişdirilməsində, onlara həyati bacarıqların aşılanmasında bir vasitədir. Hədəf müasir dövrün qarşıya qoyduğu tələbələrə cavab verən, çətinliklərə sinə gərən, problemləri görən və onunla üzləşəndə səmərəli həlli yollarını axtarıb tapan, həyatda sağlam mövqe qazanmağı və tutmağı bacaran, mühüm həyati və ünsiyyət bacarıqlarını sahib olan insanın yetişdirilməsidir. O insanın ki, o, həyatdan baş açmağı, karyerasını qurmağı, ailəsinə, elinə, obasına, xalqına və dövlətinə fayda gətirəcək biləcək fəaliyyət göstərməyi, proqnozlışdırmağı, planlaşdırmağı, icra etməyi, hər bir şeyi özünün əldə etməsini bacarsın.

Gördüyünüz kimi, bu keyfiyyətlər bir qədər əvvəllərdə nəzərdən keçirdiyiniz rəsmi sənədlərdə də öz əksini tapmışdır(bax: "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu" bölmə 4.0., maddə 4.0.1. 4.0.2. 4.0.3. bölmə 19 maddə 19.1. 19.2. 19.13. 19.17.; "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları(kurikulumları)" sənədi "Ümumi təhsilin məzmunu " bölməsi, "ümumi təhsil pilləsində təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsi" (Sənədin 7-ci bölməsi))

Ədəbi əsərlərin şagirdlərin əqidəli və şüurlu bir vətəndaş kimi böyüməsində də geniş imkanlar yaradır.

Biz burada həm ümumi təlim nəticələrini, həm də ədəbiyyat fənni üzrə məzmun standartını, həm də siniflər üzrə



təlim nəticələrini xatırlatmaq istərdik. Çünki həmin anlayışlar ədəbiyyat tədrisinin V-IX və X-XI siniflərdə nəyə nail olacağını aydın şəkildə göstərir.

Nəzərdə tutulan təlim nəticələrinin əldə olunması üçün siniflər üzrə məzmun standartları ilboyu işlənməlidir. V sinfin sonundakı nəticələr o zaman əldə olunacaq ki(eləcə də digər siniflərdə), hər 3 məzmun xətti üzrə nəzərdə tutulan alt-standartlar ilboyu işləsinlər.

V-XI siniflərdə ədəbiyyat fənninin özəyini ədəbi əsərlər təşkil etdiyindən tədris üçün ayrılan vaxtın çoxu həmin əsərlərin öyrənilməsinə həsr olunur. Bundan əlavə proqramda sinifdənxaric oxu materiallarına, summativlərə, layihələrlə bağlı işlərə də müəyyən vaxt məsrəfi nəzərdə tutulmuşdur.

Ədəbi əsərlər müəllif narahatçılığının məhsuludur. Ətraf aləmin müxtəlif əxlaqi-mənəvi, ictimai-siyasi, ekoloji və b. problemləri onun bədii araşdırmalarının obyektinə çevrilir. Cəmiyyəti düşündürən aktual problemləri sənətkarlar müxtəlif ədəbi növlərdə əks etdirirlər. Kimin gücü, qabiliyyəti, istedadı hansı ədəbi növə çatırsa, onlar bu ədəbi növdə öz əsərlərini yaradırlar. Əgər ətrafa, təbiətə, insanın mənəvi aləminə münasibət duyğu, tərənnüm yolundan keçərsə, onda sənətkar lirik növün janrlarından, söhbətvarilik, təhkiyə əsas götürüləcəksə, epik növün janrlarından, mürəkkəb həyat hadisələrini göstərmək, tamaşaçının gözü önündə canlandırmaqdan keçəcəksə, dramatik növün janrlarından istifadə edir.

Hər üç ədəbi növün məziyyətləri və sənətkarlıq cəhətləri ilə bağlı Siz müəyyən təsəvvürlərə maliksiniz. Sənətkarların bu əsərləri yazarkən nə kimi hisslər keçirdiyini təsəvvür etmək olduqca çətindir.

Adi bir məsələyə diqqətinizi cəlb etmək istərdik. Yazıçılardan biri müsahibələrində *gün ərzində neçə saat işləyirsiniz* sualına belə cavab vermişdi ki, *on saat*. Başqa bir suala - *Siz bu müddətdə neçə səhifə irəliləyirsiniz?* - cavabı bu

olmuşdu ki, *əgər povest, yaxud roman üzərində işləyirəmsə, gün ərzində bir səhifə, əgər hekayə üzərində işləyirəmsə, onda bir sətir irəliləməyə çalışıram.* Müsahibənin məzmununa diqqətlə fikir verin. Deməli, əlimizdə tutduğumuz hər hansı bir hekayənin meydana çıxmasında sənətkar təxminən 10 saat ərzində görün nə dərəcədə gərgin əmək sərf etməli olur. Bunu təsadüf saymaq olarmı?

Başqa bir filosof dostuna yazdığı məktubunda son sətirlərini bu cür qurtarırdı. - *Bağışla ki, vaxtım az olduğundan Sizə məktubu uzun yazmalı oldum.* Mənaya fikir verin. Necə yəni vaxtım az olduğundan? Yəni müəllif onu demək istəyirdi ki, əgər vaxtı olsa idi, onda məktub üzərində bir qədər çox işləyər, onun məzmununu təkmilləşdirər, yığcamlaşdırar və dostunun da vaxtını çox almazdı.

Ədəbi əsərlərin üzərində aparılan işlər də belə əzablı və nəticə etibarı ilə şərəfli bir yoldan keçir. Sənətkar söz əzabını çəkməklə kamil nümunələr yaratmağa səy göstərir. Bəzən bizə adi təsir bağışlayan hər hansı bir daş parçası, şair gözündə gözəl bir poetik obraza, vasitəyə çevrilir. Beləliklə də, bizim gözümüzdə o, tamamilə yeni bir lövhənin canlanmasına, yeni duyğuların yaranmasına şərait yaradır.

Kitabların insanların səmimi dostlarına çevrilməsinin əsas səbəbi də buradan irəli gəlir. Onu inşa edənlər çalışırlar ki, ən zərif, ən kəsərli, ən poetik sözlərdən istifadə etməklə öz oxucularının qəlbinə yol tapsınlar. Onları həyatsevərliyə, qurub-yaratmaq eşqinə, vətən və yurd sevgisinə, böyük məhəbbətə, dostluğa, igidliyə, vətənpərvərliyə, ən gözəl insani keyfiyyətlərə, nəciblik və xeyirxahlığa, insanlar üçün ən yararlı işlər görməyə və s. səsləsinlər. Məhz bədii əsərlərin belə bir üstünlüyə malik olması hesabınadır ki, o, insanların təmənnasız dostlarına çevrilmiş, həmişə onlara doğru yol göstərmişdir. Təbiidir ki, həyatda heç kəs dostsuz yaşaya bilməz.



Məsələyə bu yönümdən yanaşsaq, orta məktəbdə ədəbi əsərlərin öyrədilməsinin nə qədər əhəmiyyətli olduğunu aydınca görə bilərik.

### 1. Ədəbi əsərlərin məzmununun öyrədilməsi (İnduktiv dərslər)

Ədəbi əsərlərin məzmununun öyrədilməsi əhəmiyyəti barədə metodik ədəbiyyatda xeyli müsbət fikirlər söylənilmişdir. Onu qeyd edək ki, əsərin məzmunun düzgün dərk olunması bu gün ən aktual məsələlərdən biri kimi gündəmdə durur. Fənn müəllimlərinin iştirakı ilə təşkil olunan dərslərdə onların mətnə münasibətini müşahidə edərkən bizdə bu qənaət bir daha təsdiq olundu ki, mətnin məzmununu – nədən söhbət getdiyini, dürüst müəyyənləşdirməkdə onların özləri də bilməyərəkdən səhvlərə yol verirlər.

İxtisasartırma kursunda ədəbiyyat müəllimlərinə belə bir sual ünvanlamışdıq: ədəbi əsərlərin məzmununu başa düşmək, anlamaq asandırmı? Onlar həmin suala fərqli şəkildə cavab vermişdilər. Ən çox bu fikir üzərində dayanılmışdı ki, mətnin dili qəliz söz və ifadələrdən ibarət olanda bu cür mətnləri anlamaq, oradakı fikirləri olduğu kimi başa düşmək olduqca çətinləşir.

Belə bir fikrin doğru və ya səhv olduğunu onlara aydın şəkildə çatdırmaq üçün mətn üzərində iş təşkil etməyi qərarlaşdırdıq. Müəyyən vaxt məhdudiyyəti nəzərə alınmaqla onlara bir şeir nümunəsi təqdim olundu və tapşırıq verildi ki, bu şeirin məzmunu ilə yaxından tanış olsunlar.

Sonra isə onlara əlavə tapşırıq verildi ki, şeirdən aldıqları təəssüratı bir vərəqdə qeyd etsinlər, orada nədən söhbət getdiyini aydınlaşdırsınlar. 60 nəfər müəllimdən yalnız bir nəfəri dilində çətin söz və ifadəsi olmayan bu parçanın məzmununa qismən yaxın gələ bilmişdi. Biz bu təcrübəni auditoriyalarda da müxtəlif vaxtlarda sınaqdan çıxardıq və demək olar ki, eyni mənzərənin şahidi olduq.

Deməli, bədii mətnlərin məzmununun doğru anlaşılmasında dil maneəsini qabartmağına dəyməz. Əsas məsələ mətndəki hər bir kəlməyə diqqət kəsilmək, onların arasında müəllifin ılıq nəfəsini duymaq gərəkdir. Əgər məzmun səhv anlaşılarsa, onda hansı səmərəli təhlil işindən söhbət gedə bilər? Müəllifin nə demək istədiyini təhrif etsək, onda biz nə əldə edə bilərik? Təbii ki, deyilmiş sözün arxasında gizlənən müəllif obrazına, onun bütövlüyünə, əmanətə xəyanət etmiş olarıq. Nəticədə də müəllifin demədiyi, nəzərdə tutmadığı məsələləri şagirdlərimizin düşüncəsinə yeritmiş olarıq. Belə bir prosesdə isə həm ədəbiyyatımız, həm də mənəviyyatımız itirər.

Belə ciddi qüsurların baş verməməsi üçün müəllim, hər şeydən əvvəl, proqramda tədrisi nəzər tutulan ədəbi əsərlərin məzmunu üzərində ciddi düşünməlidir. Hansı sinifdə mövzunu keçəcəksə, o sinfin təlim nəticələrinə, məzmun standartlarına baxmalıdır.

**Mətnə diqqət yetirə-yetirə o daim belə bir sualla özünə müraciət etməlidir: Mən mətndəki fikri təhrif etmirəm ki? Görəsən, buradakı bu sözü, müəllif nə üçün mətnə daxil etmişdir? Nə əcəb, bu sözün əvəzinə sinonimlərindən istifadə etməmişdir? Bu sözü seçməklə o, oxucusuna hansı hissləri(fikirləri) təlqin etməyi qarşısına məqsəd qoymuşdur? O nə üçün əsərinə belə bir başlıq vermişdir, həmin başlıq mətndə nə səviyyədə əhatə olunmuşdur?**

Əlbəttə, mətn müəllim tərəfindən **bir dəfə** oxunmaqla tamamən dərk oluna bilməz. Bir faktı xatırlatmaq istəyirik. **Əgər müəllim istənilən bir mətni əlinə götürüb onu elə-belə nəzərdən keçirəndə bu cür fikirləşsə ki, mətn ona aydındır, onun məzmununu bilir, deməli o, özünü aldatmış olur.** Belə müəllimlərə ulu Nizaminin bir beytini xatırlatmaq istərdik:

**O şey ki bizlərə tam aşikardır,**
**Orda da gizli bir xəzinə vardır.**



Müəllim əsərin məzmununu, onu nə üçün yazıldığını, özü üçün dəqiq müəyyən etdikdən sonra, onun öyrədilməsi yolları üzərində səmərəli iş qura bilər.

Ən əsas məsələlərdən biri də belə məzmun dərslərin **canlı, maraqlı və emosional** şəkildə qurulmasıdır. Müəllim bu məsələni bir anda olsa belə unuda bilməz. Hər bir dərsin hazırlıq mərhələsində bu sualı müəllim həmişə özünə verməlidir. ***Necə edim ki, dərsim maraqlı, canlı və düşündürücü olsun***. Əgər müəllim bu suallara səmimi cavab tapa bilsə, deməli, qazanan təkcə şagirdlərimiz deyil, bütövlükdə mənəviyyatımız və Vətənimizdir.

Ədəbi əsərlərin məzmunun öyrədilməsi dərslərinin günün tələbləri səviyyəsində qurulması hər bir müəllimi düşündürən məsələyə çevrilməlidir. Hazırda bir çox müəllimlər bu işi formal olaraq yerinə yetirirlər.

Qeyd edək ki, bu cür dərsləri də kifayət qədər maraqlı və canlı qurmaq olar. Dərslərdə şagirdlərə fikir söyləmək müstəqilliyi verilməli, onların düşünməyə yönləndirilməli, biliyi fəal şəkildə qazanılmasına cəlb olunmalı, şagirdlərin həyati təəssüratlarına, şəxsi təcrübələrinə istinad edilməlidir.

Əsərin məzmunun öyrənilməsinə həsr olunan fəal(interaktiv) dərslərdə iş daha maraqlı və canlı qurulur. Bunun üçün təlim texnologiyalarına dair bilikləri xatırlayın.

Ədəbi əsərlərin məzmunu üzrə iş aparılanda "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttindən 1.1. əsas standartının tərkibindəki alt-standartlardan, həmçinin də şifahi və yazılı nitq məzmun xəttindəki alt-standartlardan uyğun gələnləri seçilib dərsin təlim nəticələrinə gətirilməlidir. Standartların seçilməsində süni məhdudiyyət qoymaq olmaz. Belə ki, əgər əsərdə çətin sözlər, təsvir və ifadə vasitələri varsa, ifadəli oxunacaqsa, planlaşdırma, nağıletmə, janr xüsusiyyətlərini açıb göstərmə varsa, onda V sinifdə 1.1. əsas standartının tərkibində olan 1.1.1., 1.1.2.,1.1.3., 1.1.4., 1.1.5 alt-standartları (5), şifahi və yazılı nitqdən də azı 2 alt-standart dərsdə işləməlidir. Hələ

fənlərarası inteqrasiya zamanı əlavə olunacaq alt-standartları nəzərə almırıq. Unutmayaq ki, standartların seçimini materialın xarakteri və fəndaxili və fənlərarası inteqrasiya imkanları müəyyən edir.

Ədəbi əsərlərin məzmunu üzərində iş aparılanda "Ədəbiyyat və həyat həqiqətləri"ndə əksini tapan 1.1. əsas standartının nəzərdə tutduğu bilik və bacarıqlar şagirdlərə aşılanmalıdır. Siniflər üzrə bu bilik və bacarıqların inkişaf dinamikasını aşağıdakı kimidir:

V sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır.

1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir.

1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir.

1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir.

VI sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin



mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir.

1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir.

VII sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (dastan, hekayə, mənzum hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, mənzum hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota ) müəyyənləşdirir.

VIII sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz) şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, novella, dram poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafora, bədii təzad, kinayə) müəyyənləşdirir.

IX sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.



1.1.4. Bədii nümunələrin (hekayə, povest, roman, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.

X sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.

XI sinifdə:

Şagird:

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, sineqdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir.

Bədii əsərlərin məzmunu üzrə aparılan işlərin siniflə üzrə dəyişdiyinə diqqət yetirin. Bu məzmun fərqi həm də siniflərdə tapşırıqlara, qrup işlərinə təqdim olunan standartların fərqli olduğunu Sizlərə bir daha xatırladır.

Bu deyilənləri nəzərə alaraq sizə hər iki texnologiyalardan dərs mərhələlərinin fərqli olduğunu bir daha xatırladırıq və məzmun dərslərinin bu sistemlərə uyğun formada təxmini qurulması yollarını göstərmək istəyirik.



## a) TTİMY texnologiyası əsasında əsərin məzmunu üzərində işin təşkili (nümunə)

Bu cür dərslər üç mərhələdən ibarətdir və onların hər birinin öz vəzifəsi olur. Siz bunlar barəsində müəyyən məlumatlara maliksiniz. Belə dərslər 45 dəqiqəni əhatə etməlidir və burada müxtəlif iş formalarından(fərdi, kiçik, böyük) istifadə olunmalıdır

Dərsi planlaşdırarkən standartlara, texnikalar, iş formaları, resurslar, dərsin təlim nəticələri , dərsin təxmini vaxt bölgüsü qeyd olunmalıdır. İş prosesini izləmək baxımından bu nümunəyə də nəzər salın.

V sinifdə **Ə. Cəmilin "Can nənə, bir nağıl de"** şeirinin bu texnologiya ilə tədrisində dərsi aşağıdakı kimi planlaşdırmaq olar:

**Mövzu:** Ə. Cəmilin "Can nənə, bir nağıl de" şeirinin məzmunu və təhlili

**Standart:** 1.1.1., 1.1.2., 1.1.3., 1.1.5., 1.2.2., 1.2.3., 2.2.1., 3.1.1.

**İş forması:** fərdi, kiçik və ya böyük qruplarla iş.

**İş üsulu:** müzakirə, müsahibə, açıq suallar.

**Resurslar:** şəkillər, dərslik.

**Dərsin təlim nəticələri:** (məqsədlər aydın və qısa şəkildə sıralanaraq yazılır)

*1. Tanış olmayan sözlərin mənasını lüğətdən istifadə etməklə aydınlaşdırır*

*2. Şeiri məzmununa uyğun ifadəli oxuyur*

*3. Şeirin məzmununu yığcam (geniş) nağıl edir.*

*4. Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir.*

*5.Şeirdəki obrazların başlıca xüsusiyyətlərini aydınlaşdırır, əsaslandırılmış münasibət bildirilir.*

*6. Şeirdəki bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır.*

*7. Müzakirələrdə söylənilən fikirlərə münasibət bildirir.*

*8. Şeirin məzmununa, başlanğıcına, sonluğuna fərqli münasibət bildirir.*

**Dərsin mərhələləri və təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.... 3 dəq.
2. Düşünməyə yönəltmə....................................... 9 dəq.
3. Dərketmə..........................................................15 dəq.
4. Düşünmə..........................................................15 dəq.
5. Qiymətləndirmə və ev tapşırıqığı........................3 dəq.

Cəmi: 45 dəq.

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.**

**2. Düşünməyə yönəltmə**

-"İnsan həyatında nağılın rolu" mövzusunda essenin yazılması(4-5 dəq.). Yazıların dinlənilməsi(seçmə yolla, 6-7 nəfərin yazısı dinlənilir və alqışlanılır.

Yardımçı suallar:

1. Nağılları nə xoşa gələn edir?
2. İnsan həyatını nağıllarsız təsəvvür etmək olarmı?

*Tədqiqat sualı:*

1. Şeirdə nədən söhbət gedə bilər?
2. Onu necə ifadəli oxumaq, qəhrəmanlarını necə dəyərləndirmək, məzmunun necə nağıl etmək olar?

**3. Dərketmə**

- Şeir müəllim tərəfindən ifadəli oxunur. Arada fasilə edilir və sinfə müraciət olunur: - Sizcə, nənə nəvəsinə nağıl danışacaqmı? Nəyə görə belə düşünürsünüz?

Şeirin müəllim tərəfindən ilk oxusu başa çatdıqdan sonra ilkin təəssüratı aşkara çıxaran qısa müsahibə aparılır:

- Şeir Sizdə necə təəssürat oyatdı? Nəyə görə bu qənaətə gəldiniz?

- Şeirin şagirdlər tərəfindən oxusu təşkil olunur. 2-3 nəfərin tanışlıq oxusundan sonra mətn üzərində işə başlanılır. Bunun üçün məzmunun dərkedilməsinə və təhlil işinə xidmət edən suallardan istifadə olunur. Bu prosesdə standartların reallaşdırılması üçün onların məzmununa dair sual və tapşırıqlar



da işə qoşulur. Mətn üzrə iş tamamlandıqdan sonra onun ifadəli oxusu həyata keçirilir. Bu zaman yarış da təşkil oluna bilər.

**4. Düşünmə**.

Təhlil və tətbiq xarakterli suallardan istifadə:

- Siz şeirə hansı adı seçərdiniz? Nəyə görə?
- Şair bu şeir vasitəsilə nəyi aşılamaq istəyir?
- Obrazlara Siz necə münasibət bildirərdiniz?

-Şairin özünə Sizdə hansı münasibət yarandı və nəyə görə?

Alınan cavablar ümumiləşdirilir və "Nəvənin nağıl dünyası nə ola bilər?" mövzusunda ""Esse" yazdırılır. 5-6 nəfərin yazısı dinlənilir

Dərsdə fərqlənənlər qiymətləndirilir (formativ qiymətləndirmə)

**4. Qiymətləndirmə və ev tapşırığı**: Şagirdlərin fəaliyyəti aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

-ifadəli oxuma

-nağıletmə

-rolunu müəyyənləşdirmə

- münasibət bildirmə

Evdə iş: Mətnin məzmununa uyğun gələn söz və ifadələrin seçilməsi(nənə, nəvə barəsində müsbət anlamlı söz və ifadələr).

**b) Fəal(interaktiv) təlim əsasında əsərin məzmunu üzərində iş(nümunə)**

**V sinif[35]**

**Mövzu:** Cəlil Məmmədquluzadənin "Poçt qutusu" hekayəsinin məzmunu üzərində iş(1-ci saat).

**Standartlar:** 1.1.2; 1.1.3; 2.1.2; 2.2.1; 3.1.1; 3.1.2.

**İnteqrasiya**: təsviri incəsənət, 0.0.0.

**İş forması**: böyük və kiçik qruplarda iş

**Texnikalar**: klaster, beyin həmləsi, fasiləli oxu, müsahibə, müzakirə

**Resurslar**: poçt qutusu şəkli, Mirzə Cəlilin şəkli, vikipediyadan "Poçt qutusu"na aid 1967-ci ildə Mirzə Cəlilin eyni adlı əsərinə çəkilmiş kinofilmdən bir epizodu əks etdirən şəkil.

**Dərsin təlim nəticələri:**

1. Hekayəni ideya-məzmununa uyğun ifadəli oxuyur.
2. Hekayəni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.
3. Bədii əsərlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.
4. Müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir.
5. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.

**Dərsin tipi:** induktiv(yeni bilik verən dərs).

**(I variant)**

**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması................................................3 dəq
2. Motivasiya ................................................3 dəq.
3. Fasiləli oxu.............................................12 dəq.
4. Tədqiqatın aparılması..............................5-7 dəq.

[35] Köhnə proqramda bu mövzu V sinifdə keçilirdi. Siz işin təşkili metodikasını müşahidə edin.



5. Məlumat mübadiləsi............................. 5- 8 dəq
6. Məlumatın müzakirəsi və təşkili..............3 dəq.
7. Nəticənin çıxarılması................................2 dəq.
8. Yaradıcı tətbiqetmə.................................. 5 dəq.
9. Qiymətləndirmə və ev tapşırığının verilməsi...............................................2 dəq.

Cəmi: 45 dəq.

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.**

**2. Motivasiya**. Mövzunun tapdırılması üçün üç variant təklif edirik. Onların birindən istifadə oluna bilər.

A) "Dünyada o insanı bədbəxt saymaq olar ki, ömrünü avamlıqla başa vurur".

B) "Avamlıqdan, biliksizlikdən insanın başına çox bəlalar gələ bilər".

C) Bilməmək eyib deyil, soruşmamaq eyibdir.




"Poçt qutusu" (1967) filmindən kadrlar(internetdən)

Cümlələrdən biri sinifdə səsləndirilir və şagirdlərdən soruşulur. *Bu cümlədə ifadə olunan fikrə necə münasibət*

*bəsləyirsiniz? Fikrinizi əsaslandırmağa çalışın. Sizcə, insan necə ömür sürməlidir ki, o, bədbəxt olmasın?(*biz burada birinci cümlədən istifadə edərək dərsə başladıq). ... Şagirdlərin cavabları dinlənildikdən sonra müəllim yenidən belə bir sual verir: *Deməli, bu cümlədə nədən danışılırdı?* Şagirdlər *avamlıqdan* sözünü qeyd edirlər. Müəllim: *onda bizim bugünkü mövzumuz nə barədə ola bilər?* Şagirdlər: *yəqin ki avamlıq barədə*. Müəllim bildirir ki, *uşaqlar, siz, doğru buyurdunuz. Bu gün biz avamlıq barəsində danışacağıq*.

Müəllim bu sözləri deyə-deyə mövzunun adını dəqiq şəkildə lövhəyə qeyd edir: C. Məmmədquluzadənin "Poçt qutusu" hekayəsinin məzmunu üzərində iş.

Sonra müəllim tədqiqat suallarını səsləndirərək lövhəyə yazır.

**Tədqiqat sualı**:

1.*"Poçt qutusu" hekayəsində nədən söhbət açıla bilər?*

*2. Hekayəni hansı hissələrə bölmək olar? Onun məzmununu necə yığcam söyləmək olar?*

Birinci suala dair şagirdlərin ilkin ehtimalları alınır və lövhəyə qeyd olunur. Sonra müəllim ikinci sual barəsində bildirir ki, onun cavabını iş prosesində aydınlaşdırmaq lazım gələcəkdir. Sonra müəllim fasiləli oxu üsuluna müraciət edir.

**3. Fasiləli oxu.**

Müəllim bildirir ki, *İndi gəlin dediklərinizin nə dərəcə doğru olduğunu yoxlamağa çalışaq. Bunun üçün əsəri oxumağa başlayıram. Siz də kitablarınızdan məni izləyin.*

Müəllim əsərin birinci hissəsini oxuyub fasilə edir. Şagirdlərin ilk təəssüratlarını alıb bu hissədə nədən söhbət getdiyini soruşur. Sonra əsas sualı qoyur: Sizcə, əhvalat bundan sonra necə davam edəcək? Nəyə əsasən belə düşünürsünüz?. Bir neçə şagirdin fikirləri alınır və ikinci hissənin oxusuna başlanır. İkinci hissənin oxusu bitən kimi yenə də şagirdlərin təəssüratı alınır, oxunmuş hissədə nədən söhbət getdiyi aydınlaşdırılır və yenə də əsas sual qoyulur: Sizcə, hadisələr necə davam edəcək?



Nəyə əsasən bu cur düşünürsünüz? Şagirdlərin yenə də ehtimalları alınır və eyni iş növbəti hissələrin oxusunda da davam etdirilir(fasilələr üçün əsas ölçü bitkin hissələrdir). Sonuncu hissənin oxusuna başlanmazdan əvvəl isə sual bu cür qoyulacaq: *Sizcə, əsər necə tamamlanacaq?* və *Nəyə əsasən belə düşünürsünüz?*

Oxu tamamlandıqdan sonra ümumi təəssüratı aşkar çıxaran qısa müsahibə aparılır. Kinofilmdən götürülmüş şəkil sinifdə nümayiş olunur və onun əsərin hansı yerinə aid olduğu soruşulur.

**4. Tədqiqatın aparılması.** Məzmun üzrə ümumi sorğu bitdikdən sonra dərsin məqsədində əksini tapan standartların reallaşması üçün qrup tapşırıqları verilir.

*1-ci qrup*: Əsərdən verilmiş parçanın ifadəli oxusunu həyata keçirin.

*2-ci qrup*: Əsərin planını tərtib edin.

*3-cü qrup*: Əsərin məzmununu yığcam nağıletməyə hazırlayın.

*4-cü qrup*: Əsərdən xoşunuza gələn yerləri seçin və qarşında nə üçün bu yeri seçdiyinizi qeyd edin.

*5-ci qrup*: Siz, bu hekayəni necə tamamlayardınız?

**5. Məlumat mübadiləsi.** Qrupların təqdimatları dinlənilir. Əgər sual yaranarsa, təqdimatçı onu cavablandırır. Təqdimatlar bitdikdən sonra onlara qiymət verilir.

**6. Məlumatın müzakirəsi və təşkili.** Təqdimatlarda əksini tapmış məsələlərə ümumiləşdirici nəzər salınır və oradakı fikirlərə qruplaşdırılır. Nələrin əldə edilməsinə şagirdlərin diqqəti cəlb olunur və yekun qənaətə gəlinir. Bu zaman hədəf götürülməlidir: a) əsərdə nə barədə söhbət getdi, b) əsər hansı hissələr bölündü və necə adlandırıldı, c) əsərin ifadəli oxusu necə oldu, d) əsərin məzmununun yığcam nağıl edilməsi necə baş tutdu, e) əsərin tamamlanması üçün təklif olan variant necə alındı. Alınan fikirlər ümumiləşdirilir.

**7. Nəticənin çıxarılması.** Ümumiləşmiş fikirlə tədqiqat sualına verilmiş ilkin fərziyyələr tutuşdurulur və nələrin təsdiq, nələrin yeni olduğu aydınlaşdırılır. Beləliklə, yeni bilik əldə edilir.

**8. Yaradıcı tətbiqetmə.** Şagirdlərə tapşırıq verilir: Əsərin məzmununu əks etdirən klaster qurun.

**9. Qiymətləndirmə və ev tapşırığının verilməsi.**

- Əsərin məzmunu öyrənin. Əsərin məzmununa uyğun atalar sözləri yazın. Fikrinizi əsaslandırın.

## II variant

**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması...5 dəq
2. Motivasiya ........................................................3 dəq.
3. Tədqiqatın aparılması.........................................9 dəq.
4. Məlumat mübadiləsi........................................ 10 dəq.
5. Məlumatın müzakirəsi və təşkili........................7 dəq.
6. Nəticələrin çıxarılması.......................................5 dəq.
7. Yaradıcı tətbiqetmə...........................................3 dəq.
8. Ev tapşırığının verilməsi.................................3 dəq.

Cəmi: 45 dəq.

Dərsin motivasiya mərhələsindəki işlər eyni ilə saxlanılır. Növbəti mərhələdən iş bu cür davam etdirilir:

**2. Tədqiqatın aparılması.**

Müəllim şagirdləri qruplara 5 qrupa bölür. Hər qrupa tapşırıq verilir, icra vaxtı və iş qaydası elan edilir.

Qrup tapşırıqları:

1. Əsrin birinci hissəsinin planın tərtib edin.
2. Hekayədən bir parçanı ifadəli oxuya hazırlayın və ifadəli oxuyun.
3. Hekayəni ikinci hissəsinin planını tərtib edin, məzmununu yığcam formada nağıl etməyə hazırlayın.



4. Novruzəli hərəkətlərini ardıcıllıqla düzməyə çalışın və bunu əsaslandırın.
5. Hekayədəki başlıca fikri nədir? Fikrinizi əsaslandırın.

**4. Məlumat mübadiləsi.**

Qruplar tapşırıqlarının məzmunu və nəticələri ilə yoldaşlarını tanış etməyə başlayırlar. Digər qruplardan suallar olarsa, ona cavab verirlər. Şagirdlərin təqdimatları qiymətləndirilir.

**5. Məlumatın mübadiləsi və təşkili(sistemə salınması).**

Bu mərhələdə təqdimatlara nəzər salınır. Onlarda əks olunan məlumatların ümumiləşdirilməsi və yekunlaşdırılması baxımından müvafiq işlər görülür. Bunun üçün müəllim *yardımçı suallardan* istifadə edir.

*a) Əsərdəki əhvalat necə başladı və necə davam etdi?*
*b) Hekayəni göstərilən hissələrə bölməyi düzgün qəbul etmək olarmı?*
*c) Yoldaşlarınızın ifadə oxusu məzmunu düzgün çatdırdımı?*
*d) Xan və Novruzəli barəsində hansı məlumatlar əldə etdiniz?*
*e) Hekayədə başlıca fikri nə olduğunu yoldaşlarınız düzmü izah etdilər?*

Suallara cavab alındıqdan sonra kinofilmdən götürülmüş şəkil nümayiş olunur və onun əsərin hansı epizodu ilə bağlı ola biləcəyi dəqiqləşdirilir.

Məlumatların ümumiləşdirilməsi, ümumi qənaətin ortaya qoyulması ilə bu mərhələyə yekun vurulur.

**6. Nəticələrin çıxarılması.** Şagirdlərə müraciət olunur. Tapşırılır ki, indi əldə etdikləri yekun məlumatla ilkin fərziyyələrini tutuşdursunlar. Nələrin üst-üstə düşdüyünü, nələrin isə yeni olduğunu göstərsinlər.

**7. Yaradıcı tətbiqetmə.**

Sinifdə: Əsərdən aldığınız təəssüratı istənilən bir cümlə ilə ifadə edin.

Evdə: Novruzəli ilə bağlı klaster hazırlamaq.

1. **Qiymətləndirmə və ya refleksiya**

Qiymətləndirmə meyarları.

1.İfadəli oxuma.
2.Plan tərtib etmə,
3. Nağıl etmə.
4. Ümumi rəyə gəlmə.
4. Başlıca fikri anlama.

## Nəsr əsərlərinin məzmununa həsr olunan dərsin quruluşu

Nəsr əsərlərinin tədrisində fasiləli oxu üsulundan istifadə edilməsi daha məqsədəuyğundur. Oxu bitən kimi qısa təəssürat alınmalı və qrup tapşırıqlarına keçilməlidir.

Əsərin həcmi geniş olanda və məzmununun öyrədilməsinə 2 saat vaxt ayrılanda, hər bir dərsdə fasiləli oxu üsuluna müraciət olunmalıdır. Bəzən müəllimlər bu cür dərslərdə birinci saat məzmun üzərində iş aparanda, əsərin qalan hissəsini evdə oxumağı tapşırır. Bu düzgün yol deyildir.

Fasiləli oxu ilə iş tamamlandıqdan sonra tədqiqatın aparılması mərhələsinə keçilməli və qrup tapşırıqları verilməlidir. Sonra digər dərs mərhələlərində nəzərdə tutulan işlər yerinə yetirilməlidir.

Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:

1. Sinfi təşkili və ev tapşırıqlarının yoxlanması....... ....3 d.
2. Motivasiya............................................................ .3 d.
3. Fasiləli oxu............................................................... 9 d.
4. Tədqiqatın aparılması............................................... 8 d.



5. Məlumat mübadiləsi................................................ 8 d.
6. Məlumatın müzakirəsi və təşkili.............................. 5 d.
7. Nəticənin çıxarılması.............................................. 2 d.
8. Yaradıcı tətbiqetmə................................................. 5 d.
9. Qiymətləndirmə və ev tapşırığının verilməsi............2 d.

Cəmi: 45 dəq.

---

**?!**

1. **Ədəbi əsərlərin tədrisinin əhəmiyyəti barəsində nə deyə bilərsiniz?**
2. **Onların öyrənilməsi müəllimlərin üzərinə nə kimi məsuliyyət qoyur?**
3. **Ədəbi əsərlərin məktəbdə öyrənilməsi hansı mərhələlərdən keçir? Həmin mərhələlər barəsində nə kimi məlumata yiyələndiniz?**

## 2. Məktəbdə ədəbi əsərlərin təhlili (deduktiv dərslər)

Ədəbi əsərlərin öyrənilməsində ən mühüm mərhələ onun təhlil olunmasıdır. Ədəbi təhsilin qarşısına qoyulan mühüm işlər məhz həmin mərhələdə reallaşır. Əsərin məzmununda əksini tapan məsələlər – əxlaqi-mənəvi dəyərlər, müsbət insani keyfiyyətlər, çatışmazlıqların tənqidi və s. bu əsərlərdə öz əksini tapır. Şagirdlərdə onları müşahidə etdirmək, duydurmaq, qiymətləndirmək bacarığının formalaşdırılması bu gün vacib işlər sırasındadır. Bunsuz gənc nəslin yüksək mənəvi dəyərlər ruhunda böyüməsində heç bir irəliləyiş əldə etmək olmaz.

Ədəbi əsərlər müəlliflərin fakt və hadisələrə həssas münasibəti nəticəsində ortaya çıxır.. Bu münasibəti bir anda olsa yaddan çıxarmaq olmaz. Ətraf mühit, mənəvi məsələlər, psixoloji məqamlar bütün keyfiyyətləri ilə sənətkarın duyğular aləmindən keçir. Ona görə də bədii irsin öyrənilməsində sənətkarın ətraf aləmə belə duyğulu yanaşmasına lazımi diqqət yetirilməlidir.

Bədii əsərlər – irs həm də gələcək nəsillərə təqdim olunan, ünvanlanan əmanətlərdir. Onu lazımınca duymaq, obyektiv qiymətini vermək bizim işimizdir. Unutmayaq ki, bədii irsin əsl qiymətverəni zamanın özüdür. Öyrəndiyiniz bir çox əsərlər zamanın sərt sınağından üzü ağ çıxaraq bu günümüzə gəlib çıxmışdır. Yaxşı bilirsiniz ki, zaman – əsrlər süzgəcindən hər cür əsərlər keçə bilmir.

Ədəbi əsərlərin məzmunu kifayət qədər dərindən öyrənildikdən sonra onun təhlili həyata keçirilməlidir. Bu işi "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttidəki 1.2. əsas standartının tərkibindəki alt-standartlar, eləcə də şifahi və yazılı nitq məzmun xətlərindəki alt-standartlar yerinə yetirməlidir.

Uşaqlar yaxşıların, yaxud da pislərin nələrdən ibarət olduğunu diqqətlə müşahidə etməli, onların necə törədiyini izləməli, müsbət və ya mənfiliyin yaranması prosesini



hissələrinə ayırmalı və hər bir hissənin rolunu, vəzifəsini düzgün təyin etməyi bacarmalıdır.

Ədəbi əsərlər, qeyd etdiyimiz kimi, bir həyat məktəbidir. Bu məktəbdə insan üçün öyrəniləcək, təhlil ediləcək, araşdırılacaq çox məsələlər vardır. Bunun üçün də həmin yollara bələd olmaq olduqca vacibdir. Bu yolları məişətimizdə problemsiz olaraq tətbiq edirik. Nədənsə xoşumuz gələndə bunun səbəblərini asanlıqla izah edirik, bəyəndiyimiz və ya bəyənmədiyimiz yerləri, keyfiyyətləri əsaslandırmağa çalışırıq. Bədii əsərlərin təhlilində də təxminən eyni qayda vardır.

Müəllim bunlardan sonra metodikanın göstərdiyi üsullara, vasitələrə bələd olmalıdır. Əsərin təhlil olunması işində müəllimin sənətinə sevgisi, fəallığı və təşəbbüskarlığı da bu prosesdə az rol oynamır və bütün bu deyilənlər bütöv bir kompleksi yaradır.

Deməli, müəllim həm nəzəri cəhətdən ətraflı biliyə malik olmalı, həm də konkret bir əsərin təhlili qaydalarına yiyələnməlidir. O, yalnız bundan sonra ədəbi əsərləri lazımi səviyyədə təhlil etdirər və belə bir keyfiyyətləri şagirdlərinə aşılaya bilər. Bizim də məqsədimiz odur ki, hər iki tərəf – həm müəllim, həm də şagird ədəbi əsərləri təhlili yollarına dərindən bələd olsunlar. Bu yolları bilən şagird istənilən əsərlərin müstəqil təhlil olunmasında elə bir çətinlik çəkməyəcəklər. Əslində şagirdlərinə məhz belə bir bacarığı aşılamağı müəllim ciddi bir vəzifə kimi qarşısına qoymalıdır.

Ədəbi əsərlərin öyrədilməsində ən mühüm mərhələ təhlil dərslərinin təşkil olunmasıdır. Təhlil dərsləri əsərin iştirakçılarına, müəllif mövqeyinə, şeir parçalarındakı lirik və ya satirik obraza, onlarda ifadə olunan əhvali-ruhiyyəyə, əsərlərin bədii-sənətkarlıq məsələlərinə münasibətlərin aşkarlanması yolu ilə həyata keçməlidir. 1.2. əsas standartında bu məsələlər lazımi şəkildə ifadə olunmuşdur.

Epik və dramatik əsərlərdə şagirdlər obrazların hərəkət və davranışlarını, daxili və xarici keyfiyyətlərini, əsərdəki yeri

və mövqeyini, ifadə etdiyi əxlaqi-mənəvi dəyərləri düzgün dərk etməlidirlər. Unutmaq olmaz ki, müəllif yaratdığı obraz və ya obrazlar silsiləsi vasitəsilə bizə hansısa bir fikri təlqin edir. Əsərdə cərəyan edən əhvalat və hadisəni elə-belə, boş-boşuna danışmır. Ona görə də obrazların hər birinin fərdi keyfiyyətləri vardır və bu keyfiyyətlər şagirdlərə bəlli olmalıdır. *Obrazların qarşılıqlı münasibətləri, intriqa və ya ziddiyyətlərin səbəbləri, hadisələrin gedişatı, müəllif mövqeyinin dərk edilməsi, obrazların hərəkət və davranışlarının motivləri* diqqətlə araşdırılmalıdır.

**Lirik əsərlərdə** lirik qəhrəman və onun keçirdiyi əhval-ruhiyyə, **epik əsərlərdə** təhkiyəçi obrazı, surətlər aləmi, **dramatik əsərlərdə** personajların hərəkəti, monoloq və dialoqlar, remarkalar diqqətlə təhlilə cəlb olunmalıdır. Bu cür təhlillərdə müəllimin mühazirəsindən istifadə yolverilməzdir. Həmin təhlillərdə Əsas məsələ fakt və hadisəyə şagirdin özünün müstəqil yanaşmasına şərait yaratmaqdır. Müşahidələr göstərir ki, biliyin bu cür qazanılması daha möhkəm və davamlı olur.

Deməli, proqram materialının xarakterindən və sinfin səviyyəsindən asılı olaraq mətn üzrə şagirdlərin müstəqil işlədilməsi diqqət mərkəzində saxlanılmalıdır. Şagirdləri mübahisə aparmaq mədəniyyətinə yiyələndirmək, söylənilən rəylərə hörmət etmək, öz mövqeyini müdafiə etmək bacarığını məhz təhlil dərslərində öyrətmək lazımdır.

Təhlil dərslərinin məğzində "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinin 1.2. əsas standartlarının tələbələrinin ödənilməsinə diqqət yetirilməlidir. Bu standartın tərkibindəki alt-standartlarda nəzərdə tutulan bilik və bacarıqların inkişaf dinamikası aşağıdakı kimidir:

V sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.



1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir.

1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.

1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

VI sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir.

1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

VII sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) növ və janr baxımından müqayisə edir.

1.2.2. Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir.

VIII sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

IX sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

X sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.



1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

XI sinifdə:

Şagird:

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir.

1.2.2. Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir.

Ədəbi əsərləri təhlil edərkən müəllim metodik baxımdan aşağıdakı məsələləri diqqət mərkəzində saxlamalıdır:

- Əsərin təhlili prinsiplərinə bələdlik
- Əsərin təhlilinə həsr olunan dərslərin düzgün planlaşdırılması və həyata keçirilməsi.

?!

- **Əsəri təhlil etmənin əhəmiyyəti barədə nə deyə bilərsiniz?**
- **Əsərin təhlili nə zaman uğurlu alına bilər?**
- **Təhlil prosesində müəllimin ümumi və xüsusi hazırlığı dedikdə nələr nəzərdə tutulmalıdır?**
- **Əsərin təhlilində hansı təlim-tərbiyə vəzifələri güdülməlidir?**

## 1. Əsərin təhlili prinsipləri

Müəllimin ədəbi əsərləri təhlil edərkən əldə rəhbər tutacağı məsələlər – qaydalar prinsiplər formasında özünü göstərir. Buraya **ideyalılıq, məzmunla formanın vəhdəti, tarixilik və pedaqoji prinsip**lər daxildir.

**İdeyalılıq prinsipi** əsərin ideyasının və müəllif amalının düzgün müəyyən olunmasını tələb edir. Əsərlə bağlı bu iki keyfiyyətin düzgün müəyyənləşdirilməməsi onun təhlilində yanlış yola düşməyə səbəb olur. Ona görə də əsərin mövzusunda irəli gələn ideya, müəllifin məqsədi müəllim tərəfindən düzgün müəyyənləşdirilməlidir.

**Məzmunla formanın vəhdəti** prinsipi əsərdə nədən danışıldığı ilə onun necə ifadə olunması arasında bərabərliyin gözlənilməsini tələb edir. Ən gözəl məna, fikir, özünə layiq formada ifadə olunmalıdır. Təhlil zamanı bu məsələnin araşdırılması, əldə rəhbər tutulması da vacibdir. Məzmun və forma sıx vəhdətdədir və onları bir-birindən ayrı, birini digərindən üstün tutmaq da olmaz.

**Tarixilik** prinsipi əsərləri təhlil edərkən onu yarandığı dövrlə sıx əlaqədə götürməyi tələb edir. Bu prinsipin pozulması əsərin ədəbiyyat tariximizdəki roluna və xidmətinə xələl gətirər, müəllif yaradıcılığı barədə yanlış, səhv və qeyri-obyektiv nəticələr çıxarılmasına səbəb olar. Ona gərə də bədii əsərlər təhlil olunarkən mütləq onun yaranma tarixinə, aid olduğu tarixi



dövrə əlaqəli şəkildə fikir verilməlidir. Əsərin yarandığı tarixi dövr və şəraitdən ayrılması balığın sudan çıxarılmasına bənzəyir. Balıq susuz məhv olduğu kimi, ədəbi əsər də öz mühitindən kənarda ölümə məhkumdur.

**Pedaqoji prinsip** təhlilin nə zaman, kimin üçün, necə aparılması məsələlərini diqqətdə saxlayır. Müəllim hansı əsəri, hansı sinifdə, kimlərlə, necə təhlil edəcəyini əvvəlcədən planlaşdırır. Belə olmayanda əsərin ədəbiyyat tariximizdəki yeri, orada qaldırılan əxlaqi-mənəvi problemlər şagirdlərin təlim-tərbiyəsində əhəmiyyətsiz bir şeyə çevrilir. Halbuki hər bir əsər şagirdlərin bir insan, vətəndaş və şəxsiyyət kimi yetişməsində əsl tərbiyə məktəbidir. Ona görə də müəllim hər bir məsələni diqqətlə ölçüb-biçməli, şagirdlərin yaş və bilik səviyyələrini, həyat təcrübələrini, inkişaf xüsusiyyətlərini təhlil prosesində nəzərə almalıdır.

?!

1. **Əsərin təhlili prinsipləri dedikdə nə başa düşülür?**
2. **Buraya nələr daxildir?**
3. **Bu prinsiplər arasında nə kimi əlaqə vardır?**
4. **Bunlardan birini digərlərindən üstün tutmaq olarmı? Nəyə görə?**

**Təhlil dərslərinin quruluşu**
**(Əsərin təhlili üzrə iş)**

**Mövzu**: A. Səhhətin "Vətən" şeirinin təhlili
**Standartlar**: 1.2.3, 1.2.4; 2.1.2, 2.2.1; 3.1.1. 3.1.3.
**Inteqrasiya**: Tarix, 0.0.0. Musiqi: 0.0.0
**Texnikalar**: Venn diaqramı, klaster, müzakirə, beyin həmləsi
**Iş forması**: Böyük və kiçik qruplarda iş
**Resurslar** (təchizat): "Qarabağ bülbülləri" televiziya filmindən parça, markör, filipçart, dərslik, şairin portreti.

**Dərsin təlim nəticələri**: (1.2.3, 1.2.4, 2.1.2., 2.2.1, 3.1.1 və 3.1.3 - alt-standartının tələbləri xüsusiləşdirilir. 6 alt-standart olduğundan, bir o qədər də təlim nəticəsi göstərilir. Məsələn, alt-standart *1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.* Onu çevirək təlim nəticəsinə: *1. Şeirdə bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır*. Digər alt-standartlar da bu qayda ilə təlim nəticələrinə çevrilir).

**Dərsin mərhələlərinə görə təxmini vaxt bölgüsü:**

1. **Sinfi təşkili və ev tapşırıqlarının yoxlanması .......5 d.**
2. **Motivasiya............................................................. 3 d.**
3. **Tədqiqatın aparılması..........................................10 d.**
4. **Məlumat mübadiləsi.............................................10 d.**
5. **Məlumatın müzakirəsi və təşkili.......................... 5 d.**
6. **Nəticənin çıxarılması............................................. 3 d.**
7. **Yaradıcı tətbiqetmə............................................... 6 d.**
8. **Qiymətləndirmə və ev tapşırığının verilməsi....... 3 d.**

**Cəmi: 45 dəq.**

**Dərsin gedişi:**

**1. Sinfin təşkili və ev tapşırıqlarının yoxlanması.**

**2. Motivasiya**: Vətən motivli klip səsləndirilir. Şagirdlərin təəssüratları alınır, klipin nəyə həsr olunduğu soruşulur, dərsin mövzusu müəyyən edilərək lövhəyə yazılır.



*Tədqiqat sualları*:
a) Şair nə üçün bu şeirinə "Vətən" başlığını seçmişdir?
b) Şair şeirdə vətənlə bağlı duyğularını bizə çatdırmaq üçün hansı söz və ifadələrin imkanlarından istifadə etmişdir?

**3. Tədqiqatın aparılması**: Müəllim tapşırıqlar üçün ayrılmış vaxtı və təlimatı elan edir və qruplara aşağıdakı tapşırıqları təqdim edir;

<u>1-ci qrup</u>: Şair vətənlə bağlı duyğularını ifadə etmək üçün hansı bədii təsvir vasitələrindən istifadə etmişdir? Onların rolu rolunu nədən ibarət olmuşdur?

<u>2-ci qrup</u>: Şeirin hansı mövzuya həsr olunduğunu və ideyasını nədən ibarət olduğunu aydınlaşdırın.

<u>3-cü qrup</u>: Şeirin aşıladığı ideyaya münasibət bildirin, fikrinizi əsaslandırın.

<u>4-cü qrup</u>: Siz şeirin bu cür başlanmasına və davam etməsinə necə münasibət bildirərdiniz? Fikrinizi əsaslandırmağa çalışın.

<u>5-ci qrup</u>: Şeirin məzmununa, quruluşuna münasibət bildirin.

**4. Məlumat mübadiləsi**: Qruplar ayrılmış vaxt ərzində tədqiqatlarının nəticələri ilə yoldaşlarını tanış edirlər.

**5. Məlumatın müzakirəsi və təşkili**: Təqdimatlarda əksini tapan məlumatları ümumiləşdirmək, sistemə salmaq üçün müzakirə aparılır.

Müzakirə üçün suallar:
- Şair bu şeirini nə üçün "Vətən" adlandırmışdı?
- Şair vətən sevgisini bizə aşılamaq üçün hansı söz və ifadələrdən istifadə etmişdir?
- Bu sözlər həmin sevgini dolğunluğu ilə bizə çatdıra bilirmi?
- Şairin bu cür qurulması fikrin ifadə olunmasına necə xidmət göstərmişdir?
- Nəyə əsasən şeirin məhz vətən sevgisinə həsr olunduğu qənaətinə gəldiniz?

-Yoldaşlarınızın axtarışlarına necə münasibət bildirərdiniz?

- Müzakirəmizi necə ümumiləşdirə bilərik?..

**6. Nəticənin çıxarılması**: Bu mərhələdə ümumiləşmiş fikirlərlə tədqiqat sualı zamanı alınmış fərziyyələr tutuşdurulur, nələrin üst-üstə düşdüyü, nələri yeni olduğu müəyyən edilir. Nəticədə yeni bilik əldə olunur.

**7. Yaradıcı tətbiqetmə**:

a) Sinifdə: şeirin məzmunundan və ideyasından çıxış etməklə vətən klasterinin yaradılması;

b) Evdə:" Vətən sevgisi nədir? mövzusunda kiçik esse yazmaq.

**Qiymətləndirmə və ev tapşırıqları**:

Qiymətləndirmə meyarları;

a) Rolunu aydınlaşdırma.
b) Münasibət bildirmə
c) Şərh etmə

==================================

**Qeyd:** Təhlil dərslərini tədqiqat sualından sonra müzakirə yolu ilə də aparmaq olar.

Tədqiqat sualının birincisi belə ola bilər:

A) Nə üçün əsərinə müəllif bu adı seçmişdir?

B) Müəllif bizə bu əsəri vasitəsilə hansı ideyanı aşılamaq istəyir? O bu niyyətində haqlıdırmı?...



# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ NİTQ İNKİŞAFI

Ərazimizin 20 faizə qədərinin erməni faşistləri tərəfindən işğal edildiyi, haqlı ikən haqsız hesab olunduğumuz indiki şəraitdə öz düşüncələrini həm yazılı, həm də şifahi formada ifadə edən gənclərə ehtiyacımız daha çoxdur. Ötən əsrin əvvəllərindən üzləşdiyimiz, hələlik öhdəsindən gələ bilmədiyimiz bədnam ermənilər silahın deyil, məhz siyasətin hesabına irəli çıxdıqlarına görə doğma torpaqlarımızı müvəqqəti işğal edə bildi və əhalimizin 1 milyonunu qaçqın, köçkün və didərgin vəziyyətinə saldı. Məhz bu xəstə təfəkkürlü millətin məkrli niyyəti və təbliğatı hesabına dünyanın bir sıra ölkələrində yalançı soyqırımı qərarları qəbul edilmiş oldu. Həmin dövr rəhbərlərinin səriştəsizliyi, yerli məmurların bacarıqsızlığı, eləcə də məktəb işlərində yol verilən əyintilər və s. xalqımızın düşmən qarşısında müəyyən qədər aciz qoymuş oldu və nəticədə belə bir işğal aktı baş tutdu. Deməli, vaxtında sözümüzü yeridə və siyasətdə haqlı olduğumuzu sübuta yetirə bilməməyimiz düşmənə müvəqqəti olaraq irəli çıxmaq fürsətini verdi.

Bu gün bu sahədə daha irəli getmək istəyiriksə, onda bizə mahir siyasətçilərimizlə yanaşı öz sözünü söyləməyi bacaran və onu şifahi və yazılı formada çatdırmağa çalışan gənclərimizin yetişdirilməsi də lazımdır. Bunun üçün müəllim ədəbiyyat dərslərində şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirmək qaydalarına dərindən bələd olmalıdır.

Şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi işinin məzmunu müvafiq məzmun xətlərində öz əksini tapmışdır. Yeni kursda fəndaxili əlaqə vacib olduğundan hər bir dərsdə bu məzmun xətlərindəki alt-standartlar ilboyu tədrisi prosesinə cəlb olur. Məsələnin məzmununun nədən ibarət olduğunu aydın təsəvvür etmək və nitq inkişafı işlərinin dinamikası göstərmək üçün fənn kurikulumundan onları müşahidə etmək gərəkdir.

Şagirdlərin şifahi və yazılı nitqini inkişaf etdirmək üçün müəllim bir sıra məsələləri bilməlidir. Bunlara:

- Şifahi və yazılı nitqin başlıca cəhətləri, ədəbiyyat dərslərində nitq inkişafının əsas xüsusiyyətlərini,
- Ədəbiyyat dərslərində nitqi inkişaf etdirməyin **prinsipləri** (şagirdin yaşadığı dil mühitinin, onların şəxsi qabiliyyətlərinin, dərsdəki psixoloji şəraitin, mövzunun xüsusiyyətlərinin nəzərə alınması),
- **Şifahi nitqi** inkişaf etdirmək üçün məzmun xəttinin əhatə etdiyi məsələləri,
- **Yazılı nitqi** inkişaf etdirmək üçün məzmun xəttindəki alt-standartların əhatə etdiyi məsələləri.

Şagirdlərin şifahi nitqini - ədəbi-bədii nitqini inkişaf etdirmək işində müəllim bir sıra qaydaları əldə rəhbər tutmalıdır:

- Şagirdin yaşadığı dil mühitinin nəzərə alınmalı, onun çıxışına daim dəstək verilməsi.
- Onların şəxsi qabiliyyətlərinin nəzərə alınması – dərs prosesində hər zaman psixoloji dəstəyin verilməsi,
- Psixoloji şəraitin yaradılması – hər bir şagirdin öz fikrini bildirmək imkanının tanınması, onlara tam sərbəstlik verilməsi, fərqli fikirlərə hörmətlə yanaşılması, psixoloji diskomfortun aradan qaldırılması.
- *Şagirdlərin şifahi nitqinin inkişafını təmin etmək üçün* fəal dinləmək vərdişinə sahib olmaq. Şagird hiss etməlidir ki, onun hər bir çıxışı müəllim tərəfindən dəstəklənəcək.
- *Mövzunun xüsusiyyətlərin və məzmun xətlərinin tələblərinin nəzərə alınması* – müəllim bilməlidir ki, mövzunun tədrisi zamanı bu anda hansı alt-standartın işlədilməsi daha məqsədəuyğundur.



## ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ ƏYANİLİK

Ədəbiyyat təliminin keyfiyyətini yüksəldən amillərdən biri də dərs prosesinin əyaniləşdirilməsidir.

Təlim materiallarının dərk olunmasında əyaniliyin mühüm əhəmiyyəti vardır. O, şagirdlərin fikri fəallığının təmin olunmasına, biliklərin asan qavranılmasına şərait yaradır. Ətraf aləmin dərk olunmasında siqnallar mühüm rol oynayır. Pavlovun iki siqnal sistemi barəsində dedikləri əyan təlimin özəyini təşkil edir. O öyrədirdi ki, biz birinci siqnal sistemi sayəsində ətraf aləmi duyur və qavrayırıq. Birinci siqnal sisteminin qıcıqlandırıcıları cisim və hadisələrin özləridir. Bu xüsusiyyət bütün canlılara məxsusdur. İkinci siqnal sistemi isə bu cisim və hadisələri ifadə edən sözlər – işarələr sistemidir. Onların vasitəsi ilə biz haqqında danışılan obyektləri, mənzərəni görməsək də aydın təsəvvür edə bilir, göz önündə canlandırırıq. Ona görə də sözlərə "siqnallar siqnalı" da deyirlər. Məhz biz sözlərin sayəsində biz ətraf aləmlə tanışlığımızı daha dərindən davam etdiririk. Əyani təlimdən söhbət gedəndə biz hər iki məqam diqqət yetirməliyik. Həm cisim və ya hadisənin sinfə gətirilməsinə, həm də söz assosiasiyası vasitəsi ilə onların əyani təsəvvür olunmasına, qavranılmasına şərait yaratmalıyıq.

Əyanilik təlimin keyfiyyətinə də müsbət təsir göstərir. O, biliklərin daha asan qavranılmasına və uzun müddət yadda qalmasına imkan yaradır. Təlim prosesində əyanilikdən istifadə edəndə qavramada daha bir duyğu üzvü iştirak edir. Bu prosesdə nə qədər çox duyğu üzvləri iştirak edərsə, qazanılan biliklər bir o qədər də mükəmməl olar. K. D. Uşinski bu cəhəti obrazlı şəkildə belə ifadə edirdi: *"Hörümçəyin ən incə tellər üzərində heyrət doğuracaq dərəcədə düzgün yüyürməsinin və yıxılmamasının səbəbi odur ki, o bir caynağı ilə deyil, çoxlu caynağı ilə tellərdən yapışır, biri qırılarsa, o birilər onu*

*saxlayır".* [36] Əyanilik haqqında söylənilən bu fikirlərə pedaqogikanın " qızıl qaydası" deyənlər heç də yanılmırlar.

Əyanilik biliklərin həm də şüurlu qavranılmasına şərait yaradır. Onun hesabına davamlı bilik əldə olunur. Bəzən gənc müəllimlər bu işə lazımınca diqqət yetirmirlər. Təbii ki, belə bir vəziyyətdə təlimin keyfiyyətindən danışmaq olmaz. Əyanilik təlimin canlı və maraqlı olmasına şərait yaradır.

Ədəbiyyat dərslərində proqram materiallarının xarakterindən asılı olaraq müxtəlif əyani vasitələrdən istifadə etmək olar. Onları aşağıdakı kimi ümumiləşdirə bilərik:

- ⇒ Müəllimin canlı, obrazlı və emosional sözü əyaniliyin başlıca vasitəsi kimi
- ⇒ Tabaşir əyani vasitə kimi
- ⇒ Əlavə ədəbiyyatların(bədii, elmi, publisistik, xatirə və s.) dərsə cəlb olunması
- ⇒ Sxem, slaydlar, cədvəl, xəritə, portret, illüstrasiyalar
- ⇒ Sənətkarın həyatına, əsərlərinə dair fotomontajlar
- ⇒ Lent yazıları(audio və video kasetlər)
- ⇒ Sənədli və yaxud bədii filmlər(fraqmentlər)
- ⇒ Şəxsi əşyaların, məktubların nümayiş olunması və s.

Bunların hər birinin təlim prosesində öz yeri və əhəmiyyəti vardır. Amma müəllimin canlı və obrazlı sözünü heç nə ilə əvəz etmək mümkün deyildir. Məlum məsələdir ki, söz insanlar arasında ünsiyyət yaratmanın mühüm vasitələrindəndir. Danışan qarşıya qoyduğu məqsəddən, dinləyicinin diqqətini hansı cəhətlərə yönəltmək istəməsindən asılı olaraq sözləri seçir, sistemə salır, ona uyğun gələn səs tonunu və digər texniki məsələləri səfərbər edir. Danışıq prosesinin özündə isə təbii formada emosional keyfiyyətlər, mimika və jestlər işə düşür. Danışıq tərzi, natiqlik məharəti, mövzuya hərtərəfli bələd olmaq,

[36] Uşinski K.D., Seçilmiş pedaqoji əsərləri, B. 1953, səh. 303



məzmunluluq, dinləyiciyə fəal təsir göstərmək imkanları bu nitqi təsirli və inandırıcı edir.

Müəllim sözlər vasitə ilə şagirdlərin gözləri qarşısında istənilən mənzərəni bütün incəliyi ilə canlandıra bilər. Sözün imkanları belə təsəvvürlərin yaradılmasında rəssamın fırçasından da böyük qüdrətə malikdir. Təbii ki, bu lövhələrin canlandırılması sözün hüdudsuz imkanlarından xəbər verir. Ataların sözlə bağlı dediyi müdrik kəlamlarından bir neçəsini yada salmaq kifayətdir: *Sözün vəsfinə söz çata bilməz, söz qılıncdan itidir, qılıncla ala bilmədiyini bir şirin kəlmə ilə ala bilərsən, söz var adamı dağa qaldırar, söz var dağdan endirər* və s.

Biz sözün bu cür ecazkar təsir gücündən istifadə etməklə istədiklərimizə nail olmağa çalışırıq. Təlim prosesinin uğurlu təşkil olunması ilk növbədə müəllimin bu sözdən necə istifadə etməsindən çox asılı olur. Müəllim ana dilinin gözəl bilicisi olmalı, onun nitqindən doğma yurdun gözəl abı-havası, xoş rayihəsi gəlməlidir. Bu nitq uşaqların xəyallarını çox-çox uzaqlara aparmağı bacarmalı, onlarda gözəl ovqat yaratmalıdır. Haqqında danışdığı məsələlər bir kino lenti kimi uşaqların gözü önündən keçməlidir. Müəllimin sözü bir sıra vacib tələbləri(elmi, pedaqoji, psixoloji və metodik) gözləməlidir. O, ifadəli, obrazlı, təsirli olmalı, səsi cəlbedici, canlı, səmimi, aydın, anlaşıqlı, məlahətli bir çalara bürünməlidir.

Dərs zamanı müəllimin sözünü adlarını çəkdiyimiz digər əyani vasitələr müşayiət etməlidir. Müəllim həmin vasitələrdən yerində istifadə etməyi bacarmalıdır. Yerində deyilməyən söz kimi, yerində təqdim olunmayan əyani vasitənin də təlimə xeyri yoxdur. Bunun üçün yüz ölçülüb bir biçilməlidir. O, dərsin maraqlı və canlı olmasına xidmət göstərməlidir.

Ənənəvi dərslərdə əyani vasitələrə bilik mənbəyi kimi baxılır və onun asan qavranılması imkanları kimi başa düşülürdü. Yuxarıda dediklərimiz məhz əyaniliyi bu yönümdən izah edir. Bu gün əyaniliyə tələb bir qədər də artmışdır. Dərsə cəlb

olunan hər bir əyani vəsait polemika üçün şərait yaratmalıdır. Əgər onun müzakirə predmetinə çevrilmə imkanı yoxdursa, o hərəkətsizdirsə, onda biz materialı birtərəfli qaydada, monoloqvari, şabloncasına şagirdlərə çatdıracağıq. Deməli, əyani vasitələr imkan daxilində biliyin müzakirə, interaktiv yolla qavranılmasına imkan yaratmalıdır.

?!

1. **Əyaniliyin təlim prosesində əhəmiyyəti nədən ibarətdir?**
2. **K. D. Uşinskinin əyanilik barəsində söylədiklərinə nə əlavə etmək olar?**
3. **Ədəbiyyat dərslərində əyaniliyin növləri barəsində nə kimi məlumat əldə etdiniz?**
4. **Ənənəvi və müasir dərsdə əyaniliyə münasibət eynidirmi?**



# ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ QİYMƏTLƏNDİRMƏ

## Ümumi təhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılmasına dair MÜVƏQQƏTİ TƏLİMAT

*Azərbaycan Respublikası təhsil nazirinin 2 sentyabr 2013-cü il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmişdir.*

Bu müvəqqəti Təlimat Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında 3 iyun 2010-cu il tarixli 103 nömrəli və "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyasının təsdiq edilməsi haqqında" 13 yanvar 2009-cu il tarixli 9 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə tətbiq edilir.

**1. Ümumi müddəalar**

1.1. Ümumi təhsil məktəblərinin yeni təhsil proqramları (fənn kurikulumları) tətbiq olunan siniflərində yeni məktəbdaxili qiymətləndirmə sistemi tətbiq olunur.

1.2. Yeni məktəbdaxili qiymətləndirmə diaqnostik, formativ və summativ qiymətləndirmələrdən ibarətdir.

**2. Diaqnostik qiymətləndirmə**

2.1. Diaqnostik qiymətləndirmə dərs ilinin, tədris vahidinin və dərsin əvvəlində təhsilalanların bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır.

2.2. Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir.

2.3. Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, təhsilalan haqqında müvafiq yazılı qeydlər təhsilalanın portfoliosunda saxlanılır.

**3. Formativ qiymətləndirmə**

3.1. Formativ qiymətləndirmənin məqsədi təhsilalanın təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir.

3.2. Formativ qiymətləndirmə rəsmi qiymətləndirmə deyil.

3.3. Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır.

3.4. Müəllim qiymətləndirmə meyarlarına uyğun dörd səviyyəli rubriklər (I-IV səviyyə) hazırlayır. Zəruri hallarda rubriklər 3 və ya 5 səviyyədə tərtib oluna bilər.

3.5. Müəllim təhsilalanın fəaliyyətinin nəticəsini "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubrikə uyğun olaraq rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır.

3.6. "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar sərbəst formada aparılır.

3.7. Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

**4. Summativ qiymətləndirmə**

4.1. Summativ qiymətləndirmə kiçik və böyük olmaqla iki formada aparılır.

4.2. Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur.

4.3. Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə ümumi təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır.



4.4. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir.

4.5. ~~Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.~~ Təhsil Nazirliyinin 2 mart 2016-cı il 122 №-li əmrinə əsasən, böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə Təhsil Nazirliyinin təqdim etdiyi qiymətləndirmə vasitələrindən istifadə edilməklə fənni tədris edən müəllim tərəfindən aparılır.

4.6. Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərinin hesablanmasında nəzərə alınır.

4.7. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur.

4.8. Kiçik və böyük summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1-4-cü səviyyələrdə (20%-i 1-ci, 30%-i 2-ci, 30%-i 3-cü və 20%-i 4-cü səviyyəyə aid olmaqla) hazırlanır.

4.9. Kiçik summativ qiymətləndirmənin keçirildiyi gün kiçik summativ qiymətləndirmədə iştirak etməyən şagirdin sinif jurnalında adının qarşısındakı xana diaqonalla 2 yerə ayrılır və onun surətində "q"(qaib) yazılır, məxrəci isə boş saxlanılır. Müəllim həmin şagirdlə növbəti kiçik summativ qiymətləndirmənin keçiriləcəyi tarixədək kiçik summativ qiymətləndirmə aparır və onun nəticəsi məxrəcdə qeyd edilir.

4.10. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzrlü səbəbdən iştirak etməyən şagird dərsə qayıtdıqdan sonrakı bir ay ərzində böyük summativ qiymətləndirmədə iştirakı təmin edilir. 1-ci yarımildə böyük summativ qiymətləndirmədə üzrsüz səbəbdən iştirak etməyən və 2-ci yarımilin ilk bir ayı ərzində

iştirakı təmin olunmayan şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul olunur.

4.11. Şagird 2-ci yarımildə üzrlü səbəbdən böyük summativ qiymətləndirmədə iştirak etmədikdə ümumtəhsil müəssisəsinin pedaqoji şurasının qərarı ilə həmin şagirdin 2-ci yarımil üzrə qiyməti onun bu yarımildə iştirak etdiyi kiçik summativ qiymətləndirmələrin nəticələrinin ədədi ortası kimi müəyyənləşdirilir. Üzrsüz səbəbdən 2-ci böyük summativ qiymətləndirmədə iştirak etməyən şagirdin böyük summativ qiymətləndirmə üzrə qiyməti "0" qəbul edilir.

4.12. Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

4.13. Şagirdin yarımillik qiyməti yarımil ərzində keçirilən kiçik summativ qiymətləndirmələrin yekun nəticələrinin 40%-i ilə, yarımillik sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsinin 60%-nin cəmi əsasında aşağıdakı düsturla çıxarılır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \ldots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

Burada, Y- şagirdin 1-ci və ya 2-ci yarımil üzrə qiymətini;

$ksq_1, ksq_2, \ldots ksq_n$ - kiçik summativ qiymətləndirmələrin nəticələrini;

BSQ - yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmənin nəticəsini bildirir.

Şagirdin yarımillik qiyməti çıxarılarkən yuvarlaqlaşdırma qaydası tətbiq edilir.

4.14. Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanılır:[37]

[37] Təlimatda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin 2 mart 2016-cü il 122 №-li əmri nəzərə alınmışdır.



| Y1 | Y2 | İllik | Y1 | Y2 | İllik | Y1 | Y2 | İllik | Y1 | Y2 | İllik |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2 | 2 | 2 | 3 | 2 | 2 | 4 | 2 | 3 | 5 | 2 | 3 |
| 2 | 3 | 3 | 3 | 3 | 3 | 4 | 3 | 3 | 5 | 3 | 4 |
| 2 | 4 | 3 | 3 | 4 | 4 | 4 | 4 | 4 | 5 | 4 | 4 |
| 2 | 5 | 4 | 3 | 5 | 4 | 4 | 5 | 5 | 5 | 5 | 5 |

Burada: Y1 - 1-ci yarımil üzrə qiyməti, Y2 - 2-ci yarımil üzrə qiyməti göstərir.

4.15. Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

**Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı**
**Şagirdin qiyməti**

1. 0% - 40% .............- "2" (qeyri-kafi)
2. 40% - 60%............. – "3" (kafi)
3. 60% - 80%.............- "4" (yaxşı)
4. 80% - 100%...........- "5" (əla)

**Əlavə 1.**

## Təhsil islahatının əsas prinsipləri

1998-ci ildə bünövrəsi qoyulan təhsil islahatı proqramı bu sahənin inkişaf etdirilməsi üçün bir sıra mühüm addımların atılmasını zəruri etmişdir. Xüsusən Dünya bankı ilə ikinci Kredit Sazişi əsasında İslahat Proqramı(2003-2013-cü illər) Təhsil Sektorunun İnkişafı Layihəsi adı altında(2003-07-ci illər) bir sıra mühüm işlər görmüşdür. Son illərdə milli və fənn kurikulumlarının tələbələrinin icrasına başlanılması bu işin yüksək səviyyədə yerinə yetiriləcəyindən xəbər verir.

Təhsil islahatı bir sıra vacib prinsiplərə söykənir. Təhsil Qanununda bu barədə xüsusi qeydlər verilmişdir. Onların içərisində vacib olanları Sizə təqdim edirik.

**1.Demokratikləşdirmə.** Təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri, dövlət strukturları və ictimaiyyət nümayəndələrini(müəllimləri, şagirdləri, valideynləri) təhsil prosesinə fəal iştirak etməyə cəlb etmə deməkdir; tədris müəssisəsinin "şəffaflığı" prinsipinin həyata keçirilməsidir.

**2. Humanistləşdirmə.** Təhsilin humanistləşdirilməsi şagirdə münasibətin dəyişməsini nəzərdə tutur, o cümlədən

- Yaradıcı inkişaf qabiliyyətli və humanist yönümlü şəxsiyyətin formalaşdırılması;
- Əqli və fiziki imkanlarından, öyrənmə qabiliyyətindən asılı olmayaraq şagirdin şəxsiyyətinə hörmətlə yanaşma;
- Şagirdin qabiliyyət və təmayüllərinin aşkar edilməsi və onların inkişafı üçün şəraitlərin yaradılması.

**3. Diferensiallaşdırma.** Təlimin diferensiallaşdırılması şagirdlərin imkanlarının nəzərə alınması ilə qurulur.



**4. Fərdiləşdirmə.** Təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.

**5. İnteqrasiya.** Təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur.

**6. Humanitarlaşdırma.** Təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşmasına yeni yanaşmanı nəzərdə tutur. Bu ümumbəşəri dəyərlərin yaradılması ilə bağlı fənlərin rolunun artmasını, öz xalqının mədəniyyətinə birləşmə və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı ifadə edir. [38]

[38] Veysova Z., Məktəb müəllimləri üçün fəal təlim metodlarına giriş kursu, Bakı 2004, səh. 139

**Əlavə 2.**

## AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ƏDƏBİYYAT FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU) (V-IX SİNİFLƏR)[39]

### 1. Ədəbiyyat fənni üzrə ümumi təlim nəticələri

Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:

- bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxuyur, mətni bədii-emosional cəhətdən qüvvətləndirən sözlərin mahiyyətini izah edir;
- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya və orfoepiya qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir, fikirlərini ardıcıl və məntiqi ifadə edir, ümumiləşdirmələr aparır;
- bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, yeri gəldikcə bədii təsvir vasitələrindən istifadə etməklə şərh edir;
- müxtəlif janrlarda yazılmış mətnlər üzərində sərbəst işləyir, onlarda ifadə olunmuş əsas ideyanı şərh edir, mətni məzmununa uyğun hissələrə ayırır və müvafiq plan tərtib edir;
- şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələrlə izah edir, öz fikirlərini müqayisələr aparmaqla əsaslandırır;
- bədii nümunələri məzmun və ideya istiqamətinə, sənətkarlıq cəhətlərinə, obrazların səciyyəsinə görə təhlil edir, öz şəxsi münasibətini, mülahizələrini bildirir;

[39] Hələlik sonuncu variant budur. Dəyişikliyə məruz qala bilər.



- bədii nümunələrin müzakirəsi zamanı tolerantlıq, obyektivlik, ədalətlilik, əsaslandırma və ümumi rəyə gələ bilmək bacarıqları nümayiş etdirir.

### 2. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

- bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur;
- müxtəlif janrlarda yazılmış mətnləri uyğun hissələrə ayırır, müvafiq plan tərtib edir;
- şifahi və yazılı ədəbiyyatın oxşar və fərqli cəhətlərini, xarakterik xüsusiyyətlərini konkret nümunələr əsasında izah edir;
- bədii nümunələri məzmun və ideya istiqamətinə, obrazların səciyyəsinə, sənətkarlıq xüsusiyyətlərinə görə təhlil edir.

**Şifahi nitq**

**Şagird:**

- nitqində düzgün tələffüz qaydalarına əməl edir, söz ehtiyatından səmərəli istifadə edir;
- bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl, məqsədyönlü, yığcam, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə şərh edir;
- bədii nümunələrin kollektiv müzakirəsi zamanı fikirlərə tolerant, obyektiv və ədalətli münasibət bildirir, ümumi rəyə gəlməyi bacarır.

**Yazılı nitq**

**Şagird:**

- yazılı nitqində məzmuna uyğun üslub müəyyənləşdirir, orfoqrafiya qaydalarına əməl edir;

- topladığı materialları ümumiləşdirir, fikirlərini ardıcıl və məntiqi ifadə etməklə müxtəlif formalı (inşa, esse, hekayə) yazılar yazır.

## 3. Siniflər üzrə təlim nəticələri və məzmun standartları

### V sinif

**V sinfin sonunda şagird:**

- bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir;
- şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirir, bədii təsvir vasitələrini müəyyənləşdirir;
- bədii nümunələrin mövzusunu, ideyasını aydınlaşdırır, baş qəhrəmanları səciyyələndirir;
- öyrəndiyi yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirlərini şərh edir, müzakirələrdə dinlədiklərinə münasibətini bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl şərh edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır.

1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur.



1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir.

1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir.

1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir.

1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.

1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir.

3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.

3.1.3. 0,5-1 səhifə həcmində inşa, esse yazır.

**VI sinif**

**VI sinfin sonunda şagird:**

- bədii əsərləri obrazların xarakterinə, hadisələrin məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii əsərlərin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir;
- bədii əsərlərə janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir;
- bədii əsərlərin mövzu və ideyasını aydınlaşdırır, obrazları davranış və əməllərinə görə səciyyələndirir;
- öyrəndiyi yeni söz, bədii təsvir və ifadə vasitələrindən istifadə etməklə ədəbi nümunələrlə bağlı fikrini aydın ifadə edir,
- müzakirələrdə ümumi rəyə gəlmək bacarığı nümayiş etdirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini faktlarla əsaslandırır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (əfsanə, nağıl, dastan, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə izah edir.



1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii əsərlərin (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (əfsanə, nağıl, dastan, təmsil, hekayə) janr xüsusiyyətləri baxımından müqayisə edir.

1.2.2. Bədii nümunələrdəki qəhrəmanları davranış və əməllərinə görə səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı diskussiya və təqdimatlarda istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini obrazlı sözlərdən və ifadələrdən istifadə etməklə şərh edir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə ümumi rəyə gəlmək bacarığını nümayiş etdirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Mətni faktlarla, sitatlarla zənginləşdirir.

3.1.2. Bədii nümunələrdəki başlıca fikri anladığını nümayiş etdirir.

3.1.3. 1-1,5 səhifə həcmində rəy və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

**VII sinif**

**VII sinfin sonunda şagird:**

- bədii nümunələri ideya - məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda - yığcam, geniş, yaradıcı nağıl edir, əsas hadisələrə ilkin münasibət bildirir;
- bədii nümunələrə növ və janr xüsusiyyətləri baxımından münasibət bildirir, təsvir və ifadə vasitələrini müəyyənləşdirir, obrazlılığa təsirini aydınlaşdırır;
- bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, digər obrazlarla qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə əsaslanmaqla surətləri səciyyələndirir;
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə fikrini əhatəli, ardıcıl ifadə edir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, əsərdəki mühüm problemə əsaslandırılmış münasibət bildirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Heca vəznli şeirlərdə və süjetli bədii nümunələrdə (dastan, hekayə, mənzum hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.



1.1.2. Heca vəznli şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, mənzum hekayə) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota ) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (dastan, hekayə, mənzum hekayə) növ və janr baxımından müqayisə edir.

1.2.2. Digər obrazlarla müqayisə etməklə və yazıçının münasibətinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını və başlıca problemini şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Öyrəndiyi yeni sözlərdən bədii nümunələrlə bağlı müzakirələrdə və müxtəlif ünsiyyət məqamlarında istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh edir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə ədalətlilik və obyektivlik nümayiş etdirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Mövzu ilə bağlı əlavə mənbələrdən topladığı materialları əlaqələndirir, yazısında istifadə edir.

3.1.2. Bədii nümunələrdəki başlıca problemi müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir.

3.1.3. 1,5-2 səhifə həcmində mühakimə və təsvir xarakterli mətnlər (inşa, esse) yazır.

## VIII sinif

**VIII sinfin sonunda şagird:**

- bədii nümunələri emosional-obrazlı ifadəliliyin tələblərinə uyğun oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, baş qəhrəmanlara ilkin münasibət bildirir;
- ədəbi növ və janr xüsusiyyətlərinə, təsvir və ifadə vasitələrinə əsaslanmaqla bədii nümunələrin ideya-məzmununa münasibət bildirir;
- bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, məişət təsvirlərindən, nitqlərindən çıxış etməklə obrazlara münasibət bildirir;
- şifahi təqdimatlarda, nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə əsaslandırılmış tənqidi münasibət bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə şəxsi təcrübəsinə və təəssüratlarına əsaslanmaqla münasibət bildirir.



**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə və süjetli əsərlərdə (dastan, hekayə, novella, dram poema) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz) şeirləri, süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (dastan, hekayə, novella, dram poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metafora, bədii təzad, kinayə) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (dastan, hekayə, novella, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metafora, bədii təzad, kinayə) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin ideya-məzmununu, süjet, kompozisiya xüsusiyyətlərini şərh edir, əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında sitatlardan, bədii təsvir və ifadə vasitələrindən istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini müqayisələr aparmaqla şərh edir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə dialoji nitq bacarığını nümayiş etdirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Ədəbi nümunələrlə bağlı fikirlərini müxtəlif üslublarda yazır.

3.1.2. Əlavə məlumatlara və təəssüratlarına əsaslanmaqla mövzuya və problemə münasibət bildirir.

3.1.3. 2-2,5 səhifə həcmində mühakimə, təsvir, informasiya xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

## IX sinif

**IX sinfin sonunda şagird:**

- müxtəlif ədəbi vəzndə olan bədii nümunələri ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam, geniş, yaradıcı) nağıl edir, obrazlara ilkin münasibət bildirir;
- növünə və janrına, təsvir və ifadə vasitələrinə əsaslanmaqla ədəbi əsərləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
- bədii nümunələrin mövzusunu və ideyasını aydınlaşdırır, yazıçı mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları səciyyələndirir;



- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktə fərqli mənbələrdən topladığı məlumatlara əsaslanmaqla münasibət bildirir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (poema, hekayə, povest, roman, dram) tanış olmayan sözlərin mənasını lüğətlərdən, sorğu kitablarından istifadə etməklə aydınlaşdırır.

1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda nağıl edir.

1.1.4. Bədii nümunələrin (hekayə, povest, roman, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (metonimiya, inversiya, simvol) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Bədii nümunələri (hekayə, povest, roman, dram, poema) növ və janr baxımından müqayisə edir.

1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

1.2.3. Bədii nümunələrdə təsvir və ifadə vasitələrinin (metonimiya, inversiya, simvol) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Bədii nümunələrlə bağlı təqdimat və çıxışlarında müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərini şərh edir.

2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1.Yazacağı mətnin məzmununa uyğun üslub müəyyənləşdirir.

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideya-bədii xüsusiyyətlərinə münasibət bildirir.

3.1.3. 2,5-3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

**Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu (X-XI siniflər)**

**1. Ədəbiyyat fənni üzrə ümumi təlim nəticələri**

**Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:**

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;



- ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar təqdim edir;
- mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi baxımından ədəbi nümunələr üzərində araşdırmalar aparır;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə edir, əsaslandırılmış rəy bildirir;
- bədii nümunələrin məzmununa və ideyasına onun yarandığı dövrdə mövcud olan ictimai-siyasi və əxlaqi-etik dəyərlər kontekstində qiymət verir;
- ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir;
- mənbələr üzərində işləyir, görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə materiallar toplayır, müxtəlif ədəbi mövzularda təqdimatlar hazırlayır.

**2. Məzmun xətləri üzrə təlim nəticələri**

***Tam orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirir;
- bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir və təqdim edir;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə edir;
- bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət verir.

**Şifahi nitq**

**Şagird:**

– nitqində emosional-obrazlı ifadələrdən istifadə edir;
– bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh edir;
– ədəbi mövzulara aid tədbirlərin təşkilində iştirak edir, ədəbi nailiyyətlərə münasibət bildirir.

**Yazılı nitq**

**Şagird:**

– ayrı-ayrı mövzulara dair müvafiq üslublarda yaradıcı xarakterli yazılar yazır;
– mənbələr üzərində işləyir, topladığı materiallar əsasında görkəmli ədəbi şəxsiyyətlər, ədəbiyyat və mədəniyyət sahəsindəki nailiyyətlər barədə müxtəlif mövzularda təqdimatlar hazırlayır.

## 3. Siniflər üzrə təlim nəticələri və məzmun standartları

### X sinif

**X sinfin sonunda şagird:**

– ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması və təhlili məqsədi ilə istifadə edir;
– müxtəlif ədəbi növdə olan əsərlərin məzmununu qavrayır, fakt və hadisələr, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
– əsərin mövzusunu, ideyasını, başlıca problemini, obrazların səciyyəsini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə ona qiymət verir;
– çoxsüjetli epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir;
– şifahi məlumatlarda, bədii əsərlə bağlı müzakirələrdə mövzu, problemin mahiyyəti barədə dinləyicilərdə aydın təsəvvür yaratmaq üçün müxtəlif mənbələrdən sitatlar seçir, bədii nümunələrdən bəhrələnir;



– müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərə əsaslanmaqla ifadə edir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.

1.2.2. Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir.

2.1.2. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir.

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

3.1.3. 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzularda inşa, esse, məruzə) yazır.

**XI sinif**

**XI sinfin sonunda şagird:**



- ifadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir;
- müxtəlif ədəbi növdə olan mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavrayır, mənəvi dəyərlər, fakt və hadisələrlə, obrazlarla bağlı yazıçı mövqeyini aydınlaşdırır;
- əsərin mövzusunu, ideyasını, başlıca problemini və konfliktini müəyyənləşdirir, bağlı olduğu dövrün ictimai-siyasi, estetik yanaşmalarından çıxış etməklə əsərə münasibət bildirir.
- çoxsüjetli, mürəkkəb kompozisiyalı epik və dramatik əsərləri, lirik şeirləri bədii xüsusiyyətlərinə görə təhlil edir.
- şifahi təqdimatlarda, bədii nümunələrlə bağlı müzakirələrdə müxtəlif üsullardan (nağıletmə, təsvir, nümayiş) istifadə etməklə ümumiləşdirmələr aparır, nəticə çıxarır.
- müxtəlif səciyyəli yazılarda mövzuya, problemə, konfliktin həlli yollarına münasibətini tutarlı dəlillərlə, məntiqi ardıcıllığı gözləməklə, ümumiləşdirmələr aparmaqla əsaslandırır.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**Şagird:**

1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.

1.1.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə və süjetli əsərlərdə (hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir.

1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir.

1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir.

1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, bəşəri dəyərlərə əsaslandırılmış münasibət bildirir.

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, sineqdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir.

1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.

1.2.1. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir.

1.2.2. Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır.

1.2.3. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir.

1.2.4. Bədii nümunələrin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir.

**2. Şifahi nitq**

**Şagird:**

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.2. Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır.



2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir.

2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır.

2.2. Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.

2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir.

**3. Yazılı nitq**

**Şagird:**

3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir.

3.1.1. Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir.

3.1.2.Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

3.1.3. 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır.

Hazırda ədəbiyyat kurikulumu təkmilləşmə mərhələsindədir. Həmin sənədin strategiya və qiymətləndirmə bölmələri üzərində işlər davam etdirilir. Ona görə hələlik burada onlar barəsində söz açmırıq. Amma təlim üsulları və qiymətləndirmə bölmələrində bu barədə məlumat veriləcəkdir.

# NƏTİCƏ

Ədəbiyyatın tədrisi məsələləri son illərdə yenidən aktuallaşmağa başlamışdır. Bir sıra "mütəxəssislər" uydurma problem yaradıb dərhal da onu həll etməklə özlərinin belə bir icadlarına həddən ziyada vurulurlar. Bu vurğunluq bəzən elə bir həddə çatır ki, az qala tərcümeyi-hal, icmal, iri həcmli əsərlərin öyrədilməsi və daha nələrin məktəbə gətirilməsinə etirazlar başlanır. Bir sözlə, ədəbiyyat məktəbdə olsun, olmasın? Dəhşətlisi də burasındadır. Min illik ədəbiyyat, bağışla, biz səni müstəqil surətdə də öyrənə bilərik, məktəbdə sən olmasan da olar. Sənətkarların tərcümeyi-halı nəyə gərək? Nə olsun ki, onlar canlı tariximizlə yol yoldaşıdırlar? Ağırdırlar, şagirdləri "gərəksiz" illərlə yükləyir və o, çətinliklə mənimsənilir. C. Cabbarlı, M. Hüseyn, M. İbrahimov bizi bağışlayın, daha gərəkli deyilsiniz. Şagirdlərimizin "kövrək" təfəkkürü Sizləri qavramaq imkanında deyil və s. və i.a.

Ədəbiyyat tədrisi metodikası fənni ədəbiyyatımızın və mənəviyyatımızın öyrənilməsində sayıq keşikçidir. Müasir dövrün ən incə problemləri onun diqqətindən kənarda qala bilməz. Elmi-texniki tərəqqi dövrünün yenilikləri bu fənnin cəmiyyətimizdə rolu və əhəmiyyətini bir qədər də artırmışdır. Xüsusilə indiki qloballaşma dövründə, təhsilimizin dünyaya inteqrasiyası, Boloniya konvensiyasına qoşulma, təhsildə kredit sisteminə keçid, yeni tədris planlarının nəzərdən keçirilməsi bizə həmin fikri söyləməyə əsas verir.

Ədəbiyyatın tədrisi metodikası ümumtəhsil məktəblərində ədəbiyyat tədrisinin ən mühüm məsələlərini araşdırmağı qarşısına məqsəd qoyur. Ədəbiyyat tədrisi metodikasının predmeti və nəzəri əsasları, ədəbiyyatın məktəbdə tədrisinin təşkili, ədəbiyyat təliminin üsulları, ayrı-ayrı mövzuların tədrisinin səmərəli təşkili ƏTM-in məşğul olduğu ən vacib məsələlərdəndir.



Ədəbiyyatın öyrənilməsi və öyrədilməsi uzun bir tarixə malikdir. Şifahi xalq ədəbiyyatı nümunələrinin yaşaması mexanizminin mayasında məhz öyrənilmə və öyrədilmə dayanmışdır. Bu proses necə olmuşdur, ədəbiyyat tariximizin keçdiyi yolu bilmək bizə nə üçün lazımdır? Belə bir suallara ədəbiyyatın tədrisi tarixi bölməsi cavab olur. Yaxşı məlumdur ki, keçilən yol bir aynadır. Bu aynaya baxılmazsa, ƏTM öz məqsədlərinə çata bilməz.

ƏTM ədəbiyyat fənninin məzmunu və strukturu məsələlərini, ədəbiyyat tədrisinin təşkilində planlaşdırmanın rolu və əhəmiyyətini, bu işin hansı səviyyədə təşkil olunmasını da gənc müəllimlərə diqqətlə aydınlaşdırır. Burada ədəbiyyat dərslərinin mərhələləri(həm ənənəvi həm də fəal(interaktiv) dərslər), onlarda görülən işin məzmunu barədə də müəllimlər üçün faydalı məlumatlar verilir.

Ədəbiyyat fənni məzmun baxımından zəngindir. Ədəbiyyat proqramı bu məzmunun yaradılmasında mühüm rol oynayır. Burada ədəbi əsərlər, tərcümeyi-hal materialları, icmal mövzuları, ədəbiyyat nəzəriyyəsi materialları, şifahi və yazılı nitqin inkişaf etdirilməsi məsələləri əks olunur. Beləliklə, hər bir mövzunun öyrədilməsi üçün dərs tipləri yaranır. Bu dərslər məzmununa və təşkil olunmasına görə bir-birindən fərqlənir. Bu fərq nədən ibarətdir, həmin dərslər necə təşkil olunmalı, həmin mövzuların öyrədilməsində hansı üsul və vasitələrdən istifadə olunmalıdır? Bu kimi məsələlər ədəbiyyat dərslərinin tiplərini ortaya çıxarır. Burada ədəbiyyat dərslərinin tipləri və onların reallaşdırılması məsələlərinə dair elmi-metodik mülahizələr verilmiş, müəllim üçün onların da gərəkliliyi nəzərə alınmışdır.

Ədəbiyyat dərslərində təlim, tərbiyə və inkişaf məqsəd-lərinin həyata keçirilməsində müəllim hansı üsul və vasitələrə yiyələnməlidir? Ədəbiyyat təliminin üsulları başlığı məhz belə bir sualın cavabını verməyə çalışır. Burada həm ənənəvi, həm 1970-80-ci illərdə geniş yayılan, həm də son dövrlərdə fəal(interaktiv) təlim üsulları adı ilə tanınan təlim üsullarına

ətraflı münasibət bildirilmişdir. Burada tələbələrimiz hər üç üsulları müqayisə etmək imkanındadır. Biz çalışmışıq ki, həmin bölmədə təlim üsullarının hər biri barəsində geniş təsəvvür əldə edilmiş olsun. Seçim isə, yəqin ki, Sizin olacaqdır.

Ədəbiyyat dərslərində əyanilik nə kimi əhəmiyyət daşıyır, əyaniliyin məzmununa nələr daxildir, dərslərdə ondan necə istifadə olunmalıdır kimi sualların cavabı növbəti bölmədə işıqlandırılmışdır.

İcmal mövzuların məzmunu və necə öyrədilməsi, tərcü-meyi-hal materiallarının tədrisinin əhəmiyyəti və onun həyata keçirilməsi yolları da vəsaitdə diqqətdə saxlanılmışdır. Həmin mövzuların şagirdlərin mənəvi tərbiyəsinə, ədəbi biliklərinin və dünyagörüşlərinin formalaşmasına verdiyi imkanlar da burada ətraflı şəkildə işıqlandırılmışdır. İnanırıq ki, buradakı tövsiyələr müəllimlik fəaliyyətində gənc mütəxəssislərimizə gərəkli olacaqdır.

Proqram materiallarının əhəmiyyətli hissəsini ədəbi əsərlər təşkil edir. Təsadüfi deyildir ki, ədəbi əsərlərin məktəbdə tədrisi sahəsində xeyli işlər görülmüş, onun öyrədilməsinə çoxlu tədqiqatlar, monoqrafiyalar həsr olunmuşdur. Biz də burada həmin fikirlərə yenidən nəzər salmış, çalışmışıq ki, bu günə qədər söylənilən mülahizələrə söykənməklə yeni dövrün tələblərini bir qədər önə çəkək. Ona görə də həm əsərin məzmununun, həm də təhlilinin ən ümdə məsələlərini burada əks etdirməyi qarşımıza məqsəd qoyduq. Güman edirik ki, həmin mülahizələr də müəllimlərimizin əməli işində gərəkli olacaqdır.

Ədəbiyyat dərslərində şagirdlərin şifahi və yazılı nitqinin inkişaf etdirilməsi də ƏTM-in diqqət yetirdiyi vacib sahələrdəndir. Bu bölmədə biz nitq inkişafı işlərinin məzmunu və xüsusiyyətlərini, təşkili məsələlərini Sizin diqqətinizə çatdırmışıq.

Bu gün ədəbiyyat tədrisinin qarşısına çox mühüm vəzifələr qoyulur. Şagirdlərə kurikulum əsasında məzmun standartlarına uyğun olaraq bilik və bacarıqların,



kompetensiyaların aşılanması ən ümdə vəzifə kimi qarşıya qoyulur. Şagirdlərimiz ən zəruri həyati bacarıqlara yiyələnməli, onlara bu həyat yolunda dəstək ola biləcək keyfiyyətlər aşılanmalıdır. Bunun üçün də ədəbiyyat tədrisinin məzmununda, öyrədilməsi və şagird nailiyyətlərinin qiymətləndirilməsində dövlətin qarşıya qoyduğu tələblər uğurla həyata keçirilməlidir. Güman edirik ki, hazırkı dərslik məhz bu işin uğurlu həllinə kifayət qədər kömək etmiş olacaqdır.

ƏTM müəllimlərin peşə hazırlığı işində mühüm rola malikdir. O, müəllimlərin sənət sirlərinə yiyələnməsində xüsusi əhəmiyyət kəs edir. Onsuz gələcək müəllimlik fəaliyyətində uğurlar qazanmaq mümkün deyildir. Biz inanırıq ki, vəsaitdə irəli sürülən metodik mülahizələr müəllimlərimizə əməli işlərində lazımi səviyyədə köməklik göstərəcəkdir.

Sizlərə şərəfli işinizdə uğurlar arzulayırıq

## ƏDƏBİYYAT:

1. Ədəbiyyat, orta məktəb üçün dərslik komplekti, son nəşrlər
2. Ədəbiyyat müntəxəbatı, IX-XI siniflər üçün dərs vəsait-ləri, Bakı 2008
3. Muradov B, M. Füzuli və İ. Nəsiminin tədrisi, Bakı 2001
4. Muradov B, Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi, Bakı 1992
5. Qarabağlı Ə, Azərbaycan ədəbiyyatının tədrisi meto-dikası, Bakı 1968
6. Orta məktəbdə ədəbiyyat tədrisi, I,II hissələr, Bakı 1976
7. Hacıyev A, Azərbaycan ədəbiyyatının tədrisi metodikası, Bakı 2003
8. Əhmədov C, Ədəbiyyat tədrisi metodikası, Bakı 1991
9. Yusifov F, Orta məktəbdə S.Ə.Şirvani əsərlərinin dilinin öyrədilməsi, Bakı 2001
10. Yusifov F, Orta məktəbdə "Dastani-Əhməd Hərami"nin məzmununun öyrədilməsi, Bakı 2003
11. Hacıyev A, Yusifov F, Məktəbdə ədəbiyyat dərslərinin təşkili, Bakı 2003
12. Yusifov F, Məktəbdə Nəsimi əsərlərinin məzmununun öyrədilməsi, Bakı 2004
13. Yusifov F., Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarından istifadə, ali təhsilin bakalavriat təhsil səviyyəsi üçün seçmə fənnin proqramı (050101-Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası), Bakı 2011
14. Yusifov F., Ədəbiyyatın tədrisi metodikası, ali təhsilin bakalavriat təhsil səviyyəsi üçün proqram (050101-Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisası), Bakı 2011
15. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün ədəbiyyat proqramı, Bakı 2003(əlavələr nəzər alınmaqla)



16. Ədəbiyyatın tədrisi metodikası, pedaqoji universitet və institutlarda bakalavr hazırlığı üçün proqram, Bakı 2005
17. Veysova Z, Fəal(interaktiv) təlim, müəllim üçün vəsait, Bakı 2007.
18. www.kurikulum.az
19. www.edu.gov.az

## BAŞLIQLAR:

GİRİŞ.................................................................................... 3
ƏTM-in predmeti və nəzəri əsasları....................................... 9
Ədəbiyyatın tədrisi tarixi........................................................19
"Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"......................................................................26
Ədəbiyyat kursunun məzmunu və məktəbdə öyrədilməsi sistemi.......................................................................................43
Ədəbiyyat fənn üzrə təhsil proqramı (kurikulumu).................62
Təlim strategiyaları. Ədəbiyyat tədrisinin təşkili....................80
Ədəbiyyat tədrisinin təşkilinə verilən tələblər.........................80
Ədəbiyyat dərslərinin quruluşu...............................................89
1. Ənənəvi dərsin mərhələləri ................................................91
2. Ədəbiyyat təlimində yeni texnologiyalar ............................96
a) TTİMY texnologiyası ilə qurulan dərslər .......................99
b) Fəal(interaktiv) təlimlə qurulan dərslər ........................102
Fəal dərsin mexanizmləri .....................................................121
Ədəbiyyat təliminin üsulları.................................................126
1. Ənənəvi təlim üsulları.......................................................127
2. Fəal(interaktiv) təlimdə iş üsulları(metod və texnikalar)..............................................................................131
Fəal(interaktiv) təlimdə istifadə olunan iş formaları ............160
Müəllimin təlim fəaliyyətinin planlaşdırılması.....................164
Dərs icmalın tərtibinə dair tövsiyələr...................................172
Fəal/interaktiv dərslərdə ədəbiyyat müəllimindən tələb olunan keyfiyyətlər.......................................................174
Ədəbiyyat dərslərinin növləri. Metodbirləşmələr................ .184
İcmal materiallarının öyrədilməsi.........................................193
Tərcümeyi-hal materiallarının tədrisi....................................212
Ədəbi əsərlərin öyrədilməsi ................................................230
1. Ədəbi əsərlərin məzmununun öyrədilməsi (induktiv dərslər)..................................................................234
a) TTİMY texnologiyası əsasında əsərin məzmunu



üzərində işin təşkili (nümunə)..............................................242
b) Fəal(interaktiv) təlim əsasında əsərin məzmunu üzərində iş(nümunə)...........................................................245
Nəsr əsərlərinin məzmununa həsr olunan dərsin Quruluşu...............................................................................251
2. Məktəbdə ədəbi əsərlərin təhlili(deduktiv dərslər)...........253
Təhlil dərslərinin quruluşu(əsərin təhlili üzrə iş)..................261
Ədəbiyyat dərslərində nitq inkişafı......................................264
Ədəbiyyat dərslərində əyanilik............................................266
Ədəbiyyat dərslərində qiymətləndirmə.................................270
Əlavə 1.Təhsil islahatının əsas prinsipləri.............................275
Əlavə 2.Azərbaycan respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu).........................................................277
NƏTİCƏ..................................................................................297
ƏDƏBİYYAT........................................................................301